The absorption, photoconductivity, and luminescence spectra and photocurrent relaxation curves under laser excitation in layered $TlGaS_2$ ternary compounds grown by the modified Bridgman method were studied experimentally. The absorption band centered at 470 nm is associated with the recombination of free excitons near the edge of the $TlGaS_2$ absorption band. An analysis of the luminescence spectra with a maximum at 595 nm allows us to propose a possible model for the recombination of donor-acceptor levels located in the band gap of the $TlGaS_2$ crystal. The fast and slow components of the relaxation curves are related to the recombination of free excitons and impurity centers.

LİTERATURE

1.K. A. Yee and A. Albright, J. Am. Chem. Soc. 113, 6474 (1991).
2.M. P. Hanias, A. N. Anagnostopoulos, K. Kambas, and J. Spyridelis, Mat. Res. Bull. 27,(1992).
3.N. S. Yuksek, N. M. Gasanly, I. A. Aydin, H. Ozkan, and M. Acikgoz Cryst. Res. Technol. 39, No.9, 800-806(2004).

OPTICAL ABSORPTION AND PHOTOCONDUCTIVITY OF $TLGAS_2$ CRYSTALS UNDER THE ACTION OF LASER RADIATION

Javidan Mansur Jafarli[1]
Nilufar Farhad Orujova[2]
n.orucova@atu.edu.az
Ege University, Izmir, Turkey[1]
Azerbaijan Technological University, Ganja,Azerbaijan[2]

In this study, the optical absorption and photoconductivity of $TlGaS_2$ crystals under laser excitation were investigated experimentally. An absorption peak at ~470 nm (2.63 eV) observed at 77 K is attributed to direct exciton transitions near the band edge. The coincidence of this peak with the photoconductivity maximum confirms this interpretation. A luminescence band at 595 nm is associated with donor–acceptor recombination within the band gap. The fast and slow components of photocurrent relaxation are related to free excitons and impurity centers, respectively. These results indicate the potential of $TlGaS_2$ crystals for optoelectronic and nonlinear optical applications.

Keywords: $TlGaS_2$ crystals, optical absorption, photoconductivity, exciton transitions, luminescence, donor–acceptor recombination, laser excitation

BƏZİ MODEL BALIQ NÖVLƏRİ ÜÇÜN YETİŞDİRMƏ ŞƏRAİTİNİN OPTİMALLAŞDIRILMASI

Çingiz Məmmədov[1]
m_chingiz@yahoo.com
Səbinə Ömərova[1]
sabina.omarova@sabah.edu.az
Aysel Hacıyeva[1]
aysel.hajiyeva01@gmail.com
Taliyyə Orucova[2]
orujova.taliya@mail.ru
Aygün Nəcibova[1]
aygun.nasibova@mail.ru
Rövşən Xəlilov[1]
hrovshan@hotmail.com
Bakı Dövlət Universiteti[1]
Molekulyar Biologiya İnstitutu[2]

Fundamental elmi tədqiqatlarda zebra balığı (Danio rerio), quppi (Poecilia reticulata) və mollineziyalar (Poecilia sphenops) kimi akvarium şəraitində yetişdirilən balıq növlərindən model obyektləri kimi istifadə olunur [1, 2, 3]. Reproduktiv xüsusiyyətlərin tədqiqinə, embrionların inkişafının öyrənilməsi və nəsillərin müqayisəsinə həsr olunmuş tədqiqatlarda bu cür obyektlər xüsusi əhəmiyyət kəsb edir. Lakin, balıqların nəsilverməsinə müxtəlif faktorların təsiri danılmazdır və bəzən, hətta ədəbiyyatda mövcud olan məlumatlara əsaslanaraq da belə, balıqlardan nəslin alınması mümkün olmur. Bu səbəbdən, qarşımıza qoyduğumuz əsas məqsəd fərqli nəsilvermə strategiyalarına malik iki model növün – diri baladoğan qara və qırmızı mollineziya (Poecilia sphenops) və kürütökən Danio rerio balıqlarından nəslin alınması şəraitinin optimallaşdırılmasından ibarətdir.

Tərəfimizdən balıq növlərinin bioloji xüsusiyyətlərinə uyğun saxlanma şəraiti yaradılmışdır, suyun keyfiyyətinə davamlı nəzarət (filtrasiya, aerasiya, temperaturun tənzimlənməsi, qismən su dəyişimi və axın yaradılması), balıqların optimal yerləşmə sıxlığı təmin olunmuş, balanslaşdırılmış yemləmə rejimləri tətbiq edilmiş, xəstəliklərin vizual diaqnostikası aparılmış, profilaktik tədbirlər görülmüşdür. Suyun əsas fiziki-kimyəvi göstəriciləri (t^0C, O_2, pH, suyun codluğu – dGH,) daimi nəzarət altında saxlanılmış və müvafiq olaraq 28^0C, 7,8-8,2 mq/l, 6,7-7,0 və 8,5-9,0 arasında saxlanılmışdır.

Model obyektlər üzərində bioloji monitorinqinin və etoloji müşahidələrin aparılması xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən balıqların ümumi sağlamlıq vəziyyətinin (üzmə aktivliyi, rəngi, tənəffüs ritmi), davranış xüsusiyyətlərinin (qidalanma aktivliyi, sosial davranışlar, aqressivlik, stress əlamətləri) və reproduktiv əlamətlərinin (dimorfizmin inkişafı, cütləşmə davranışı, nəsilvermə prosesi, alınan nəslin ilkin sağlamlığı) vizual müşahidəsinin nəticələri xüsusi jurnallarda qeyd edilmişdir.

Təcrübə üçün qara və qırmızı mollineziyaları və danio rerio balıqları müəyyən edilmiş dəqiq meyarlara (sağlamlıq, ölçü, yaş, fenotip) əsasən seçilib, cinsiyyətinin təyini və təsadüfi seçim alqoritmlərindən istifadə etməklə əvvəlcədən planlaşdırılmış variantlar (qruplar) üzrə onların təkrar akvariumlara bölünməsi həyata keçirilmişdir. Bu prosesdə karantin və adaptasiya protokollarına riayət olunmuşdur. Potensial patogenlərin yayılmasının qarşısını almaq üçün yeni gətirilən və ya seçilmiş balıqların müəyyən müddət ərzində təcrid olunmuş şəraitdə saxlanılması (karantin) və onların yeni təcrübə mühitinə

(su parametrləri, sosial mühit) tədricən uyğunlaşdırılması üçün tətbiq olunan prosedurlar həyata keçirilmişdir.

Balıqların reproduktiv fəaliyyətinin sinxronlaşdırılması və intensivləşdirilməsi məqsədilə abiotik və biotik faktorlarının kompleks və məqsədyönlü manipulyasiyaları aparılmışdır. Abiotik faktorlar dedikdə, suyun bir sıra yuxarıda qeyd olunmuş göstəriciləri ilə yanaşı, işıqlandırmanın optimal intensivliyi və müddəti də müəyyən edilmişdir. Akvarium şəraitində biotik faktorlardan məhz qidalanma mühüm əhəmiyyət kəsb edir. Bu zaman biotexnoloji yem istehsalı yanaşması tətbiq olunmuşdur. Artemia salina sistlərinin standartlaşdırılmış laboratoriya şəraitində (duzluluq, temperatur, aerasiya və işıq rejiminə dəqiq nəzarət edilməklə) kütləvi inkubasiyası və naupliusların ayrılması üçün xüsusi avadanlıqdan (inkubasiya aparatından) istifadə olunmuşdur. Optimallaşdırılmış yemləmə strategiyası balıqların növ, yaş və fizioloji vəziyyətindən asılı olaraq qida maddələrinə olan tələbatını tam ödəyən, tərkibi və verilmə rejimi optimallaşdırılmış (yüksək keyfiyyətli qarışıq yem və müxtəlif növ canlı yemin balanslaşdırılmış kombinasiyası) qida rasionunun tətbiqi ilə həyata keçirilmişdir.

Aparılan tədqiqatlarda müəyyən edilmişdir ki, canlı yemlərin, xüsusilə də yüksək qidalılıq dəyərinə malik Artemia naupliuslarının körpə balıqların rasionuna daxil edilməsi onların inkişaf tempini (bədən uzunluğu, kütləsi və gündəlik artım sürəti) əhəmiyyətli dərəcədə sürətləndirmiş və qidalanma nəticəsində kütlə artımını ifadə edən dolğunluq əmsalını yüksəltmişdir. Kürütökən Danio rerio balığından kürü alınması üçün tətbiq edilən spesifik stimullaşdırıcı texnoloji mühitin – reproduktiv prosesə təsir edən bir neçə faktorun (intensiv canlı yemlə qidalandırma, fotoperiodun kəskin dəyişdirilməsi – 24 saatlıq qaranlıq mühit və suyun axın sürətinin artırılması) kompleks və sinergetik tətbiqinin – kürüləmə faizini və alınan kürünün keyfiyyətini (mayalanma faizi, yaşama qabiliyyəti) nəzərəçarpacaq dərəcədə artırdığı müəyyən edilmişdir. Bu yanaşma gələcək təcrübələr üçün kütləvi, sinxron və keyfiyyətli kürü alınmasını təmin edən effektiv və asanlıqla təkrarlana bilən bir metod kimi elmi-praktiki əhəmiyyət daşıyır.

Tədqiqat işi Azərbaycan Elm Fondu tərəfindən maliyyələşdirilən AEF-MGC-2024-2(50)-16/09/3-M-09 nömrəli layihə çərçivəsində həyata keçirilmişdir.

ƏDƏBİYYAT

1.Anca Boaru, Dănuț Struți, Bogdan Georgescu. Poeciliidae fish as a model organism // Poeciliid Research, 2021, Volume 11, Issue 1. http://www.pr.bioflux.com.ro/

2.Ramy K. A. Sayed, Giacomo Zaccone, Gioele Capillo, Marco Albano and Doaa M. Mokhtar. Structural and Functional Aspects of the Spleen in Molly Fish Poecilia sphenops (Valenciennes, 1846): Synergistic Interactions of Stem Cells, Neurons, and Immune Cells // Biology 2022, 11(5), 779; https://doi.org/10.3390/biology110507791.

3.Tsegay Teame, Zhen Zhang, Chao Ran et al. The use of zebrafish (Danio rerio) as biomedical models // Animal Frontiers 2019 Jun 25; 9(3): 68–77. doi: 10.1093/af/vfz020

OPTIMIZATION OF CULTIVATION CONDITIONS FOR SOME MODEL FISH SPECIES

Chingiz Mammadov[1]
m_chingiz@yahoo.com
Sabina Omarova[1]
sabina.omarova@sabah.edu.az
Aysel Hajiyeva[1]
aysel.hajiyeva01@gmail.com
Taliya Orujova[2]
orujova.taliya@mail.ru
Aygun Nasibova[1]
aygun.nasibova@mail.ru
Rovshan Khalilov[1]
hrovshan@hotmail.com
Baku State University[1]
Institute of Molecular Biology[2]

Optimizing the breeding conditions for fish used as model objects in fundamental research is essential, as even the conditions described in the literature often fail to produce a new generation of fish. We have proposed combinations of biotic factors (particularly, illumination duration) and non-biotic factors (diet) that allow us to regulate the intensity of producing a new generation of fish, both viviparous and spawning.

Keywords: Danio rerio, model organism, optimization, breeding conditions, obtaining a new generation, Poecilia.

KVANT NÖQTƏLƏRİNDƏ OPTİK KEÇİDLƏR

G.A.Yusibli
gunayyusibli@gmail.com
İ.R.Qədirova
irada.qadirova61@gmail.com
Bakı Dövlət Universiteti

Təqdim olunan işdə düzbucaqlı parallelepiped şəklində kvant nöqtələrində elektronların zonalararası və zonadaxili optik keçidləri üçün seçmə qaydaları təyin edilmişdir.

Tutaq ki, kvant nöqtəsində elektronun hərəkəti $-\frac{a_\alpha}{2} < \alpha < \frac{a_\alpha}{2}, (\alpha = x,y,z)$ oblastında potensial enerji U(x,y,z)=0, bu oblastdan kənarda isə U(x,y,z)=∞ olan sonsuz dərin üçölçülü düzbucaqlı potensial çuxurla məhdudlaşır.

Kvant nöqtəsinə malik yarımkeçirici strukturlarda elektronun dalğa funksiyasını

$$\psi(\boldsymbol{r}) = u_0(\boldsymbol{r}) \cdot \eta(\boldsymbol{r}) \qquad (1)$$

şəklində yazmaq olar [1]. Burada $u_0(\boldsymbol{r})$ - Brillüen zonasının mərkəzində elektronun Blox dalğa funksiyası,

$$\eta(\boldsymbol{r}) = \eta_{n_x,n_y,n_z}(x,y,z) = \varphi_{n_x}(a_x,x) \cdot \varphi_{n_y}(a_y,y) \cdot \varphi_{n_z}(a_z,z) \qquad (2)$$

$$\varphi_{n_\alpha}(\alpha) = \sqrt{\frac{2}{a_\alpha}} \begin{cases} cos\frac{\pi n_\alpha \alpha}{L_\alpha}, & n_\alpha = 1,3,5,\ldots \\ sin\frac{\pi n_\alpha \alpha}{a_\alpha}, & n_\alpha = 2,4,6,\ldots \end{cases} \qquad (3)$$

a_x, a_y, a_z – kvant nöqtəsinin xətti ölçüləri, $\alpha = x,y,z$, $n - (n_x,n_y,n_z)$ kvant ədədləri toplusunu işarə edir, koordinat başlanğıcı kvant nöqtəsinn mərkəzində seçilmişdir.

Elektronun işıq dalğasının elektromaqnit sahəsi ilə qarşılıqlı təsir operatorunu

$$\hat{V}(t) = -\boldsymbol{dE}(t) \qquad (4)$$

ilə ifadə etmək olar [2]., haradakı

$$\boldsymbol{d} = -e\boldsymbol{r} \qquad (5)$$

elektrik dipol momenti operatoru, $\boldsymbol{E}(t)$ – elektrik sahəsinin intensivlik vektorudur.

dipol momentinin matris elementinin

$$\boldsymbol{d}_{if} = \int \psi_f^* \hat{\boldsymbol{d}} \psi_i d^3r = -e \int \psi_f^* \boldsymbol{r} \psi_i d^3r \qquad (6)$$

ifadəsində (1) –(3) dalğa funksiyalarını yerinə yazsaq zonalararası keçidlər halında

$$\boldsymbol{d}_{n_c n_v} = d_{cv} \cdot \delta_{n_{c_x} n_{v_x}} \cdot \delta_{n_{c_y} n_{v_y}} \cdot \delta_{n_{c_z} n_{v_z}} \qquad (7)$$

alarıq, haradakı $-\frac{e}{\Omega_0}\int_{\Omega_0} u_{c_0}^* \boldsymbol{r} u_{v_0} d^3r = d_{cv}$, v və c indeksləri valent və keçiricilik zonasına aid kəmiyyətləri işarə edir.Sonuncu ifadədən zonalararası optik keçidlər üçün aşağıdakı seçmə qaydaları alınır.

Dalğa funksiyaları ortonormallıq şərtini ödədiyindən kvant nöqtəsində zonalararası optik keçidlər valent və keçiricilik zonalarının kvant ədədləri toplusu eyni olan kvant səviyyələri arasında mümkündür. Yəni elektronların zonalararası optik keçidləri zamanı yaranan sərbəst elektronların və deşiklərin kvant ədədləri eyni olur.

Zonalararası optik keçidlərin matris elementləri kvant nöqtəsinin ölçülərindən asılı deyil.

Zonadaxili optik keçidlər halında (1) –(3) və (6) - dan dipol momentinin matris elementləri üçün aşağıdakı ifadə alınır:

$$d_{nn'} = -e\left[\boldsymbol{i} x_{n_x n_x'} \delta_{n_y n_y'} \delta_{n_z n_z'} + \boldsymbol{j} y_{n_y n_y'} \delta_{n_x n_x'} \delta_{n_z n_z'} + \boldsymbol{k} z_{n_z n_z'} \delta_{n_x n_x'} \delta_{n_y n_y'}\right]. \qquad (8)$$

haradakı $\boldsymbol{i}, \boldsymbol{j}, \boldsymbol{k}$ - ortoqonal koordinat sisteminin vahid vektorları,

$$x_{n_x n_x'} = \int_{-\frac{a_x}{2}}^{\frac{a_x}{2}} \varphi_{n_x}^* x \varphi_{n_x'} dx = \frac{4a_x}{\pi^2} \frac{n_x n_x'}{(n_x^2 - n_x'^2)^2}\left[1 - (-1)^{n_x + n_x'}\right] \qquad (9)$$

Zonadaxili optik keçidlər halında seçmə qaydaları $\delta_{n_x n_x'}$, $\delta_{n_y n_y'}$, $\delta_{n_z n_z'}$ Kroneker simvolları ilə təyin olunur: hər bir birfotonlu keçid n_x, n_y, n_z kvant ədədlərindən yalnız birinin dəyişməsi ilə baş verir.Zonadaxili optik keçidlər elektronun başlanğıc və son hallarının kvant ədədlərinin $n_x + n_x'$ cəmi tək ədəd olduqda mümkündür, yəni keçidlər fərqli cütlüyə malik olan kvant halları arasında mümkündür. (8) və (9) ifadələrindən görünür ki, zonadaxili optik keçidlərdə dipol momentinin matris elementi kvant nöqtəsinin ölçülərindən xətti asılıdır.

ƏDƏBİYYAT

1.С.И.Борисенко. Физика полупроводниковых наноструктур. ИздательствоТомского политехнического университета.Томск 2010,116 с.
2.Boyd R.W. Nonlinear Optics. Academic Press. San Diego, 1992, 620 c

OPTİCAL TRANSİTİONS İN QUANTUM DOTS

G.A.Usibli
qunayyusibli@gmail.com
I.R.Gadirova
irada.qadirova61@gmail.com
Baku State University

Rectangular shaped quantum dots have been considered on the assumption that the potential well has infinitely high walls. The dipole momentum matrix elements were calculated and the selection rules were determined for both interband and intraband optical transitions.

Keywords: quantum dot, intraband and interband transitions, selection rules.

ALAQ OTLARINI MƏHV EDƏN QURĞU

Mahir Tahir oğlu Nağıyev[1]
mnagiev@mail.ru
Məntiq Bahadur oglu Cəfərov[2]
cmentiq@mail.ru
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Üzümçülük kənd təsərrüfatının ən gəlirli sahələrdən biridir. Üzümçülüyün mexanikləşdirilməsi üç istiqamətə bölmək olar: birinci -tinglik materialı hazırlanması, ikinci - üzümün becərilməsi,üçüncü - yetişmiş üzüm məhsulun yığımı.

Üzümçülükdə alaq otlarını məhv edilməsi üçün üzümçülük təsərrüfatlarında kimyəvi üsullarla aparılır,yəni herbisidlərlə.Yaponiya alimləri müəyyən ediblər ki, 10-15 il müddətində herbisidlərlə alaq otlarını məhv edilməsi nəticəsində, üzüm gilələrində herbisidlər aşkar olur [1].

Bu səbəbdən də alaq otlarının mexaniki üsulla məhv edilməsinə üstünlük verilir. Buna görə də üzümlüklərdə kökümsov alaq otların otlarını məhv edən qurğunun tətbiqi aktual bir məsələdir və qurğu hazırlanıb, tətqiqatı aparılıb [2].


Üzümün becərilməsində cərgələr və kollar arası torpağın kultivasiyası ən məhsuliyyətli işlərdən biridir və mövcud maşınlar kökümsov alaqlarla keyfiyyətli mübarizə apara bilmirlər və ona görə də üzüm bağlarında cərgələr arasında və kollar arasındakı kökümsov alaq otların üzə çıxaran yeni işçi orqanlı mexanikləşmə işləyib hazırlamaq ki,həmin maşınla həm keyfiyyətli torpaq becərmə işini yerinə yetirmək,həm də eynı təyinatlı maşınlara nisbətən maşının metal tutumunu yüngüllətməkdir. Üzüm bağlarında müxtəlif növ alaq otları yayılmışdır, lakin çoxluğu kökümsov alaq otları təşkil edirdi (108 ədəd/m miqdarında, orta hündürlüyü 12-20 sm).

Kökümsov alaq otlarını üzə çıxaran elastiki işçi orqanlı torpaq becərmə maşınını üzümlükdə becəriləcək cərgələrarası en götürümünə görə nizamladıqdan (260-310 sm) sonra DT-75M markalı tırtıllı traktorla aqreqatlaşdırılır və becərmə aparmaq üçün maşının dayaq təkərlərini becərmə dərinliyinə (10-12sm) nizamlanır. Aqreqatın işçi sürəti 4-5 km/saat seçilir. Yumşaltma pəncəsinin dayağından keçirilmiş uclarının ilgələri dönəbilən, yastıkəsən pəncələrin baltasına alt elastiki işçi orqan cərgələrarasındakı alaqla birlikdə torpaq layını altdan kəsir və dönəbilən pəncələrin rəqsi hərəkətinə uyğun olaraq eninə doğru istiqamətləndirilmiş üst elastiki birləşdirici və maili dayanan, bir qurtaracağı torpaqda olan, digər qurtaracağı çöldə olan birləşdirici-darayıcı elastiki dartqılar tarımlanıb boşalır. Birləşdirici-darayıcı dartqılar alt elastiki işçi orqanın altdan kəsdiyi alaqlı torpaq layını şaquli müstəvidə kəsərək, xırdalamaqla, kökümsov alaqları torpaq səthinə tarımlanıb-boşalmaqla sırıyıb cıxarır.Elastiki elementlərin dönəbilən pəncələrin pəqsi hərəkətindən tarımlanıb-boşalması becərmə zamanı işçi orqanlara torpağın yapışmasının, kəsilmiş üzüm zoğlarının və kökümsov alaq otlarının dolaşaraq, becərməyə maneçilik törətməsinin qarşısını alır.Traktorçu maşını sürüb qurtardıqdan sonra torpaqdan çıxarıb, qonşu sürümə dönərək, maşını torpağa salıb becərmə əməliyyatını başa çatdırır.

Üzümçülükdə yeni torpaq becərən maşının torpaq becərmə keyfiyyət göstəriciləri mövcud torpaq becərmə maşını (PRVN-2.5A və PRVN-72000) ilə müqayisə edilmişdir və yeni maşının iş qabiliyyəti qiymətləndirilmişdir.

Yeni maşının torpaq becərmədəki keyfiyyət göstəriciləri aqreqatın hərəkət sürətindən asılı olaraq dəyişmişdir. Aqreqatın hərəkət sürəti 1,44 m/san....1,88 m/san. arasında dəyişməsinə uyğun olaraq becərilən sahədə alaq otların məhv edilməsi 97,82%-dən aşağı düşərək 94,57%, becərilən sahədə torpağın xırdalanması 49,15%-dən yüksələrək 54,6% olmuşdur.

Yeni qurğuilə becərmədəki saatlıq məhsuldarlığı aqreqatin hərəkət sürətindən asılı olaraq 1,29 ha/saat-dan 1,72 ha/saat-a qədər yüksəlmişdir.
Mövcud maşınlarda becərmədəki keyfiyyət göstəriciləri aqreqatın hərəkət sürətindən asılı olaraq. Aqreqatın hərəkət sürəti 1,44m/san.- 1,82m/san. qədər arasında dəyişməsinə uyğun olaraq becərilən sahədə alaq otların məhv edilməsi 94,86%-dən pisləşərək 80,08% -ə düşmüşdür, becərilən sahədə torpağın xırdalanması 55,14%dən yaxşılaşaraq 73,14%-ə qədər artmışdır. Mövcud maşının becərmədəki saatlıq məhsuldarlığı hərəkət sürətindən asılı olaraq 0,91 ha/saat -1,24 ha/saat arasında dəyişmişdir. Yeni maşının mövcud maşından üstünlüyünün biridə odur ki, elastik işçi orqanlar üzümlüklərdə becərmə apararkən alaq otları ilə dolaşıb dolmamasıdır.



Şəkil 1. 1-dönəbilən pəncə, 2-pəncənin boltu, 3-uzun qanad,4- elastiki işçi orqan, 5-bərkidici, 6-yumşaldıcı pəncə, 7-diyircək, 8- darayıcı elastiki dartılma, 9-şaquli barmaq.

ƏDƏBİYYAT

1.Kultivatorlar PRVN-2.5A və PRVN-72000.
2.В.Я.Зельцер-Особенности и задачи механизации возделывания винограда, Кишинев.

THE DEVISE FOR DESTRUCTION OF WEEDS

Mahir Tahir Nagiyev[1]
mnagiev@mail.ru
Mantiq Bahadur Jafarov[2]
cmentiq@mail.ru
Ganja State University[1]
Azerbaijan Technological University[2]

It is known that weeds a scourge of any plant, especially in fructifying vineyards. Traditionally for destruction of weeds use herbicides which are hazardous to health of people.

In the offered device weeds are destroyed mechanically. The devise supplied with an elastic cable, during interrow processing deduces weeds which thereby are destroyed on a surface of soil.

Keywords:vineyards, weeds, herbicides, elastic cable, destroyed.

FİZİKANIN ALİ MƏKTƏBDƏ TƏDRİSİ ZAMANI GƏLƏCƏK MÜHƏNDİSLƏRİN PEŞƏ FƏALİYYƏTİNDƏ RİYAZİ MODELLƏŞDİRMƏNİN TƏTBİQİNƏ HAZIRLANMASI METODİKASI

Leyla Kazım qızı Həsənova
leylahasanmath@gmail.ru
Bakı Dövlət Universiteti

Peşəkar mühəndislik fəaliyyəti ən yeni texniki qurğuların yaradılması, layihələndirilməsi və konstruksiya edilməsi, istehsal prosesinin optimallaşdırılması və təşkili ilə bağlıdır ki, bu da müasir dövrdə müvafiq qurğuların və texnoloji proseslərin modelləşdirilməsi olmadan mümkün deyil. Bu isə mühəndisin peşəkar kompetensiyalarına riyazi modelləşdirmə metodundan istifadə bacarığının formalaşdırılması ilə bağlı tələblər irəli sürür. Bu bacarığın formalaşdırılmasına texniki ali təhsil müəssisələrində

mühəndislərin kompetensiyaya əsaslanan peşəkar hazırlığı yönəldilməlidir. Müvafiq vəzifənin həllində fizikanın tədrisi mühüm rol oynayır [1].

Bu gün riyazi modelləşdirmə zəruri və mühüm tədqiqat metodu hesab olunur. Bu metodun mahiyyəti tədqiq olunan obyektin və prosesin onun riyazi modeli ilə əvəz olunmasından ibarətdir. Onun tədqiqi texnoloji prosesdə baş verən qanunauyğunluqlar haqqında yeni məlumat verir [2]. Kəmiyyət ifadəsində riyazi modellər öyrənilən prosesləri təsvir edir və onların qələcək inkişafını proqnozlaşdırır. Bu halda əldə olunan model bir-biri ilə məntiqi cəhətdən əlaqəli olan riyazi ifadələr ardıcıllığından ibarət olur. Beləliklə, riyazi model real prototipa uyğun qələn və onu idrak edən müəyyən riyazi strukturdur.

Hazırda riyazi modellərin qurulması üçün ənənəvi hesab olunan üsullar təbiət elmlərinin obyektiv qanunlarının cəbr tənlikləri və bərabərsizliklər, diferensial, inteqral, məntiqi və funksional münasibətlər formasında ifadə edildiyi üsullardır. Beləliklə, riyazi, fiziki və texniki nəzəriyyələrin inteqrasiyasl baş verir. Məsələn, kinematikada tətbiq olunan analitik həndəsə və diferensial hesab üsulları maşın və mexanizmlərin etibarlığı və uzunömürlülüyü nəzəriyyəsində öz əksini tapır. Həmçinin vektor cəbrinin elementləri və inteqral hesabın fizika kursu – relativistik mexanika, eləcə də kəsmə, plastiklik və elastiklik üzrə texniki nəzəriyyələrlə qarşılıqlı əlaqəsindən də danışmaq olar.

Qələcək mütəxəssis üçün riyazi aparatı praktik məsələlərin həllində alət kimi tətbiq etməyi bacarmaq son dərəcə vacibdir. Fizika məsələsinin riyazi vasitələrdən istifadə etməklə həlli ilə bağlı fəaliyyət yalnız nəzəriyyənin öyrənilməsi zamanı mənimsənilmiş biliklərin mexaniki tətbiqinə qətirib çıxarmır. Onun özünəməxsus strukturu vardır. Fiziki məsələlərin riyaziyyat vasitəsilə həllini üç mərhələli sxem üzrə həyata keçiririk; bu sxemin mahiyyəti aşağıdakılardan ibarətdir.

Birinci mərhələ - formallaşdırma mərhələsidir; həll olunmalı praktik məsələdən onun riyazi modelinin qurulmasına keçid həyata keçirilir. İkinci mərhələ - birinci mərhələdə qurulmuş model daxilində məsələnin həllidir. Üçüncü mərhələ - interpretasiya mərhələsidir; alınmış riyazi həll ilkin fiziki məsələnin dilinə çevrilir.

Mühəndis xarakterli fiziki məsələlərin həlli zamanı fiziki proses və hadisələrin riyazi modelləşdirilməsi də mərhələlərlə həyata keçirilir. Birinci mərhələ - verilmiş məsələnin keyfiyyətcə təhlili və riyazi məsələnin qoyuluşudur. İkinci mərhələ - riyazi modelin qurulmasldlr. Üçüncü mərhələ - qurulmuş modelin real vəziyyətə adekvatlığının yoxlanılması və onun real prosesə kifayət qədər uyğun qəlmədiyi halda korreksiya edilməsidir. Dördüncü mərhələ - qurulmuş model vasitəsilə qoyulmuş məsələnin həllidir. Beşinci mərhələ - modeldaxili həllin aparılmasıdır. Altıncı mərhələ - alınmış nəticənin interpretasiyasıdır. Burda ən məsuliyyətli mərhələ öyrənilən hadisənin fiziki modelinin yaradılması prosesi – yəni birinci mərhələ - qəbul edilməlidir. Məsələnin düzgün qoyuluşundan və əsas məqamı müəyyən etmək bacarığından son nəticədə əldə olunan nəticənin keyfiyyəti asılıdır.

Beləliklə, modelləşdirmənin idraki, sistemyaradıcı, inkişafetdirici və idrak metodunun mənimsənilməsi kimi funksiyalarını ayırmaq olar. Modelləşdirmə problemli situasiyaların yaradılması vasitəsi, həmçinin riyazi biliklərin formalaşdırılması vasitəsi kimi çıxış edir. Modelləşdirmənin tədris prosesinə daxil edilməsi bu prosesi daha səmərəli edir və eyni zamanda tələbələrin idrak fəaliyyətinin fəallaşdırır.

ƏDƏBİYYAT

1.Масленникова Л.В. Взаимосвязь фундаментальности и профессиональной направленности в подготовке по физике инженерных кадров. М.: МПГУ, 2011. 148 с.
2.Арюкова О.А. Математическое моделирование вариативного компонента курса физики в техническом вузе // Интеграция образования. 2011 . N 1. С 47-53

METHODOLOGY FOR PREPARING FUTURE ENGINEERS TO APPLY MATHEMATICAL MODELING IN THEIR PROFESSIONAL ACTIVITY DURING THE TEACHING OF PHYSICS IN HIGHER EDUCATION

Leyla Kazim Hasanova
leylahasanmath@gmail.ru
Baku State University


The modern challenges and methods for implementing both fundamental and professionally oriented physics training for students of technical specialties using mathematical modeling are presented. The theoretical foundations for constructing the methodology are defined, and a model of the methodology for preparing future engineers to apply mathematical modeling in their professional activities in the course of physics education is presented.

Keywords: competencies, mathematical modeling, technical university,methodology, professional activity

$(SnSe)_{1-x}(DySe)_x$ SİSTEM ƏRİNTİLƏuRİNDƏ MAQNİT MÜQAVİMƏTİ

M.B.Cəfərov[1]
C.İ. Hüseynov[2]
jahangirhuseynov1958@gmail.com
A.M.Allahverdiyev[2]
O.M.Həsənov[2]
A.X.Adgözəlova[2]
G.F.Qaraşova[2]
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Dövlət Pedaqoji Universiteti[2]

NTE-nin iştirakı ilə alınan maddələr bəzi elektrik enerjisi çeviricilərinin, şüalanmaya, təzyiqə və rütubətə davamlı olan müxtəlif növ enerji çevricilərinin istehsalında geniş istifadə olunur. Bu nöqteyi-nəzərdən nadir torpaq metallarının iştirakı ilə ərintilər və birləşmələr əsasında tələb olunan fiziki xassələrə malik yeni perspektivli materialların əldə edilməsinin mümkünlüyü onların tədqiqatlarını xüsusi əhəmiyyət kəsb edir. Buna görə də $SnSe$ və $DySe$ xalkogenidlərinin qarşılıqlı təsirinin öyrənilməsi, həmçinin əmələ gələn bərk məhlulların qalvanomaqnit xassələrinin hərtərəfli öyrənilməsi elmi və praktiki maraq kəsb edir.




Şək.1.$(SnSe)_{1-x}(DySe)_x$ ərintilərinin maqnit müqavi-mətinin temperatur asılılığı. 1-x=0,025; 2-x=0,04

$SnSe - DySe$ sistemindəki qarşılıqlı əlaqə diferensial istilik analizi (DTA), rentgen şüalarının difraksiyası (XRD), mikrostruktur analizi (MSA), həmçinin mikrosərtliyin ölçülməsi və

sıxlığın təyini üsullarından istifadə etməklə tədqiq edilmişdir.Geniş temperatur diapazonunda kvazibinar birləşmənin $(SnSe)_{1-x}(DySe)_x$ bərk məhlulları regionunda alınmış müxtəlif tərkibli nümunələrin qalvanomaqnit xassələri tədqiq edilmiş, ümumi qanunauyğunluq təhlil edilmişdir. Sabit cərəyan rejimində sabit maqnit sahəsində $300 \div 620K$ temperatur intervalında xüsusi elektrik keçiriciliyi (σ), Hall əmsalı (R) və nisbi maqnit müqaviməti $(\Delta\rho/\rho_0)$ ölçülmüşdür [1]. Təcrübələrdə yol verilən xəta 4,2%-dən çox olmayıb.

$(SnSe)_{1-x}(DySe)_x$ bərk məhlullarında, $x = 0{,}01$ və $x = 0{,}02$tərkiblərə uyğun nümunələrdə müşahidə olunan maqnit müqavimətinin temperatur asılılığı şəkil 1 təsvir edilmişdir. Hər iki nümunədə temperaturun artımı ilə maqnit müqaviməti artaraq maksimumdan keçdikdən sonra azalır. Maqnit müqaviməti özünün maksimum qiymətinə $(SnSe)_{0.99}(DySe)_{0.01}$tərkibli nümunədə 320 K temperaturda, $(SnSe)_{0.98}(DySe)_{0.02}$ nümunəsində isə 380 K temperaturda çatır. Maqnit müqaviməti x=0,025 təkibli ərintilərdə T=420 K, x=0,04 tərkibli ərintilərdə isə T=470 K temperaturda maqnit müqaviməti işarəsini müsbətdən mənfiyə dəyişir [3].



Şək.2.$(SnSe)_{1-x}(DySe)_x$ ərintilərinin maqnit müqavimətinin sahə intensivliyindən asılılığı: T=105 K. 1- x=0,005; 2-x=0,01; 3-x=0,02

Qrafiklərdən göründüyü kimi tərkiblərdə Dy elementinin miqdarı artdıqca maksimumuna və inversiya nöqtəsinə uyğun temperatur yuxarı temperatur oblastına tərəf sürüşür.İstənilən tərkibdə maqnit müqavimətinin müşahidə olunması və onun qiymətinin böyük olması tədqiq olunan nümunənin energetik zona quruluşunun mürəkkəb olmasının və ikinci növ yükdaşıyıcıların mövcudluğunun göstəricisidir [2].

Alınan nəticələrin analizi tədqiq olunan ərintilərin qismən kompensasiya olunmuş materiallar olduğunu söyləməyə imkan verir. Maqnit müqavimətinin maksimum qiymətində konsentrasiya özünün doymuş halına çatır. Hər iki nümunədəmaqnit müqavimətinin işarəsinin müsbətdən mənfiyə dəyişməsi kristallarda yükdaşıyıcıların əsas səpilmə mexanizminin dəyişməsi ilə bağlıdır.

Hər iki nümunədə T=420÷450 K-də müşahidə olunan anomal dəyişməyə səbəb, çox ehtmal ki, yükdaşıyıcıların səpilmə mexanizminin dəyişməsidir. Bu mexanizmi arşdırmaq üçün hər iki nümunədə xüsusi elektrikkeçiriciliyi və Holl əmsalının nəticələrinə əsasən yükdaşıyıcıların yürüklüyünün temperatur asılılığına baxılmış, yükdaşıyıcıların səpilmə mexanizmi araşdırılmışdır. T≤420 K temperatur intervalında ionlaşmış aşqar mərkəzlərindən, T≥450 K intervalında isə kristal qəfəsin düyün nöqtələrindən səpilmə üstünlük təşkil etdiyi müəyyənləşdirilmişdir.

Aşağı temperaturda $(SnSe)_{1-x}(DySe)_x$ sisteminin bir sıra nümunələrində $(x = 0{,}005, 0{,}01$ və $0{,}02)$ maqnit sahəsində mənfi maqnit müqaviməti müşahidə olunur. Seçilmiş tərkiblər üçün əldə edilən nəticələrdən $\frac{\Delta\rho}{\rho}(H)$ asılılıqlarının qrafikləri (şəkil 2) qurulmuş və təhlil aparılmışdır.

Müəyyən edilmişdir ki, maqnit sahəsinin intensivliyinin kiçik qiymətlərində maqnit müqaviməti mənfi olur və intensivliyin artması ilə yükdaşıyıcıların konsentrasiyası$80\ K$

temperarurda $6.2 \cdot 10^{17} sm^{-3}$olan (№2) və $9.7 \cdot 10^{16} sm^{-3}$(№3) nümunələrdə müvafiq olaraq $\Delta\rho/\rho(H)$ müsbət qiymətə keçid müşahidə edilir. Aşağı temperaturda ölçülmüş nümunələrdə Hollsabitinin maksim qiyməti $T = 105\ K$ temperaturun yaxın ətrafında aşkar edilir ki, bu da aşqar zonası əlaqələndirilir [3]. Mənfi maqnit müqaviməti yalnız tədqiq olunan nümunələrdə Holl əmsalını maksimum qiymət aldığı temparaturdan aşağı temperaturlarda, yəni aşqar keçiriciliyinin üstünlük təşkil etdiyi temperatur oblastında, müşahidə olunur. Zəif sahələrdə sahə intensivliyinin qiymətinin artımı ilə $\left(\frac{\Delta\rho}{\rho}\right) \sim H^2$asılılığı doyma halına meyl göstərir. Bununla belə, faktiki doyma halı fərqli nümunələrdə maqnit sahəsi intensivliyinin fərqli qiymətlərində əldə edilir və maqnit müqavimətinin doyma halına uyğun dəyərlərinin mütləq qiyəti azalaraq işarəni müsbətə dəyişir.

Sahə intensivliyindən asılı olaraq maqnit müqavimətinin bu şəkildə dəyişməsi tədiq olunan nmunələrdə açıq sipinə malik NTE aşqar atomlarının spin momentlərinin nizamsız düzülüşü ilə əlaqədardır. Aşağı temperaturda maqnit sahəsi tətbiq edildikdə, lokallaşdırılmış spinlər nizamlı düzülüşə məcbur edilir, spin sahəsi yükdaşıyıcıların səpilməsinə səbəb olur ki, bu da müqavimətin azalması ilə müşaiyyət olunur.

ƏDƏBİYYAT

1. I.I.Aliev, J.I.Huseynov, M.I.Murguzov, Sh.S.Ismailov, E.M.Gojaev Inorg Mater 50, 237–240 (2014). https://doi.org/10.1134/S0020168514030029
2. J.I.Huseynov, M.I.Murguzov, S.S.Ismayilov Semiconductors 47, 323–326 (2013). https://doi.org/10.1134/S106378261303010X
3. D.I.Huseynov, M.I.Murguzov, S.S.Ismailov Inorg Mater 44, 467–469 (2008). https://doi.org/10.1134/S0020168508050063

MAGNETIC RESISTANCE IN SYSTEM ALLOYS $(SnSe)_{1-x}(DySe)_x$

M.B.Jafarov[1]
C.I.Huseynov[2]
jahangirhuseynov1958@gmail.com
A.M.Allahverdiyev[2]
O.M.Hasanov[2]
A.Kh.Adgozalova[2]
G.F.Garashova[2]
Azerbaijan Technological University[1]
Azerbaijan State Pedagogical University[2]

Samples of $(SnSe)_{1-x}(DySe)_x$ in the solid solution region were obtained, their galvanomagnetic properties were studied and the dependence of magnetoresistance on temperature and magnetic field strength was analyzed. A change in the scattering mechanism of charge carriers with a change in the sign of magnetoresistance at a certain temperature, its large value indicates the presence of a second type of charge carriers in the studied samples.

Keywords: solid solutions, charge carriers, galvanomagnetic properties, magnetoresistance, scattering mechanisms, inversion point.

SnSe–TbSe BƏRK MƏHLULLARINDA STRUKTUR, TERMOELEKTRİK VƏ RADİASİYA TƏSİRLƏRİNİN KOMPLEKS TƏDQİQİ

M.B.Cəfərov[1]
T.A.Cəfərov[2]
C.İ.Hüseynov[2]
jahangirhuseynov1958@gmail.com
A.M.Allahverdiyev[2]
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Dövlət Pedaqoji Universiteti[2]

SnSe-də nadir torpaq elementlərinin (NTE) əlavə edilməsi defektlərin təbiətini dəyişdirir və materialın "təmizlənməsi" effekti ilə müşayiət olunur. Bu baxımdan SnSe–TbSe sistemində nadir torpaq elementlərinin iştirakı ilə yeni xassələrə malik bərk məhlulların alınması və tədqiqi elmi və praktiki cəhətdən əhəmiyyətlidir. Bu işdə SnSe əsaslı yarımkeçiricilərdə Tb atomları ilə qismən əvəzləmə aparılaraq yeni tərkibli bərk məhlullar sintez edilmiş, onların termoelektrik və radiasiya (γ-şüa) təsirinə məruz qalma xüsusiyyətləri öyrənilmişdir.

SnSe–TbSe sisteminin tədqiqində DTA, rentgen faza analizi (XRD), mikrostruktur analiz (MSA), mikro sərtlik və sıxlıq ölçmələri aparılmışdır. DTA analizləri PerkinElmer STA 6000 cihazında, N_2 mühitində 20 ml/san axın sürəti və 5°C/dəq qızdırma sürəti ilə həyata keçirilmişdir. Rentgen difraksiya analizi Rigaku Miniflex difraktometrində (CuKα, λ = 1.5406 Å) aparılmış, 2θ = 0–80° intervalında spektrlər qeydə alınmışdır. Səth morfologiyası JEOL JSM6610-LV skan edən elektron mikroskopu ilə tədqiq edilmişdir.

Nümunələr 1.25 MeV enerjili γ-şüa mənbəyi ilə (RHUND-20000) 0–6.5 Mrad dozada şüalandırılmışdır. Şüalanmadan 24 saat sonra termoelektrik güc sabit cərəyan kompensasiya metodu ilə 80–900 K temperatur intervalında ölçülmüşdür. Ölçmə xətası təxminən 4.6% təşkil etmişdir.

DTA nəticələrinə əsasən, $Tb_xSn_{1-x}Se$ (x=0–0.04) bərk məhlullarında bütün nümunələr üçün yüksək temperatur sahəsində əriməyə uyğun gələn aydın endotermik pik müşahidə olunur. Əsas termiki parametrlər göstərir ki, Tb miqdarının artması ilə həm ərimə temperaturu, həm də faza keçidi entalpiyası sistemli şəkildə azalır. Rentgen difraksiya analizləri bütün nümunələrdə ortorombik SnSe (Pnma) strukturunun qorunduğunu və Tb qatqısının Sn^{2+} ionlarını qismən əvəz etməsi nəticəsində qəfəs parametrlərində cüzi dəyişmələr və 2θ sürüşmələri yaratdığını göstərir. SEM analizləri səthin nanomiqyasda hamar (R_a ≈ 5–15 nm) və yüksək homogen olduğunu, morfologiyanın təsadüfi paylanmış mikrorelyeflə xarakterizə olunduğunu aşkar edir. EDX spektrləri Sn, Se və Tb elementlərinin mövcudluğunu təsdiqləyərək Tb-nin əsas fazaya uğurla daxil olduğunu göstərir.

[3]-də təqdim olunan işdə Bridcmen üsulu ilə yetişdirilmiş $Sn_{1-x}Tb_xSe$ (0 ≤ x ≤ 0.05) bərk məhlul kristallarında əsas kinetik parametrləri T=300 K temperaturunda sistematik şəkildə tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, terbium (Tb) ilə aşqarlanma elektrik keçiriciliyi, Hall əmsalı, termoEHQ-si, istilik keçiriciliyi, həmçinin yükdaşıyıcıların konsentrasiyası və yürüklüyünə əmiyyətli təsir göstərir.

SnSe əsaslı bərk məhlullarda Tb miqdarı artdıqca Seebeck əmsalı S əvvəlcə kəskin şəkildə azalır (0 ≤ x ≤ 0.002 mol.% intervalında +420 μV/K-dən +128 μV/K-ə qədər). Bu davranış Sn^{2+} ionlarının Tb^{3+} ionları ilə əvəz olunması nəticəsində donor effektinin yaranması ilə izah edilir. 0.002 < x < 0.0025 mol.% dar konsentrasiya intervalında Seebeck əmsalının işarə dəyişməsi baş verir (–325 μV/K-ə qədər enir), bu isə p-tip keçiricilikdən n-tip keçiriciliyə keçidi göstərir. Bu inversiya Fermi səviyyəsinin keçiricilik zonasına doğru sürüşməsi və Tb aşqarlanması ilə yaranan lokallaşmış donor səviyyələrinin formalaşması ilə əlaqələndirilir. 0.0025 < x < 0.015 mol.% intervalında S-in


mənfi qiymətləri stabilləşir ki, bu da elektronların dominant olduğu (n-tip) keçiriciliyin formalaşdığını və donor hallarının qismən doyduğunu təsdiq edir.

Daha yüksək Tb konsentrasiyalarında (0.02 < x < 0.05 mol.%) Seebeck əmsalının modulunun tədricən azalması müşahidə olunur. $Tb_xSn_{1-x}Se$ bərk məhlullarının termoelektrik xüsusiyyətlərinə γ-şüalanmanın təsiri 0–6.5 Mrad udulmuş doza intervalında otaq temperaturunda tədqiq edilmişdir (Şəkil 1a). Seebeck əmsalının dəyişməsi keçiricilik tipindən güclü asılılıq göstərir.

p-tip tərkiblər üçün (x ≤ 0.001) S(D) asılılığı qeyri-monoton xarakter daşıyır: əvvəlcə Seebeck əmsalı doza ilə artır, maksimuma çatır və daha sonra azalır. x = 0 üçün S təxminən +420 μV/K-dən D ≈ 5 Mrad-da +442 μV/K-ə qədər artır, daha sonra isə cüzi azalma müşahidə olunur. Oxşar davranış x = 0.001 üçün də qeydə alınır (təxminən +275 μV/K-dən +285 μV/K-ə qədər). Bu hal şüalanma nəticəsində yaranan donor tipli nöqtə defektləri ilə əlaqələndirilir; bu defektlər deşiklərin (hole) kompensasiyasını gücləndirir. Yüksək dozalarda defektlərin doyma effekti və yükdaşıyıcıların səpilməsi S-in azalmasına səbəb olur. Bu davranış şüalanma ilə modifikasiya olunmuş p-tip SnSe üçün xarakterikdir.

n-tip nümunələrdə (x ≥ 0.01) isə Seebeck əmsalının modulu dozanın artması ilə monoton şəkildə azalır. Konkret olaraq, S (x = 0.01) üçün –297-dən –272 μV/K-ə, x = 0.025 üçün –258-dən –237 μV/K-ə, x = 0.05 üçün isə –210-dan –196 μV/K-ə dəyişir. |S|-in azalması elektron konsentrasiyasının artması və şüalanma nəticəsində yaranan defektlər səbəbindən səpilmənin güclənməsi ilə izah olunur. Bütün doza intervalı boyunca keçiricilik tipi dəyişmir və p–n keçidi müşahidə olunmur.

Nisbi dəyişmə $\Delta S/S_0 = (S(D) - S_0)/S_0$ analizi göstərir ki, p-tip nümunələr üçün bu kəmiyyət müsbətdir və təxminən 4–5% dəyərinə çataraq sonradan doyma meyli göstərir



Şəkil 1. Seebck əmsalının a) və onun nisbi dəyişikliyinin b) udulmuş dozadan asılılığı

(Şəkil 1b). n-tip nümunələr üçün isə mənfi qiymətlər alır (–7–8%-ə qədər). $\Delta S/S_0(D)$ asılılığı qeyri-xəttidir və aşağıdakı kvadratik funksiya ilə yaxşı aproksimasiya olunur:

$$\Delta S/S_0(D) \approx aD^2 + bD + c.$$

Bu yanaşma həm ilkin defekt-kompensasiya effektini, həm də yüksək dozalarda doyma və güclənmiş səpilmə proseslərini nəzərə almağa imkan verir. Beləliklə, $Tb_xSn_{1-x}Se$ bərk məhlullarında şüalanma ilə induksiya olunan termoelektrik davranışın analitik təsviri və proqnozu üçün effektiv çərçivə təqdim edir.

COMPREHENSIVE STUDY OF STRUCTURAL, THERMOELECTRIC, AND RADIATION EFFECTS IN SNSE–TBSE SOLID SOLUTIONS

M.B.Jafarov[1]
T.A.Jafarov[2]
J.I.Huseynov[2]
jahangirhuseynov1958@gmail.com
A.M. Allahverdiyev[2]
Azerbaijan Technological University[1]
Azerbaijan State Pedagogical University[2]

This study presents a comprehensive investigation of the effects of terbium (Tb) doping on the structural, thermoelectric, and radiation properties of SnSe-based semiconductors. $Tb_xSn_{1-x}Se$ (x = 0–0.05) solid solutions were synthesized under vacuum and characterized using DTA, XRD, and SEM techniques. The results show that Tb incorporation preserves the orthorhombic SnSe structure while introducing slight lattice distortions and reducing thermal stability. Thermoelectric measurements reveal a decrease in the Seebeck coefficient with increasing Tb content and a p–n conductivity transition within a narrow concentration range. Under γ-irradiation, the Seebeck coefficient exhibits conductivity-type-dependent behavior.

Keywords: rare earth elements, Seebeck coefficient, gamma irradiation, phase transition, XRD, DTA, SEM analysis, radiation effects.

PARABOLİK POTENSIALLI KVANT MƏFTİLİNİN DİELEKTRİK FUNKSİYASI

M.B.Cəfərov[1]
X.A.Həsənov[2]
C.İ.Hüseynov[3]
jahangirhuseynov1958@gmail.com
V.V.Dadaşova[4]
A.Y.Həmzəyeva[5]
X.T.Həsənova[4]
A.Ə.Həsənov[4]
Azərbaycan Texnologiya Universiteti[1]
FHN Akademyası[2]
Azərbaycan Dövlət Pedaqoji Universiteti[3]
Bakı Dövlət Universiteti[4]
Gəncə Dövlət Universiteti[5]

Son vaxtlar ölçüləri elektronların de-Broyl dalğa uzunluğu tərtibində olan sistemlərdə baş verən kinetik hadisələrin öyrənilməsinə diqqət artmışdır. Elektronların hərəkətinin məhdudluğu, bu sistemlərdə kinetik hadisələrin böyük həcmli kristallardakından kəskin fərqlənməsinə gətirir. Diqqət mərkəzində olan məsələlərdən biri də kvant məftillərində tezliyin dielektrik funksiyaya təsirinin tədqiqidir.Qeyd edək ki, dielektrik funksiyanın tədqiqi həm 3-ölçülü, 2-ölçülü və 1-ölçülü kristallara, həm də kvant çuxuruna aid bir çox eksperimentlərdə çoxdan müşahidə edilir. Dielektrik funksiyanın meydana gəldiyi şəraitin belə müxtəlifliyi deməyə əsas verir ki, onun əmələ gəlməsi mexanizmləri müxtəlifdir.

Ümumi halda elektrik induksiyası $\vec{D}$ elektrik intensivliyi $\vec{E}$ ilə əlaqələndirən aşağıdakı tenzor inteqralı vardır.

$$D_\alpha(r,t) = \int_{-\infty}^{t} dt' \int dV' \varepsilon_{\alpha\beta}(t,r,t',r') E_\beta(r',t') \qquad (1.1)$$

Burada $\varepsilon(\alpha,\beta)$ – tenzor funksiyası olub, dielektrik funksiya adlanır. r nöqtəsində və t zaman anında yayılan elektromaqnit sahəsi bütün məkanda və baxılan t zaman anında mühitin əks reaksiyasıdır (başqa sözlə, polyarizasiya və maqnitlənmədir). $D_\alpha(r,t)$-nin yəni sistemin əks reaksiyasının sahədən asılılığı müəyyən zaman anından deyil, sonlu τ-relaksasiya müddətindən asılıdır. Polyarizasiyanın və induksiya cərəyanının r nöqtəsindəki qiyməti fəzanın qonşu r' nöqtəsindəki sahəsindən asılıdır. İstilik hərəkəti nəticəsində fəzanın qonşu oblastlarından mühitə gələn yüklü zərrəciklərin hesabına sistemin reaksiyası (D_α) ilə elektrik sahəsi arasındakı asılılıq qeyri-lokaldır. Bu elektrik sahəsi nə qədər güclü olarsa, qeyri-lokallıq da bir o qədər çox olar. Adətən $r-r'$-in artması ilə $\varepsilon_{\alpha\beta}$ dielektrik funksiyası sürətlə azalır.

Burada kvant məftilində cırlaşmış elektron qazının dielektrik funksiyası hesablanmışdır

$$\varepsilon(q)=1+M_{ee}(q)\Pi(0,q) \qquad (1)$$

Burada $\Pi(0,q)$-polyarizasiyaoperatoruolubaşağıdakıkimitəyinolunur

$$\Pi(0,q)=\int\rho(\varepsilon)\left(-\frac{\partial f_0}{\partial\varepsilon}\right)d\varepsilon \qquad (2)$$

$M_{ee}(q)$- elektron-elektron qarşılıqlı təsirinin matris elementi, $\rho(\varepsilon)$ -elektronların hal sıxlığı, $f_0(\varepsilon)$-Fermi paylanma funksiyasıdır.

Parabolik potensiallı kvant çuxurunda kvazi bir ölçülü elektron qazının enerji spektri və dalğa funksiyası[10] aşağıdakı kimi təyin edilir.

$$\varepsilon_\alpha=(N+M+1)\hbar\omega_0+\frac{(\hbar k)^2}{2m} \qquad (3)$$

$$\varphi_{N,M,k}(x,y,z)=\frac{1}{\sqrt{L}}e^{ikz}\varphi_M(y)\varphi_N(x) \qquad (4)$$

$$\varphi_N(x)=\frac{1}{\sqrt[4]{\pi R_0^2}}\cdot\frac{1}{\sqrt{2^N N!}}e^{-\frac{x^2}{2R_0^2}}H_N\left(\frac{x}{R_0}\right) \qquad (5)$$

$$\varphi_M(x)=\frac{1}{\sqrt[4]{\pi R_0^2}}\cdot\frac{1}{\sqrt{2^M M!}}e^{-\frac{y^2}{2R_0^2}}H_M\left(\frac{y}{R_0}\right) \qquad (6)$$

Burada $R_0=\sqrt{\frac{\hbar}{m\omega_0}}$-ossilyatorun uzunluğu , $H_N\left(\frac{x}{R_0}\right),H_M\left(\frac{y}{R_0}\right)$- Ermit polinomları, $\alpha=\{N,M,k\}$-elektronun halını müəyyən edən kvant ədədləridir.

Məftil Oz oxu üzrə yönəlmişdir. Səth sıxlığının məşhur ifadəsindən istifadə edərək

$$\rho(\varepsilon)=2\frac{1}{\pi}\frac{\partial k}{\partial\varepsilon}=\frac{2}{\pi}\frac{m}{\hbar^2 k};\ k=\frac{\sqrt{2m(\varepsilon-\hbar\omega)}}{\hbar} \qquad (7)$$

Polyarizasiya operatoru üçün alarıq $\Pi(0)=\frac{1}{\pi\hbar}\sqrt{\frac{2m}{k_0T}}F_{-\frac{1}{2}}(\eta-\hbar\omega_0)$ (8)

Burada $F_{-\frac{1}{2}}(\eta)$-Fermi inteqralı, k_0 – Bolsman sabiti, η – gətirilmiş kimyəvi potensial.

Elektron-elektron qarşılıqlı təsirinin matris elementi $M_{ee}(q)=\frac{e^2}{\chi}\iint\frac{\varphi_{\alpha_1}(\vec{r}_1)\varphi_{\alpha_2}(\vec{r}_2)}{\vec{r}_1-\vec{r}_2}d\vec{r}_1d\vec{r}_2$ (9)

Aşağıda fərz edirik ki, baxılan kvant limit halı üçün $N = M = 0$ (4) – (6) ifadələrini (9)-da yerinə yazsaq və yeni dəyişənlərə keçsək: $\vec{r}_1 - \vec{r}_2 = \vec{r}$, $\vec{r}_1 + \vec{r}_2 = \vec{R}$ (10)

Və $\vec{R}$ dəyişəni üzrə inteqrallasaq alarıq $M_{ee}(q) = \dfrac{2e^2}{\pi R_0^2 L^2 \chi} \int\limits_{-\frac{L}{2}}^{\frac{L}{2}} \int\limits_0^\infty \int\limits_0^\infty \dfrac{\exp\left(iqz - \dfrac{x^2 + y^2}{2R_0^2} \right)}{r} dr$

Axırıncı inteqralda L= ∞ qəbul etsək(başqa sözlə məftilin makroskopik uzunluğu) və z dəyişəninə görə inteqrallasaq : $\int\limits_{-\infty}^{\infty} \dfrac{\exp(iqz)}{\sqrt{x^2 + y^2 + z^2}} dz = 2K_0\left(q\sqrt{x^2 + y^2} \right)$ (12)

Burada $2K_0\left(q\sqrt{x^2 + y^2} \right)$-ikinci növ modifikasiya olunmuş Bessel funksiyasıdır.

Polyar koordinatlara keçsək inteqralın şəklini natamam qamma funksiya ilə ifadə edə bilərik:

$$\int\limits_0^\infty \exp\left(-\frac{r^2}{2R_0^2} \right) K_0(qr)\, r dr = \frac{1}{2} R_0^2 e^{\frac{q^2 R_0^2}{2}} \Gamma\left(0, \frac{q^2 R_0^2}{2} \right) \quad (13)$$

Burada $\Gamma(0, x)$–natamam Qamma funksiyadır.

Buradan elektron-elektron qarşılıqlı təsirinin matris elementi üçün analitik ifadə alarıq:

$$M_{ee}(q) = \frac{e^2}{\chi} \exp\left(\frac{1}{2} q^2 R_0^2 \right) \Gamma\left(0, \frac{1}{2} q^2 R_0^2 \right) \quad (14)$$

(14) və (8) ifadələrini (1)düsturunda yerinə yazsaq alarıq:

$$\varepsilon(q) = 1 + \frac{e^2}{\pi \hbar \chi} \sqrt{\frac{2m}{k_0 T}} \exp\left(\frac{1}{2} q^2 R_0^2 \right) \Gamma\left(0, \frac{q^2 R_0^2}{2} \right) F_{-\frac{1}{2}}(\eta - \hbar\omega_0) \quad (15)$$

Axırıncı ifadədən elektronların kvant məftilində müxtəlif səpilmə mexanizmləri üçün ekranlaşmanı hesablamaq olar.

DIELECTRIC FUNCTION OF A QUANTUM WIRE WITH PARABOLIC POTENTIAL

M.B.Jafarov[1]
Kh.A.Hasanov[2]
J.I.Huseynov[3]
jahangirhuseynov1958@gmail.com
V.V.Dadashova[4]
A.Y.Hamzayeva[5]
Kh.T.Hasanova[4]
A.A.Hasanov[4]
Azerbaijan Technological University[1]
Academy of the Ministry of Emergency Situations[2]
Azerbaijan State Pedagogical University[3]
Baku State University[4]
Ganja State University[5]

The dielectric function of the electron gas in one-dimensional nanostructures has been studied with respect to temporal and spatial dispersion. For the first time, the screening of the scattering potential in a quantum wire has been considered, and analytical expressions for the dielectric function have been obtained.

Keywords: nanostructure, dielectric function, quantum wire, matrix element of electron–electron interaction, polarization operator, oscillator length.

YÜNGÜL NƏQLİYYAT VASİTƏLƏRİ ÜÇÜN AKKUMULYATORLARIN ENERJİ SIXLIĞININ FERROELEKTRİK MATERİALLARDAN İSTİFADƏ ETMƏKLƏ ARTIRILMASI

Zakir Cəbrayıl oğlu Xələfov
Razil Tofiq oğlu Mirzəyev
razil-mirze@mail.ru
Samirə Rafiq qızı Nuriyeva
Azərbaycan Texnologiya Universiteti

Ferroelektrik materiallar yüksək dielektrik sabitə, elektrik qütblənməsi və daxili elektrik sahəsi yaratmaq qabiliyyətinə malikdir. Bu xüsusiyyətlər elektrod-elektrolit sərhədində ionların hərəkətini sürətləndirə, yük yığılmasını optimallaşdıra və daxili müqaviməti azalda bilər. Nəticədə, akkumulyatorun xüsusi enerji göstəricisi və güc sıxlığı artır. Bundan əlavə, ferroelektrik qatların separator və ya elektrod örtüyü kimi istifadəsi istilik sabitliyini və təhlükəsizliyi yaxşılaşdıra bilər.

Ekspertlərin hesablamalarına görə, hazırkı istehsal templərində qlobal kömür ehtiyatları 400-500 il, neft və qaz ehtiyatları isə cəmi bir əsr kifayət edəcək.

Hazırda mövcud olan ciddi ekoloji problemlərin həlli elektrik nəqliyyat vasitələrinin istehsalıdır. Ənənəvi texnologiyadan istifadə edən elektrik ötürücüləri enerji mənbəyindən (bir və ya daha çox batareya), elektrik mühərrikini idarə etmək üçün nəzarətçidən, elektrik mühərrikinin özünün və hərəkəti işləyən elementə ötürmək üçün mexanizmdən (bəzi hallarda yoxdur) ibarətdir. Batareyaların enerji tutumu aşağıdır və buna görə də tək bir yükləmə ilə elektrik nəqliyyat vasitələri üçün qısa məsafə təmin edə bilər.Batareyalar da ağır və böyükdür, bu da onların quraşdırılmasını çətinləşdirir.Yuxarıda göstərilənləri nəzərə alaraq, ferroelektriklərə əsaslanan elektrokimyəvi generatordan (EKQ) istifadə edərək ekoloji cəhətdən təmiz alternativ innovativ texnologiya təklif olunur [1]. Bu elektrik stansiyası keramika modifikasiyasından və elektrik dövrəsindən asılı olaraq batareyanın xüsusi enerjisini (enerji sıxlığını) 3,5-5 dəfə artırır. Avadanlığın quraşdırılması (elektromexaniki çevirici, mexaniki enerji yaradan cihaz və EKQ ilə qarşılıqlı təsir göstərən) batareyanın enerji sıxlığını iki mərhələdə artırır: birinci mərhələ EKQ-nin polyarizasiyasının artırılmasını, ikinci mərhələ isə zavodun çıxışında elektrik gücünün artırılmasını əhatə edir.

Qısaca desək, batareyaların enerji sıxlığını artırmaq üçün quraşdırılmış əsas komponenti olan EKQ-nin iş prinsipi, çoxkomponentli bərk məhlul sistemi olan oksidləşdirici ilə ferroelektrik pyezokeramik maddə arasında kimyəvi reaksiyanın "dondurulmuş" enerjisinin buraxılmasından ibarətdir. Bu enerji əsasən mexaniki enerji, ikinci dərəcəli ferroelektrik keçid və miqrasiya və dipol polyarizasiyası vasitəsilə yaranır [1,2]. Struktur olaraq, EKQ, elektrik dövrəsinə qoşulmaq üçün metal kontaktları və əlavə terminalları olan müəyyən ölçü və formaya malik ferroelektrik pyezoelektrik elementdir. Mexaniki enerjinin istifadəsini nəzərə alsaq, sistemin səmərəliliyi 50-55% -dir. İstifadə olunan mexaniki enerji sadə dizaynlı bir cihaz tərəfindən yaradılır [1].

Təklif olunan sistem batareyadan 1 Coul enerji sərf edir ki, bu da mexaniki enerjidən istifadə edərək sistemin çıxışında 3,5-5 Coul elektrik enerjisi istehsal etməyə imkan verir. Bu o deməkdir ki, sistemin istifadəsi batareya enerjisi istehlakını 3,5-5 dəfə azaldır və bununla da tək batareya doldurma ilə elektrikli nəqliyyat vasitələrinin çeşidini 3,5-5 dəfə artırır.

Günəş və külək enerjisi ilə müqayisədə batareya enerjisi sıxlığını artırmaq üçün təklif olunan alternativ innovativ texnologiya iqlim şəraitindən və günün vaxtından asılı olmamaq və daha yüksək səmərəliliyə malik olmaq üstünlüyünə malikdir. Bundan əlavə, külək turbinlərinin istifadəsi uzunmüddətli müşahidələrə əsasən müəyyən edilmiş müxtəlif külək parametrlərinin öyrənilməsini tələb edir:- orta illik və aylıq külək sürətləri;- il, ay və gün ərzində küləyin sürətinin və istiqamətinin tezliyi;- küləklər, sakitliklər və maksimum külək sürətləri; - hündürlüklə küləyin sürətinin dəyişməsi və s.Günəş enerjisindən istifadə etmək də bir çox amillərin öyrənilməsini tələb edir [1,2].

ƏDƏBİYYAT

1.Зубцов В.И., Зубцова Е.В. Увеличение удельной мощности и удельной энергии устройства на основе сегнетопьезоактивной керамики для электропривода //Матер.

междун. конф. по физике и астрономии./ФТИ им. А.Ф. Иоффе.- С-Петербург, 2013 — с.243-244;
2.Окадзаки К. Пособие по электротехническим материалам. М. — Машиностроение, 1979. 432 с.

INCREASING THE ENERGY DENSITY OF PASSENGER CAR BATTERIES USING FERROELECTRIC MATERIALS

Zakir Jabrayil Khalafov
Razil Tofig Mirzayev
razil-mirze@mail.ru
Samira Rafiq Nuriyeva
Azerbaijan Technological University

The development of lightweight vehicles (electric cars, unmanned aerial vehicles, and lightweight industrial vehicles) in modern times requires the creation of battery systems with high energy density. Increasing energy density allows not only to increase the range of vehicles, but also to reduce the total mass and improve energy efficiency. In this regard, the application of ferroelectric materials in battery technologies is considered a promising direction.

Ferroelectric materials have a high dielectric constant, electric polarization, and the ability to create an internal electric field. These properties can accelerate the movement of ions at the electrode-electrolyte interface, optimize charge accumulation, and reduce internal resistance. As a result, the specific energy index and power density of the battery increase. In addition, the use of ferroelectric layers as separators or electrode coatings can improve thermal stability and safety.

Keywords: ferroelectric, electricity, battery, energy

ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN FİZİKİ ƏSASLARI

Zərdan Səməd oğlu Səmədov
Zakir Cəbrayıl oğlu Xələfov
Samirə Rafiq qızı Nuriyeva
s.nuriyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Enerji cəmiyyətin iqtisadi və texnoloji inkişafının əsas amilidir.Ənənəvi enerji mənbələri (neft, qaz, kömür) yanma prosesinə əsaslanır və ətraf mühitə karbon qazı buraxır. Bu səbəbdən alternativ və ya bərpa olunan enerji mənbələrinin inkişafı zərurətə çevrilmişdir.

Alternativ enerji mənbələrinin əsas üstünlüyü onların təbii proseslərə əsaslanması və ekoloji cəhətdən daha təhlükəsiz olmasıdır. Bu mənbələrin işləmə prinsipləri fizikanın fundamental qanunlarına söykənir.

Bu mənbələrdən biri günəş enerjisidir.Günəş enerjisi elektromaqnit şüalanması şəklində Yerə çatır. Bu şüalanma kvant xarakterlidir və hər bir fotonun enerjisi aşağıdakı ifadə ilə təyin olunur:

$$E = h\nu$$

burada

h – Plank sabiti,(h=6,63$\cdot 10^{-34}$C$\cdot san$)

ν– şüalanmanın tezliyidir.

Bu prinsip Maks Plank tərəfindən irəli sürülmüş kvant nəzəriyyəsinə əsaslanır.Bu nəzəriyyənin tətbiqlərindən biri fotoeffekt hadisəsidir.[1,s. 547]

Fotovoltaik panellərin iş prinsipi xarici fotoeffekt hadisəsinə əsaslanır. Bu hadisə Albert Eynşteyn tərəfindən nəzəri cəhətdən izah edilmişdir.

Yarımkeçiricidə fotonun enerjisi elektron–deşik cütü yaradır və elektrik cərəyanı əmələ gəlir.

Günəş panelinin gücü:

$$P = UI$$

Səmərəlilik isə:

$$\tau = \frac{P_{çıxış}}{P_{daxil}}$$

Alternativ enerji mənbələrindən biri də külək enerjisidir. Külək enerjisi hava kütlələrinin kinetik enerjisinə əsaslanır.

Kinetik enerji:

$$E_k = \frac{mv^2}{2}$$

Külək turbininin orta gücü təqribən:

$$\bar{P} = \frac{1}{2}\rho A\, v^3$$

burada:

ρ – havanın sıxlığı,

A – qanadların süpürdüyü sahə,

V – küləyin sürətidir.

Bu sistemlər klassik mexanika və aerodinamika qanunlarına əsaslanır.[2.s. 11]

Su elektrik stansiyalarında suyun potensial enerjisi kinetik enerjiyə, sonra isə elektrik enerjisinə çevrilir.

Potensial enerji:

$$E_p = mgh$$

burada: h – suyun hündürlük fərqidir.

Turbinlərın işi elektromaqnit induksiya qanununa əsaslanır ki, bu qanun Maykl Faradey tərəfindən kəşf edilmişdir.[3,s. 62]

Alternativ enerji mənbələrinə misal Geotermal və Bioenerjini də göstərmək olar.Geotermal enerji Yer daxilindəki istilik enerjisinə əsaslanır. Bu enerji radioaktiv parçalanma və ilkin planetar istilik nəticəsində yaranır.

İstilik mühərriklərinin səmərəliliyi:

$$\eta = 1 - \frac{T_2}{T_1}$$

Bu ifadə Sadi Carno və Klauzius tərəfindən formalaşdırılmış termodinamikanın ikinci qanunu ilə əlaqəlidir.

Bioenerji üzvi maddələrin yanması və ya biokimyəvi çevrilməsi nəticəsində alınır.

Yanma reaksiyalarında enerji molekulyar rabitələrin qırılması və yaranması ilə bağlıdır. Bu proseslər termokimya qanunları ilə izah edilir.

Nəticə. Alternativ enerji mənbələri fizikanın fundamental qanunlarına əsaslanır və müasir enerji sistemlərinin gələcəyini formalaşdırır. Günəş enerjisində kvant mexanikası, külək və hidroenerjidə klassik mexanika, geotermal enerjidə isə termodinamika əsas rol oynayır.

Dayanıqlı inkişaf strategiyalarında alternativ enerjinin payının artırılması həm elmi, həm də texnoloji baxımdan prioritet istiqamət olaraq qalır.

ƏDƏBİYYAT

1.B.Z.Əliyev,Ümumi fizika kursu,Bakı-2011,586

2.M.B.Cəfərov,Q.Ü.Ağayev Fizika kursu,Bakı-2025,-435

3.Z.C.Xələfov,S.R.Nuriyeva, Fizikadan laboratoriya praktikumu,Gəncə-2026,-319

PHYSICAL FOUNDATIONS OF ALTERNATIVE ENERGY SOURCES

Zardan Samad oglu Samadov
Zakir Jabrayil oglu Khalafov
Samira Rafig gizi Nuriyeva
s.nuriyeva@atu.edu.az
Azerbaijan University of Technology

Alternative energy sources are of particular importance in modern times in terms of energy security, environmental stability and sustainable development. Against the background of global

climate change and depletion of traditional fuel resources, the development of renewable energy technologies has become a priority. This article analyzes the physical foundations of alternative energy sources - solar, wind, hydropower, geothermal and bioenergy. The mechanism of operation of each type of energy is explained on the basis of the laws of electromagnetism, thermodynamics, quantum mechanics and mechanics. At the same time, the efficiency of energy conversion, power calculations and the prospects of modern technologies are investigated from a scientific point of view. The article covers not only theoretical knowledge, but also applied aspects.

Keywords: Alternative energy, solar energy, wind energy, hydropower, geothermal energy, bioenergy, photovoltaic effect, energy conversion, thermodynamics, electromagnetism.

FUNDAMENTAL SCIENCE AND INNOVATIVE TECHNOLOGIES: INTERACTION MECHANISMS AND CHALLENGES OF THE 21ST CENTURY.

Manapbay Makhambet Bolatuly[1]
mahanbetmanapbaj2@gmail.com
Abdullaeva Ainur Askarovna[2]
1st year student of the educational program "Industrial Robotics"
Almaty Technological University[1]
Azerbaijan Technological University[2]

Introduction The relevance of the study is driven by a radical change in the ontological obligations and social role of science during the transition to the post-industrial stage of development. In the "knowledge society," science is transforming into a direct productive force, blurring the boundaries between theoretical search and technological design. Modern science operates in the mode of "technoscience," where the cognition of nature is inseparable from its instrumental transformation.

Conceptual Framework: Fundamental and Applied Science According to the methodological structure, fundamental science is oriented towards Truth as an intrinsic value, while applied science seeks practical Utility. The process of scientific knowledge genesis includes four stages: empirical, non-fundamental theoretical, speculative, and fundamental theoretical.

The Phenomenon of "Technoscience" and XXI Century Challenges Modern "technoscience" represents a symbiosis: the "technologization" of fundamental research and the "theoretization" of applied development. A special form of this unity is NBIC-convergence (nano-bio-info-cogno), where interdisciplinary boundaries vanish. The main challenge lies in the transformation of science into a commodity, where the criterion of Truth is replaced by the criterion of efficiency.

Analysis of Interaction Models The evolution of interactions can be represented through models described by E.A. Mamchur:

Linear model (F. Bacon): Pure science → applied development → public welfare.

Market model (A. Smith): Market needs as the primary driver.

Chain model: Design-led process where science is an external resource. An integrative model is **"Pasteur's Quadrant"** by D. Stokes, which identifies research that simultaneously seeks fundamental truth and practical utility.

The Role of Business and State Business is a key actor in innovation. The entrepreneur is a subject with the "mental capacity" to find "errors" in the market situation. In the era of "Big Science," the state must maintain balance, preventing the total displacement of fundamental search by short-term market interests.

Modern Requirements for the Researcher Innovative economy dictates a transition to the principle of "from actions to knowledge." A modern scientist must possess convergent competencies: economic, legal (intellectual property), and managerial. Statistics confirm high risks: only **9%** of ideas reach mass production, highlighting the need for management tools.

Conclusion Despite the trend of commercialization, fundamental science remains the ontological foundation of progress. A sustainable innovative breakthrough is possible only by maintaining the dialectical unity between the search for Truth and technological efficiency.

REFERENCES

1.Volkov V. L. Innovative approach in scientific research // Fundamental research. 2008. No. 9. P. 70–71.
2.Klistorin V. I. Fundamental science, technological innovations and business. A brief history of interaction // Science Management: Theory and Practice. 2021. Vol. 3, No. 4. P. 81–87.
3.Kotenko V. P. Science of the XXI century: fundamental or applied (or technoscience)? // Discourse. 2016. No. 1. P. 14–23.
4.Mamchur E. A. Fundamental science and technologies: searching for interaction mechanisms // Epistemology and Philosophy of Science. 2011. Vol. XXVII, No. 1. P. 33–52.

FUNDAMENTAL SCIENCE AND INNOVATIVE TECHNOLOGIES: INTERACTION MECHANISMS AND CHALLENGES OF

Manapbay Makhambet Bolatuly[1]
mahanbetmanapbaj2@gmail.com
Abdullaeva Ainur Askarovna[2]
1st year student of the educational program "Industrial Robotics".
Almaty Technological University[1]
Azerbaijan Technological University[2]

This article problematizes the transformation of the epistemological status of scientific knowledge in the 21st century and the mechanisms of its convergence into the phenomenon of "technoscience." A critical analysis of the dichotomy between fundamental and applied knowledge is conducted within the context of the post-industrial "knowledge society." The author explores the dialectics of the "applicabilization" of scientific inquiry, considering the risks of replacing the classical ideal of Truth with criteria of pragmatic efficiency and economic profitability. Special attention is paid to the deconstruction of interaction models between science and the industrial sector — from Francis Bacon's linear schemes to "Pasteur's Quadrant." Based on an analysis of the NBIC-convergence concept and the role of the entrepreneur as a cognitive agent, requirements for the modern researcher are formulated. The goal of the work is to substantiate the necessity of maintaining a balance between fundamental search and commercialization to ensure sustainable technological progress.

Keywords: fundamental science, applied research, technoscience, innovation, Pasteur's Quadrant, commercialization, NBIC-convergence, applicabilization, epistemological status, technologization

EKOSİSTEMLƏRİN ÖYRƏNİLMƏSİNİN ƏSAS GEOFİZİKİ METODLARI

Səyyarə Paşa qızı İsgəndərova[1]
Zərqələm Nazim qızı Hüseyinova[2]
Zergelem_huseynova@mail.ru
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

İnsanlıq tarixi təbii ehtiyatlara olan daim artan tələbat, tükənən ehtiyatların yeniləri ilə əvəz olunması və onların daha intensiv istismarı ilə xarakterizə olunur. Cəmiyyətin sonrakı inkişafı ekoloji şəraitin mütləq və tam şəkildə nəzərə alınmasını və təbii ehtiyatların qiymətləndirilməsini tələb edir. Sosial sistemin biosferə təsiri isə getdikcə daha çox ekoloji şəraitin pozulmasına və ətraf mühitin keyfiyyətinin pisləşməsinə səbəb olur [1,2].

Ekologiyada geofiziki tədqiqatlar sistemi dedikdə, müxtəlif mərhələlərdə və təbii şəraitdən asılı olaraq dəyişən, bir-biri ilə qarşılıqlı əlaqədə olan geofiziki metodların kompleksi nəzərdə tutulur. Ekologiyada əsasən elektrik, seysmik, qravimetrik, maqnitometrik, geotermik və nüvə metodlarından istifadə olunur.Bu sistemin əsasını tədqiqat prosesinin aydın şəkildə müəyyən

edilmiş mərhələlərə və yarımmərhələlərə bölünməsi təşkil edir. Geofiziki işlərin strukturlaşdırılması və mərhələlər üzrə təşkili həm normativ sənədlərin tələblərinə, həm də uzun illər ərzində formalaşmış praktik təcrübəyə əsaslanır [3,4].

Geofiziki metodların kompleks şəkildə tətbiqi prinsipləri bütün tətbiqi geofizika sahələri üçün (neft-qaz, filiz, kömür, mühəndis geofizikası və s.) eyni xarakter daşıyır. Bu yanaşma ekoloji geofizika üçün də keçərlidir və burada geofiziki üsullar geoloji, geokimyəvi və digər tədqiqat metodları ilə sıx əlaqədə istifadə olunur. Belə inteqrasiya olunmuş yanaşma tədqiqat obyektləri haqqında daha dolğun və etibarlı məlumat əldə etməyə imkan verir.

Kompleks ekogeofiziki tədqiqatların əsas məqsədi geoekoloji və geokimyəvi məlumatlara əlavə olaraq keyfiyyət və kəmiyyət göstəricilərinin əldə olunmasıdır. Bu isə öyrənilən obyektlər haqqında məlumatların dəqiqliyini və tamlığını artırır. Geofiziki metodların üstünlükləri aşağıdakılardır:

1. Əldə olunan informasiyanın böyük həcmli və çoxşaxəli olması;
2. Yer səthinə çıxmayan obyektlərin dolayı üsullarla öyrənilməsi imkanı;
3. Fiziki sahələr haqqında obyektiv məlumatların əldə edilməsi;
4. Nisbətən aşağı maliyyət və yüksək məhsuldarlıq.

Ekoloji tədqiqatlarda istifadə olunan əsas geofiziki metodlar

Ekoloji tədqiqatlarda aşağıdakı əsas geofiziki metod qruplarından geniş istifadə olunur:

Elektrik metodları – Yer kürəsinin təbii və ya süni yaradılmış elektromaqnit sahələrinin öyrənilməsinə əsaslanır. Bu metodlar yeraltı strukturların elektrik keçiriciliyini və müqavimətini müəyyən etməyə imkan verir.

Seysmik metodlar – Süni şəkildə yaradılan elastik dalğaların süxurlarda yayılma xüsusiyyətlərini öyrənir. Bu üsullar süxurların quruluşu və sıxlığı haqqında məlumat verir.

Qravimetrik metodlar – Yer cazibə qüvvəsi sahəsinin xüsusiyyətlərini tədqiq edir. Bu metodlar sıxlıq fərqlərinə əsaslanaraq yeraltı strukturların aşkar edilməsinə imkan yaradır.

Maqnitometrik metodlar – Yer kürəsinin maqnit sahəsindəki dəyişiklikləri öyrənir və maqnit xüsusiyyətlərinə görə süxurların fərqləndirilməsini təmin edir.

Geotermik metodlar – Yer daxilində temperatur sahəsinin öyrənilməsinə əsaslanır. Bu metodlar həm təbii, həm də süni istilik sahələrinin analizini əhatə edir.

Nüvə metodları – Nüvə çevrilmələri zamanı baş verən fiziki proseslərin və ya nüvə şüalanmasının maddə ilə qarşılıqlı təsirinin müşahidəsinə əsaslanır. Bu üsullar süxurların tərkibi və strukturunun öyrənilməsində mühüm rol oynayır.

Ən çox tətbiq olunan konkret metodlar

Ekoloji tədqiqatlarda daha geniş istifadə olunan konkret geofiziki üsullar aşağıdakılardır:

Şaquli elektrik zondlama, elektroprafilləşdirmə, elektrokaroataj, yaranmış potensiallar metodu ilə zondlama, rezistivimetriya (suyun xüsusi elektrik müqavimətinin ölçülməsi), sındırılmış dalğalar üsulu ilə seysmik kəşfiyyat, termometriya ,qamma-çəkiliş, penetrasiya və radiometrik karotaj

Tədqiqat mərhələləri və tətbiq sahələri

Geofiziki tədqiqatların növü və seçilən metodlar işin məqsədindən və miqyasından asılıdır. İlkin mərhələdə adətən ərazinin ümumi qiymətləndirilməsi üçün aerogeofiziki çəkilişlər aparılır. Bu mərhələ potensial anomaliyaların müəyyən edilməsinə xidmət edir.

Daha sonra avtomobil, piyada və quyudaxili (karotaj) tədqiqatlar həyata keçirilir. Bu işlər aeroməlumatlar əsasında seçilmiş anomaliyaların təbiətini öyrənmək və onların kəmiyyət göstəricilərini müəyyənləşdirmək məqsədi daşıyır.

Ekosistemlərdə baş verən dəyişikliklər əsasən maddə və enerji mübadiləsinin fiziki qanunları ilə tənzimlənir. İnsan fəaliyyətinin artması nəticəsində bu mübadilə proseslərində tarazlıq pozulur, enerji axınlarının istiqaməti və intensivliyi dəyişir, nəticədə sistemin sabitliyi azalır. Fiziki baxımdan bu, açıq sistem kimi ekosistemin entropiyasının artması, istilik və kütlə ötürülməsi proseslərinin qeyri-optimal hala gəlməsi ilə xarakterizə olunur. Buna görə də ekosistemlərin qorunması üçün təbii proseslərin enerji balansı və maddə dövranı fiziki qanunlar əsasında qiymətləndirilməli və idarə olunmalıdır.

Beləliklə tədqiqatın nəticəsi olaraq ekosistem haqqında **daha dolğun, obyektiv və etibarlı elmi fiziki təsəvvür yaranır** və bu da ekologiyanın qorunması, təbii ehtiyatların səmərəli istifadəsi və ekoloji risklərin azaldılması üçün mühüm baza rolunu oynayır.

ƏDƏBİYYAT

1.A.A.Quliyev İstilik və kütlə mübadiləsi prosesləri. Bakı: ADNA nəşriyyatı, 2010, 280 s.
2.Əliyev, S.H. İstilik ötürülməsi nəzəriyyəsi. Bakı: Bakı Universiteti nəşriyyatı, 2012, 340 s.
3.Hüseynov, R.Ə. İstilik və kütlə mübadiləsi. Bakı: Təhsil nəşriyyatı, 2018, 412 s.
4.Дульнев Г. Н**.**Теория тепло и массообмена.Санкт- Петербург: 2012, 195 s.

MAIN GEOPHYSICAL METHODS FOR STUDYING ECOSYSTEMS

Sayyara Pasha Isgenderova[1]
Zerqelam Nazim Huseyinova [2]
Ganja State University[1]
Azerbaijan Technological University[2]

Human activity disrupts the system of energy flows and matter cycles in ecosystems, leading to a decrease in their physical equilibrium and stability. Intensive exploitation of natural resources results in inefficiencies in energy and mass exchange processes. The article examines issues related to ecosystem conservation based on physical laws, including the necessity of considering energy balance and matter cycling.

Keywords:matter cycle, energy balance, ecosystem, physical equilibrium, nuclear methods, ecological conditions, geophysical methods

FİZİKANIN DİGƏR İXTİSAS FƏNLƏRİ İLƏ İNTEQRASİYASI

Samirə Kamandir qızı Rüstəmova[1]
srustamova162@gmail.com
Nurlana Vahid qızı Kazımova[2]
Zərqələm Nazim qızı Hüseyinova[1]
Zerqelem_huseynova@mail.ru
Gəncə Dövlət universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Təhsil sisteminin inkişaf mərhələsi olan ibtidai təlim insan həyatının əhəmiyyət kəsb edən mərhələsidir. Bu zaman onun fərdi qabiliyyətlərinin aşkarlanması üçün hər cür şəraitin yaradılması mümkündür [1]. Məhz bu baxımdan təhsil konsepsiyamız şəxsiyyətyönümlülük, şagirdyönümlülük, nəticəyönümlülük, tələbyönümlülük və inteqratililik prinsiplərinə istinad edərək təhsilin keyfiyyətini yüksəltməyin bünövrəsini qoyub. Kurikulum fənnin məzmunu, təlim strategiyası və qiymətləndirməni özündə əks etdirən konseptual sənəddir. Məhz bu nöqteyi nəzərdən təhsil sistemimizin fənlərin tədrisinə qoyduğu tələb nəyi?, necə?, nə üçün? sualına cavabı axtarıb tapmaqdan ibarətdir. Müasir təhsil sisteminin başlıca meyarı təhsialanlara nəyi öyrətməliyik fənnin məzmunundada, necə öyrətməliyik təlim strategiyasında, nə üçün öyrətməliyik qiymətləndirmə mexanizminin düzgün qurulmasıda axtarmağı tələb edir [2].

Fənlərarası əlaqə əldə olunan informasiyanın yadda qalması kimi mühüm bir psixoloji funksiyanın da yerinə yetirilməsində xüsusi əhəmiyyət kəsb edir. Fənlərarası əlaqə vasitəsilə qonşu fənlərin ayrı-ayrı faktlarının ümumiləşdirilməsinin nəticəsidir. Təbiət elmlərində tələbələr, başlıca olaraq, materiyanın quruluşu və onun müxtəlif hərəkət formalarını əhatə edən məsələləri öyrənirlər. Ona görə də bütün tədris müddətində müxtəlif fənlərə aid dərslərdə dəfələrlə eyni elmi anlayışlar hadisələr və ya qanunlarla rastlaşırlar. Verilmiş hadisə haqqında onlar öz biliklərini genişləndirərək, hər dəfə bu hadisənin yeni bir Hər bir fənnin tədrisində fənlərarası və fəndaxili ineqrasiya xüsusi diqqət verilir. Fizika, kimya, biologiya, texnalogiya, coğrafiya və.s. kimi fənlərin tədrisində

inteqrasiya xüsusi əhəmiyyət kəsb edir. İnteqrasiya təhsilin bütün sahələrinə aid olduğundan tez tez inteqrativ təlim, inteqrativ dərs, inteqrativ fənn kimi terminlərə çox rast gəlirik [2].

İnteqrativ dərslərin tədrisi metodikasına verilən tələb aşağıdakılardır:

1.Təhsilalan keçilən mövzuda fənlərarsı inteqrasiyanı dərk etməlidir.

2.Bilik, bacarıq, vərdiş və qabiliyyətin qazanılması fənlərin tədrisinə qoyulan tələb olduğunu bilməlidir.

Əldə olunan bilik və bacarıqdan digərinə keçidin müəyyən yollarla tətbiq əlamətini öyrənirlər.

Sadaladığımız bu tələblər təhsilalanın ayrı-ayrı fənlərdən aldığı bilikləri əlaqələndirir, mövzunun mənimsənilməsində, elmi dünyagörüşünün formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Bir neçə fənnin (fizikanın tədrisində: kimya, biologiya, coğrafiya, texnalogiya və.s) birləşdiyi ortaq məqsəd əldə olunan bilik və bacarıqların sintezini təşkil etməklə fizika fənninə aid olan anlayış və metodların digər bir fənnin tədrisi keyfiyyətinə təsirini araşdırmağa imkan verir [3]. Fizika və coğrafiya fənlərinin fənləarası inteqrasiyalı tədrisinə nəzər salaq. Hər iki fənn təbiət elmləri sırasına daxildir. Fənləri tədrisi kurikulum proqramına əsasən üç məzmun xəttinə malikdir.

Fizika fənnin məzmun xətti aşağıdakılardır :

1. Fiziki hadisələr, qanunauyğunluqlar qanunlar
2. Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər.
3. Eksperimental fizika və müasir həyat .

Coğrafiya fənninin məzmun xətti

1. Coğrafi məkan.
2. Təbiət.
3. Cəmiyyət.

Bilirik ki, məzmun xətti dəyişməzdir hər iki fənnin tədrisinin məzmun xətləri arasında çox sıx əlaqə vardır. Belə ki, fizikanın I və II məzmun xətti ilə coğrafiyanın I və II məzmun xətləri kəsişir. III məzmun xətti isə sosial həyat konteksində inteqrasiya olunma I və II məzmun xətlərində insanların yerləşməsində təbii şəraitin rolu (relyef şəraiti, temperatur, rütubət, atmosfer, geoloji) uzlaşa bilər. Məsələn fizika fəninin tədrisinində öyrənilən isitik hadisələri, təzyiq, dinamikanin əsasları, mexaniki rəqslər dalğalar tədris vahidləri coğrafiyada qabarma -şəkilmə, külək dalğası, planetlər arası cazibə qüvvəsi (Ay və Günəş), fırtına, tornado, tayfun, sunami, exolot movzuları fənlərarası inteqrasiya ilə tədris olunur [3].

Coğrafiyada mənimsənilməsi bir qədər çətin olan iqlim hava elementləri (temtratur, təzyiq, rütubət) fizikada "Molekulların istilik hərəkəti. Daxili enerji" tədris vahidi ilə əlaqəli öyrənilir.

Məsələn fizika kursunda tempraturun dəyişməsi havanın və suyun sıxlığına, cisimlərin xassələrinə təsir edir. Hündürlük artıdca havanın tempraturu və sıxlığı azalır. Hər 500 metrdə tempratur 3^0 dərəcə azalır. Təyarənin uçduğu maksimal hündürlükdə tempraturu asanlıqla təyin etmək mümkün olur.

Coğrafiyada havanın tempraturu Günəş şüalarının düşmə bucağından, coğrafi enlikdən, səth örtüyünün relyefi ilə örtülür.

Coğrafiyada fizika ilə uzlaşan anlayışlardan biri də təzyiqdir. Bu mövzunun tədrisi zamanı coğrafiya müəllimi fizika müəllimi ilə sıx əməkdaşlığı vacibdir. Atmosferin Yer səthinə və cisimlərə etdiyi təzyiq atmosfer təzyiqi adlanır. Yəni havanın Yer səthi üzərində öz kütləsi var. Toriçelli təcrübəsini yada salınır. Onun kəşfi borudakı (civəli barometr) civə ilə atmosfer təzyiqinin əlaqəsinə əsaslanır. Dərs zamanı atmosfer təzyiqinin müvafiq fizika laboratoriyasında barometr, barometr-aneroid vasitəsi ilə təcrübədə ölçülməsi metodiki

olaraq tövsiyə olunur Coğrafiyada təzyiq Yer səthində və sosial həyatda bir çox sahələrə təsir edir. Normal atmosfer təzyiqi 760 mm c.s. 450 şimal enliyində dəniz səviyyəsində ölçülüb. 760 mm c.s.–dən aşağı olan təzyiq alçaq, yuxarı olan təzyiq isə yüksək təzyiq adlanır. Təcrübədə müəyyən olunub ki, hüdürlüyə doğru qalxdıqca havanın seyrəkləşməsi və Yerin cazibə qüvvəsinin azalması nəticəsində təzyiq hər 10 m-də 1 mm c.s. azalır.

Yer səthində Günəş şüalarının qeyri-bərabər paylanması və Yerin Günəş ətrafında fırlanması nəticəsində üç termik və dörd dinamik təzyiq qurşağı əmələ gəlir. Bu təzyiq qurşaqlarından üçü (ekvatorial və mülayim qurşaqlar) alçaq, dördü yüksəkdir (tropik və qütblər). Təzyiq qurşaqları daimi küləklərin əmələ gəlməsinin əsas səbəbidir. Daimi təzyiq sahələri arasında daimi küləklər (Passat, Qərb külәkləri, Şimal-şərq və Cənub-şərq) əmələ gəlir. Eyni zamanda, su ilə qurunun qeyri-bərabər qızması nəticəsində əmələ gələn təzyiq fərqindən brizlər (sutka ərzində istiqamətini iki dəfə dəyişən), mussonlar (il ərzində istiqamətini iki dəfə dəyişən), tornado və tayfun formalaşır. Dağlıq ərazilərdə isə dağın yuxarı və aşağı hissələrində temperatur fərqindən dağ-dərə külәkləri ortaya çıxır.

Beləliklə, bu hadisə dəfələrlə yaddaşda təkrar olunur, əvvəllər əmələ gələn assosiasiyalar möhkəmlənir və onun yeni əlamətlərinin məlum olması ilə ən yeni assosiasiyalar yaranır. Hər bir mövzunun tədrisində onun əsas əlamətlərini yadda saxlamağı onlardan tələb etmək və bunun başqa fənlərdə öyrədilən digər məsələlərdə istifadə olacağını aşılamaq lazımdır [3].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Bakı: Kurikulum, 2008. №1
2.Abaszadə A. Fizika tədrisinin birinci pilləsində fəndaxili əlaqə./ A.Abaszadə.–Bakı, 1983.
3.Əzizov, T.X. Fizikanın tədrisində fəal və interaktiv təlim metodlarının tətbiqi. / T.X. Əzizov, A.S. Xalıqov Bakı: 2007.

INTEGRATION OF PHYSICS WITH OTHER SPECIALIZATIONS

Samira Kamandir Rustamova[1]
srustamova162@gmail.com
Zerqelam Nazim Huseyinova[2]
Zerqelem_huseynova@mail.ru
Nurlana Vahid Kazımova[2]
Ganja State University[1]
Azerbaijan University of Technology[2]

The main goal of our research is to investigate more effective ways to increase the interest of students in mastering their specialty subjects in higher education institutions, expand the scope of knowledge and skills they have acquired, and develop their worldviews. The main goal here is to analyze the impact of physics on the quality of teaching other specialty subjects, to conduct research by giving priority to laboratory exercises and demonstration experiments in the teaching process of the physics course.

Keywords: physics, integration, geography, interdisciplinary, skills

X-XI SİNİF FİZİKA KURSUNDA FİZİKA MƏSƏLƏLƏRİNİN TƏLİM FƏALİYYƏTİNİN STRUKTURU

Samirə Kamandir qızı Rüstəmova[1]
srustamova162@gmail.com
Zərqələm Nazim qızı Hüseyinova[2]
Zerqelem_huseynova@mail.ru
Vüsalə Sirac qızı Zərbəliyeva[1]
Sabir Museyib oğlu Abdullayev[1]
Gəncə Dövlət universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Yaşadığımız dövrdə təhsilin əsas vəzifəsi fənlərin tədrisi prosesində qoyulan tələblər vətəndaş cəmiyyətində yaşayacaq kamil insanın formalaşdırılmasının vasitə və yollarını müəyyənləşdirməyə, onun yüksək mənəvi ideyalar və dəyərlərə yiyələnməyə, insan həyatının mənasını anlamağa və dərk etməyə, öz şəxsi həyatında daima yeni naliyyətlər əldə etməsi üçün fərdi qabiliyyətlərə bacarıq vərdiş və qabiliyyətlərə malik şəxsiyyət yetişdirməkdir. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumun)" fənlərin tədrisinə qoyduğu tələb təlim prosesində şagirdlər qeyd olunan kompatensiyalara yiyələnməlidir. Fizika fənninin mənimsənilməsi və qoyulan tələblərin yerinə yetirilməsi dəslərin təşkili prosesində nail olunur. Fizika fənni üzrə dərs -məsələ məşğələsində fizika məsələlərin həlli üzrə təlim fəaliyyətinin geniş xarakteristikasını aşağıdakı kimi ifadə etmək olar [1]:

1. Məsələnin həllı ilə tanışlıq və onun təhlili.

• məsələnin şərti və tələbləri ilə ilkin tanışlıq (məsələnin oxunması), məlum və məchulların aşkarlanması;

• məsələdə təsvir olunan hadisə, proses və ya obyektin seçilməsi;

• məsələnin şərtini və tələblərini qısa yazmaqla,onu aydınlaşdıran şəkil, sxem çəkməklə məsələdəki situasiyanın qavranılması.

2. Məsələnin həllı planının tərtib olunması.

• məsələnin şərti və tələblərinin şagirdlərin bilik və bacarıqları ilə əlaqələndirilməsi; məsələnin məzmunu ilə baglı vəziyyəti izah etməyə imkan verən qanunun, nəzəriyyənin müəyyənləşdirilməsi;

• məsələnin həllinin mümkün yolunun seçilməsi; məsələnin həllinin rasional yolunun (metodunun) seçilməsi;

• seçilmiş həll metodu və fiziki qanunauyğunluğun reallaşması əsasında məsələnin həlli planının tərtib olunması;

• məsələnin seçilmiş vasitələrlə həllinin məqsədəuyğunluğunun yoxlanması.

3. Həllin yerinə yetirilməsi:

• tərtib olunmuş məsələ həllı planında istiqamətlənmə əsasında məsələnin həllı üsulunun seçilməsi;

• məsələnin predmetini təsvir edən əsas tənliyin müəyyənləşdirilməsi;

• məsələnin şərti və tələbləri arasında əlaqələrin müəyyənləşdirilməsi; kəmiyyətlərin hesablanması (yeni biliyin məzmununun seçilməsi);

• həll prosesinin reallaşmasının (məsələnin şərti və tələbi arasında alınan münasibətin) doğruluğunun yoxlanması.

1.Məsələ həllinin nəticəsinin yoxlanması.

• alınan nəticənin məzmununun dəqiqləşdirilməsi, onun biliyin struktur elementləri ilə əlaqələndirilməsi;

• həllin nəticəsinin yoxlanması metodunun seçilməsi;

• nəticənin yoxlanması prosesinin həyata keçirilməsi;

• həllin nəticəsinin başqa metodlarla yoxlanması imkanlarının müəyyənləşdirilməsi.

2.Məsələnin həllının praktik əhəmiyyətinin qiymətləndirilməsi.

• məsələ həllinin nəticələrinin yönəldiyi insan fəaliyyəti oblastlarının aşkarlanması;

• alınan nəticənin əhəmiyyətinin qiymətləndirilməsi üsulunun seçilməsi;

• məsələ həllinin insanın həyat fəaliyyəti üçün əhəmiyyətinin müəyyənləşdiril məsi;

• başqa verilənlər vasitəsilə eyni nəticənin alınması imkanının müəyyənləşdirilməsi.

3.Məsələ həllində öz təəssüratını təhliletmə fəaliyyəti**.**

• məsələ həlli zamanı istifadə olunan priyomların seçilməsi;

• verilmiş məsələnin həllinə tətbiq baxımından seçilmiş priyomların təhlili (ən əlverişli priyomların seçilməsi və onların sistemləşdirilməsi);

• verilmiş məsələnin əvvəllər həll olunmuşlarla tutuşdurulması, onların həllində ümumi qanunauyğunluqların aşkarlanması;

• məsələnin başqa üsulla həlli imkanının müəyyənləşdirilməsi.

Qeyd etdiyimiz məsələ həllinin təlim fəaliyyətinin sturukturuna uyğun bir neçə məsələ həllinin yerinə yetirilməsinə baxmaq olar [2].

Məsələ. Buz meydançada şayba 25m yol gedərək dayanır. Sürtünmə qüvvəsi şaybanın ağırlıq qüvvəsinin 5%-ni təşkil etdiyini bilərək şaybanın başlanğıc sürətini tapın.

Həlli: Sürtünmə qüvvəsi ağırlıq qüvvəsinin 5%-ni təşkil etdiyindən, ($F_{sür}$=0,05mg) şayba a=0,05g təcili ilə bərabəryavaşıyan hərəkət edəcəkdir. Bu hərəkətdə tormoz yolunun uzunluğu $s_t=v^2_0/2a$ düsturu ilə təyin olunur. Buradan $v_0 = \sqrt{2as} = \sqrt{2 \cdot 0{,}05g \cdot s} = \sqrt{0{,}1gs} = \sqrt{25} = 5m/san$ alırıq. Beləliklə fizika məsələlərin həlli üzrə fəaliyyətin strukturuna (məsələnin şərti ilə tanışlıq, şərtin təhlili, həll planının tərtibi, həllin yerinə yetirilməsi və nəticənin yoxlanması) həllin nəticəsinin praktik əhəmiyyətini qiymətləndirmək, dərk etmək və öz təəssüratını təhliletmə fəaliyyəti üzrə şagirdlərin hərəkətləri daxil edilməlidir. Fizika məsələlərin həlli üzrə fəaliyyətin strukturuna ümumi təhsilin məzmununu müəyyənləşdirən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumun)" tələblərinə (tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük) uyğundur [3].

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Kurikulum. Bakı, 2008, №21 s. 131-150.

2.Ümumi təhsilin fənn standartları. Bakı: "Mütərcim", 2012.

3.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı – 2010.

4.Murquzov M.İ., Abdurazaqov R.R., Əliyev R.M. Fizika-10. sinif. Merodik vəsait, Bakı, "Bakınəşr", 2017. 207 səh

5.Murquzov M.İ.,Abdurazaqov R.R.,Əliyev R.M Fizika-10,. Dərslik, Bakı, "Bakınəşr", 2022. 208 səh

6.Murquzov M.İ., R.R..Abdurazaqov, R.M.Əliyev. Fizika-11. sinif. Merodik vəsait, Bakı, "Bakınəşr", 2018. 207 səh.

STRUCTURE OF TEACHING ACTIVITIES FOR PHYSICS PROBLEMS IN THE PHYSICS COURSE FOR GRADES X-XI

Samira Kamandar Rustamova[1]
srustamova162@gmail.com
Zarqalam Nazim Huseynova[2]
zerqelem_huseynova@mail.ru
Vusala Siraj Zarbaliyeva[1]
Sabir Museyib Abdullayev[1]
Ganja State University[1]
Azerbaijan Technological University[2]

The structure of the activity on solving physics problems (familiarity with the condition of the problem, analysis of the condition, development of a solution plan, implementation of the solution and verification of the result) was expected to be consistent with the activity of evaluating the practical significance of the solution result, understanding it and analyzing one's own impression. The compliance of the structure of the activity on solving physics problems with the requirements (demand-oriented, result-oriented, student-oriented) of the "Concept of General Education in the Republic of Azerbaijan" that determines the content of general education was examined.


Keywords: physics, problem solving, learning activity, structure, curriculum

FİZİKA FƏNNİNDƏN LABORATORİYA İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNDƏ KOMPUTER TEXNOLOGİYASINDAN İSTİFADƏ

Səyyarə Paşa qızı Isgəndərova[1]
Samirə Rafiq qızı Nuriyeva[2]
Nurlana Vahid qızı Kazımova[2]
Zərqələm Hüseyinova Nazım qızı[2]
Zerqelem_huseynova@mail.ru
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Eкsperimentlərin dəqiq aparılması fizika elmində əldə edilən nailiyyətlərdə həmişə əsas olmuşdur. Bu günə kimi çoxlu sayda məktəb fizika kursunun tədrisində laboratoriya işlərinin, praktikum və eksperimentlərin aparılması və tədrisi metodikası ilə əlaqədar xeyli tədqiqat işləri aparılmış, metodik göstərişlər işlənilmiş və maraqlı nəticələr əldə edilmişdir. Amma təəssüflə qeyd etmək lazımdır ki, bu cür eksperimental təcrübə- lərin yerinə yetirilməsində dərslərdə kompyuterin tətbiqilə respublikamızda son vaxtlara qədər fundamental iş yerinə yetirilməmişdir. İlk təşəbbüs bu sahədə Respublika Elm və Təhsil Nazirliyinin tapşırığı ilə hazırlanmış ümumtəhsil məktəbləri üçün fizikadan elektron dərsliyin nəşr edilməsi qismində olsa məsələnin həllinə kömək etdi, amma problemin həlli hələdə həll olmamış qalmışdır. Bu elektron dərslikdə orta məktəb fizika kursu üzrə "Mexanika"-beş, "Molekulyar fizika və termodinamika-iki, "Elektrodinamika"-üç, "Optika"- üzrə isə bir laboratoriya işinin kompyuterdə vizual olaraq yerinə yetirilməsi verilmişdir. Hal-hazırda tətbiq olunan elektron dərsliklərdəki laboratoriya işlərinin strukturunda: mövzunun adı, işə aid metodik göstərişlər, cihaz və materiallar, ölçmə zamanı alınmış nəticələrin işlənərək yekunda müvafiq kəmiyyətlər arasındakı asılılıqlara uyğun cədvəllərə yazılır və ənənəvi qaydada qrafiklərin qurulması həyata keçirilir [1-4].

Elektron dərslikdə yəni vizual olaraq ekranda zərrəciyin necə spiralvari hərəkət etdiyini, çevrənin radiusunu, maqnit induksiya vektorunun istiqamətini, sərf olunan vaxtı və koordinatları asanlıqla lazımı kəmiyyətlərin verilməsi ilə təyin etmək olur. Amma ənənvi qaydada aparılan laboratoriya işlərində bunları canlı müşahidə etmək və təyin etmək qeyri-mümkündür. Elektron dərslikdə iş şagirdlərin sərbəst fəaliyyəti ilə yerinə yetirilir, onlara verilmiş suallara cavablar kompyuterdə emal olunur və nəticə haqqında həmin andaca məlumat alınır və alınmış qiymətlər elektron jurnala qeyd edilir. Bu gün fizika kabinetinin kompyuterlə tam təminatı, müəllimin işini xeyli asanlaşdırır. Laborato- riya işlərinin kompyuterdə yerinə yetirilməsi zamanı proqram və informasiya təminatı və təlimin fərdiləşdirilməsi və tədris prosesinin təşkili, avtomatik həyata keçirilir. Bəzi laboratoriya işlərinin, çox sürətlə baş verməsi, yaxud başa çatması xeyli vaxt tələb edən proseslərin müşahidəsi, sinifdə göstərilməsi təhlükəliliyi, onların üzərində müxtəlif əməliyyatların aparılması, qiymətli cihazlar tələb etməsi baxımından və s. mümkün



Şəkil . Maqnit sahəsində yüklü zərrəciyin hərəkətini göstərən model

olmayan işlərin yerinə yetirilməsi zamanı kompyuterin tətbiqi, məktəbdə fizikadan laboratoriya işlərini yerinə yetirərkən müəllim və şagirdlərin imkanlarını xeyli genişləndirir, asan olmasını

təmin edilir. Uzun müddət aparılan tədqiqatlardan belə məlum olmuşdur ki, laboratoriya işlərinə kompyuterin aşağıdakı istiqamətlərdə tətbiqi daha faydalıdır.

- laboratoriya işləriində lazım olan müxtəlif səviyyəli hesabatların kompyuterin köməyilə aparılmasına əsaslanır. Laboratoriya işlərinin yerinə yetirilməsi zamanı fizikı kəmiyyətlərin ölçülməsi və yazılması informasiyaların toplanması ikı müxtəlif yol ilə həyata keçirilir. Bu üsullardan istifadə etdərək şagirdlər çox vaxt tələb edən və ağır zəhmətli hesablama işindən, əqli gərginlikdən azad olub hesablamanın nəticəsini birbaşa əldə edirlər.
- analoq-rəqəm siqnal çeviricilərindən istifadə etməklə laboratoriya işinin gedişi və idarə olunması alınmış verilənlər massivi ilə bağlıdır. Rəqəmsal çeviricilər belə sistemdə ən vacib element hesab edilir. Elektron Hesablama Maşınlarının əlaqə kanallarının köməyilə əldə ediləın məlumatlar işlənmək üçün əməli yaddaşa verilir, burada emal olunaraq nəticə displeyə, yaxud çap qurğusuna ötürülür.
- prosesin gedişində hadisələrin çox sürətli və ya həddən artıq yavaş getməsində eksperimentin idarə olunması laboratoriya işinin müxtəlif şəraitdə aparılması, ilə əlaqədardır. Birinci halda fizikı proseslər sürətlə baş verdiyindən eksperimentin gedişini avtomatik idarə etmək zərurəti yaranmaqla, məsələni həll etmək üçün kompyuterin

idarə olunmasının avtomatlaşmış sistemindən istifadə olunur.

- əlverişli olmayan eksperimentlərin, xüsusilə hesablama eksperimentlərinin

aparılması şagirdlərin yaradıcı imkanlarının həyata keçməsi, ilə əlaqədardır. Burada bütün hesablamalar kompyuterlə aparılaraq, alınmış nəticələr ənənəvi eksperimentlə müqayisə olunur.

Beləliklə aparılan araşdırmadan alınan əsas nəticə odur ki, **kompüter texnologiyalarının tətbiqi laboratoriya işlərini effektiv, təhlükəsiz və səmərəli edir,** gələcəkdə təhsil və elmi-tədqiqat sahələrində əvəzolunmaz vasitə kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Fizikadan nümayiş eksperimenti. II hissə. Bakı, 1979
2. İsmayılov İ.N. Fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadə üzrə işin sistemi (Monoqrafiya). Bakı: Mütərcim, 2009, 244 s.
3. Yeni nəsil multimedia dərsliyi (Fizika) Elektron dərsliklər. Bakı: Bakınəşr, 2007
4. Б.С.Беликов Решение задач по физике. Обшие методы – Москва. 1986. 256 с.

THE USE OF COMPUTER TECHNOLOGIES IN THE IMPLEMENTATION OF LABORATORY WORK IN PHYSICS

Sayyara Pasha Isgandarova[1]
Samira Rafiq Nuriyeva[2]
Nurlana Vahid Kazimova[2]
Zarqalam Nazim Huseynova[2]
zerqelem_huseynova@mail.ru
Ganja State University[1]
Azerbaijan Technological University[2]

In this article, the role of computer technologies in the organization and execution of laboratory work is examined. Computer programs and simulation tools enable students to conduct experiments in a virtual environment, thereby enhancing safety, reducing costs, and saving time. Furthermore, the collection, analysis, and visualization of laboratory data are performed more accurately and efficiently with the use of computers. The article notes that computer technologies make the learning process interactive and engaging, while also fostering the development of students' analytical and research skills.

Keywords: Experiment, research, electronic textbook, experimental task, scientific research

FİZİKA KURSUNDA MƏSƏLƏLƏRİNİN TƏDRİSİ METODİKASI

Samirə Kamandir qızı Rüstəmova [1]
srustamova162@gmail.com
Samirə Rafiq qızı Nuriyeva [2]
nuriyeva83@list.ru
Nurlana Vahid qızı Kazımova [2]
Zərqələm Nazim qızı Hüseyinova [2]
Zerqelem_huseynova@mail.ru
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnalogiya Universiteti[2]


Məsələ informasiyanin müəyyən verilmiş formasi olub məsələ prosesində vasitəçi kimi çıxış edir. Təlim prosesinin səmərəsini artırır sosial aktivliyi bilik və bacarığın tətbiqini təmin edir. Tam orta məktəb fizika kursunu əhatə edən məsələlərin təsnifatına aid nümunələrin həlli prosesində şagirdlərin əldə edəcəkləri praktik bacarıq və vərdişləri araşdıraq[1-3].

Məsələ 1. Üfüqi müstəvi üzərində kütləsi m, radiusu R olan həlqə υ sürəti ilə diyirlənir. Həlqə təpəyə hansı hündürlüyə qədər qalxa bilər? (sürtünmə qüvvəsinin işi nəzərə alınmır)

Məsələnin həlli:

Həlqənin tam kinetik enerjisi

$$E_k = E_p; \quad \frac{m\upsilon^2}{2} + \frac{J\omega^2}{2} = mgh$$



Şəkil 1

kimidir. Ətalət momenti $J = mR^2$

buradan $\frac{J\omega^2}{2} = \frac{mR^2\omega^2}{2} \xrightarrow{\upsilon = R\omega} \frac{m\upsilon^2}{2}$

Deməli, $\frac{m\upsilon^2}{2} + \frac{m\upsilon^2}{2} = mgh \rightarrow h = \frac{\upsilon^2}{g}$

Məsələ 2. 1) J ətalət momentinə malik nazim çarx ω bucaq sürəti ilə fırlanır. Əgər çarxa M dayandırıcı moment təsir göstərərsə, dayanana qədər çarx necə dövr edər?

Məsələnin həlli:

Nazim çarxın fırlanması zamanı görülən iş fırlanma kinetik enerjisinə bərabərdir.

$E_k = A; \quad \frac{J\omega^2}{2} = M\varphi$

$\varphi = 2\pi\nu$ olduğundan

$$\frac{J\omega^2}{2} = M\,2\nu \Rightarrow \nu = \frac{J\omega^2}{4\pi M}$$

Adətən bir – iki belə məsələ həll etdikdən sonra yaradıcı xarakterli məsələlərin həllinə keçmək olar:

Məsələ 3. Çəkisi 70 kQ (kiloqram qüvvə) olan adam yer üzərində dayanaraq tərpənməz blokun köməyi ilə kütləsi 40 kq olan yükü qaldırır. Yükün qaldırılması zamanı adamın yerə təzyiq qüvvəsini təyin edin.

Verilir:
$P_1 = 70$ kQ = 686 N
$m_2 = 40$ kq
g = 9,8 m/san^2
F = ?

Həlli: Adamın yerə təzyiq qüvvəsi onun çəkisindən burazın gərilmə qüvvəsinin qiyməti qədər azdır. Ona görə də

$$F = P_1 - P_2 = P_1 - m_2 g$$

Beləliklə fizika məsələlərının həlli prosesi şagirdlərə riyazi hesablama aparmaq, ölçmə aparmaq, məntiqi düşünmək, sxem qurmaq, məsələ həll etmək praktik bacarıq və vərdişlərə yiyələnmiş olurlar.

Beləliklə bu məqalədə fizika məsələlərinin həlli prosesində nəzəriyyə ilə praktikanın vəhdəti əldə olunmuş, ən başlıcası şagirdi elə öyrətməliyik ki, nəyi? nə üçün? və necə öyrətməyin? mahiyyətini dərindən dərk etsinlər. Onları həyatdan biliyə bilikdəndə həyata doğru yönləndirməklə gələcək həyat şəraitlərini yaxşılaşdırmağın yollarını öyrətmiş oluruq.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Kurikulum. Bakı, 2008, №21 s. 131-150.
2. Ümumi təhsilin fənn standartları. Bakı: "Mütərcim", 2012.
3.Murquzov M.İ., Abdurazaqov R.R., Allahverdiyev A.M., Cəlilova S.X. Fizika dərslikləri X-XI ci siniflər üçün. Bakı:, Bakınəşr, 260 s.

METHODOLOGY FOR TEACHİNG PHYSİCS PROBLEMS OF İNCREASED DİFFİCULTY İN THE MECHANİCS SECTİON OF THE HİGH SCHOOL PHYSİCS COURSE

Samira Kamandir Rustamova[1]
srustamova162@gmail.com
Samira Rafiq Nuriyeva[2]
nuriyeva83@list.ru
Nurlana Vahid Kazimova[2]
Zarqalam Nazim Huseynova[2]
zerqelem_huseynova@mail.ru
Ganja State University[1]
Azerbaijan Technological University[2]

Thus, the process of solving physics problems helps students acquire practical skills and habits for mathematical calculations, measurements, logical thinking, constructing diagrams, and problem solving.

Keywords: high school, education, physics teaching unit, problem, practical skills, quantity, quality.

SIDERİTİN ($FeCO_3$) TERMİKİ ÇEVRİLMƏSİ ƏSASINDA Fe_2O_3 YARIMKEÇİRİCİ MATERİALININ ALINMA TEXNOLOGİYASI VƏ STRUKTUR-FİZİKİ XASSƏLƏRİNİN TƏDQİQİ

S.R.İmanova [1]
sevinc_imanova81@mail.ru
A.Ə.Salmanzadə [1]
S.R.Nuriyeva [2]
s.nuriyeva@atu.edu.az
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Giriş. Fe_2O_3 matrisli materiallar müasir yarımkeçirici texnologiyada mühüm yer tutur. Bu materiallar yüksək kimyəvi sabitliyi, korroziyaya davamlılığı, maqnit və elektrik xassələrinin idarə oluna bilməsi ilə seçilir. Onlar qaz sensorları, fotokatalizatorlar, günəş elementləri, yaddaş qurğuları və spintronika sistemlərində geniş tətbiq olunur. Fe_2O_3-ün yarımkeçirici xassələri onun kristal quruluşu, faza tərkibi, dənəcik ölçüsü və qatqılandırma səviyyəsindən asılıdır. Buna görə nümunələrin hazırlanma texnologiyası materialın son xassələrinin formalaşmasında həlledici rol oynayır.Siderit ($FeCO_3$) təbii dəmir karbonat minerallarına aid olub, Fe_2O_3 əsaslı yarımkeçirici materialların alınması üçün mühüm xammal mənbələrindən biridir. Onun termiki parçalanması nəticəsində yüksək dispersiyalı dəmir oksidləri əldə edilir. Bu üsul təbii xammaldan istifadə baxımından iqtisadi cəhətdən sərfəli və texnoloji baxımdan əlverişlidir.

Siderit əsasında alınmış Fe_2O_3 xüsusilə aşağıdakı sahələr üçün perspektivlidir:

- Qaz sensorları
- Katalitik sistemlər
- Elektrod materialları
- Maqnit və yarımkeçirici keramika

I.Sideritin termiki parçalanma mexanizmi

Laboratoriyada Fe_2O_3 alınması sideritin **termiki parçalanması (kalsinasiya)** və sonrakı **oksidləşmə** prosesinə əsaslanır. Proses zamanı karbonat qəfəsi dağılır, CO_2 ayrılır və dəmir oksid fazaları formalaşır. [1 s.23], [2 s.69]Sideritin qızdırılması zamanı mərhələli termiki çevrilmə prosesi baş verir. Proses əsasən iki mərhələdə izah olunur:

1. Dehidratasiya (əgər hidratlaşma varsa). Təbii siderit tərkibində adsorbsiya olunmuş su saxlayır. 100–200 °C intervalında bu su ayrılır. Dekarbonizasiya (əsas mərhələ**.** 300–500 °C temperatur intervalında siderit parçalanaraq dəmir (II) oksid əmələ gətirir:

$FeCO3 \rightarrow FeO + CO2\uparrow$

Bu mərhələdə: karbon qazı ayrılır, kütlə itkisi müşahidə olunur və nümunənin məsaməliliyi artır

2. Oksidləşmə mərhələsi. Hava və ya oksigen mühitində FeO daha yüksək oksidə çevrilir:

$$4FeO + O_2 \rightarrow 2Fe_2O_3$$

Nəticədə termodinamik cəhətdən sabit faza – **α-Fe_2O_3 (hematit)** formalaşır.

Lazım olan avadanlıqlar və materiallar.

Avadanlıqlar: Elektrik sobası (1000 °C-yə qədər), farfor və ya alüminium oksid tigel, tərəzi, əzici havan və ya planet dəyirman, quruducu şkaf, termocüt / temperatur nəzarət sistemi
Materiallar: Təbii siderit filizi ($FeCO_3$), Distillə olunmuş su, Lazım gələrsə – etanol (yuma üçün).

II.Nümunənin ilkin hazırlanması

Nümunənin hazırlanmasında mexaniki təmizləmədən istiadə edilmişdir. Siderit filizi xarici çirklərdən təmizlənir, silikat və gil qarışıqları ayrılır. Daha sonra ü**yüdülmə aparılır.**
Beləki filiz havanda və ya dəyirmanda üyüdülür. Bu prosesi aparmaqda əsa **məqsəd:** dənəcik ölçüsünü kiçiltmək; termiki parçalanmanı sürətləndirmək; homogen qızdırmanı təmin etmək. Optimal toz ölçüsü: <100 μm

III.Termiki çevrilməyə təsir edən amillər

3.1. Temperatur**:**
300–400 °C → FeO üstünlük təşkil edir
500–700 °C → Fe_3O_4 aralıq fazası yarana bilər
700 °C-dən yuxarı → Fe_2O_3 sabitləşir
Optimal hematit alınması adətən **750–900 °C** intervalında baş verir.

3.2. Qızdırma sürəti:
Yavaş qızdırma → homogen faza
Sürətli qızdırma → daxili gərginlik, çatlar

Dənəcik ölçüsü. Xırda dispersiyalı siderit: Daha tez parçalanır, Aşağı temperaturda oksidləşir və Nanostrukturlu Fe_2O_3 yaradır.

3.3. Struktur Formalaşması. Termiki çevrilmə zamanı aşağıdakı struktur dəyişiklikləri baş verir [3 s. 10215]: Karbonat qəfəsinin dağılması, Oksid qəfəsinin yenidən qurulması, Məsaməliliyin artması, Xüsusi səthin böyüməsi. Bu xüsusiyyətlər Fe_2O_3-ün sensor aktivliyini artırır [2 s.69].

Alınmış Fe_2O_3-ün xassələri. Siderit mənşəli Fe_2O_3 aşağıdakı üstünlüklərlə xarakterizə olunur:yüksək disperslik, inkişaf etmiş məsamə quruluşu, yarimkeçirici keçiricilik (n-tip), yüksək səth aktivliyi. Elektrik keçiriciliyi əsasən oksigen vakansiyaları və Fe^{2+}/Fe^{3+} ionlarının nisbəti ilə müəyyən olunur.

3.4. Sideritdən Fe_2O_3 alınmasının əsas texnoloji üstünlükləri: təbii və ucuz xammal, sadə termiki emal, yüksək təmizlik dərəcəsi, nanostruktur alma imkanı.

Nəticə. Aparılan texnoloji proses göstərir ki, sideritin nəzarətli termiki emalı nəticəsində struktur və faza baxımından sabit, yarımkeçirici xassələrə malik Fe_2O_3 materialı əldə etmək mümkündür. Qızdırma rejiminin, qaz mühitinin və dispersliyin optimallaşdırılması alınan materialın elektrik və funksional parametrlərinə birbaşa təsir göstərir. Bu səbəbdən siderit mənşəli Fe_2O_3 yarımkeçiriciləri funksional materiallar sinfində perspektivli hesab olunur.

ƏDƏBİYYAT

1.Rustamova A. I., Mammadov A. N., İsmayılov E. H. Thermal stability and thermodynamics of the decomposition of ferrocene and its derivatives. Beynəlxalq konfrans məqaləsi, ICMAR 2023, Baku, s. 23–31.

2.К. Гавель. М., Адамчик, З., Войтняк, М., Климонтко, Фазовые превращения сидерита при термическом разложении: исследование с помощью спектроскопии Мёссбауэра. Archives of Foundry Engineering, 25(2), 2025. С. 69–73. Данная статья посвящена фазовым преобразованиям $FeCO_3$ под действием температуры, с образованием Fe-оксидов.

3.Krupka J. Dielectric and Conductive Properties of Clay-Based Composites. // Journal of Materials Science. 2021. Vol. 56, No. 8. P.10215-10226.


SYNTHESIS OF FE_2O_3 SEMICONDUCTING MATERIAL VIA THERMAL DECOMPOSITION OF SIDERITE ($FECO_3$) AND INVESTIGATION OF ITS STRUCTURAL AND PHYSICAL PROPERTIES

S.R.Imanova [1]
sevinc_imanova81@mail.ru
A. A.Salmanzade[1]
S.R. Nuriyeva [2]
s.nuriyeva@atu.edu.az
Ganja State University[1]
Azerbaijan Technological University[2]

The study investigates the technology for preparing Fe_2O_3 semiconducting material via the thermal decomposition of siderite ($FeCO_3$). Natural siderite undergoes staged heating, experiencing decarbonization and oxidation reactions that transform it into stable oxide phases. In the temperature range of 300–500 °C, decomposition produces FeO and releases carbon dioxide. Further temperature increase and the presence of oxygen lead to the formation of an intermediate Fe_3O_4 phase. Subsequently, thermodynamically stable α-Fe_2O_3 (hematite) forms in the 700–900 °C range. The heating regime, gas atmosphere, raw material dispersity, and isothermal

holding time significantly affect the phase composition, crystallinity, and morphology of the product. Thermal treatment causes the breakdown of the carbonate lattice and reformation of the oxide structure, producing porous, high-surface-area Fe_2O_3 particles. The obtained material exhibits n-type semiconducting behavior, with its electrical properties governed by oxygen vacancies, the Fe^{2+}/Fe^{3+} ratio, and sintering temperature.

Keywords: Siderite, $FeCO_3$, Fe_2O_3, hematite phase, thermal decomposition, calcination, decarbonization, oxidation process, n-type semiconductivity



Səkil 1.

$MnIn_2Se_4$ KRİSTALININ DİELEKTRİK XASSƏLƏRİ

Namiq N. Niftiyev[1]
namiq7@bk.ru
Arzu O. Daşdəmirov[1]
Faiq M. Məmmədov[1,2]
Reyhan M. Ağayeva[1]
Azərbaycan Dövlət Pedaqoji Universiteti[1]
Kataliz və Qeyri-üzvi Kimya İnstitutu[2]

mammadyusifov24@bsu.edu.az
Ayten Vugar Babayeva[2]
babayevaayten001122@gmail.com
Aytac Bahruz gizi Jalil[3]
jalilaaytaj@gmail.com
Kazakh Branch of BSU[1]
Azerbaijan University of Technology[2]
Ganja State University[3]

It can be concluded that mathematics is important not only as a school subject but also in everyday life. Encryption is considered one of the most engaging and practical areas of this science.

This topic demonstrates that learning mathematics can play a significant role in the future, especially in the fields of technology and security.

Keywords: code, encryption, symbol, information security, numbers

ÜMUMİLƏŞMİŞ FUNKSİYALAR

Rəna Dəmir qızı Qurbanova
r.qurbanova@atu.edu.az
Çinarə Mikayıl qızı Həsənova
c.hesenova@atu.edu.az
Aytən Vüqar qızı Babayeva
babayevaayten001122@gmail.com
Azərbaycan Texnologiya Universiteti

XVII əsrin sonu və XIX əsrin ikinci yarısına qədər dünyanın ən məşhur alimləri J.Nyuton, Q.Leybnis, J.Bernulli, B.Dalamber və s. funksiyanın müxtəlif tərifləri söyləmişlər. Lakin funksiyanın tərifi 1837-ci ildə daha ümumi və bitkin formada Dirixle tərəfindən verilmişdir [1,2].

XIX əsrin sonuna qədər riyaziyyat elminin sonrakı inkişafı funksiyanın Dirixle tərəfinə əsaslandırmışdır.

Ancaq XX əsrin başlanğıcından etibarən Kvant mexanikasının yaranması və riyazi fizika tənliklərinin həlli ilə əlaqədar funksiyanın Dirixle tərifinə təsvir ola bilməyən bir sıra asılılıqlarla rastlaşarkən bu tərif fikirləri razı salmadı və ona görə də funksiya anlayışının sonrakı genişləndirilməsində zərurət yarandı.

İngilis fiziki "Kvant mexanikasını" yaradıcısı P.Dirak göstərdi ki, kvant nəzəriyyəsində geniş tətbiq olunan δ funksiya funksional asılılıq verilmiş klassik tərifdən kənara çıxdı. Fiziklərin təyininə görə $\delta(x - x_0)$ funksiyanın ədəd oxunun yalnız x_0 nöqtəsində sıfırdan fərqli qalan hər yerdə sıfıra bərabər və bütün oxda inteqralı vahidə bərabərdir. Burada asanlıqla

yəqin etmək olar ki, $\delta(x-x_0)$ funksiyasının bu tərifi funksiyaya verilən klassik tərifl uzlaşmır(1).

Fərz edək ki, $\delta(x)$ həqiq dəyişənli, sonsuz diferensiallaşan finit(yəni hər hansı məhdud oblastdan kənarda sıfıra bərabər olan) funksiya, K isə funksiyalar fəzasıdır. K fəzasını, əsas funksiyalar fəzası, ixtiyari $\varphi(x) \in K$ funksiyasını isə əsas funksiya adlandıraq. Ədəd oxunun hər bir sonlu oblastında mütləq inteqrallanan $f(x)$ funksiyası və $\varphi(x)$ əsas funksiyası üçün

$$(f,\varphi) = \int_{-\infty}^{+\infty} f(x)\varphi(x)dx \qquad (1)$$

Kimi təyin olunan f funksiyasına baxaq. Asanlıqla göstərmək olar ki, (1) şəklində təyin olunan funksional xətti ilə kəsilməzdir.

Həmçinin də hər bir $\varphi(x)$ əsas funksiyası üçün

$$(\delta(x-x_0)\varphi(x)) = \varphi(x_0) \qquad (2)$$

funksioanlının da xətti və kəsilməz olduğunu bilərikki, xüsusi halda

$$((\delta(x)\varphi(x)) = \varphi(0)$$

bərabərsizliyi ödənilsin, lakin (1) və (2) –dən fərqli başqa şəkildə də xətti və kəsilməz funksiyalar təyin etmək olar ki, onların külliyatı fəza əmələ gətiri. Bu fəzanı ümumiləşmiş funksiyalar fəzası adlandırılıb özünü də K' ilə işarə edəcəyik.

Hər bir $f \in K'$ funksionalını isə ümumiləşmiş funksiya adlandıracayıq.

Beləliklə ümumiləşmiş funksiya xətti və kəsilməz funksionala deyilir.

Ümumiləşmiş funksiyanın tərifindən istifadə edilən kəsilməzlik anlayışı K' fəzasında limitə keçmə əməli ilə əlaqəlidir. Yəni ümumiləşmiş funksiyaların $f_1, f_2, \dots f_n, \dots$ ardıcıllığı olduqda f ümumiləşmiş funksiyasına yığılır deyəcəyik ki, istənilən $\varphi(x)$ əsas funksiyası üçün $\{(f_n, \varphi)\}$ ədədi ardıcıllığı (f, φ) ədədinə yığılsın, yəni $lim_{n\to\infty}(f_n, \varphi) = (f, \varphi)$ bərabərliyi doğru olsun.

Funksional analiz kursundan məlumdur ki, fəzanın elementlərindən götürülmüş istənilən yığılan ardıcıllığın limiti yenə həmin fəzaya daxil olarsa, onda ona dolu(tam) fəza deyilir.

Ümumiləşmiş funksiyalar fəzasının əsas problemlərindən biri onun doluluğu məsələsidir. Başqa sözlə, ümumiləşmiş funksiyalar fəzası orada təyin edilmiş yığılmaya görə doludurmu sualına cavab verək. Onda görəcəyik ki, bu problem ümumiləşmiş funksiyalar fəzasında müsbət həll olunur.

Bu o deməkdir ki, əgər $f_1, f_2, \dots f_n, \dots$ ümumiləşmiş funksiyalar ardıcıllığı və istənilən φ əsas funksiyası üçün (f_n, φ)ədədi ardıcıllığın limiti olarsa, onda

$lim_{n\to\infty}(f_n, \varphi) = f(\varphi)$ K əsas funksiyalar fəzasında xətti və kəsilməz funksional təyin edir.

Beləliklə məlum olur ki, K ümumiləşmiş funksiyalar fəzasından götürülmüş istənilən $\{f_n\}$ ardıcıllığının limiti də K fəzasındadır (2). Bu isə o deməkdir ki, ümumiləşmiş funksiyaların K fəzası doludur.

ƏDƏBİYYAT

1.Кулиев А.У. О решение одного дифференциального уравнений в обобщённых функциях. Киев, 1999.

2.Quliyev Ə.U. Təkölçülü ümumiləşmiş funksiyalar fəzasında tənliklərin və onun üçün Koşi məsələsinin fundamental həlləri arasında əlaAqə. "ELM" nəşriyyatı, Gəncə 2017.

GENERALIZED FUNCTIONS

Rena Demir Kurbanova
r.qurbanova@atu.edu.az
Chinara Mikayil Hasanova
c.hesenova@atu.edu.az
Ayten Vugar Babayeva
babayevaayten001122@gmail.com
Azerbaijan Technological University

The formation of the concept of function has passed a long and complex historical path. Even the ancient Greeks and Babylonians encountered functional sequences when calculating the areas and volumes of geometric figures. However, in the 17th century, the emergence of Fermat and Descartes geometry and the emergence of the analysis of variable quantities made the clarification of the definition of a function an urgent need of the day.

Keywords: Generalized words, sequence, limit, accumulation.

QEYRİ-SƏLİS ÇOXLUQLAR VƏ ONLARIN YAXINLAŞMA MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ TƏTBİQLƏRİ

Nazim Neymətov
nneymatov@yandex.ru
Çinarə Mikayıl qızı Həsənova
c.hesenova@atu.edu.az
Aytən Vüqar qızı Babayeva
babayevaayten001122@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Tərif. Fərz edək ki, U universal çoxluq,

$$\chi_A : U \to [0,1] \qquad (1)$$

isə U çoxluğunun hər bir elementinə $[0,1]$ aralığından $\chi_A(u)$ ədədini qarşı qoyan inikasdır.

U universal çoxluğun u elementinin A altçoxluğuna mənsubluq dərəcəsini xarakterizə edən $\chi_A(u)$ mənsubluq funksiyası ilə təyin olunan A altçoxluğu qeyri-aşkar çoxluq adlanır. Adından da göründüyü kimi qeyri-aşkar A çoxluğu universal U çoxluğun u elementləri və onun $\chi(u)$ obrazları vasitəsilə düzəldilir və həm də $u \in U$ elementi A çoxluğuna $\chi_A(u)$ göstəricisi ilə $\chi_A(u)|u$ şəklində daxil olur. U çoxluğunun $\chi_A(u) > 0$ şərtini ödəyən elementləri çoxluğuna qeyri-aşkar A çoxluğunun daşıyıcısı, $\sup_U \chi(u)$ kəmiyyətinə onun dərəcəsi deyilir. U universal çoxluğun A çoxluğunda mənsubluq dərəcəsi 0,5-ə bərabər olan elementi qeyri-səlis A çoxluğunun keçid nöqtəsi adlanır.

Misal. U universal çoxluq olaraq bir semestrdə tələbənin imtahana qədərki ballar "+" imtahanda topladığı balların cəmini götürək, yəni $U = [0,100]$.

Məlumdur ki, toplanan ümumi balların miqdarı ≤ 50 olduqda tələbənin biliyi qeyri-kafi, > 50 olduqda isə müsbət qiymətləndirilir. $U = [0,100]$ aralığındakı ədədlərə bərabər qiymətlər alan u dəyişənini «tələbənin biliyinin meyarı» kimi şərh edək. Bunu biz sonralar qısa şəkildə TBM kimi işarə edəcəyik. «Qeyri-kafi» və «müsbət» sözlərini uyğun olaraq pis və yaxşı sözləri ilə əvəz edək. Aydındır ki, TBM={…,çox pis,pis,pisə yaxın,…,yaxşı, bir az yaxşı, çox

yaxşı,…,əla} çoxluğunun elementləri linqvistik dəyişənlər olacaqdır. U universal çoxluğun, məsələn, «yaxşı» termini ilə ifadə olunan A qeyri-aşkar çoxluğu aşağıdakı mənsubluq funksiyası ilə təyin edək [1-3].

$$\chi_A(u)=\begin{cases} 0, & \text{əgər } 0\le u\le 50 \text{ olarsa,} \\ \left(1+\left(\dfrac{u-50}{20}\right)^{-2}\right)^{-1}, & \text{əgər } 50<u\le 100 \text{ olarsa.} \end{cases} \quad (2)$$

Bu misalda «yaxşı» termini ilə ifadə etdiyimiz qeyri-aşkar A çoxluğunun daşıyıcısı $[50,100]$ aralığı, hündürlüyü $\chi_{\text{yaxşı}}(u)=0,5$, keçid nöqtəsi $u=70$ olacaq.

Qeyri-aşkar çoxluğun göstərilişinin daha aydın olması üçün aşağıdakı kimi işarələmələrdən istifadə edək.

Əvvəlcə fərz edək ki, U adi çoxluqdur: $U=\{u_1,u_2,...,u_n\}$. Bu çoxluğu

$$U=u_1+u_2+\cdots+u_n \vee U=\sum_{i=1}^{n}u_i \quad (3)$$

kimi göstərməyi şərtləşək; harada ki, "+" işarəsi hesabi cəm deyil, birelementli çoxluqların birləşməsidir. (3) yazılışına analoji olaraq, əgər universal U çoxluğunun $u_i\ (i=\overline{1,n})$ elementinin qeyri-aşkar A alt çoxluğuna mənsubluq dərəcəsini $\chi_i\ (i=\overline{1,n})$ ilə işarə etsək, onda A çoxluğunu

$$A=\chi_1u_1+\chi_2u_2+\cdots+\chi_nu_n \ \vee \ \sum_{i=1}^{n}\chi_iu_i \quad (4)$$

kimi yaza bilərik. Əgər U universal çoxluq ədədi çoxluq olarsa, onda u_i və χ_i ədədlərini fərqləndirmək üçün şaquli xətti çəkib sol tərəfdə χ_i, sağ tərəfdə isə u_i ədədlərini yazacağıq:

$$A=\chi_1|u_1+\chi_2|u_2+\cdots+\chi_n|u_n \ \vee \ \sum_{i=1}^{n}\chi_i|u_i$$

Misal. Tutaq ki, T universal çoxluğun elementləri havanın temperaturunu C^0 ilə ifadə edən ədədlərdir:

$$T=1+2+\cdots+40 \quad (5)$$

Əgər növbəti gündə temperaturun «yüksək» olması ehtimalının mənsubluq funksiyasının qiymətini «0,7» götürsək, onda $A_{\text{yüksək}}=$ qeyri-aşkar funksiyasını aşağıdakı kimi vermək olar:

$$A_{\text{yüksək}}=0,1|2+0,3|7+0,5|20+0,7|32+0,8|35+1|40 \quad (6)$$

Əgər U çoxluğunun elementləri ədədlər deyilsə, məsələn,

$$U=\{a_1,a_2,a_3,a_4\} \ \vee \ U=a_1+a_2+a_3+a_4\ , \quad (7)$$

onda U universal çoxluğun A qeyri-aşkar altçoxluğunu düzəldərkən universal çoxluğun elementlərini mənsubluq funksiyasının qiymətlərindən şaquli xəttlə ayırmağa ehtiyac qalmır. Belə ki, (8) universal çoxluğun elementlərinin uyğun olaraq 0,3; 0,8; 1; 0,5 göstəriciləri ilə qeyri-aşkar altçoxluğunu aşağıdakı kimi təsvir etmək olar

$$0,3a_1+0,8a_2+1a_3+0,5a_4. \quad (8)$$

Ola bilər ki, universal çoxluğun dəyişən elementləri hər hansı təbii və ya süni qurulmuş dilin sözləri və ya mülahizələridir. Belə dəyişənlərə linqvistik dəyişənlər deyəcəyik. Məsələn, əsas linqvistik dəyişən olaraq «güc» və onun ala biləcəyi qiymətlər çoxluğu

$G =$güclü + çox güclü + hədsiz güclü + fövqəladə güclü +⋯+ zəif+
+çox zəif+çox-çox zəif+⋯

olarsa, G çoxluğuna daxil olan söz və ya mülahizələri (linqvistik dəyişənləri) $g_1, g_2, \ldots$ simvolları ilə işarə etsək, onda $G = g_1 + g_2 + g_3 + \cdots$ kimi yazarıq. Əgər fərz etsək ki, qeyri-aşkar A çoxluğuna g_1-in mənsubluq dərəcəsi 0,4, g_2-nin mənsubluq dərəcəsi 0,3, g_3-ün mənsubluq dərəcəsi 0,6 və s., onda A çoxluğunu belə göstərə bilərik:

$$A = 0,4 \mid g_1 + 0,3 \mid g_2 + 0,6 \mid g_3 + \cdots \qquad (9)$$

Aşkardır ki, (9) şəklində göstərdiyimiz qeyri-aşkar A çoxluğunun gücünü istənilən hesabi çoxluğun gücü ilə müqayisə etmək olar və bu halda A çoxluğunu

$$A = \sum_G \chi_A(g) \mid g \qquad (10)$$

şəklində yaza bilərik.

Qeyri-aşkar çoxluqlar üzərində də adi çoxluqlar üzərində olduğu kimi bəzi əməlləri təyin etmək, onların tabe olduğu qanunları göstərmək və beləliklə də, qeyri-aşkar çoxluqlar cəbri yaratmaq olar.

ƏDƏBİYYAT

1. Л.Заде – Понятие лингвистической переменной и его применение к принятию приближенных решений – «Мир», Москва, 1976.
2. С.А.Орловский – Об одной задаче принятия решений в нечетко определеной обстановке – Иркутск, 1972.
3.Ə.U.Quliyev, N.Ə.Neymətov – Riyazi məntiq», Gəncə, 2016.

FUZZY SETS AND THEIR APPLICATIONS TO THE SOLUTION OF THE APPROXIMATE PROBLEMS

Nazim Neymatov
nneymatov@yandex.ru
Hasanova Chinara Mikayil qizi
c.hesenova@atu.edu.az
Babayeva Ayten Vugar qizi
babayevaayten001122@gmail.com
Azerbaijan Technological University

This article is devoted to the new mathematical apparatus for studying situations as complex or uncertain, they are not amenable to precise quantitative description. The concepts of fuzzy sets and linguistic variable whose values are not numbers, and words and sentences natural or artificial language. The article explains some applications of fuzzy sets.


Keywords: uzzy, the degree toiletries, access point

MÜSTƏVİ ELEKTROMAQNİT DALĞALARI ÜÇÜN DALĞA TƏNLİYİNİN TƏHLİLİ

Əhmədağa Əhmədiyə oğlu Məmmədov
e_memmadov@atu.edu.az
Vüsalə Nuru qızı Bayramova
vusalabairamova@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Elektromaqnit dalğalarının xüsusiyyətlərini Maksvel tənliklərindən çıxarmaq olar. Bu xüsusiyyətlərin çıxarmağın bir yaxınlaşması üçüncü və dördüncü Maksvel tənliklərindən tapılan ikinci tərtib differensial tənliyin həllidir. Lakin belə ciddi riyazi həll bizim məqsədimizə daxil deyil. Bu çətinliyi daha rahat keçmək üçün qəbul edək ki, elektromaqnit dalğasında elektrik və maqnit sahə vektorlarının spesifik fəzası – zamana görə dəyişməsi sadə və Maksvel tənlikləri ilə uzlaşan fəza mövcuddur[1-4]. Elektromaqnit dalğalarının varlığının


proqnazlaşdırılmasını tam başa düşmək üçün qəbul edək ki, elektromaqnit dalğası x oxu üzrə yayılır (yayılma istiqaməti). Belə elektromaqnit dalğası üçün E vektoru y oxu istiqamətində, B vektoru isə z oxu istiqamətində yönəlib (şəkil 1)



Şəkil 1. B, E və c vektorlarının istiqamətlərinin sxematik təsviri.

Şəkil 1-də x oxunun müsbət istiqamətində c sürəti ilə yayılan elektromaqnit dalğasının elektrik və maqnit sahələri sxematik göstərilib. Qeyd edək ki, sahə vektorları zamanın müəyyən anı üçün və fəzanın müəyyən nöqtəsi üçün çəkilib. Bu sahələr x və t-dən asılıdır. Belə dalğalar, yəni elektrik və maqnit vektorları iki perpendikulyar oxlara paralel olmaqla məhdudlaşan dalğalar, xətti polyarlaşan dalğalar adlanır. Bundan başqa qəbul edək ki, E və B -nin qiymətləri yalnız x və t-dən asılıdır nə y, nə də z-dən asılı deyil. Həmçinin qəbul edək ki, elektromaqnit dalğalarının mənbəyi yz müstəvisində ixtiyari yerdədir və dalğalar x oxu istiqamətində yayılır və eyni fazada şüalanırlar. Dalğanın yayılma istiqamətində müəyyən şüa təyin etsək, belə dalğalar üçün bütün şüalar paralel olur. Belə təyin olunmuş bütöv dalğalar kolleksiyası adətən müstəvi dalğa adlanır. Bütün dalğaların eyni fazalı nöqtələrini birləşdirən səth, dalğa cəbhəsi adlanır.

Boş fəza üçün yazılmış Maksvelin dördüncü tənliyindən başlayaraq, oxşar qayda da ikinci tənliyi də almaq olar. Bu halda biz $\left(\vec{B}\cdot\overrightarrow{ds}\right)$ xətti inteqralını birinci tənlikdə olduğuna oxşar olaraq, lakin müstəvisində yerləşən düzbucaqlı boyunca hesablayacağıq (şəkil 3).



Şəkil 3.Müstəvi EM dalğası.

Qəbul edək ki, düzbucaqlının oturacağı boyunca maqnit sahəsi B(x)-dən B(x+dx)-ə qədər dəyişir və inteqrallamanı saat əqrəbinin əksi istiqamətində aparırıq (şəkil 3-də x oxunun müsbət istiqamətində yayılan müstəvi dalğa xz müstəvisində yerləşən eni dx olan düzbucaqlıdan keçən zaman maqnit sahəsi z oxu istiqamətində $\vec{B}(x)$-dən $\vec{B}(x+dx)$-ə dəyişməsi sxematik göstərilib:

$$\oint\left(\vec{B}\cdot\overrightarrow{ds}\right)=[B(x)]l-[B(x+dx)]l\approx-l\left(\frac{\partial B}{\partial x}\right)dx$$

Düzbucaqlıdan keçən elektrik seli $\Phi_E=Eldx$ -dir. Bu ifadəni zamana görə diferensiyalladıqda,

$$\frac{\partial\Phi_E}{\partial t}=ldx\frac{\partial E}{\partial t}$$ alırıq.

Düsturları nəzərə alaraq,

$$-l\left(\frac{\partial B}{\partial x}\right)dx=\mu_0\varepsilon_0 ldx\left(\frac{\partial E}{\partial t}\right)$$

$\left(\frac{\partial B}{\partial x}\right) = -\mu_0\varepsilon_0\frac{\partial E}{\partial t}$ alırıq.

x -ə görə törəmə alaraq, nəticəni tənlik ilə birləşdirsək, aşağıdakı ifadəni alırıq:

$$\frac{\partial^2 E}{\partial x^2} = -\frac{\partial}{\partial x}\left(\frac{\partial B}{\partial t}\right) = -\frac{\partial}{\partial t}\left(\frac{\partial B}{\partial x}\right) = -\frac{\partial}{\partial t}\left(-\mu_0\varepsilon_0\frac{\partial E}{\partial t}\right)$$

$$\frac{\partial^2 E}{\partial x^2} = \mu_0\varepsilon_0\frac{\partial^2 E}{\partial t^2}$$

x-ə görə törəmə alıb, alınan ifadəni yuxarıdakı ifadə ilə uzlaşdıraraq,

$\frac{\partial^2 B}{\partial x^2} = \mu_0\varepsilon_0\frac{\partial^2 B}{\partial t^2}$ yaza bilərik.

İfadələrinin hər ikisi yayılma sürəti v-nin əvəzinə c olan xətti dalğa tənliyi formasındadır

ƏDƏBİYYAT

1.Nikolskiy V. V. Elektrodinamika və radiodalğalarının yayılması. -M.: 2005, -486c
2.Зовке Г.В. Ионкин П.А., Нетушил А.В., Страхов С.В. Основы теории цепей. -М.: Энергофтомиздфт,2010, -528c.
3.İsmibəyli E. Q. və İslamov İ.C. Elektrodinamika və radiodalğalarının yayılması. Bakı, 2006, -256s
4.Mirteymur M.M. Elektrodinamika və radiodalğalarının yayılması. Bakı, 2019, -219s

ANALYSİS OF THE WAVE EQUATİON FOR PLANE ELECTROMAGNETİC WAVES

Ahmadaga Ahmadiya oglu Mammadov
e_memmadov@atu.edu.az
Vusala Nuru gizi Bayramova
vusalabairamova@mail.ru
Azerbaijan Technological University

Maksvel Maxwell's equations show that in free space, the mutual variation of the electric (E) and magnetic (B) fields leads to the formation of electromagnetic waves. In a simplified model, the wave is assumed to propagate along the x-axis, while the E and B vectors are perpendicular both to each other and to the direction of propagation. Such waves are called linearly polarized plane waves. The second-order differential equations derived from Maxwell's equations for both E and B fields take the form of a wave equation. The propagation speed obtained from these equations is equal to the speed of light in vacuum. This result confirms that light is an electromagnetic wave. Electromagnetic waves propagate in a sinusoidal form.

Keywords: electromagnetic wave, Maxwell's equations, electric field, magnetic field, plane wave, linear polarization, wave equation, speed of light, sinusoidal wave, wavelength, frequency, angular frequency.

OPTİMALLAŞDIRMA MƏSƏLƏLƏRİNİN HƏLLİ ÜÇÜN QRAVİTASİYA AXTARIŞ ALQORİTMİ

Akif Səməndər oğlu Qələndərov
akifqalandarov@gmail.com
Vüsalə Nuru qızı Bayramova
vusalabairamova@mail.ru
Əhmədağa Əhmədiyə oğlu Məmmədov
e_memmadov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Təbiət çox mürəkkəb problemləri özünəməxsus şəkildə həll etmək qabiliyyətinə malikdir. Ətrafımızdakı problemlər real zaman daxilində getdikcə daha mürəkkəb hala gəlməkdədir. Təbiət bizə bu problemləri həll etmək üçün məntiqli və effektiv üsullar təklif edir. Mürəkkəb məsələlərin həllində təbiət optimizator rolunda çıxış edir. Bunları nəzərə alaraq, bu məqalədə təbiətdə gedən prosesləri imitasiya edən alqoritmlər müzakirə olunmuşdur. Burada təbiətə əsaslanaraq yaradılmış alqoritmlər qruplaşdırılmış və onlardan bir neçəsi nəzərdən keçirilmişdir [1,2]**.**

Hal-hazırda bir çox praktik məsələlər ən yaxşı həllin tapılması ilə əlaqədardır. Belə məsələlər optimallaşdırma üsulları vasitəsilə öz həllini tapır. Optimallaşdırma hər yerdə

mövcuddur. Pul, resurslar və zaman həmişə məhdud olduğundan bu mənbələrdən səmərəli şəkildə istifadə olunması son dərəcə əhəmiyyətlidir. Optimallaşdırma məsələləri bir çox yollarla təsvir oluna bilər. Riyazi olaraq optimallaşdırma məsələlərini ümumi şəkildə aşağıdakı kimi yaza bilərik:

$x_1, x_2, ..., x_n$ dəyişənlərinin elə qiymətlərini tapmaq tələb olunur ki,

$$z = f_i(x_1, x_2, ..., x_n) - \max(\min), i = 1,2,...,m$$

Qravitasiya axtarış alqoritmi (QAA) cazibə qanununa əsaslanır. Maddi nöqtələr obyektlər hesab olunur və onların fəaliyyəti kütlələri ilə ölçülür. Bütün obyektlər ağırlıq qüvvələri ilə bir-birini cəzb edir və bu qüvvə ağır kütləli obyektlərə tərəf bütün obyektlərin qlobal hərəkətinə səbəb olur[3,4].

$$R_{ij}(t) = \{X_i(t), X_j(t)\}$$

Qravitasiya axtarış alqoritmi kütlələrin təcrid olunmuş sistemi hesab oluna bilər. Bu cazibə və hərəkətin Nyuton qanunlarına tabe olan kütlələrin kiçik süni dünyasına oxşayır. Bir çox real-dünya optimallaşdırma məsələləri qeyri-xətti və multimodaldır. Multimodal optimallaşdırma məsələsi dedikdə, bir məqsəd funksiyası ilə bağlı bir neçə optimal həllin tapılması nəzərdə tutulur. Ümumi halda, ən yaxşı (optimal) həlli tapmaq asan iş deyil. Belə məsələlərin həll edilməsi üçün ilk istifadə olunan üsullar klassik riyazi üsullar olmuşdur. Hal-hazırda bir sıra məsələlər mövcuddur ki, onları klassik üsullarla həll etmək çətinlik törədir. Belə məsələlərin həlli üçün yeni alqoritmlərin işlənilməsinə ehiyac var.

QAA-da hər bir obyektin dörd əsas xüsusiyyəti var: mövqe, ətalət kütləsi, aktiv qravitasiya kütləsi və passiv qravitasiya kütləsi. Obyektin mövqeyi məsələnin həllinə uyğun gəlir və qravitasiya və ətalət kütləsi yararlılıq funksiyasından istifadə etməklə müəyyən olunur.

Hərəkət qanunu: Hər hansı kütlənin cari sürəti əvvəlki sürət fraksiyası və sürət variasiyasının cəminə bərabərdir. Sürət variasiyası və ya hər hansı kütlə təcili ətalət kütləsi tərəfindən bölünmüş sistemdə təsir edən qüvvəyə bərabərdir.

Fərz edək ki, N maddi nöqtədən (kütlədən) ibarət sistem verilmişdir. i -ci maddi nöqtənin mövqeyi aşağıdakı kimi təyin olunur:

$$x_i = (x_i^1, ..., x_i^d, ..., x_i^n), i = 1,2,..., N$$

burada x_i^d d -ci ölçüdə i maddi nöqtənin mövqeyidir.

Obyektin mövqeyi məsələnin həllinə uyğun gəlir və qravitasiya və ətalət kütləsi yararlılıq funksiyasından istifadə etməklə müəyyən olunur. Başqa sözlə, hər bir kütlə həlli təsvir edir və alqoritm normal qravitasiya və ətalət kütləsinin tənzimlənməsi üzrə hərəkət edir. Zaman keçdikcə kütlələrin ən ağır kütlə tərəfindən cəzb olunması gözlənilir. Bu kütlə axtarış fəzasında optimal həll olacaq. Başqa sözlə, hər bir kütlə həlli təqdim edir və alqoritm normal qravitasiya və ətalət kütləsinin tənzimlənməsi üzrə hərəkət edir. Zaman keçdikcə kütlələrin ən ağır kütlə tərəfindən cəzb olunması gözlənilir. Bu kütlə axtarış fəzasında optimal həll olacaq.

$$v_i^d(t+1) = rand_i \times v_i^d(t+1)$$
$$x_i^d(t+1) = x_i^d(t) + v_i^d(t+1)$$

$rand_i$ [0;1] aralığında müntəzəm paylanmış təsadüfi kəmiyyətdir. Bu təsadüfi ədəddən axtarışın təsadüfi xarakteristikasını müəyyən etmək üçün istifadə olunur.

G qravitasiya sabiti G_0 başlanğıc qiymət və t zamanının funksiyasıdır:

$$G(t) = G(G_0, t)$$

Qravitasiya və ətalət kütləsi yararlılıq qiymətləndirilməsi ilə hesablanır. Ağır kütlə daha səmərəli hesab olunur. Bu o deməkdir ki, daha yaxşı maddi nöqtələr asta hərəkət edirlər.

ƏDƏBİYYAT

1.G.-W.Yan and Z.-J.Hao,‖A novel optimization algorithm based on atmosphere clouds model ‖, International Journal of Computational

2.M.Herrmann. Natural Computing. Lecture 10: Ant Colony Optimisation. 2010. http://www.inf.ed.ac.uk/teaching/courses/nat/slides/le cture10_ACO.pdf

3.Mozaffari, A. Fathi, and S.Behzadipour, - The great salmon run: a novel bio-inspired algorithm for artificial system design and optimisation‖, International Journal of Bio-Inspired Computation, vol.4,no.5, pp.286–301, 2012.
4.S. Yang, Z. Cui, R. Xiao, A. H. Gandomi and M. Karamanoglu. Swarm Intelligence and Bio-Inspired Computation: Theory and Applications (Elsevier), pp.16-17, 2013.

GRAVİTATİONAL SEARCH ALGORİTHM FOR SOLVİNG OPTİMİZATİON PROBLEMS

Akif Samandar oglu Galandarov
akifgalandarov@gmail.com
Vusala Nuru gizi Bayramova
vusalabairamova@mail.ru
Ahmadaga Ahmadiya oglu Mammadov
e_memmadov@atu.edu.az
Azerbaijan Technological University

The article examines nature-inspired optimization algorithms, with a particular focus on the Gravitational Search Algorithm (GSA). Drawing on nature's ability to solve complex problems in an efficient and logical manner, the importance of this approach in solving real-world optimization problems is emphasized. GSA is based on Newton's law of gravity and models the interactions between objects to achieve optimal solutions. The paper explains the working principles, key parameters, and mathematical model of the algorithm, and highlights its advantages in solving multimodal and nonlinear optimization problems.

Keywords: optimization, gravitational search algorithm, nature-inspired algorithms, multimodal optimization, fitness function, global optimum, mathematical modeling.

MÜƏYYƏN HÜNDÜRLÜKDƏN ATILMIŞ HUMANİTAR YÜKÜN ENMƏ SÜRƏTİNİN ZAMANDAN ASILILIĞI

Kamil Mürsəl oğlu Süleymanov [1]
k.suleymanov@atu.edu.az
Hamlet Cümşüd oğlu Kəsəmənli [2]
hamlet.kesemenli@mail.ru
Naciyə Qalib qızı Əsgərli [3]
n.esgerli@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Təyyarədən atılmış yükün çəkisi paraşütlə birlikdə mg = P kq-dır. Enmə zamanı yükə havanın müqaviməti təsir edir və havanın müqaviməti isə yükün enmə sürəti ilə mütənasibdir. Yük enərkən onun hərəkət qüvvəsi aşağıya, havanın müqavimət qüvvəsi isə onun əksinə yönəlir [1,2].

$$F = -kv^2$$

Beləliklə,

$$R = mg - kv^2 \qquad (1)$$

olduğunu alırıq. Burada k mütənasiblik əmsalıdır. Digər tərəfdən Nyutonun ikinci qanununa görə

$$R = m\frac{dv}{dt} \qquad (2)$$

(1) və (2) tənliklərindən

$$m\frac{dv}{dt} = mg - kv^2 \qquad (3)$$

diferensial tənliyi alırıq ki, bu tənlik də dəyişənlərinə ayrılmış tənlikdir. Bu tənliyi həll edərək [1], [2].

$$\frac{\sqrt{\frac{mg}{k}} + v}{\sqrt{\frac{mg}{k}} - v} = Cl^{2\sqrt{\frac{k}{m}}g\cdot t}$$

və ya v – yə nəzərən

$$V = \sqrt{\frac{mg}{k}} \cdot \frac{Cl^{2\sqrt{\frac{kg}{m}}\cdot t} - 1}{Cl^{2\sqrt{\frac{kg}{m}}\cdot t} + 1}$$

t = 0, v = 0 başlanğıc şərtlərindən istifadə etsək [1], [2].

$$\frac{\sqrt{\frac{mg}{k}}+0}{\sqrt{\frac{mg}{k}}-0}=Cl^{0}$$

Buradan C = 1 olduğu alınır ki, bu da (3) diferensial tənliyinin xüsusi həllidir. Beləliklə, yükün zamandan asılı enmə sürəti üçün

$$V=\sqrt{\frac{mg}{k}}\cdot\frac{l^{2\sqrt{\frac{kg}{m}}\cdot t-1}}{l^{2\sqrt{\frac{kg}{m}}\cdot t+1}} \qquad (4)$$

olduğunu alırıq [2]**.** (4) düsturunun n →∞ şərtində enmənin maksimal sürəti:

$$V_{mak}=\lim_{t\to\infty}\sqrt{\frac{mg}{k}}\cdot\frac{l^{2\sqrt{\frac{kg}{m}}\cdot t-1}}{l^{2\sqrt{\frac{kg}{m}}\cdot t+1}}=\sqrt{\frac{mg}{k}}$$ olduğu alınır.

ƏDƏBİYYAT

1.В.В. Степанов. Курс дифференциальных уравнений. Мос.: 1958.
2.Ю.С. Богданов. Лекции по дифференциальным уравнениям. Минск, 1977.

TIME DEPENDENCE OF THE DESCENT RATE OF HUMANITARIAN CARGO DROPPED FROM A CERTAIN HEIGHT

K.M.Suleymanov[1]
k.suleymanov@atu.edu.az
H.C.Kasamanli[2]
h.kesemenli@atu.edu.az
N. G.Askerli[3]
n.esgerli@atu.edu.az
Azerbaijan Technological University

The weight of a load dropped from an airplane with a parachute is mg = P kg. During descent, the load is affected by air resistance, and air resistance is proportional to the rate of descent of the load. As the load descends, its kinetic force is directed downward, and the air resistance force is directed in the opposite direction.

Keywords: humanitarian load, driving force, gravity, weight of the load.

ŞAGİRDLƏRİN YAŞ PSİXOLOGİYASI NƏZƏRƏ ALINMAQLA FİZİKA FƏNNİNİN ŞAGİRDYÖNÜMLÜ TƏLİMİN REALLAŞDIRILMASINDA ROLU VƏ İMKANLARI


Sevda Həsənli [1]
shasanli@uottawa.ca
Zərqələm Hüseyinova [2]
Zerqelem_huseynova@mail.ru
Samirə Rüstəmova [3]
Kəmalə Əzizova [4]
Nurlanə Kazımova [2]
Samirə Nuriyeva [2]
University of Ottawa[1]
Azərbaycan Texnologiya Universiteti[2]
Gəncə Dövlət Universiteti [3]
Elm və Təhsil Nazirliyi Fizika İnstitutu[4]

Ümumtəhsil məktəblərində tətbiq olunan fənn kurikulumunun əsas məqsədlərindən biri şagirdlərin kompetensiyalarını nəzərə alaraq tədris prosesini elə təşkil etməkdir ki, onların bilik, bacarıq, vərdiş və fərdi xüsusiyyətləri əsasında hərtərəfli inkişafı təmin olunsun. Bu baxımdan təlim prosesində yaş psixologiyası mühüm rol oynayır. Xüsusilə fizika kimi gündəlik situasiyalarla zəngin olan bir fənnin tədrisində şagirdlərin psixoloji inkişaf səviyyəsinin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır.

Fizika təbiət hadisələrinin başvermə səbəblərini öyrənən fundamental elmlərdən biridir. Buna görə də müəllimlər bu fənnin tədrisi zamanı şagirdlərin yaş xüsusiyyətlərini, idrak səviyyəsini və psixoloji hazırlığını nəzərə almalıdırlar. [1] Yaş psixologiyası insan həyatının müxtəlif dövrlərində psixi inkişaf qanunauyğunluqlarını araşdıran elmi sahədir. Bu sahə uşaqların və yeniyetmələrin idrak proseslərində, emosional vəziyyətində və davranış xüsusiyyətlərində baş verən dəyişiklikləri öyrənir. Şagirdlərin yaş psixologiyasının əsas elementlərinə qavrama, yaddaş, təfəkkür və diqqət daxildir. Kiçik məktəb yaş dövründə (6–10 yaş) uşaqların təfəkkürü əsasən konkret xarakter daşıyır və onlar abstrakt anlayışları mənimsəməkdə çətinlik çəkirlər. Bu dövrdə qavrama daha çox vizual və praktik fəaliyyətə əsaslanır. Artıq ibtidai təhsil mərhələsinin sonuna doğru isə şagirdlərdə məntiqi təfəkkür formalaşmağa başlayır, səbəb-nəticə əlaqələrini qurmaq və sadə abstrakt anlayışları qavramaq bacarıqları inkişaf edir. Eyni zamanda analitik düşüncə genişlənir, maraq dairəsi artır, diqqət daha davamlı olur, müşahidə və təcrübəni öz təxəyyülləri ilə izah etməyə meyl yaranır.

Fizika qanunlarının fiziki mənasının və riyazi ifadəsinin anlaşılması, onların məsələ həlli prosesində tətbiqi şagirdlərin elmi biliklərini zənginləşdirir və bu biliklərin praktik tətbiq sahələrini dərk etmələrinə imkan yaradır. Bu xüsusiyyətlər şəxsiyyətyönümlü təlimin reallaşmasına zəmin yaradır. Əsas məktəb mərhələsində şagirdlər eksperimental fəaliyyətə daha fəal şəkildə qoşulur, müstəqil nəticələr əldə edir, yaradıcılıq imkanlarını genişləndirir, tənqidi və analitik düşüncə bacarıqlarını inkişaf etdirirlər. Bu mərhələdə onlar artıq fizikanın daha mürəkkəb bölmələrini (elektrik, optika, atom fizikası və s.) öyrənməyə başlayırlar.

Fizikanın tədrisində yaş xüsusiyyətlərinin nəzərə alınması təlimin effektivliyini birbaşa artırır. Məzmunun mənimsənilməsi və ümumilikdə təlimin səmərəliliyi üçün yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması son dərəcə vacibdir. Təlim yalnız bilik və bacarıqların verilməsinə deyil, həm də şagirdlərin dünyagörüşünün genişlənməsinə xidmət etməlidir. Məzmun yaş xüsusiyyətləri nəzərə alınmaqla quruluşca qlobal, tarixi, sosial və texnolgiya kimi müxtəlif kontekstlərdə təqdim edilə bilər. Müasir dövrdə istənilən mövzuda informasiyanın əlçatanlığı və bolluğu şagirdlərdə diqqət dağınıqlığı yarada bilir. Bu isə onların təlim prosesində şüurlu və fəal iştirakına mane olur. Şagirdlərin tədris və qiymətləndirmə materiallarında şüurlu və müstəqil iştirakını təmin etmək üçün yaş xüsusiyyətlərinə uyğun, maraqlarını cəlb edəcək və müxtəlif kontekstlərdə təqdim olunan situasiya tapşırıqlarından istifadə olunmalıdır. [2]



Fərdi xüsusiyyətlərin nəzərə alınması da şagirdlərin bilik səviyyəsinin daha obyektiv qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə situasiya tapşırıqlarından istifadə edilə bilər. Belə tapşırıqlar vasitəsilə eyni mövzu üzrə asan, orta və çətin səviyyəli suallar hazırlamaq mümkündür. Məsələn, işıq, səs və hərəkət kimi mövzular şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınaraq gündəlik həyatla əlaqələndirilməklə izah oluna bilər [2]. Səsin yaranması və yayılması ilə bağlı tapşırıqlar buna nümunə ola bilər.

Diaqramda içərisində elektrik zəngi yerləşdirilmiş banka təsvir olunur. Bankanın daxilində hava olduqda elektrik zəngi işə salınır və onun səsi xaricdən eşidilir. Sonra vakuum cihazı vasitəsilə bankanın içindəki hava çıxarılır [117, s.83]. Bankadan hava çıxarıldıqdan sonra elektrik zəngi işə salındıqda nə müşahidə olunur?

Belə tapşırıqlar şagirdlərin həm biliklərinin möhkəmləndirilməsinə, həm də yaş xüsusiyyətlərinə uyğun şəkildə düşünmə və nəticə çıxarma bacarıqlarının inkişafına xidmət edir. Yeni kəşf olunan biliklər adətən əvvəlki qazanılmış mövcud biliklər əsasında formalaşır. Biliklərin şüurlu və sistemli möhkəmləndirilməsi onların hafizədə daha davamlı yer tutmasına və ehtiyac yarandıqda real həyatda tətbiq olunmasına şərait yaradır. Bu səbəbdən biliklərin möhkəmləndirilməsi təlim prosesinin əsas məqsədlərindən biri hesab olunur. Gündəlik həyatda rast gəlinən situasiyalar əsasında hazırlanan suallar yalnız biliklərin möhkəmləndirilməsinə deyil, həm də şagirdlərin mühakimə yürütmə, problem həll etmə və fikrini əsaslandırma bacarıqlarının inkişafına xidmət edir.[3] Beləliklə, fizikanın tədrisində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması şəxsiyyətyönümlü və səmərəli təlimin formalaşmasına mühüm töhfə verir.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün Fizika fənni üzrə təhsil proqramı (kurikulum) (VI–XI siniflər) [Elektron resurs] / tərt. ed. A. Əliyev və b.; ARTPİ:Bakı,2013.URL: https://www.arti.edu.az/nodupload/editor/files/4_%20Fizika-kurikulum.pdf

2.Paşayev, Ə.X., Rüstəmov, F.A. Pedaqogika: dərs vəsaiti / Ə.X. Paşayev, F.A. Rüstəmov. – Bakı: Elm və təhsil, 2010. – 464 s.

3.Introduction to Fossil Fuels [Electronic resource]. – URL: https://understand-energy.stanford.edu/energy-resources/fossil-fuel-energy/introduction-fossil-fuels (müraciət tarixi: 02.10.2023).

THE POSSİBİLİTİES OF PHYSİCS TEACHİNG İN IMPLEMENTİNG STUDENT-CENTERED LEARNİNG BASED ON STUDENTS' DEVELOPMENTAL PSYCHOLOGY

Sevda Hasanli[1]
shasanli@uottawa.ca
Zerqelem Huseyinova[2]
Zerqelem_huseynova@mail.ru
Samira Rustamova[3]
Kamala Azizova[4]
Nurlana Kazimova[2]
Samira Nuriyeva[2]
University of Ottawa[1]
Azerbaijan Technological University[2]
Ganja State University[3]
Institute of Physics of the Ministry of Science and Education of the Republic of Azerbaijan[4]


This article explores the role of developmental psychology in the teaching process and highlights the possibilities of physics for implementing student-centered learning. Developmental psychology is presented as a scientific field that studies the regularities of mental development across different stages of human life. In this context, the article discusses age-related changes in the cognitive processes, emotional states, and behavioral characteristics of children and adolescents. Particular attention is given to perception, memory, thinking, and attention as key components of students' developmental psychology. The article emphasizes that physics, as a subject closely related to natural phenomena and everyday life, provides broad opportunities for organizing instruction in line with students' age characteristics, cognitive level, and psychological readiness. It argues that taking these features into account increases the effectiveness of teaching, strengthens students' understanding of scientific concepts, and contributes to the development of analytical, critical, and creative thinking. Special attention is also paid to the use of situational tasks adapted to students' age and individual characteristics. Such tasks not only reinforce knowledge, but also support reasoning, problem-solving, and independent thinking. The article concludes that consideration of students' developmental and individual characteristics in physics teaching makes an important contribution to the formation of effective and student-centered learning.

Keywords: physics teaching, teaching principle, developmental psychology, thinking, attention, memory

ВЛИЯНИЕ ПОСЛЕ ОТЖИГА ИМПЛАНТИРОВАННЫХ ИОНАМИ (Ar^+) В ПЛЕНКЕ PbTe

Гамлет Джумшид оглы Касаманли [1]
hamlet.kesemenli@mail.ru
Садыг Таги оглы Мустафаев [2]
s.mustafayev@atu.edu.z
Рада Исфандияр кызы Аскерова [3]
r.asgerova@uteca.edu.az
Азербайджанский Технологический Университет

Полупроводниковые соединения группы A^{IV} B^{VI}, в частности PbTe и твердые растровы на их основе в настоящее время находят широкое применение в технике. Они используются в источниках и детекторах ИК-излучения, термоэлектрических преобразователях энергии, тензометрах и других приборах и устройствах.



Один из наиболее перспективных методов управления свойствами полупроводников и создания структур на их основе-ионная имплантация – применительно к полупроводникам $A^{IV}B^{VI}$ мало разработан и исследован. В то же время немногочисленные пока, публикации, посвященные ионной бомбардировке, главным образом PbTe показывают, что этот метод имеет несомненные перспективы практического применения. По этому важно исследовать влияние радиационных дефектов и возможные способы его устранения.

Целью настоящей работы является исследование влияния бомбардировки ионами Ar^+, на электрофизические свойства PbTe. Исследование показывает, что при бомбардировке PbTe ионами Ar^+ большую роль в изменении свойства кристаллов играют радиационные дефекты (РД). По этой причине в качестве одной из имплантируемых в PbTe примесей и был выбран Ar^+ - благородный газ, атомы которого сами по себе не могут быть ни донорами, ни акцепторами.

Все имплантированные образцы после измерений электрофизических параметров были подвергнуты отжигу при T = 500K в атмосфере галлия. Отжиг проводился в течение 20 минут, затем измерялись значения к кинетических коэффициент Холла, α – термоэдс, σ – электропроводность при комнатной температуре. После отжига ионами место изменения кинетических коэффициентов, свидетельствующие о появление слоистой неоднородности – соотношения α и R не соответствовали соотношениям для однородного PbTe [1]. Это означает, что в процессе отжига уменьшается $N_Д$, так что условие стабилизации энергии Фермы и концентрации свободных электронов перестает выполняться сначала для более удаленных от поверхности слоев, а затем и для близких. На некоторой стадии отжига свойства пленок стабилизировались, причем становились близкими и параметрам образцов до имплантации.

Рисунок 1. Температурные зависимости коэффициента Холла пленок PbTe, имплантированных ионами Ga.
Д, 300мкКл/см^2: 1 – 100; 2 – 900; 3 – 300.

Длительность отжига, необходимого для возвращения свойства пленок к исходным составляла примерно 30 мин.при Д ≤ 100 мкКл/см^2 и около 60мин.при Д = 900 мкКл/см^2 [2]. Можно считать, что такой отжиг практически устраняет РД.

В заключение остановимся на вопросе о подвижности носителей. В исходных образцах и после отжига она составляла сотни см^2/В·с. При имплантации менялся тип носителей. Подвижность электронов в PbTe примерно в 1,5 раза выше подвижности дырок. Поэтому в предложение об интенсивной рекомбинации генерируемых дефектов и их миграции на расстояния сравнимые с толщиной пленки, можно понять, почему при умеренных дозах облучения (Д ≤ 100 мкКл/см^2), холловская подвижность иногда несколько возрастала.

При Д = 900 мкКл/см^2 величина (R σ) составила 100 см^2/В·с, т.е. примерно в 15 раз меньше чем для совершенных объемных монокристаллов. Такое сравнительно малое изменение подвижности может вызвать удивление, если принят во внимание огромные дозы в концентрации РД. Распространение РД по глубине нами уже приводилось на рис.1. На рис.2 показано рассчитанное нами распределение по глубине внедренных атомов для Е = 90кэВ,Д = 900 мкКл/см^2 [2]. Слабое влияние ионной имплантации на подвижность, по – видимому, можно рассматривать как аргумент в пользу того, что рассеяние осуществляется на точечных дефектах, а крупномасштабные нарушения, несмотря на очень большие дозы облучения и высокую повреждающую способность ионов с массовыми числами М ≥ 40, не возникают [3].

ЛИТЕРАТУРА

1.Алиев В.Я., Кайданов В.И., Касаманли Г.Д. Влияние радиационных дефектов свойства пленок PвTe, облученных ионами аргона- Ar^+. Черноголовка, 2018. С.128.
2.Kasamanli H.C., Süleymanov K.M., Əsgərova R.İ., Əsgərli N.Q. исследование имплантированных ионами аргона (Ar+) полупроводниковых пленок PbTe. XVIII international scientific conference. Stockholm. Sweden. 28-29.10.2025.
3.Алиев В.Я., Кайданов В.И., Казьмин С.А., Касаманли Г.Д. Электрофизические свойства пленок PbTe, облученных ионами аргона.-ФТП, 1999, Т.23, вып.2.с.382-355.

EFFECT OF ANNEALING OF IMPLANTED IONS (Ar+) IN THE PbTe FILM

Hamlet Cumshud Kasamanli[1]
hamlet.kesemenli@mail.ru
Sadyg Tagi Mustafayev[2]
s.mustafayev@atu.edu.az
Rada Isfandiyar Askerova[3]
r.asgerova@uteca.edu.az
Azerbaijan Technological University

The aim of this study is to investigate the effect of Ar+ ion bombardment on the electrical properties of PbTe. The study shows that radiation defects (RD) play an important role in changing the crystal properties of PbTe when it is bombarded with Ar+ ions. For this reason, Ar+, a noble gas whose atoms cannot act as donors or acceptors by themselves, was chosen as one of the impurities implanted into PbTe.

Keywords: annealing, implantation, electron carrier, sample

FİZİKA MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ ŞAGİRDLƏRİN YARADICILIQ FƏALİYYƏTİ

Qalib Mikayıl oğlu Aslanov[1]
Leyla Aydın qızı Ramazanova[1]
Samirə Kamandir qızı Rüstəmova[2]
Zərqələm Nazim qızı Hüseyinova[3]
Zerqelem_huseynova@mail.ru
Leyla Elman qızı Yusibova[1]
Azərbaycan Dövlət Aqrar universiteti[1]
Gəncə Dövlət Universiteti[2]
Azərbaycan Texnologiya universiteti[3]

Həyatı situasiyalarda yaradıcılıq dedikdə, iki cür yanaşma başa düşülür. Birinci yanaşmaya görə yaradıcılıq dedikdə, tamamilə yeni olan və ictimai əhəmiyyət kəsb edən şeylər başa düşülür. Məsələn, nanotexnologiyalar, yeni yarımkeçirici materialların hazırlanması, informasiya texnologiyaları sahələrində əldə edilən nailiyyətlər ona görə

yaradıcılığın təzahürləri kimi qiymətləndirilir ki, əldə edilənlər yenidirlər və indiyədək bəşəriyyətə məlum deyildirlər.[1]

Aydındır ki, bu yanaşmaların hansı olursa olsun tədris prosesində şagirdlərin yaradıcılıq fəaliyyətinin təşkilindən danışmaq olmaz. Doğrudan da, bir tərəfdən təlim prosesində şagirdlərin ardıcıl olaraq hansısa elmi kəşflər, ixtiralar və yenilikçi təkliflər etmələrini hesab etmək, düşünmək düzgün olmazdı. Digər tərəfdən isə əgər şagirdin öyrəndiyi hər şey yenidirsə, tədris prosesindəki hər bir addım şagird üçün yaradıcıdır və onun üçün xüsusi yaradıcılıq fəaliyyəti təşkil etməyin heç bir mənası yoxdur. Aydındır ki, yaradıcılıq fəaliyyəti haqqında bu yanaşmaların heç birini düzgün hesab etmək olmaz. [2]

Təsəvvür edək ki, şagirdlərə belə bir tapşırıq verilmişdir: tüfəngdən atəş açılmışdır və ən sadə üsulla güllənin başlanğıc sürətini təyin etmək lazımdır. Bu tapşırığın yerinə yetirilməsi üçün şagirdlər bir neçə ən müxtəlif variantlar verirlər.

Şagirdlərin bir qismi təklif edirlər ki, tüfəngi yuxarı yönəldib atəş açaraq və güllənin uçuş yüksəkliyini ölçüb, hündürlüyə görə başlanğıc sürəti təyin etmək lazımdır; digərləri isə belə hesab edirlər ki, tüfəngi üfüqi vəziyyətdə tutub atəş açaraq, güllənin uçuş məsafəsini ölçməklə onun başlanğıc sürətini təyin etmək olar; şagirdlər başqa həll variantları da təklif edə bilərlər.[2]

Bu həll variantlarına yaradıcı kimi baxmaq olarmı? Bu suala o vaxt müsbət cavab vermək olar ki, bu məsələnin bu və ya digər həll variantı ilə şagirdlər əvvəl tanış olmasınlar. Doğrudan da, elə vaxt var idi ki, güllənin uçuş sürətinin təyini üsullarından heç biri məlum deyildi və onların kəşf olunması yaradıcılığın nəticəsi idi. Lakin, əgər qarşıya qoyulan məsələnin həllini (tüfəngdən atılan güllənin başlanğıc sürətinin təyin olunmasını) yaradıcı hesab etmək mümkündürsə, onda ixtiyari fizika məsələsinin həllini niyə yaradıcı hesab etmək mümkün olmasın ki? Başqa sözlə, baxdığımız məsələnin formalaşdırılması, aşağıdakı formalardan birinə ekvivalent deyildirmi?: əgər şaquli yuxarı atılmış güllə h yüksəkliyinə qalxarsa; əgər h yüksəkliyində üfüqi atılmış güllə hamar üfüqi səthdə l məsafə qət edərsə; əgər m kütləli güllə M kütləli rəqqasa dəyərək onu şaquldan α bucağı qədər meyl etdirərsə və s. güllənin başlanğıc sürətini təyin edin. Belə məsələləri müqayisə edərək V.Q.Razumovski onları 1–ci və 2–ci növ məsələlərə bölmüşdür və göstərmişdir ki, 1–ci və 2–ci növ məsələlərin formalaş-dırılması qoyuluşu eyni deyildir.[3]

Birinci növ məsələdə yalnız tələb qoyulur (başlanğıc sürəti təyin etmək) və bu tələbin necə yerinə yetirilməsi barədə heç bir göstəriş yoxdur. Doğrudan da güllənin başlanğıc sürətini təyin etmək üçün bunu hansı üsulla etmək mümkün olduğunu tapmaq lazımdır. Bu hal üçün, qanunauyğunluqları məlum olan və məsələnin həllində istifadə olunması mümkün olan münasib fiziki hadisə tapmaq lazımdır. Verilmiş konkret hal üçün mümkün olan üsullardan ən sadəsini seçmək lazımdır (yuxarı güllə atıb hündürlüyü ölçmək və başlanğıc sürəti hesablamaq) və bu zaman 1-ci növ məsələ 2-ci növ məsələnin variantlarından birinə gələcəkdir [3].

2 –ci növ məsələnin xeyli sadəliyi ondadır ki, onun şərtlərində təkcə başlanğıc sürəti təyin etmək tələbi yoxdur, şərtlərdə həmçinin qanunauyğunluğu məlum olan konkret fiziki hadisə (cisim şaquli yuxarı atılmışdır) təsvir edilmişdir. Doğrudan da əgər güllənin şaquli yuxarı atıldığı və h hündürlüyünə qalxdığı məlumdursa, onda güllənin başlanğıc sürətini hesablamaq olar. Belə ki, bu məsələyə cismin sərbəst hərəkətinin xüsusi halı kimi baxıla bilər. Deməli, güllənin başlanğıc sürətini

$$\upsilon = \sqrt{2gh} \qquad (1)$$

düsturu ilə hesablamaq olar.

Lakin, ola bilər ki, 1-ci növ məsələnin yüksək dərəcədə çətinliyi onu yaradıcı hesab etməyə, 2-ci növ məsələni isə yaradıcı hesab etməməyə imkan verməsin. Aydındır ki, hər iki məsələ ilk dəfə həll olunduğundan, onların hər ikisində nəsə yeni bir şey – yaradıcılıq fəaliyyətinin lazımı əlaməti vardır. Belə fərziyyənin doğru olmadığına inanmaq üçün 1–ci və 2-ci növ məsələlərdə yeniliyin nədən ibarət olduğunu aydınlaşdırmaq lazımdır.

1-ci növ məsələlərdə hər şeydən əvvəl həll prinsipini tapmaq lazımdır, ikinci növ məsələlərdə isə həll prinsipi artıq məsələlərin şərtində verilmişdir.

Yaradıcılığa nəzərə çarpan yenilik xasdır və ona görə də 1-ci növ məsələni biz yaradıcı məsələ adlandıra bilərik. 2-ci növ məsələni isə təlim məsələsi adlandırmaq lazımdır.

Yaradıcı məsələ ilə yaradıcılıq arasında əlaqəni müəyyən etmək üçün yaradıcılıq prosesini analiz etmək lazımdır. Onu üç mərhələyə ayırmaq olar:1)problemin formalaşdırılması; 2)onun nəzəri həlli: 3)problemin həllinin doğruluğunun yoxlanılması və ya həllin təcrübi yoxlanılması. Beləliklə, fizikadan yaradıcılıq məsələləri, tədris prosesində şagirdlərin yaradıcılıq fəaliyyətinin bir növü kimi baxıla bilər. Yaradıcılıq fəaliyyətinin belə sadə analizindən görünür ki, yaradıcılıq məsələsinin həlli yaradıcılıq prosesinin mərkəzi və əsas həlqəsidir. Bununla yanaşı o həmdə yaradıcılıq prosesinin elə bir xüsusi halı ola bilər ki, burada artıq problem artıq formalaşdırılıb və onun həlli üçün bütün məlumatlar vardır.

ƏDƏBİYYAT

1.İsmayılov M.H. Fizikadan M.H. Fizikadan şagirdlərdə yaradıcı fəaliyyəti formalaşdıran müstəqil işlərin təşkili (7-8-ci iniflərin fizika materialları əsasında) P.e.n.diss. avtoref. Bakı. 1990. 24s.
2.Azərbaycan Respublikasının Təhsil konsepsiyası (milli kurikulumu) Bakı. 2007
3.Rüstəmova S.K. Praktik məzmunlu məsələlərin həllində təlim fəaliyyətinin strukturu // Azərbaycan məktəbi. 2010. №2 (639). Səh.75-79.

STUDENTS' CREATIVE ACTIVITY IN SOLVING PHYSICS PROBLEMS

Galib Mikayil Aslanov[1]
Leyla Aydin Ramazanova[1]
Samira Kamandir Rustamova[2]
Zerqelem Nazim Huseyinova[3]
Zerqelem_huseynova@mail.ru
Leyla Elman Yusibova[1]
Azerbaijan State Agrarian University[1]
Ganja State University[2]
Azerbaijan Technological University[3]

The study examined the issues of creativity in physics as a type of creative activity of students in the educational process. Although creativity is an organic part of any human activity, the special place of creative activity in the educational process was investigated.

Keywords: physics, creativity, discovery, invention, problem, student

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCAN ELM VƏ TƏHSİLİNİN İNKİŞAF YOLU

Bayram Həsənəli oğlu Xudayarov[1]
bayramxudayarov02@gmail.com
Bayramh@mail.ru
Hüseyn Behbud oğlu İbrahimov[1]
Mobil Kazımov[1]
Nurlana Kazımova [2]
Elm və Təhsil Nazirliyi Fizika İnstitutu[1]
Azərbaycan Texnologiya Universiteti [2]

Giriş. Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində elm və təhsil sahələrinin rolu strateji əhəmiyyət kəsb edən əsas istiqamətlərdən biri kimi çıxış edir. Bu sahələrin formalaşması və inkişafı isə bilavasitə dövlət siyasəti və siyasi liderliyin uzaqgörənliyi ilə sıx bağlıdır. Azərbaycan tarixində bu istiqamətdə fundamental dönüş yaradan şəxsiyyət kimi Ulu Öndər Heydər Əliyev xüsusi yer tutur.

Onun rəhbərliyi dövründə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət nəticəsində ölkədə elm və təhsil sistemi keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, milli kadr hazırlığı, elmi-tədqiqat potensialı və təhsil infrastrukturunun gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Xüsusilə 1969-cu ildən etibarən başlanmış islahatlar və

müstəqillik dövründə davam etdirilən dövlət siyasəti Azərbaycanın intellektual potensialının formalaşmasında həlledici rol oynamışdır.

Bu baxımdan təqdim olunan məqalədə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan elm və təhsilinin inkişaf yolu, həyata keçirilmiş islahatların mahiyyəti və onların müasir dövrdə yaratdığı strateji nəticələr elmi yanaşma əsasında təhlil edilir.[1]

Azərbaycan tarixində dövlət quruculuğu, milli ideologiyanın formalaşması və strateji inkişaf modelinin müəyyənləşdirilməsi baxımından müstəsna xidmətlər göstərmiş şəxsiyyətlərdən biri də Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun fəaliyyəti yalnız siyasi və iqtisadi sahələrlə məhdudlaşmamış, eyni zamanda elm və təhsil sisteminin inkişafına yönəlmiş məqsədyönlü və ardıcıl siyasəti ilə də səciyyələnmişdir. Məhz bu siyasət nəticəsində Azərbaycan elmi və təhsili keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.[7]

Elm sahəsində də Ulu Öndərin fəaliyyəti mühüm nəticələrlə yadda qalmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının inkişafı üçün geniş imkanlar yaradılmış, elmi-tədqiqat institutlarının fəaliyyəti stimullaşdırılmış, alimlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Bu siyasət nəticəsində Azərbaycan alimləri müxtəlif sahələrdə mühüm elmi nailiyyətlər əldə etmiş, beynəlxalq elmi mühitdə öz layiqli yerlərini tutmuşlar.

Müstəqillik dövründə də Heydər Əliyev elm və təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və iqtisadi şəraitə baxmayaraq, təhsil sisteminin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində mühüm qərarlar qəbul edildi. Təhsil sahəsində hüquqi baza formalaşdırıldı, yeni qanunlar və dövlət proqramları qəbul olundu.

Ulu Öndər elm və təhsilin yalnız bilik ötürən sahə olmadığını, eyni zamanda milli ideologiyanın formalaşmasında mühüm rol oynadığını vurğulayırdı. Onun fikrincə, təhsil sistemi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, dövlətçilik ənənələrinə sadiq kadrların yetişdirilməsində əsas vasitədir. Bu baxımdan məktəblərdə və ali təhsil müəssisələrində tərbiyə işinin gücləndirilməsi onun siyasətinin əsas istiqamətlərindən biri olmuşdur.[2]

Əgər istifadəçi qrafik analiz və daha mürəkkəb ölçmə funksiyaları tələb edirsə, Proteus VSM-də Qabaqcıl Simulyasiya Seçimi (Advanced Simulation Options) təqdim olunur. Bu seçim analoq dövrələrin tezlik spektri, harmonik təhrif, səs-küy və süpürmə (sweep) analizləri kimi əlavə analiz növlərinin həyata keçirilməsinə imkan verir. Bundan başqa, sistemdə Uyğunluq Analizi (Compliance Analysis) kimi unikal alət mövcuddur ki, bu da proqram təminatının keyfiyyətinin təminatı və tələblərə uyğunluğun yoxlanması üçün güclü metodik vasitə kimi çıxış edir. Uyğunluq analizi layihə mərhələsində səhvlərin aşkar edilməsini asanlaşdırır və sistemin dizayn keyfiyyətini artırır.

Beləliklə, Proteus VSM virtual laboratoriya mühiti yalnız mikrokontroller əsaslı qurğuların simulyasiyasını təmin etmir, həm də onların sınaq və təhlilini aparmaq üçün geniş çeşidli ölçmə və analiz vasitələri ilə təmin olunmuşdur. Bu imkanlar fiziki prototiplərin hazırlanmasına başlamazdan əvvəl layihənin tam funksional yoxlanılmasına və optimallaşdırılmasına şərait yaradır.



Şəkil 3.Proqram əsasında çıxış siqnallarının təsviri

Proteus VSM-in üstünlükləri və iş prinsipi: Proteus Virtual System Modelling (VSM) sxematik paket daxilində mikrokontroller əsaslı dizaynların sistem səviyyəsində simulyasiyasını təmin edərək, sxematik və PCB dizaynı arasındakı boşluğu aradan qaldıran ilk proqram məhsulu kimi çıxış edir. On ildən artıq bir müddət keçməsinə baxmayaraq, Proteus VSM hələ də rəqib məhsullarla müqayisədə daha geniş mikrokontroller variantları və periferik qurğular, inkişaf etmiş sazlama alətləri və innovasiyaya davamlı diqqəti ilə bu sahədə lider mövqedədir.

Proteus VSM istifadəçilərə quraşdırılmış mühəndislik üçün unikal inkişaf platforması təqdim edir. Proqram vasitəsi ilə mikrokontroller hissəsinə aid proqram faylları (HEX, COF, ELF/DWARF2, UBROF və s.) sxematik olaraq inteqrasiya edilə bilər. Simulyasiya zamanı proqramın sxem üzərində yaratdığı təsir vizual şəkildə müşahidə olunur. Bu yanaşma, istifadəçiyə mikrokontroller əsaslı sistemin funksional davranışını layihənin ilkin mərhələsində sınamağa imkan verir. Layihə zamanı sxemi yenidən tərtib edərək, rezistorlar, kondensatorlar və digər komponentlərin dəyərlərini dəyişmək, yeni komponentlər əlavə etmək və ya artıq mövcud olanları çıxarmaq mümkündür. Həmçinin, seçilmiş IDE-də proqram təminatı dəyişdirildikdən sonra, tərtib olunmuş yeni kod bir düymə basmaqla virtual mühitdə test edilə bilər. Bu xüsusiyyətlər istifadəçiyə sınaq və optimallaşdırma prosesi üçün tam sərbəstlik verir, müxtəlif ideyaların təsirini müqayisəli şəkildə qiymətləndirməyə imkan yaradır və layihə üçün optimal dizayn həllini müəyyən etməyə kömək edir.

Proteus VSM sxematik proqram təminatına "virtual prototip" rolunu verir. İstifadəçi həm sxemdə, həm də proqram təminatında dəyişiklikləri asanlıqla və sürətlə tətbiq edə bilir. Bu isə fiziki prototiplərin hazırlanmasına başlamazdan əvvəl layihənin funksional doğruluğunu və etibarlılığını təmin etmək üçün effektiv vasitədir.

Bu tədqiqatın elmi yeniliyi aşağıdakı aspektlərdə ifadə olunur:

Mikrokontroller əsaslı sistemlərin virtual laboratoriya mühitində təhlili: Məqalədə təqdim olunan yanaşma Proteus VSM proqramı vasitəsilə elektron qurğuların funksional və parametrlərinin simulyasiyasını sistem səviyyəsində həyata keçirməyə imkan verir. Bu yanaşma fiziki prototiplərin hazırlanmasına başlamazdan əvvəl qurğuların iş prinsipini dəqiq şəkildə yoxlamağa imkan yaradır, beləliklə həm vaxt, həm də maliyyə resurslarının qənaətini təmin edir.

Qarışıq sxemlərin və periferik komponentlərin inteqrasiyası: Tədqiqat mikrokontroller (Arduino və PIC) ilə birgə müxtəlif sensorlar, aktuatorlar və LED indikatorlarının ardıcıl və məntiqi iş prinsipini virtual mühitdə sınaqdan keçirməyə imkan yaradır. Bu, idarəetmə qurğularının iş prinsipinin daha ətraflı və dəqiq anlaşılmasına şərait yaradır.

Virtual prototipləmə konsepsiyasının tətbiqi: Proteus VSM-in təqdim etdiyi "virtual prototip" yanaşması tədqiqatçıya proqram təminatını (HEX, COF, ELF və s.) və sxem elementlərini birləşdirərək sxematik və PCB dizaynları arasındakı boşluğu aradan qaldırmaq imkanı verir. Bu, elektron qurğuların layihələndirilməsində daha çevik və effektiv dizayn metodikasının tətbiqinə şərait yaradır.

Simulyasiya nəticələrinin təhlili: Təqdim olunmuş metodika sensor və LED indikatorların ardıcıl işləmə prinsipini, suyun səviyyəsinə görə idarəetmənin məntiqini və mikrokontrollerin işçi proqramının davranışını osiloskop və digər virtual alətlər vasitəsilə real vaxt rejimində müşahidə etməyə imkan verir. Bu, elektron qurğuların funksional davranışının sistemli və elmi şəkildə təhlilinə imkan yaradır.

Tədris və tədqiqat prosesində tətbiq imkanları: Təklif olunan metodika yalnız praktik tətbiq üçün deyil, həm də mühəndislik təhsili və elmi-tədqiqat prosesində istifadə oluna bilər. Virtual laboratoriya mühiti tələbələrə mikrokontroller əsaslı sistemlərin iş prinsiplərini öyrənmək və analiz etmək üçün əlverişli platforma təqdim edir.

Beləliklə, tədqiqat həm virtual laboratoriya mühitində mikrokontroller əsaslı elektron qurğuların simulyasiyası və təhlili, həm də sxematik və proqram təminatının inteqrasiyasının elmi əsaslarının tətbiqi sahəsində yenilikçilik təşkil edir.

Nəticə: Məqalədə elektron qurğuların virtual təhlili üçün istifadə olunan proqram təminatlarının ilkin xüsusiyyətləri, funksionallıqları və tətbiq imkanları sistemli şəkildə təqdim edilmişdir. Xüsusilə, Proteus proqramı nümunəsində, elektron elementlərin bazası üzərindən tələb olunan qurğuların mərhələli şəkildə quraşdırılması, onların texniki parametrlərinin, elektrik və fiziki xarakteristikalarının dəqiq tədqiqi izah olunmuşdur.

Simulyasiya prosesi zamanı əldə olunan məlumatların vizualizasiyası, o cümlədən osiloskop vasitəsilə siqnal əyrilərinin izlənməsi, həmçinin komponentlər arasındakı qarşılıqlı təsirlərin real vaxt rejimində müşahidəsi ətraflı şəkildə təsvir edilmişdir. Bu, istifadəçilərə yalnız nəzəri biliklərlə kifayətlənməyərək, praktik təcrübə qazanmaq, sistemin davranışını real şəraitdə təhlil etmək və potensial problemləri öncədən müəyyən etmək imkanı verir.

Bundan əlavə, virtual laboratoriya mühitində qurğuların parametrik optimallaşdırılması və dizayn sınaqları mühəndislərə və tədqiqatçılara layihələrin daha sürətli, qənaətcil və təhlükəsiz şəkildə hazırlanmasını təmin edir. Elektron qurğuların dizayn mərhələsində simulyasiyanın tətbiqi, həmçinin resursların səmərəli istifadəsini, laboratoriya avadanlıqlarının qorunmasını və tədris prosesində praktik bacarıqların inkişafını dəstəkləyir.

Nəticə etibarilə, virtual laboratoriya proqramları yalnız tədris və təcrübə məqsədləri üçün deyil, həm də elmi-tədqiqat fəaliyyəti və sənaye tətbiqləri üçün effektiv bir alət rolunu oynayır. Onlar elektron sistemlərin layihələndirilməsi, sınaqdan keçirilməsi və optimallaşdırılması prosesini sadələşdirir, istifadəçiyə həm interaktiv təcrübə, həm də məlumatın yüksək dəqiqliklə təhlilini təmin edən təkmil simulyasiya mühiti təqdim edir. Bu yanaşma, gələcəkdə daha mürəkkəb elektron qurğuların dizaynı və avtomatlaşdırılmış sistemlərin inteqrasiyası üçün əsas platforma rolunu oynayacaqdır

Məqalədə elektron qurğuların virtual təhlili üçün istifadə olunan proqramların ilkin xüsusiyyətləri və imkanları təqdim olunmuşdur. Proteus proqramı üzərində element bazasının köməyi ilə tələb olunan qurğuların quraşdırılması ardıcıllığı və onların parametrlərinin, xarakteristikalarının tədqiqi izah edilmişdir. Nəticə etibarilə, sistemin yoxlanılması və simulyasiya zamanı əldə olunan məlumatların vizualizasiyası, xüsusilə elektrik siqnallarının əyrilərinin osiloskop vasitəsilə müşahidəsi ətraflı şəkildə təsvir olunmuşdur. Bu yanaşma elektron qurğuların layihələndirilməsi, sınaqdan keçirilməsi və optimallaşdırılması prosesini asanlaşdırır və elmi-tədqiqat fəaliyyətində tətbiq üçün əlverişli alət təmin edir.

ƏDƏBİYYAT

1.L.V.Məmmədov, S.Əbilova. Elektron qurğuların virtual tədqiqi. "Su Nəqliyyatının Problemləri" XVI Beynəlxalq Elmi-Texniki Konfrans: məruzə materialları, s.99. Bakı, 2021.

2.J. Mustofokulov, A.Hamzaev. Effective pedagogical technology for the mathematical model of fading mechanical vibrations. Journal of Education, Science and Innovation, 2020/3, s.30-33.

3.J.Mustofokulov, M.Suyarova, Y.Inyaminov. RLC is a mathematical model of a chain and its calculation in Multisim. Scientific and Technical Journal of Mechanical Engineering, 2022/2, s.249-254.

4.V.I.Plushaev. Computer circuit modeling: Methodological guidelines. N. Novgorod: VGAVT Publishing House, 2002. 64 p.

5.Филатов М. Проектирование схем электрических принципиальных с использованием микроконтроллеров в программной среде Proteus. Компоненты и технологии, 2015, №12, s.103-105.
6.Guo Linjie. Large oil tankers for auxiliary boiler system modeling and simulation study [D]; Dalian Maritime University, 2013.
7.ZHONG Qi-sheng. NAKAKITA NS778AN Type Water Level Automatic Control Failure and Its Elimination Method. PearlRiverWaterTransport, 2017(11):90-91.
8.D. Shvets. Investigation of software simulators for modeling combinational circuits in microprocessor technology. European Scientific e-Journal (2025). journals.eiid.eu
9.L. Adewale Ajao, J. Agajo, J.G. Kolo, M.A. Adegboye, Y. Yusuf. Learning of embedded system design, simulation and implementation: a technical approach. American Journal of Embedded Systems and Applications, 2016. sciencepg.com
10.L. Vasetska. A study of the electric circuit modelling and simulation software efficiency. Bulletin of Cherkasy State Technological University, 2024. bulletin-chstu.com.ua
11.Simulation of the operation of the 80C51 microcontroller in the system of circuit simulation Proteus VSM. PNRPU Bulletin: Electrotechnics, Informational Technologies, Control Systems, 2025. ered.pstu.ru
12.Trusted simulation using Proteus model for a PV system: test case of an improved HC MPPT algorithm. Energies, MDPI, 2021-2022. MDPI

MODELING AND ANALYSIS OF ELECTRONIC DEVICES IN A VIRTUAL LABORATORY ENVIRONMENT

K.K. Azizova[1,2]
kama-azizova2025@rambler.ru
L.V. Mammadov[3,4]
A.G. Balin[5]
atillabalin@gmail.com
N.V. Kazimova[6]
nurlanavahid1@gmail.com
I.S. Ramazanova[1]
Z.N. Huseynova[6]
Institute of Physics of the Ministry of Science and Education of the Republic of Azerbaijan[1]
Azerbaijan University[2]
Baku Engineering University[3]
Azerbaijan Technical University[4]
UCLL University of Applied Sciences[5]
Azerbaijan Technological University[6]

The article examines the modeling of electronic devices and circuits in a virtual laboratory environment and the systematic analysis of their functional characteristics. The limitations of traditional laboratory facilities in the educational system-due to both equipment and resource constraints-pose challenges to the development of students' practical skills. Within this context, virtual research and simulation approaches emerge as essential and highly effective tools.

In this study, the Proteus software platform was utilized to design electronic circuits, simulate microcontroller behavior, and analyze various operational modes. The virtual laboratory environment enables students and researchers to gain practical experience, investigate system behaviors under different scenarios, and identify potential issues even in the absence of physical devices. This approach enhances the efficiency of the educational process and provides a reliable, interactive platform for the design, testing, and optimization of electronic devices in scientific research. Consequently, virtual laboratories not only facilitate the integration of theoretical knowledge with hands-on practice but also support the implementation of technological innovations, simulation-based design methodologies, and automated analyses of electronic systems.

Keywords: virtual circuit, electronic devices, proteus, distance learning, microprocessor, microcontroller, inverter

TAM ORTA MƏKTƏB FİZİKA KURSUNUN MEXANİKA BÖLMƏSİNƏ AİD ÇƏTİNLİYƏ ARTIRILMIŞ MƏSƏLƏLƏRİN HƏLLİ METODLARI

Mətanət Camal qızı Tağıyeva [1]
Taqiyeva74@mail.ru
Zərqələm Nazim qızı Hüseyinova [2]
Zerqelem_huseynova@mail.ru
Gəncə Dövlət universiteti[1]
Azərbaycan Texnalogiya Universiteti[2]

Fizikanın mexanika bölməsi fizikanın fundamental bölməsindəndir.Şagirdlərə mexanika bölməsi məntiqi düşünmə,analtik yanaşma bacarıqları formalaşdırır.Çətinlik səviyyəsi artırılmış məsələləri həll etmək üçün öncədən məsələni oxumalı anlamalı təhlil etmə bacarıqlarını inkişaf etdirməlidirlər.Çəntin məsələ həlli şagirdlərdə yüksək düşünmə əldə etməsində dərin rol oynayır.Məsələnin həlli üçün metodlara baxaq.[1]

1.Məsələnin düzgün təhlili

Çətin məsələnin həlli düzgun başa düşülməsidir.Şagirdlər çətin məsələni addım addım tətbiq etməlidir.Diqqətlə oxumalı,qrafikləri,şəkilləri düzgün çəkməli və səhvlərin qarşısını almaq lazımdır.[2]

Fiziki qanun və prinsiplərin seçilməsi çətin məsələ həllində fizikanın bir neçə qanunlarını birlikdə tətbiq etməliyik.Mexanikada istifadə edilən bir neçə qanunlar aşağıdakı kimidir.

Nyutonun qanunları
Enerjinin saxlanma qanunu
Impulsun saxlanma qanunları
Kinematiki tənliklər və s.

Şagirdlər çətin vəziyyətdə hansı qanundan istifadə etməli olduğunu bilməlidirlər.
ikinci mərhələdə hansı metodlardan istifadə olunmasını nəzərə almalıyıq.

Məsələni hissə -hissə ardıcıl şəkildə təhlil etməliyik.Məlum faktlardan istifadə edərək nəticəyə gəlmək lazımdır.Oxşar məsələləri müqayisə etməklə həllini tapmalı riyazi və fiziki düsturlardan istifadə etməliyik.Mexanika bölməsində mexiniki məsələləri qrafiklər çəkərək həll etməklə daha asan və səmərəli həll etmək olar.Məsələn sürət-zaman qrafiki vasitəsi ilə hərəkətin xarakterini təhlil etmək analiz etmək asan olacaq. Alternativ yollar axtarmalı, eyni məsələni müxtəlif həll yolu ilə həll etməli [3]

Üçüncu mərhələ tətbiqdir.Bu mərhələdə riyazi dusturlara ,qrafiklərə apardığımız hesablama mərhələsini sintez etməli və nəticəyə gəlməlidir. Qeyd etdiklərimizi nümunə üzərində izah edək:

Məsələ: Cisimin hərəkət tənliyi $X=15-12t+3t^2(m)$ şəklindədir .Cismin dayananadək nə qədər müddət hərəkətdə olmuşdur?

Həlli

ilk öncə bilməliyik ki,cisim dayananda sürəti v=0 olur.Sürəti tapmaq üçün koordinatın törəməsini almalı $v==\frac{dx}{dt}=-12+6t$

indi dayanma anını tapmaq üçün v=0 yazaq
-12+6t=0
6t=12
t=2 san
deməli cisim dayananadək 2 san hərəkətdə olmuşdu.

Beləliklə mexanika bölməsində çətinliyə artırılmış məsələ şagirdlərdə təfəkkürü inkişaf etdirir və onları daha yüksək səviyyəli tapşırıqlara hazırlayır. Müəllim isə bu metodları şagirdlərə izah etməklə yanaşı müstəqil düşünmə bacarıqlarını aşılaya bilməlidir.

ƏDƏBİYYAT

1.Fizikadan nümayiş eksperimenti. II hissə. Bakı, 1979
2.İsmayılov İ.N. Fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadə üzrə işin sistemi (Monoqrafiya). Bakı: Mütərcim, 2009, 244 s.

3.Yeni nəsil multimedia dərsliyi (Fizika) Elektron dərsliklər. Bakı: Bakınəşr, 2007
4.Б.С.Беликов Решение задач по физике. Обшие методы – Москва. 1986. – 256 с.

METHODS FOR SOLVİNG PROBLEMS OF İNCREASED DİFFİCULTY RELATED TO THE MECHANİCS SECTİON OF THE HİGH SCHOOL PHYSİCS COURSE

Matanat Camal Tagiyeva[1]
Tagiyeva74@mail.ru
Zerqelem Nazim Huseynova[2]
Zerqelem_huseynova@mail.ru
Ganja State University[1]
Azerbaijan Technological University[2]

Thus, increasing the difficulty of the problem in the mechanics section develops students' thinking and prepares them for higher-level tasks. The teacher must be able to explain these methods to students and instill in them independent thinking skills.

Keywords: speed, acceleration, coordinate, graphs

INP-DƏ TRİBOELEKTRİK GENERASİYASI

Zakir Cəbrayıl oğlu Xələfov
Razil Tofiq oğlu Mirzəyev
razil-mirze@mail.ru
Samirə Rafiq qızı Nuriyeva
Azərbaycan Texnologiya Universiteti

Son illərdə [1]-də təklif olunan triboelektrik nanogenerator (TENG) konsepsiyası geniş inkişaf etmişdir. Bu cihaz mexaniki sürtünmə enerjisini elektrik enerjisinə çevirir; onun iş prinsipi kontakt elektrikləşdirmə və elektrostatik induksiya fenomenlərinə əsaslanır. TENG-lərin çıxış gücünün və etibarlılığının artırılması portativ və geyilə bilən elektronikanın enerji təchizatı problemini həll edə bilər.

Klassik TENG-lər polimerlərə (PVC, PET, PTFE) əsaslanır, lakin onların yaratdığı cərəyan yüksək impedansla məhdudlaşır və 10 mA/m2-dən çox deyil. Bu baxımdan, yarımkeçiricilərdə triboelektrik fenomenlərin öyrənilməsi maraq doğurur. Son bir araşdırma [2] 10 A/m2 cərəyan sıxlığına malik Si/SiO2/Metal strukturunda tribogenerasiyanı aşkar etmişdir. Bu tədqiqatda, silikon substrat üzərində yetişdirilən 200 nm qalınlığında indium fosfid təbəqəsindəki triboelektrik proseslər keçirici atom qüvvəsi mikroskopiyası (AFM) istifadə edilərək araşdırılmışdır. Metal AFM zondundan keçən elektrik cərəyanının axını nümunə səthinə sürtünmə zamanı qeydə alınıb.

Cərəyan impulslarının amplitudası 500 pA-nı keçib ki, bu da təxminən 3·103 A/m2 cərəyan sıxlığına uyğundur. Açıq dövrə gərginliyinin 15 mV olduğu müəyyən edilib. Beləliklə, çıxış gücü 50 Vt/m2 olub. Nəticələri izah etmək üçün [3]-də təklif olunan fenomenoloji nəzəriyyədən istifadə edilib. Müşahidə olunan cərəyan, təbii indium fosfid oksidinin sərhədlərində yükün yenidən bölüşdürülməsi ilə əlaqələndirilir. Cərəyanın polyarlığı göstərir ki, artıq mənfi yük oksid/zond sərhədində yaranır. Bəzi tələyə düşmüş elektronlar yarımkeçiriciyə tunel vasitəsilə daxil ola və elektrik cərəyanı yarada bilər.

Fotovoltaik yarımkeçirici materiallarda triboelektrik proseslərin tədqiqi TENG-lərin çıxış gücünü artıracaq və hibrid triboelektrik/fotovoltaik generatorların yaradılmasına gətirib çıxaracaq.

ƏDƏBİYYAT

1.Zhu G. et al., Toward large-scale energy harvesting by a nanoparticle-enhanced triboelectric nanogenerator, Nano letters, 13.2, 847-853, 2013;
2.Liu J. et al., Sustained electron tunneling at unbiased metal-insulator-semiconductor triboelectric contacts, Nano Energy 48, 320-326, 2018;

3.Liu J, et al., Interfacial friction-induced electronic excitation mechanism for tribo-tunneling current generation, arXiv preprint arXiv: 1809.07739, 2018;

TRIBOELECTRIC GENERATION AT INP

Zakir Jabrayil Khalafov
Razil Tofig Mirzayev
Samira Rafiq Nuriyeva
Azerbaijan Technological University

Triboelectric generation is based on the principle of the generation of an electric charge between materials due to friction and contact. Semiconductor materials such as Indium Nitride-Phosphide (INP) are considered promising materials for efficient energy conversion in triboelectric generators due to their high surface area and good electrical conductivity. Triboelectric generators based on INP are used in the field of harvesting energy from small mechanical movements, providing power for sensors and portable electronic devices. This approach also has significant potential for sustainable energy sources and increasing energy efficiency.

Keywords: Triboelectric generation, INP (Indium Nitride-Phosphide), Friction energy, Semiconductor materials, Microenergy harvesting, Portable power source, Sensor technologies

VİDEOYAZIYA GÖRƏ İKİ HADİSƏ ARASINDA KEÇƏN REAL ZAMANIN MÜƏYYIN OLUNMASI

Bəxtiyar Paşayev[1]
bakhtiyarpasayev@bsu.edu.az
Məmməd Rəcəbov[1]
m_rajabov@mail.ru
Lətif Əliyev[1,2]
latif_aliyev@mail.ru
Pərvin Nəzərli[3]
p.nezerli.96@icloud.com
Nilufər Orucova[4]
n.orucova@atu.edu.az
Bakı Dövlət Universiteti[1]
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi[2]
309 nömrəli tam orta məktəb[3]
Azərbaycan Texnologiya Universiteti[4]

Məhkəmə ekspertizası sahəsində işdə maddi sübut kimi tanınan videoqramdakı kadrlarda qeydə alınan obyektlər arasındakı məsafələrin, obyektin ölçülərinin, vizual hadisələr arasında keçən real vaxtın, obyektin sürətinin dəqiq müəyyən olunması istintaq və məhkəmə orqanlarının iş üzrə obyektiv qərarların qəbul edilməsində mühüm rol oynayır.

Hazırda videoyazıdakı görüntülərin keyfiyyətinin yaxşılaşdırılması, videoyazıların həqiqiliyinin müəyyən olunması və yuxarıda qeyd olunan məsələlərin həlli üçün nəzərdə tutulmuş AmpedFive, Kinovea, Amped Authenticate, OTExpert, DTP-Expert kimi xüsusi proqram təminatlarından (XPT) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində və Bakı Dövlət Universitetinin fizika fakultəsinin tədqiqat laboratoriyasında müvəffəqiyyətlə istifadə olunur [1,2].

Məhkəmə, özəl və alternativ ekspertiza müəsisələrində videoyazıların kriminalistik ekspertizası və kimyəvi ekspertiza sahəsinində çalışacaq ekspertlərin hazırlanması üçün Bakı Dövlət Universitetinin rolunu uyğun sahələr üzrə ilk baza təhsili verən hələlik yeganə təhsil ocağı kimi xüsusi qeyd etmək yerinə düşərdi [3,4]. Belə ki, artıq bir neçə ildir ki, bu təhsil

ocağının fizika fakultəsində "Audio və videoyazıların rəqəmsal emalı", kimya fakultəsində isə "Kimyəvi ekspertiza, fənləri tədris olunur.

Son vaxtlar yol-nəqliyyat hadisələrinin araşdırılmasında hadisə iştirakcısı olan obyektlərin ölçülərinin, obyektlər arasındakı məsafənin, obyektin sürətinin, təcilinin, iki vizual və akustik hadisə arasında keçən real zaman intervalının müəyyən olunmasında subyektivlik daşıyan şahid ifadələrinə deyil, bu parametrlərin hadisənin qeydə alındığı fotoşəkillər və video görüntülərə görə müəyyən olunmasına daha çox üstünlük verilir. Təqdim etdiyimiz material videoqramlara görə YNH iştirakcısı olan nəqliyyat vasitələrinin, piyadanın, velosipedçinin və s. sürətinin iki vizual və akustik hadisə arasında keçən real zamanın dəqiq müəyyən olunmasına həsr olunmuşdur. Məhz bu parametrlərə görə yol-nəqliyyat ekspertləri tərəfindən hadisə törətmiş sürücünün hadisənin qrşısını almağa texniki imkanının olub-olmaması müəyyən olunur, istintaq və məhkəmədə isə sürücünün günühkar olub-olmaması qiymətləndirilir.

Sürücü üçün təhlükə yaranan andan hadisənin baş verməsinə kimi keçən real zamanın, nəqliyyat vasitəsinin sürətinin, təcilinin dəqiq müəyyən olunması videoyazının faktiki kadr tezliyini düzgün hesablamaqdan, videoyazıda düşən və təkrarlanan kadrların olub-olmamasını, videoyazının təkrar kodlaşdırılıb-kodlaşdırılmadığını müəyyən etməkdən asılıdır ki, bu da ekspertdən yüksək bacarıq və professonallıq tələb edir. Videoyazıya görə iki hadisə arasında keçən vaxt intervalının düzgün hesablanmaması alınmış nəticələrdən istifadə edən yol-nəqliyyat ekspertlərinin rəylərinin nəticələrinə öz mənfi təsirini göstərir.

Videoyazının yazıldığı videokameranın sensorunun qeydəalma tezliyi ilə kameranın kodlaşdırma proqram təminatının (kodekin) kadr tezliyi fərqli olduqda videoyazıda düşən və ya təkrarlanan kadrlar yaranır. Əgər kodekin kodlaşdırma tezliyi sensorun qeydəalma tezliyindən böyükdürsə videoyazıda təkrarlanan, əks halda düşən kadrlar yaranır. Videoyazı ilkin videoyazıya nəzərən fərqli kadr tezliyi ilə təkrar kodlaşdırıldıqda da düşən, təkrarlanan və ya həm düşən, həm də təkrarlanan kadrlar yarana bilər. Aparılmış tədqiqatlar videoqramda düşən və təkrarlanan kadrlar nəzərə alınmadan iki vizual və ya akustik hadisə arasında keçən zaman intervalının müəyyən olunmasında təkcə videoredaktorun zaman sayğacından istifadə etməklə alınan nəticələrin hadisələr arasında keçən real vaxt intervalından kəskin fərqləndiyini göstərir. Məsələn, Kinovea proqram təminatının saniyəölçən funksiyasından istifadə etməklə aparılmış tədqiqatlarda 25 kadr/san tezliyi ilə kodlaşdırılmış videoyazıda piyadanın yolun hərəkət hissəsinə daxil olduğu andan hərəkətdə olan qara rəngli avtomobillə toqquşmasına kimi t=1,28 san kecdiyi halda (şəkil 1a və şəkil 1b), 15 kadr/san tezliyi ilə kodlaşdırılmış videoyazıda eyni hadisələr arasında t=2,13 san (şəkil 2a və şəkil 2b), 35 kadr/san tezliyi ilə kodlaşdırılmış videoyazıda isə t=0,91 san (şəkil 3a və şəkil 3b) vaxt keçdiyini göstərmişdir.

Çəkdiyimiz misaldan göründüyü kimi fərqli kadr tezliyi ilə təkrar kodlaşdırılmış videoyazılarda eyni iki hadisə arasında keçən zaman intervalı bir-birindən 2 dəfədən də cox fərqlənir.



Şəkil 1a.



Şəkil 1b.



Şəkil 2a.



Şəkil 2b.



Şəkil 3a.



Şəkil 3b.

Təkrar kodlaşdırılmamış düşən və ya təkrarlanan kadrlı ilkin videoyazılarda da iki hadisə arasında keçən zaman intervalının videoredktorun zaman sayğacından (PTS) və ya proqram təminatının saniyəölçən funksiyasından istifadə etməklə əldə olunan nəticələr də real zamandan fərqlənə bilər.

PTS və ya proqram təminatının saniyəölçən funksiyası o zaman düzgün nəticə göstərir ki, videoyazı ilkin olsun, yazı qurğusunun zaman sayğacı (TaymKod) ilə PTS göstəriciləri üst-üstə düşsün və videoyazıda düşən və təkrarlanan kadrlar olmasın. Videoyazıda düşən və ya təkrarlanan kadrlar olduğu halda TaymKodun bir saniyəsinə uyğun gələn müddətdə düşən və ya təkrarlanan kadrlar bərpa olunmaqla videoyazının real kadr tezliyi müəyyən olunaraq hər kadra düşən zamana görə iki hadisə arasındakı zamanı hesablamaq olar. Göründüyü kimi videoyazıya görə iki hadisə arasında keçən real vaxtın müəyyən olunması xüsusi bilik tələb edir və bu sahədə mükəmməl metodiki materialların hazırlanmasına ehtiyac vardır. Aşağıda videoyazıya görə iki hadisə arasında keçən real zamanın müəyyən olunması üçün təklif etdiyimiz elmi əsaslara söykənən və ekspert təcrübəsində yoxlanılmış alqoritm verilmişdir:



ƏDƏBİYYAT

1.Lətif Əliyev. Audio və videoyazıların kriminalistik ekspertizasının əsasları.Elmi –praktik vəsait. AR Ədliyyə Nazirliyinin MEM. Bakı-2025. 177 səh.
2.Власов, О.О. Определение временного интервала между кадрами видеозаписи в экспертной практике / О.О. Власов, А.Г. Бояров // Актуальные вопросы экспертизы видеозаписей : мат-лы Всерос. семинара (г. Н. Новгород, 13–17 мая 2013 г.). – Н. Новгород, 2014. – С. 230–241.
3. Петров, С.М. Исследование материалов видеозаписи с целью установления обстоятельств дорожно-транспортного происшествия / С.М. Петров // Теория и практика судебной экспертизы. – 2013. – № 4 (32). – С. 62–82.
4.Verdoliva, L. (2020). Media Forensics and Deepfakes: An Overview. IEEE Journal of Selected Topics in Signal Processing. İeee.org

DETERMINATION OF REAL TIME ELAPSED BETWEEN TWO EVENTS BASED ON VIDEO RECORDING

Bakhtiyar Pashayev[1]
bakhtiyarpasayev@bsu.edu.az
Mammad Rajabov[1]
m_rajabov@mail.ru
Latif Aliyev[1,2]
latif_aliyev@mail.ru
Parvin Nazarli[3]
p.nezerli.96@icloud.com
Nilufar Orujova[4]
n.orucova@atu.edu.az
Baku State University[1]
Forensic Expertise Center of the Ministry of Justice of the Republic of Azerbaijan[2]
309 Secondary School[3]
Azerbaijan Technological University[4]

Determining the real time elapsed between two events recorded in a video requires specialized knowledge, and there is a need for comprehensive methodological materials in this field. This paper recommends an algorithm based on scientific principles and verified through expert practice for determining the real time elapsed between two events using video recordings.
Keywords: specialized software, real-time, visual and acoustic event, TimeCode, PTS, codec

SÜBUTETMƏDƏ AUDİO VƏ VİDEOYAZILARIN KRİMİNALİSTİK EKSPERTİZASININ ROLU

Lətif Əliyev[1]
Aysel Kişiyeva[1]
aysel.kişiyeva@justice.gov.az
Nəzakət Qaziyeva[2]
N.Qazi@Inbox.ru
Asiman Alıyev[3]
asiman.aliyev095@gmail.com
Nilufər Orucova[4]
Azərbaycan Respublikası Ədliyyə nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi[1]
AMEA Nəsimi adına Dilçilik İnstitutu Eksperimental Fonetik Araşdırmalar Laboratoriyası [2]
Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi[3]
Azərbaycan Texnologiya Universiteti[4]

Rəqəmsal texnologiyaların sürətli inkişafı audio və videoyazıların hüquqi proseslərdə istifadə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bu materiallar cinayət və mülki

işlərdə hadisələrin faktiki şəraitinin müəyyən edilməsində mühüm sübut mənbəyi kimi çıxış edir. Bununla yanaşı, rəqəmsal materialların montaj olunması və dəyişdirilməsi imkanlarının artması onların etibarlılığının elmi üsullarla yoxlanmasını zəruri edir. Məqalədə audio, video və rəqəmsal fotoşəkillərin məhkəmə ekspertizası vasitəsilə araşdırılmasının metodoloji əsasları, istifadə olunan müasir texniki metodlar və rəqəmsal sübutların hüquqi qiymətləndirilməsi məsələləri təhlil olunur. Tədqiqat göstərir ki, akustik analiz, spektral təhlil, biometrik eyniləşdirmə, sensor küyü analizi (PRNU-Photo Response Non-Uniformity) və rəqəmsal məlumatların texniki analizi kimi metodların kompleks tətbiqi materialların autentikliyinin müəyyən edilməsinə və məhkəmə qərarlarının obyektivliyinin təmin edilməsinə mühüm töhfə verir [1-5] . Müasir dövrdə süni intellekt əsaslı deteksiya sistemləri rəqəmsal montajın ən mürəkkəb formalarını, o cümlədən "Deepfake" montaj əlamətlərini belə aşkar etməyə imkan verir (Verdoliva, 2020).

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı nəticəsində audio, video və rəqəmsal fotoşəkillər hüquqi proseslərdə geniş istifadə olunan elektron sübut növlərindən birinə çevrilmişdir. Mobil telefonlar, müşahidə kameraları, səsyazma qurğuları və digər rəqəmsal texnologiyalar vasitəsilə əldə olunan materiallar cinayət hadisələrinin araşdırılmasında, faktların müəyyən edilməsində və şəxslərin identifikasiyasında mühüm rol oynayır [6,7]. Audio və videoyazıların hüquqi sübut kimi istifadə edilməsi bir sıra üstünlüklərə malikdir. Bu materiallar hadisələrin real gedişatını əks etdirə və məhkəməyə faktların obyektiv şəkildə qiymətləndirilməsində kömək edə bilər. Lakin rəqəmsal texnologiyaların inkişafı bu materialların montaj olunması və dəyişdirilməsi imkanlarını da artırmışdır. Müasir dövrdə fotoşəkillər və videolar üzərində aparılan rəqəmsal montaj əməliyyatları o qədər təkmilləşmişdir ki, süni intellekt vasitəsilə görüntüdən obyektlərin silinməsi və ya yeni elementlərin əlavə edilməsi adi vizual müşahidə ilə seçilmir. Bu səbəbdən məhkəmə prosesində təqdim olunan rəqəmsal materialların orijinallığının və etibarlılığının müəyyən edilməsi xüsusi ekspertiza tələb edir. Məhkəmə ekspertizası texniki xüsusiyyətləri araşdıraraq onların montaj olunub-olunmadığını, yazının hansı cihaz vasitəsilə qeydə alındığını və materialın dəyişdirilib-dəyişdirilmədiyini müəyyən etməyə imkan verir. Bu baxımdan multimedia materiallarının ekspertizası hüquqi obyektivliyin təmin edilməsində mühüm elmi vasitə hesab olunur.

1.Audio və videoyazıların hüquqi sübut kimi xüsusiyyətləri

Audio və videoyazılar rəqəmsal məlumat daşıyıcıları kimi hadisələrin akustik və vizual təsvirini təqdim edir. Rəqəmsal sübutların hüquqi qüvvəyə malik olması üçün aşağıdakı əsas şərtlər təmin edilməlidir:

-sübutun qanuni şəkildə əldə olunması;

-məlumatların texniki bütövlüyünün qorunması;

-materialın dəyişdirilməməsi (montaj edilməməsi);

-identifikasiya edilə bilən məlumatların mövcudluğu.

Beynəlxalq standartlara görə (ISO/IEC 27037:2012), rəqəmsal sübutların toplanması zamanı "nəzarət zənciri" (Chain of Custody) elə qurulmalıdır ki, məlumatın orijinal mənbədən məhkəmə zalına qədər olan hər bir addımı sənədləşdirilsin. Audio və videoyazıların məhkəmə ekspertizası məhz bu meyarların elmi üsullarla yoxlanmasını təmin edir.

3.Audio materialların məhkəmə ekspertizası metodları

Audio materialların ekspertizası səs siqnallarının fiziki və akustik xüsusiyyətlərinin öyrənilməsinə əsaslanır.

2.1 Akustik analiz: Səs siqnallarının tezlik, amplituda və digər fiziki xüsusiyyətlərinin araşdırılmasına əsaslanır. Bu metod vasitəsilə danışan şəxsin səs xüsusiyyətləri müəyyən edilir. Səs identifikasiyasında hazırda "ECAPA-TDNN" kimi dərin öyrənmə modelləri ən yüksək dəqiqliyi təmin edir (Desplanques et al., 2020).

2.2 Spektral təhlil: Səs dalğalarının tezlik spektrini araşdırmağa imkan verir. Bu metod səs yazısında montaj və kəsilmələrin olub-olmadığını müəyyən etməyə kömək edir.

Spektroqram vasitəsilə səs siqnalının faza kəsilmələri vizuallaşdırılır ki, bu da səs faylının redaktə edilib-edilmədiyini ortaya çıxarır.

2.3 Elektrik şəbəkə tezliyi (ENF) analizi: Elektrik şəbəkəsinin tezliyi zamanla dəyişdiyindən bu dəyişikliklər audio yazılarda qeydə alınaraq xüsusi məlumat bazaları ilə müqayisə edilir. Bu metod yazının dəqiq vaxtını və daxilindəki gizli **montaj** kəsiklərini aşkar etmək üçün istifadə olunur (Hua et al., 2021).

3. Videoyazıların məhkəmə ekspertizası

Videoyazıların ekspertizası vizual məlumatların texniki və məzmun baxımından araşdırılmasını əhatə edir. Videoyazıların kriminalistik ekspertizası videofaylın texniki xüsusiyyətlərinin müəyyən edilməsi, kadr ardıcıllığının (Frame-by-frame) təhlili, vizual obyektlərin identifikasiyası və videoda montaj izlərinin araşdırılması kimi mərhələlərdən ibarətdir.

Müasir video ekspertizada "PRNU" (Photo Response Non-Uniformity) sensor analizi vasitəsilə videonun orijinal kamera sensoruna məxsusluğu yoxlanılır (Mayer & Stamm, 2020).

4. Rəqəmsal fotoşəkillərin məhkəmə ekspertizası metodları

Rəqəmsal fotoşəkillərin ekspertizası təsvirin yaradılma mənbəyini və onun üzərində hər hansı rəqəmsal montaj əməliyyatının aparılıb-aparılmadığını müəyyən etməyə imkan verir.

4.1Sensor Küyü (PRNU) Analizi: Hər bir rəqəmsal kameranın sensoru fotoşəkil üzərində unikal rəqəmsal "iz" buraxır. Bu metod vasitəsilə fotoşəkilin məhz iddia edilən cihazla çəkildiyi sübut edilir.

4.2JPEG Sıxılma Analizi (ELA): Fotoşəkilin bir hissəsi üzərində rəqəmsal montaj aparıldıqda, həmin sahənin sıxılma səviyyəsi orijinal hissələrdən fərqlənir.

4.3Piksellər səviyyəsində deteksiya: Süni intellekt tərəfindən yaradılan fotoşəkillərdə piksellərin paylanma tezliyi təbii fotolardan fərqlənir (Lyu, 2020).

5. Rəqəmsal sübutların autentifikasiyası

Rəqəmsal sübutların autentifikasiyası onların texniki xüsusiyyətlərinin və yaradılma şəraitinin müəyyən edilməsini nəzərdə tutur. Bu proses zamanı faylın texniki məlumatları (Metadata/EXIF), yaradılma tarixi, istifadə olunan cihaz və kodlaşdırma xüsusiyyətləri təhlil edilir. Faylın məhkəməyədək montaj edilmədiyini təmin edən texniki zəmanətdir (Casey, 2011).

6. Müasir problemlər və inkişaf perspektivləri

Rəqəmsal texnologiyaların sürətli inkişafı audio və videoyazıların məhkəmə ekspertizası sahəsində həm yeni imkanlar, həm də müəyyən çətinliklər yaratmışdır. Müasir proqram təminatı vasitəsilə rəqəmsal materialların redaktə olunması, montaj edilməsi və dəyişdirilməsi daha əlçatan olmuşdur. Bu isə məhkəmə prosesində təqdim olunan materialların etibarlılığının müəyyən edilməsini daha mürəkkəb prosesə çevirmişdir. Ən aktual problemlərdən biri materialların yüksək keyfiyyətli montaj üsulu ilə dəyişdirilməsi ehtimalıdır. Bu hallarda adi vizual və ya akustik müşahidə ilə dəyişikliklərin aşkar edilməsi çətinləşir. Buna görə də ekspertiza zamanı spektral analiz və rəqəmsal struktur analizi kimi metodlardan istifadə zəruridir. Müasir cihazların kodlaşdırma üsullarının fərqli olması da təhlili çətinləşdirən amildir.

Video-müşahidə kameralarının nəzarəti altında baş vermiş yol-nəqliyyat hadisələrinin araşdırılmasında videoyazıların kriminalistik ekspertizasının aparılması aşağıdakı hüquqi-praktiki səbəblərə görə vacibdir:

1.Elektron sübutların orijinallığının təsdiqi: Məhkəmə araşdırmasında təqdim olunan video və audio materialların orijinal olub-olmadığı, dəyişdirilib-dəyişdirilmədiyi ekspert tərəfindən müəyyən edilməlidir. Yalnız dəyişdirilməmiş (ilkin) video material sübutetmə qüvvəsinə malikdir.

2.Əməliyyat-axtarış tədbirlərindən əldə olunmuş sübutların hüquqi məqbulluğu: Yol-nəqliyyat hadisələri üzrə cinayət işlərində video yazılar hadisənin baş vermə anını əks etdirən birbaşa maddi sübutlardır. Videoyazıya görə obyektlətin zaman və fəza parametrlərinin müəyyən olunması yalnız peşəkar ekspert tədqiqatından keçirilməsi şərtilə tam reallaşa bilər.

3.İstintaq və məhkəmə orqanlarına texniki kömək: videoyazıların kriminalistik ekspertizası tərəflərin video yazını qəsdən təhrif edib-etmədiyini müəyyən etməyə imkan verir. Bu isə hadisənin hüquqi qiymətləndirilməsində obyektiv qərarların qəbul olunmasını təmin edir.

4.İstintaq və məhkəmə orqanlarına daxil olmuş audio və videomaterialların saxlanması və daşınması qaydalarına riayət olunması: Əldə olunmuş audio və videomaterialların dəyişdirilmədən ekspert tədqiqatına təqdim olunması ekspert qarşısında qoyulmuş sualların həllində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1.Lətif Əliyev. Audio və videoyazıların kriminalistik ekspertizasının əsasları.Elmi –praktik vəsait. AR Ədliyyə Nazirliyinin MEM. Bakı-2025. 177 səh.
2.Verdoliva, L. (2020). Media Forensics and Deepfakes: An Overview. IEEE Journal of Selected Topics in Signal Processing. İeee.org
3.Desplanques, B., et al. (2020). ECAPA-TDNN: Based Speaker Verification. Interspeech 2020. isca-archive.org-
3.Lyu, S. (2020). Deepfake Detection: Current Challenges and Next Steps. IEEE International Conference on Multimedia & Expo (ICME). ieee.org
4.Hua, G., et al. (2021). ENF-Based Location Estimation: Methods and Challenges. IEEE Access. ieee.org
5.Li, S., et al. (2021). Blockchain-based Chain of Custody for Digital Forensics. Future Generation Computer Systems. doi.org
6.Casey, E. (2011). Digital Evidence and Computer Crime. Academic Press. sciencedirect.com
7.Grigoras, C. (2004). Digital Audio Recording Analysis. Forensic Science International. doi.org

THE ROLE OF FORENSIC EXAMINATION OF AUDIO AND VIDEO RECORDINGS IN EVIDENCE

Latif Aliyev
Aysel Kishiyeva
aysel.kishiyeva@justice.gov.az
Nazakat Ghaziyeva
N.Qazi@inbox.ru
Asiman Aliyev
asiman.aliyev095@gmail.com
Nilufar Orujova
Forensic Expertise Center of the Ministry of Justice of the Republic of Azerbaijan[1]
Experimental Phonetic Research Laboratory of the Nasimi Institute of Linguistics of ANAS[2]
Forensic Expertise Center of the Ministry of Justice of the Nakhchivan Autonomous Republic[3]
Azerbaijan Technological University[4]

The article analyzes the methodological foundations of the forensic examination of audio, video, and digital photographs, the modern technical methods used in such examinations, and the legal evaluation of digital evidence. Research shows that the integrated application of methods such as acoustic analysis, spectral analysis, biometric identification, sensor noise analysis (PRNU – Photo Response Non-Uniformity), and technical analysis of digital data makes a significant contribution to determining the authenticity of materials and ensuring the objectivity of court decisions. In the modern era, artificial intelligence-based detection systems make it possible to identify even the most sophisticated forms of digital manipulation, including signs of "deepfake" editing (Verdoliva, 2020). The application of complex technical methods enables the detection of traces of digital editing, the scientific evaluation of electronic evidence, and the adoption of judicial decisions in accordance with material truth.

Keywords: PRNU (Photo Response Non-Uniformity), metadata, JPEG Compression Analysis, electrical network frequency, spectral analysis.

SYNTHESIS OF NEW PP+ZrO_2/ZnO-BASED NANOCOMPOSITES

Nilufar Orujova[1]
n.orucova@atu.edu.az.
Bakhtiyar Pashayev[2]
p.g.bakhtiyar@gmail.com
Flora Hajiyeva[2]
flora_1985@mail.ru
Mantiq Jafarov[1]
mantiq.ceferov@atu.edu.az
Azerbaijan Tecnological University[1]
Baku State University[2]

The preparation of nanocomposite materials is one of the most important directions in modern nanotechnology and material science. Nanocomposites are multifunctional materials obtained by incorporating nanosized particles into a polymer matrix. Compared with conventional polymers, nanocomposite materials exhibit improved mechanical strength, thermal stability, chemical resistance, and functional properties. The large surface area of nanoparticles enhances their interaction with the polymer matrix, leading to significant improvement in the overall performance of the material [1,2].

In the preparation of PP+ZrO_2/ZnO-based nanocomposites, polypropylene (PP) is used as the main polymer matrix. Polypropylene is widely applied in industry due to its low density, chemical resistance, flexibility, low cost, and ease of processing. To improve its properties, zirconium dioxide (ZrO_2) and zinc oxide (ZnO) nanoparticles are incorporated into the polymer structure [3]. ZrO_2 nanoparticles are characterized by high thermal stability, hardness, and chemical durability, while ZnO nanoparticles possess antibacterial, optical, and surface-active properties.

The nanocomposite materials are mainly prepared by the melt mixing method, which is considered a simple, effective, and industrially applicable technique. During the preparation process, polypropylene is first melted at a controlled temperature, after which predetermined amounts of ZrO_2 and ZnO nanoparticles are added into the polymer medium. The mixing process is carried out under specific temperature and rotational conditions in order to achieve homogeneous dispersion of nanoparticles throughout the polymer matrix.

The nanocomposite films were fabricated through a solution mixing method. Initially, polypropylene granules were dispersed in toluene and heated to 120 °C while continuously stirred with a magnetic stirrer until the polymer was completely dissolved and a uniform solution was formed. Afterward, ZrO_2 and ZnO nanoparticles were added gradually into the polymer solution, and the mixture was continuously stirred for nearly 1 hour to obtain a well-dispersed nanocomposite system. The final homogeneous mixtures were cast into Petri dishes and subsequently dried in a vacuum oven to remove the solvent completely and obtain solid nanocomposite films.

Uniform distribution of nanoparticles within the polymer matrix plays a crucial role in determining the quality and performance of the nanocomposite. The formation of a homogeneous structure improves the mechanical and thermal properties of the material, reduces nanoparticle agglomeration, and increases structural stability. The prepared nanocomposites demonstrate enhanced durability, improved thermal resistance, and better long-term performance compared with pure polypropylene.

Such nanocomposite materials have broad application potential in various industrial and technological fields, including automotive engineering, packaging technology,

electronics, biomedical materials, protective coatings, and advanced engineering systems. Therefore, the preparation of nanocomposite materials is of great scientific and industrial importance and contributes to the development of new multifunctional materials for future technological applications.

REFERENCES

1.M.A. Ramazanov, F.V. Hajiyeva, A.M. Maharramov and H..M Mamedov. Microwave absorption of polymer nanocomposites on the base high-density polyethylene and magnetite nanoparticles. Journal of Elastomers & Plastics 1–13. DOI: 10.1177/0095244318768652.

2.Ramazanov M.A., Hajiyeva F.V., Maharramov A.M., et al. New magnetic polymer nano-composites on the basis of isotactic polypropylene and magnetite nanoparticles for adsorption of ultrahigh frequency electromagnetic waves. J Polym Plast Technol Eng 2017. DOI: 10. 1080/03602559.2017.1320721.

3.A.E. Surkhayli, H.A. Shirinova, B.G. Pashayev, A.H. Karimova, S.G. Nuriyeva, L.R. Gahramanli . INVESTIGATION OF INFRARED AND RAMAN SPECTRA OF POLYMER NANOCOMPOSITES BASED ON POLYCRYSTALLINE SILICON NANOPARTICLES. 03.12.2024 DOI:10.70784/azip.1.2024417

SYNTHESIS OF NEW PP+ZrO_2/ZnO-BASED NANOCOMPOSITES

Nilufar Orujova[1]
n.orucova@atu.edu.az.
Bakhtiyar Pashayev[2]
p.g.bakhtiyar@gmail.com
Flora Hajiyeva[2]
flora_1985@mail.ru
Mantiq Jafarov[1]
mantiq.ceferov@atu.edu.az
Azerbaijan Tecnological University[1]
Baku State University[2]

In this study, PP+ZrO_2/ZnO-based nanocomposite films were successfully prepared using the solution mixing method. Polypropylene was used as the polymer matrix, while zirconium dioxide (ZrO_2) and zinc oxide (ZnO) nanoparticles were incorporated to improve the material properties. The preparation process involved dissolving polypropylene in toluene followed by the addition of nanoparticles under continuous stirring to achieve homogeneous dispersion. The obtained nanocomposite films exhibited improved structural uniformity and enhanced stability compared to pure polypropylene. The incorporation of ZrO_2 and ZnO nanoparticles contributed to the development of multifunctional polymer nanocomposites with potential industrial applications. These materials may be promising for use in packaging, engineering, electronic, and advanced nanotechnology fields.


Keywords: polypropylene, nanocomposite films, zirconium dioxide, zinc oxide, polymer matrix, solution mixing method, nanotechnology.

$AgIn_5S_8$ KRİSTALINDA DONOR-AKSEPTOR ŞÜALANMALI REKOMBİNASİYA

Fidan Siyasət qızı Əliyeva
Bakı Dövlət Universiteti

$AgIn_5S_8$ kristalları uzun müddətdir ki, suyun elektrolitik parçalanmasında fotokatalizator qabiliyyətinə görə, görünnən işığa yüksək həssaslıq və unikal optik xüsusiyyətlər nümayiş etdirdikləri üçün intensiv tədqiq olunur [1]. $AgIn_5S_8$ nümunəmizin rentgen analizlərinin nəticələri gğstətmişdir ki, kristal quruluşu standart kub şpinel fəza qrupu Fd-3m-ə uyğun gəlir.Bu kristalın çəpinə qadağan olunmuş zonası müvafiq olaraq 300 və 96 K-də 1,8 və 1,9 eV təşkil edir. $AgIn_5S_8$ kristalı defektli yarımkeçiricilər qrupuna aiddir, onun kation alt qəfəsində 25% vakansiya olduğu müəyyən edilmişdir. $AgIn_5S_8$ kristalı fotovoltaik günəş batareyalarında tətbiq üçün yaxşı yarımkeçirici namizədlərdən biri ola bilər. Bir çox kristallardakı defektlər və digər tərəfdən oksigen onların elektrik və fotovoltaik xüsusiyyətlərində mühüm rol oynayır. Uzunmüddətli sabitlik də bu tip material üçün əsas amillərdən biridir. Əsasən, oksigen CdS və PbS kimi kükürd tərkibli yarımkeçirici birləşmələrdə akseptor kimi çıxış edir. Aşkar etmişdir ki, CdS kristalları oksigenə güclü məruz qaldıqda fotohəssaslıqda azalma göstərir və fotohəssaslığın məhv edilməsi oksigenin kükürd boşluqlarına diffuziyası ilə əlaqələndirilir. Bu günə qədər ədəbiyyatda $AgIn_5S_8$ kristallarından istifadə edərək günəş batareyalarının tətbiqi ilə bağlı yalnız bir məqalə dərc edilmişdir. Hətta bu məqalədə də $AgIn_5S_8$-in uzunmüddətli stabilliyi haqqında məlumat yoxdur. Işdə tədqiq etdiyimiz kristal uzunmüddətli termik tablanmaya məruz qalmış və nümunənin stabillik nümayiş etdirdiyinin nəticəsinə əmin olunmuşdur. Kristallar n-tip elektrik keçiriciliyinə malikdirlər. Anion (kükürd) vakansiyası kristalda donor səviyyəsi yaradır, kation vakansiyaları isə akseptor səviyyəsi yaradır. Deməli, akseptor səviyyələri donor səviyyələrini qismən boşaltdığından kristal n-tip keçiricilik nümayiş etdirir. Onda belə qənaətə gəlmək olar ki, kristalda donor və akseptorların konsentrasiyası kifayət qədər şoxdur və onlar arasında optik keçid ehtimalı da çox ola bilər.

İşdə kristalı dalğa uzunluğu 532 nm, davametmə müddəti 10 ns və maksimal gücü 4 MVt olan Nd:YAG lazerinin ikinci harmonikasının impulsu ilə həyəcanlaşdırmaqla fotolüminessensiya spektri tədqiq edilmişdir (şəkil 1.). Göründüyü kimi, 1476 nm (0.84 eV) dalğa uzunluğunda local səviyyələrə mənsub ensiz pik müşahidə edilmişdir. Pikin yarımeni 1 nm təşkil edir. Bu pikin donor-akseptor optik keçidi ilə şüalanmalı rekombinasiya hesabına formalaşdığını hesab edirik. Kristalın qadağan olunmuş enerjisinin qiymətini 1,8 eV götürsək, deməli, donor və akseptor səviyyələrin zonalardan uzaqlaşma "məsafəsi" birlikdə 1,0 eV-a bərabərdir.




Şəkil1. $AgIn_5S_8$ kristalında fotolüminessensiya spektri.

Qeyd edilənlərə aydınlıq gətirmək məqsədilə tədqiq etdiyimiş kristalda elektrik keçiriciliyinin 200…400 K intervalında temperatur asılılığı tədqiq edilmişdir.

Şəkil 2-də Arrenius miqyasında $\lg\sigma \sim 1000/T$ asılığı təsvir edilmişdir. Aşağı temperaturlarda temperaturun azalması ilə elektrik keçiriciliyinin artmasını yükdaşıyıcıların yürüklüyünün artması hesabına baş verir. 200 K temperaturdan başlayaraq temperaturun

artması ilə elektrik keçiriciliyi artmaya başlayır və sonra $\lg\sigma \sim 1000/T$ asılılığı 312 K temperaturadək xətli xarakter daşıyır. Bu hissəyə görə yükdaşıyıcıların aktivləşmə enerjisi hesablanmış $E_a = 0,82$ eV. Göründüyü kini bu qiymət lüminessensiya spektrindəki pikin enerjisinə uyöun gəlir. Bunları belə izah etmək olar ki, kristalda akseptor səviyyəsi valent zonaya yaxın yerləşir və aşağı temperaturlarda akseptor səviyyələri donor mərkəzlərin elektronları ilə dolmuş halda olur. Temperaturun 200 K-dən artması ilə elektronlar donor səviyyəsinə keçir və valent zonadan elektronların akseptor səviyyəsinə keşməsi ilə temperature artdıqca deşiklərin konsentrasiyası artır.

Bu işdə tədqiq edilən $AgIn_5S_8$ kristalı, hətta aşağı işıq intensivliyində (1×10^{13} foton sm^{-2} s^{-1}) və aşağı temperaturlarda belə, qaranlıq cərəyandan ən azı dörd dəfə yüksək fotokeçiricilik (FK) nümayiş etdirir. FC spektrlərinin temperatur asılılığı aşağı temperaturda maksimum göstərir və artan işıqlandırma intensivliyi ilə maksimumun mövqeyi sabit qalır. FK spektrləri həm işıq intensivliyi, həm də maksimuma uyğun dalğa uzunluğu ilə sabit qalır. FK-nin istilik söndürülməsi ~105 K-də başlayır və ~180 K-də tamamlanır. $AgIn_5S_8$ nümunəsinin işığa həssaslığı tələnin doldurulma dərəcəsi ilə birbaşa mütənasibdir. Nümunənin 1,88 eV foton enerjisi olan işıqla əvvəlcədən şüalandırılması zamanı FK-də əhəmiyyətli bir artım müşahidə olunur və $AgIn_5S_8$ nümunəsinin maksimum performansı bütün tələlər doldurulduqdan sonra əldə edilir. $AgIn_5S_8$ kristallarının zolaq boşluğundakı tələlərin sıxlığının və paylanmasının qəsdən aşqarlandıqda və/və ya müxtəlif şəraitdə yetişdirildikdə fotovoltaik xüsusiyyətlərə necə təsir etdiyini anlamaq üçün əlavə tədqiqatlara ehtiyac var. Bundan əlavə, $AgIn_5S_8$ kristallarında oksigenin fotohəssaslığa və tələ paylanmasına təsirini araşdıran ayrıca bir tədqiqat gələcəkdə dəyərli ola bilər.



Şəkil1. $AgIn_5S_8$ kristalında elektrik keçiriciliyin temperatur asılılığı

ƏDƏBİYYAT

1.S. Delicea, M. Isik, N.M. Gasanly. Journal of Physics and Chemistry of Solids, 2018, 114, p. 53-62.

DONOR–ACCEPTOR RADIATIVE RECOMBINATION IN $AgIn_5S_8$ CRYSTAL

Fidan Aliyeva
Baku State University

Reprezentasiya səviyyəsində avatar insanın görünüşünü, davranış tərzini, səs xüsusiyyətlərini və bəzən sosial status markerlərini rəqəmsal formada təqdim edir. Interpretasiya səviyyəsində avatar daxil olan siqnalları sadəcə tanımır, həm də onları kontekstual mənalandırır: istifadəçi soruşur, şikayət edir, tərəddüd edir, emosional dəstək gözləyir, yoxsa sadəcə informasiya əldə etmək istəyir. İnteraksiya səviyyəsində isə avatar cavabın məzmununu, təqdimat üslubunu, səs intonasiyasını, üz ifadəsini və bədən hərəkətini uyğunlaşdırır. Beləliklə, avatar texnologiyası klassik istifadəçi interfeysi ilə müqayisədə daha çox "rəqəmsal subyekt" xarakteri qazanır.


Bu transformasiya avatarı estetik qrafik elementdən kommunikasiya arxitekturasının daşıyıcısına çevirir. Burada əsas məsələ daha real görünən obraz yaratmaq deyil; əsas məsələ daha təbii, daha etibarlı və daha kontekstə uyğun rəqəmsal davranış qurmaqdır. İstifadəçi üçün qəbul edilən "canlılıq" hissi çox vaxt yalnız görünüşdən deyil, səs, ritm, cavab gecikməsi, jestlərin uyğunluğu və emosional sinxronizasiya səviyyəsindən formalaşır. Uncanny valley ilə bağlı empirik işlər də göstərir ki, realizm və qəbul arasında xətti yox, qeyri-xətti əlaqə mövcuddur; buna görə yüksək realizm avtomatik olaraq yüksək etibar demək deyil.



Virtual kommunikasiya sistemlərində əsas məhdudiyyətlər: Mətn və audio əsaslı klassik rəqəmsal kommunikasiya sistemləri funksional məlumat mübadiləsi üçün kifayət etsə də, sosial qarşılıqlı əlaqənin dərin qatlarını bərpa etməkdə zəifdir. İnsan ünsiyyəti həmişə çoxkanallıdır: səs tonu informasiyanın emosional yükünü, mimika münasibəti, jestlər niyyəti, pauzalar isə tərəddüd və vurğunu ifadə edir. Bu komponentlər yox olduqda və ya zəif təqdim edildikdə rəqəmsal ünsiyyətin semantik dəqiqliyi qismən qorunsa da, sosial dərinliyi azalır.

Birinci məhdudiyyət rəqəmsal mövcudluğun zəifliyidir. Statik profil şəkli və ya sadə 2D ikon istifadəçidə "virtual bədənləşmə" hissi yaratmır. İkinci məhdudiyyət semantik-kontekstual boşluqdur. Bir çox mövcud sistemlər söz səviyyəsində cavab versə də, niyyətin, emosional fonun və kommunikasiya tarixçəsinin dərin mənalandırılmasında məhdud qalır. Üçüncü məhdudiyyət interaktiv statiklikdir. İnsanabənzər göz təması, jest sinxronizasiyası, dodaq-hərəkət uyğunluğu və mikroifadələrin olmaması sistemi mexaniki və soyuq göstərir.

Bu səbəbdən avatar texnologiyalarının mühəndislik motivasiyası informasiyanı ötürən ekran yaratmaq yox, sosial mövcudluq yaradan rəqəmsal agent qurmaqdan ibarətdir. Xüsusilə avatar əsaslı kommunikasiya ilə mətn əsaslı kommunikasiya arasındakı fərqləri araşdıran yeni işlər avatar vasitəli qarşılıqlı əlaqənin daha zəngin sosial təcrübə yarada bildiyini göstərir.




Şəkil 2. Multimodal süni intellekt sistemlərində məlumatların emalı və fusion pipeline arxitekturası

Texnoloji arxitektura və funksional qatlar:Nitqin tanınması və giriş siqnallarının emalı- Avatar sisteminin ilkin təbəqəsi giriş siqnallarının qəbulu və emalıdır. Buraya səs, mətn, üz ifadəsi, baş hərəkəti, baxış istiqaməti və bəzən bədən pozası daxildir. Səs siqnallarının emalı üçün avtomatik nitq tanıma sistemləri istifadə edilir. Bu sistemlər akustik siqnalı spektroqrafik təsvirlərə çevirir, səs küyünü filtrasiya edir və fonetik vahidlərə ayırır. CNN, RNN və transformer əsaslı akustik modellər bu mərhələdə geniş istifadə olunur. Real dünyada əsas çətinlik müxtəlif aksentlərin, dialektlərin, sürətli nitqin, fon küyünün və emosional dəyişkənliyin tanınmaya təsiridir. Bu səbəbdən ASR modulu təkcə dil tanıma deyil, həm də robust siqnal sabitləşdirmə problemi kimi qiymətləndirilməlidir. Transformer arxitekturalarının paralel emal üstünlüyü bu cür sistemlərdə gecikmənin azalmasına və daha sabit dil təmsillərinə imkan vermişdir.

Təbii dil emalı və semantik interpretasiya: Növbəti təbəqədə təbii dil emalı yerləşir. Bu mərhələ avatarın koqnitiv mərkəzi hesab oluna bilər. Sistem burada təkcə hansı sözlərin deyildiyini yox, onların hansı məqsədlə deyildiyini müəyyən etməlidir. Niyyətin aşkarlanması, əsas məzmun vahidlərinin seçilməsi, dialoq tarixçəsinin izlənməsi və kontekstin saxlanması bu modulun əsas funksiyalarıdır. BERT kimi ikitərəfli kontekstual modellər dilin daha dərin təmsilini təmin etmiş, transformer əsaslı yanaşmalar isə kontekstdən asılı semantik emalı gücləndirmişdir. Bu texniki baza olmadan avatarın cavabları qrammatik cəhətdən düzgün, lakin sosial və situativ baxımdan qeyri-dəqiq qala bilər.

Bu sxem avatar əsaslı rəqəmsal sistemdə istifadəçilər, avatarlar və serverlər arasında məlumat mübadiləsini göstərir. Mərkəzi server infrastrukturu vasitəsilə ötürülən məlumatlar blokçeyn üzərində saxlanılaraq dəyişdirilməzlik və şəffaflıq təmin edilir. Bu yanaşma rəqəmsal identikliyin qorunması, autentifikasiya proseslərinin gücləndirilməsi və məlumat təhlükəsizliyinin təmin olunması baxımından mühüm rol oynayır.



Şəkil 3. Multimodal avatar sistemlərində istifadəçi–avatar–server–blokçeyn inteqrasiyası əsasında rəqəmsal identiklik və məlumat mübadiləsi arxitekturası



Şəkil 4. Süni intellekt əsaslı avatar sistemlərində təhlükəsizlik, identiklik və deepfake risklərinin idarə olunması modeli

Affektiv hesablama və emosional modulyasiya: Avatar texnologiyalarının insanabənzərliyini müəyyən edən əsas qat affektiv hesablama qatıdır. Bu istiqamətin nəzəri bazası Picard-ın affektiv hesablama yanaşmasına söykənir; həmin yanaşma emosiyanın həm tanınmasını, həm də sistem tərəfindən adekvat şəkildə ifadəsini hesablama problemi kimi qurur. Müasir avatar sistemləri istifadəçinin səs tonundan, danışıq sürətindən, mətn sentimentindən və üz ifadəsindən emosional vəziyyəti təxmin etməyə çalışır. Daha sonra cavabın ritmi, səsin intonasiyası, üz mimikası və jestlər bu emosional konfiqurasiyaya uyğunlaşdırılır. Bu texnologiya xüsusilə təhsil, psixoloji dəstək və rəqəmsal müşayiət xidmətlərində yüksək əhəmiyyət daşıyır.

Davranış modelləşdirilməsi və sosial dinamika: Emosiyanın sadəcə tanınması kifayət etmir; avatar həmin informasiyanı davranışa çevirməlidir. Davranış modelləşdirilməsi mərhələsində avatarın baxış istiqaməti, jestlərin tezliyi, başın mikro-hərəkətləri, cavab vermə intervalı, sosial məsafə hissi və reaksiya ritmi idarə olunur. Gücləndirilmiş öyrənmə və davranış optimallaşdırma yanaşmaları bu mərhələdə perspektivlidir. Məqsəd qeyri-verbal davranışın istifadəçi tərəfindən "təbii" qəbul ediləcəyi tarazlığı tapmaqdır. Əks halda ya həddindən artıq mexaniki, ya da həddindən artıq hiper-real görünüş etibarı zəiflədə bilər. Uncanny valley ilə bağlı tədqiqatlar da məhz bu nöqtədə mühəndislik həssaslığının vacibliyini göstərir.

Vizual sintez və real vaxt renderləmə: Semantik və affektiv qərarların görünən formada təqdim edilməsi 3D modelləşdirmə, skelet animasiyası, parametrik üz modelləri və neural

rendering texnologiyaları vasitəsilə həyata keçirilir. Burada dodaq-səs sinxronizasiyası, mikro-mimikaların uyğunluğu və baş-bədən hərəkətlərinin təbii ardıcıllığı kritik əhəmiyyət kəsb edir. Cüzi asinxronluq belə istifadəçidə qeyri-təbiilik hissi yarada bilər. Bu səbəbdən renderləmə yalnız qrafik məsələ deyil; o, psixoloji qəbul və sosial etibar problemidir. Fotorealist avatar sistemləri bu baxımdan yüksək potensial daşısa da, həmin potensial deepfake risklərini də paralel şəkildə artırır.

Təhlükəsizlik, identiklik və məxfilik: Avatar sistemləri biometrik, səsli, davranışsal və bəzən tibbi və ya şəxsi məlumatlarla işlədiyinə görə təhlükəsizlik təbəqəsi bu arxitekturanın ayrılmaz hissəsidir. Federativ öyrənmə kimi yanaşmalar istifadəçi məlumatlarını mərkəzi serverə ötürmədən lokal cihaz səviyyəsində model öyrətməyə imkan verir və buna görə məxfilik baxımından mühüm yanaşma hesab olunur. Metaverse və rəqəmsal identiklik üzrə yeni icmallar da istifadəçi autentifikasiyası, məlumat sızması, davranış izlənməsi və avatar əsaslı identiklik saxtalaşdırmasının əsas problemlər olduğunu vurğulayır.

Tətbiq sahələri və funksional əhəmiyyət

Təhsil mühiti: Avatar əsaslı sistemlər tədrisin fərdiləşdirilməsi üçün geniş imkanlar açır. Virtual müəllim və ya interaktiv mentor tələbənin tempi, anlayış səviyyəsi və emosional vəziyyətinə uyğunlaşa bilər. Xüsusilə distant və inklüziv təhsildə bu, öyrənmənin sosial izolyasiyasını azalda bilər. Avatarın izahı jest, ton və vizual yönləndirmə ilə zənginləşdirməsi klassik çatbot və ya statik video məzmunla müqayisədə daha yüksək diqqət və daha güclü yadda qalma yarada bilər.

Telemedisina və psixoloji dəstək: Telemedisina sistemlərində avatarlar ilkin konsultasiya, məlumat yönləndirməsi, pasiyent suallarının təsnifatı və emosional müşayiət üçün istifadə oluna bilər. Burada avatarın rolu həkimi tam əvəz etmək deyil, xidmət əlçatanlığını genişləndirmək, pasiyentin ilkin təşvişini azaltmaq və rəqəmsal əlaqəni daha humanist etməkdir. Bununla belə, bu sahə etik baxımdan yüksək həssasdır; emosional asılılıq, yanlış yönləndirmə və məxfilik pozuntuları ciddi risk olaraq qalır.

Biznes və rəqəmsal xidmətlər: Bankçılıq, sığorta, telekommunikasiya, elektron ticarət və dövlət xidmətlərində avatarlar rəqəmsal məsləhətçi və ya xidmət nümayəndəsi kimi fəaliyyət göstərə bilər. Onların üstünlüyü standart çatbotdan fərqli olaraq daha yüksək sosial yaxınlıq və daha güclü inandırıcılıq yaratmaqdır. Son tədqiqatlar antropomorfizm və qavranılan intellektin etibar və empatiya ilə əlaqəsini ayrıca vurğulayır.

Sosial media və rəqəmsal mədəniyyət: Avatarlar virtual influencer, brend siması və rəqəmsal persona kimi sosial media məkanında aktiv rol oynayır. Bu sahədə kommersiya kommunikasiya effekti yüksəlsə də, eyni zamanda manipulyasiya və saxta autentiklik riski artır. Buna görə kommersiya avatarlarının etik etiketlənməsi və istifadəçinin informasiyalandırılması vacib prinsipə çevrilir.

Metaverse və immersiv ekosistemlər: Avatar texnologiyalarının ən yüksək funksional intensivliyi metaverse daxilində müşahidə olunur. Burada avatar sosial qarşılıqlı əlaqənin interfeysi, iqtisadi əməliyyatların görünən subyekti və rəqəmsal identikliyin mərkəzi daşıyıcısıdır. Metaverse təhlükəsizliyi ilə bağlı icmallar göstərir ki, avatar, identiklik, məxfilik və etibar faktorları bu ekosistemdə ayrılmaz şəkildə bir-birinə bağlıdır.

Deepfake, etik məsuliyyət və informasiya təhlükəsizliyi:Deepfake texnologiyalarının inkişafı avatar sistemlərinin ən ciddi təhlükəsizlik çağırışlarından biridir. Generativ modellər səs və görüntünü yüksək reallıqla sintez edə bildiyinə görə saxta videozənglər, reputasiya hücumları, fırıldaqçılıq, dezinformasiya və siyasi manipulyasiya kimi halların riski yüksəlir. Son illərin icmal işləri deepfake texnologiyalarının ictimai etimad, kibertəhlükəsizlik və informasiya doğruluğu üçün sistemli təhdid yaratdığını vurğulayır.

Etik baxımdan başlıca sual budur: avatarın söylədiyi və etdiyinə görə məsuliyyət kimə aiddir? Platformaya, sistemi hazırlayan quruma, son istifadəçiyə, yoxsa modeli öyrədən məlumat mühitinə? İkinci əsas sual isə alqoritmik manipulyasiya ilə bağlıdır. İnsanabənzər və empatik görünən agentlər istifadəçidə daha yüksək etibar yarada bildiyindən, onların kommersiya, siyasi və ya psixoloji təsir aləti kimi istifadəsi etik baxımdan həssasdır. Son PNAS

müzakirələri də antropomorfik danışıq sistemlərinin həm faydalarını, həm də təhlükələrini vurğulayır.

Bu səbəbdən avatar sistemlərinin tətbiqində aşağıdakı prinsiplər əsas olmalıdır: insan nəzarəti, şəffaf identifikasiya, etik istifadə protokolları, biometrik məlumatların minimumlaşdırılması, təhlükəsiz audit və izaholuna bilən qərarvermə. Xüsusilə uşaqlar, yaşlılar və psixoloji həssas qruplarla işləyən sistemlərdə bu tələblər daha da sərtləşdirilməlidir.

Təklif olunan inteqrativ konseptual çərçivə:Virtual kommunikasiya üçün təhlükəsiz və adaptiv avatar çərçivəsi aşağıdakı funksional ardıcıllıqla təsvir edilə bilər:

Giriş siqnalları→ Siqnalın təmizlənməsi və tanınması→ Semantik interpretasiya→ Niyyət və kontekst analizi→ Affektiv qiymətləndirmə→ Davranış strategiyası → Vizual və səs sintezi→ Təhlükəsiz təqdimat → Audit və nəzarət

Bu modelin üstünlüyü avatarı sadəcə animasiya yox, çoxsəviyyəli kommunikasiya sistemi kimi izah etməsidir. Burada hər bir təbəqə əvvəlki mərhələnin nəticəsini tamamlayır. Məsələn, semantik interpretasiya olmadan emosional cavab səthi qalır; affektiv analiz olmadan vizual sintez mexaniki görünür; təhlükəsizlik təbəqəsi olmadan isə bütün kommunikasiya inandırıcı olsa belə institusional etibarlılıq formalaşmır. Buna görə avatar texnologiyasının uğuru yalnız bir modulun yüksək keyfiyyəti ilə deyil, bütün sistemin sinxron və etik işləməsi ilə ölçülməlidir.

Nəticə: Aparılmış nəzəri və texniki təhlil göstərir ki, süni intellekt əsaslı insanabənzər avatar texnologiyaları müasir rəqəmsal kommunikasiya sistemlərinin növbəti təkamül mərhələsinin əsas struktur komponentlərindən biri kimi çıxış edir. Bu texnologiyalar insan–kompüter qarşılıqlı əlaqəsini yalnız funksional informasiya mübadiləsi səviyyəsində deyil, həm də sosial, emosional və kontekstual qarşılıqlı təsir müstəvisində yenidən formalaşdırır. Nəticə etibarilə, avatar əsaslı sistemlər klassik interfeys modellərindən fərqli olaraq istifadəçi ilə "rəqəmsal subyekt" arasında qarşılıqlı əlaqə yaradır və kommunikasiya prosesini daha təbii, immersiv və adaptiv hala gətirir.

Bu sistemlərin texniki arxitekturası çoxqatlı və inteqrativ xarakter daşıyır. Nitqin tanınması (ASR), təbii dil emalı (NLP), kompüter görməsi (CV), affektiv hesablama, davranış modelləşdirilməsi və real vaxt 3D renderləmə kimi müxtəlif texnoloji komponentlərin vahid sistem daxilində sinxron işləməsi yüksək mühəndislik dəqiqliyi tələb edir. Bu baxımdan avatar sistemləri yalnız alqoritmik model deyil, kompleks kiber-fiziki və sosial-intellektual sistem kimi qiymətləndirilməlidir. Xüsusilə multimodal məlumatların inteqrasiyası və onların semantik uyğunlaşdırılması (cross-modal alignment) sistemin ümumi effektivliyini müəyyən edən əsas faktorlardan biridir.

Tədqiqat nəticələri göstərir ki, avatar texnologiyalarının tətbiq potensialı çoxşaxəlidir və müxtəlif sahələrdə transformativ təsir gücünə malikdir. Təhsil mühitində bu sistemlər fərdiləşdirilmiş öyrənmə trayektoriyalarının qurulmasına, tələbə ilə müəllim arasında interaktiv və emosional baxımdan zəngin qarşılıqlı əlaqənin yaradılmasına imkan verir. Telemedisina sahəsində avatarlar ilkin konsultasiya, psixoloji dəstək və pasiyent yönləndirmə funksiyalarını icra edərək xidmətlərin əlçatanlığını artırır. Rəqəmsal xidmətlər və biznes sektorunda isə avatar əsaslı interfeyslər istifadəçi təcrübəsini yaxşılaşdırmaqla yanaşı, etibar və sosial yaxınlıq hissini gücləndirir. Metaverse ekosistemlərində isə avatarlar rəqəmsal identikliyin əsas daşıyıcısı kimi çıxış edərək sosial, iqtisadi və mədəni qarşılıqlı əlaqələrin mərkəzinə çevrilir.

Bununla yanaşı, bu texnologiyaların sürətli inkişafı paralel olaraq ciddi risklər və çağırışlar yaradır. Deepfake texnologiyalarının inkişafı nəticəsində səs və görüntü saxtalaşdırılması daha realistik səviyyəyə çatmış, bu isə informasiya təhlükəsizliyi və ictimai etimad baxımından sistemli təhdidlər formalaşdırmışdır. Biometrik məlumatların toplanması və emalı ilə bağlı məxfilik riskləri, rəqəmsal identikliyin saxtalaşdırılması (identity spoofing) və alqoritmik qərəzlilik (bias) kimi problemlər bu sahədə etik və hüquqi çərçivələrin formalaşdırılmasını zəruri edir. Xüsusilə multimodal sistemlərdə bu risklər daha kompleks xarakter alır, çünki manipulyasiya eyni anda bir neçə informasiya kanalı üzərindən həyata keçirilə bilər.

Bu kontekstdə gələcək tədqiqat istiqamətləri yalnız texnoloji təkmilləşdirmə ilə məhdudlaşmamalıdır. Əksinə, əsas prioritetlər aşağıdakı istiqamətlər üzrə müəyyən edilməlidir:

- izaholuna bilən süni intellekt (Explainable AI) mexanizmlərinin inteqrasiyası
- insan nəzarətinin (human-in-the-loop) təmin edilməsi
- etik idarəetmə və şəffaflıq prinsiplərinin tətbiqi
- biometrik məlumatların qorunması üçün məxfilik yönümlü modellərin (federated learning, differential privacy) inkişafı
- multimodal sistemlər üçün təhlükəsizlik audit mexanizmlərinin qurulması

Bundan əlavə, avatar texnologiyalarının sosial təsirlərinin də dərindən araşdırılması vacibdir. İnsan–avatar qarşılıqlı əlaqəsində formalaşan emosional bağlılıq, etibar və sosial davranış modelləri gələcəkdə rəqəmsal cəmiyyətin strukturuna birbaşa təsir göstərə bilər. Bu baxımdan avatar sistemləri yalnız texnoloji obyekt deyil, həm də sosial fenomen kimi qiymətləndirilməlidir.

Nəticə olaraq, süni intellekt əsaslı insanabənzər avatar texnologiyaları rəqəmsal kommunikasiya infrastrukturlarında transformativ rol oynayaraq insan–kompüter qarşılıqlı əlaqəsinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edir. Lakin bu texnologiyaların davamlı və təhlükəsiz inkişafı yalnız texniki innovasiyalarla deyil, həm də etik, hüquqi və sosial aspektlərin balanslaşdırılmış şəkildə inteqrasiyası ilə mümkündür. Məhz bu yanaşma əsasında qurulan avatar sistemləri gələcəyin rəqəmsal mühitində sadəcə vizual yenilik deyil, etibarlı, adaptiv və insan mərkəzli kommunikasiya platforması kimi möhkəmlənə bilər.

ƏDƏBİYYAT

1.Picard, R. W. *Affective Computing*. MIT Press, 1997.
2.Vaswani, A., Shazeer, N., Parmar, N., et al. "Attention Is All You Need." *Advances in Neural Information Processing Systems*, 2017.
3.Devlin, J., Chang, M.-W., Lee, K., Toutanova, K. "BERT: Pre-training of Deep Bidirectional Transformers for Language Understanding." *NAACL-HLT*, 2019.
4.McMahan, H. B., Moore, E., Ramage, D., Hampson, S., Aguera y Arcas, B. "Communication-Efficient Learning of Deep Networks from Decentralized Data." *AISTATS / PMLR*, 2017.
5.Mori, M. "The Uncanny Valley." English translation authorized by IEEE Spectrum, 2012.
6.Złotowski, J. A., Proudfoot, D., Yogeeswaran, K., Bartneck, C. "Persistence of the uncanny valley: the influence of repeated interactions and a robot's attitude on its perception." *Frontiers in Psychology*, 2015.
7.Di Natale, A. F., Rea, F., Luperto, A., et al. "Uncanny valley effect: A qualitative synthesis of empirical evidence and future perspectives." *Methods in Psychology*, 2023.
8.Cui, L., Liu, J. "Virtual Human: A Comprehensive Survey on Academic and Applications." 2023 survey.
9.Wang, Y., Su, Z., Zhang, N., et al. "Metaverse Security and Privacy: An Overview." 2023.
10.Garg,K.,et al. Digital identities in the metaverse: Privacy, security, and user authentication.2024
11.Amerini, I., et al. "Deepfake Media Forensics: Status and Future Challenges." 2025.
12.Singh, S., et al. "Unmasking digital deceptions: An integrative review of deepfakes." 2025.
13.Raza, A., et al. "A Comprehensive Review of Deepfake Detection Techniques." 2026.
14.Ma, N., et al. "Effect of anthropomorphism and perceived intelligence in avatar-based chatbot interaction." *Frontiers in Computer Science*, 2025.
15.Tao, Z., et al. "Impact of virtual avatar appearance realism on perceptual interaction experience." *Frontiers in Psychology*, 2025.
16.Li, P. F., et al. "Influence of Avatar Identification on the Attraction of Virtual Environments." *JMIR Formative Research*, 2024.
17.DeTore, N. R., et al. "An Artificial Intelligence-Based Virtual Human Avatar …" 2024.
18.Peter,S.,et al.The benefits and dangers of anthropomorphic conversational agents.*PNAS*,2025
19.Vasudevan, S., et al. "Mapping the metaverse minefield: A TIPS framework for trust, identity, privacy, and security." 2025.
20.Yang, L. "Metaverse Identity: Core Principles and Critical Challenges." 2024

ARTIFICIAL INTELLIGENCE-BASED HUMANOID AVATAR TECHNOLOGIES: AN EXPANDED THEORETICAL AND TECHNICAL APPROACH IN THE CONTEXT OF VIRTUAL COMMUNICATION AND THE METAVERSE

B.B.Azizov[1]
K.K.Azizova[2,3]
E.Bilgili[4]
N.V.Kazimova[5]
E.Z.Talibli[1]
Azerbaijan University[1]
Institute of Physics, Ministry of Science and Education[2]
Azerbaijan Technical University[3]
Piri Reis University[4]
Azerbaijan Technological University[5]

The modern paradigm of digital transformation, driven by the rapid advancement of artificial intelligence technologies, has produced fundamental structural changes in the economic, socio-cultural, and technological systems of contemporary society. This transformation is not limited to the automation of information processing and decision-making processes; it also gives rise to new, more natural, multimodal, and immersive forms of human–computer interaction. In this context, AI-based humanoid avatar technologies have emerged as a strategic technological direction for virtual communication environments, digital service platforms, and metaverse ecosystems. An avatar is no longer merely a graphical representation; rather, it is a multimodal intelligent system capable of processing speech, text, facial expressions, gestures, gaze direction, and emotional tone, interpreting these signals, and generating appropriate responses.

The main limitation of virtual communication systems lies in the fact that traditional text- and audio-based interfaces cannot adequately reproduce social presence, non-verbal interaction, and emotional participation. Human communication is not confined to lexical content alone; prosody, pauses, facial expressions, micro-expressions, gestures, and gaze synchronization are essential carriers of social trust and communicative efficiency. From this perspective, the primary engineering function of avatar technologies is not simply to transmit information, but to create socially and emotionally enriched digital interaction. In this study, avatar systems are analyzed as multilayer communication agents. The proposed framework integrates input signal acquisition, semantic interpretation, intent and context analysis, emotional-affective evaluation, behavior synthesis, visual and auditory presentation, and security-audit layers. Such a model provides an adaptive and secure communication architecture applicable to education, telemedicine, digital services, virtual branding, and socio-economic participation within metaverse environments.

At the same time, the development of humanoid avatar technologies raises serious ethical, legal, and cybersecurity challenges. Risks such as deepfake-based manipulation, violations of biometric privacy, digital identity spoofing, algorithmic bias, and emotional manipulation necessitate evaluating these systems within a broader ethical and legal framework. Therefore, the future evolution of avatar technologies should not depend solely on technical optimization, but must also include ethical standardization, transparency principles, human oversight, and strengthened security protocols. In conclusion, AI-based humanoid avatars can be regarded as one of the central components of future digital communication infrastructures. Their effective and responsible deployment requires the synchronized development of engineering innovation alongside humanitarian, legal, and cybersecurity approaches.

Keywords: artificial intelligence, humanoid avatars, virtual communication, metaverse, cybersecurity, affective computing, digital identity

INVESTIGATION OF INTERACTION IN POLYMER COMPOSITES BY METHODS OF DIFFERENTIAL SCANNING CALORIMETRY (DSC) AND THERMOGRAVIMETRIC ANALYSIS (TGA)

G.Kh. Huseynova[1,2]
İ.S.Ramazanova[1]
Ü.V.Yusifova[1]
Z.A. Dadashov[1]
K.K. Azizova[1,2]
N.V. Kazımova[3]
Institute of Physics of the Ministry of Science and Education of the Republic of Azerbaijan[1]
Azerbaijan Technical University[2]
Azerbaijan Technological University[3]

Introduction. Segnetoelectric ceramics with a perovskite (ABO_3) crystal structure represent the most widely used and efficient piezoelectric material. In terms of chemical composition, piezoceramics are typically composed of divalent lead and barium (Ba) ions, in conjunction with a combination of tetravalent titanium (Ti) and zirconium (Zr) ions, which are complex oxides of $Pb(Zr,Ti)O_3$. Lead (Pb)-based piezoceramic materials have been shown to possess high piezoelectric properties (piezo coefficient - d_{33}, piezo sensitivity - g_{33}, etc.) and high dielectric constants (dielectric constant - d_{33}, dielectric loss angle tangent - $tg\delta$, etc.). The synthesisation of piezoceramics with specific electrophysical and piezoelectric properties can be achieved through modifications to the chemical composition of the starting materials and the incorporation of various additives.

In recent research, the focus has been on the investigation of lead-free ceramics, specifically those composed of $KnbO_3$ (potassium niobate) and $NaNbO_3$ (sodium niobate). The utilisation of lead-free materials is a practice that is conducive to environmental sustainability. Nevertheless, lead-based piezoceramics are still considered to be the optimum piezoelectric materials. While lead-free materials present a viable option in certain domains, further refinement and advancement is imperative to fully realise their potential. In addition to these advantages, lead (Pb)-based segmented piezoceramics also exhibit a high degree of brittleness, which reduces the deformation of products made from them. Therefore, in order to obtain highly elastic products, it is necessary to add piezoceramic powder to the polymer matrix and mix the components until a homogeneous mass is obtained [3]. The utilisation of high density polyethylene (HDPE) as the matrix in composite materials is a pervasive phenomenon in the manufacturing sector. These composites have been shown to exhibit superior mechanical and physical properties in comparison to pure polymer [9,10]. Furthermore, the study of thermal properties is an important factor in the processing of polymer composites and the selection of applications. In polymer matrix composites, interfacial interaction is one of the factors affecting the material's mechanical, thermal and chemical properties. A plethora of studies have utilised thermal analysis techniques, including differential scanning calorimetry (DSC) and thermogravimetric analysis (TGA), to investigate this interaction [11, 12]. The analysis of composite samples by these methods enables.

The objective of the present article is to investigate the interfacial interaction and to determine the thermodynamic parameters of the samples (HDPE, PVDF and HDPE+PKR1, PVDF+PKR1) by differential scanning calorimetry (DSC) and thermogravimetric analysis (TGA).

Method. The present study utilised high-density polyethylene (HDPE) and polyvinylidene fluoride (PVDF) as the matrix. In this study, PKR-1 and PKR-8 ferroelectric ceramic particles, which possess different structures, were selected for use as dispersants. The size of the piezoelectric particles is 63-100 μm. Piezoelectric particles (with a volume fraction of 50%) were added to the polymer powder. The resulting mixture was subjected to stirring for a period of one hour at room temperature using a magnetic stirrer. This was followed by a further four hours of stirring using an ultrasonic cleaner-dispersant (NATO CD-4800) manufactured in China. Disc-shaped composite samples were obtained by subjecting the material to hot

pressing at temperatures ranging from 165 to 170°C and a pressure of 15 MPa. Upon attaining the designated temperature, the pressing time was 15–20 minutes.

The measurements were conducted using a NETZSCH DSC 204 F1 differential scanning calorimeter (DSC) (Germany) in an argon atmosphere. The composite under investigation was placed in an aluminium crucible. Sapphire (Al2O3) was utilised as a reference sample, the heating rate was 10 K/min, the inert gas flow rate was 20 ml/min, and the sample weight was approximately 40 mg. The experimental studies were conducted within the temperature range of 100–600 °C. The thermodynamic parameters of the composites were measured using this device and calculated using established formulas.

The enthalpy change was calculated based on the peak area on the thermogram curve:

$$\Delta H = S_{sahə} = \int_0^T c_p\, dT \quad (1)$$

The calculation of change in entropy is determined by the following formula:

$$\Delta S = \frac{\Delta H}{T_{keçid}} = \int_0^T \frac{c_p}{T} dT \quad (2)$$

The degree of crystallinity of the polymers utilised (amorphous and crystalline) is determined from thermogram curves:

$$K = \frac{|\Delta H_{ərimə} + \Delta H_{soyuma}|}{\Delta H_{etalon}} \cdot 100\% \quad (3)$$

In particular, the heat capacity of samples is calculated using the formula:

$$c_p = \frac{m_{standart}}{m_{saple}} \cdot \frac{DSC_{sample} - DSC_{bas}}{DSC_{standart} - DSC_{bas}} \cdot c_{p,standart} \quad (4)$$

Where c_p and $c_{p,standard}$ are the specific heat capacities of the sample and standard at temperature T, $m_{standard}$ and m_{sample} are the masses of the standard and sample, respectively, and $DSC_{standard}$ and DSC_{sample} are the DSC readings of the standard and sample.

Subsequent analysis of the samples was conducted using thermogravimetric (TG) analysis on a NETZSCH STA 449 F1 Jupiter instrument. The experiments were conducted within Al_2O_3 crucibles, within the temperature range of 20–850 °C, with a sample heating rate of 1 K/min. Samples of powder were measured in a synthetic air environment (80% gaseous oxygen, 20% gaseous nitrogen, flow rate 35 ml/min). This apparatus is utilised for the study of physical phenomena, including phase transitions, absorption, adsorption and desorption. Thermogravimetric analysis (TGA) can also be utilised to ascertain the activation energy (Ea), which is a kinetic parameter of the composites under investigation in accordance with the Arrhenius equation and the Kissinger method.

$$\ln(k) = \ln(A) - \frac{E_a}{R \cdot T} \quad (5)$$

Here, k is a constant of change, A is an exponential factor, Ea is the activation energy, T is the absolute temperature, and R is the universal gas constant.

According to Kissinger's method:

$$\ln\left(\frac{\beta}{T_p^2}\right) = \ln\left(\frac{A \cdot R}{E_a}\right) - \frac{E_a}{R \cdot T_p} \quad (6)$$

Here, T_p is the maximum temperature and β is the heating rate.

Results and discussion.

Figures 1 and 2 illustrate the temperature dependence of thermal energy (DSC thermogram) for pure high-density polyethylene (HDPE) and polyvinylidene fluoride (PVDF). The figure illustrates that the maximum temperature of 124°C is observed in the HDPE thermogram. Should HDPE be subjected to a heating and cooling cycle, and should an DSC thermogram be taken, a new peak (maximum) will be observed at 111°C on the complete graph (i.e. cooling-heating). As demonstrated in Figure 2, when a polar fluorine-containing polymer, polyvinylidene fluoride (PVDF), with a specific dipole moment, is utilised as the matrix in lieu of a non-polar polymer, the DSC curves exhibit a distinct maximum at 162°C, accompanied by a secondary maximum at 129°C. In our opinion, the difference in the maximum temperature on the DSC curve in both cases indicates that oxygen degradation (decomposition) processes occur in polymers under the influence of heat treatment, with this phenomenon being observed at higher temperatures in PVDF than in PE. Then, using the DSC thermogram, the glass

transition temperature, melting temperature, specific heat capacity (c_p), enthalpy, entropy (ΔS) and degree of crystallinity (K) were determined, which are important parameters for the practical application of polymers. The results obtained are presented in table 1.

Table 1. DSC results for pure polymers

Polymer	Glass transition temperature (T_g)^{0}C	Melting temperature (T_m),^{0}C	Specific heat (C_p),C/q·^{0}C	Enthalpy (ΔH), C/q	Entropy (ΔS), C/K	Degree of crystallinity (K), %
YSPE	100	124-131	1,8 - 2,7	60,3	2,36	4,75
PVDF	40	156-165	0,96 - 1,4	31,5	0,65	3,33




Figure 1. DSC thermogram of high-density polyethylene (HDPE)




Figure 2. DSC thermogram of polyvinylidene fluoride (PVDF)

In addition to pure polymers, changes in thermal energy depending on temperature were studied for polymer composites. For this purpose, DSC thermograms were taken for composites consisting of various ferroceramics (PKR1, PKR8, etc.) and polymers (HDPE, PVDF), and the studies were conducted in the temperature range of -100-600^{0}C. Figures 3 and 4 show the DSC thermograms of HDPE+PKR1 and PVDF+PKR1 composites. The graphs clearly show the maxima (phase transitions) corresponding to the structural changes occurring in HDPE+PKR1 and PVDF+PKR1 composites depending on temperature. Figure 3 shows that for the HDPE+PKR1 composite, a small exothermic peak is observed at 128°C on the temperature dependence of thermal energy, and we believe that this peak is close to the melting temperature of the polymer. In our opinion, this exothermic peak is caused by the decomposition of oxygen-containing functional groups (CO, CO_2) in the HDPE+PKR1 composite as the temperature rises. Then, after reaching a temperature of 480,40°C, a sharp

drop in the peak is observed and an endothermic reaction occurs. This indicates that a large amount of heat is absorbed to break the bonds between the polymer and the ferroelectric ceramic particles. A similar thermogram of thermal energy as a function of temperature for the PVDF+PKR1 composite is shown in Figure 4. The thermogram shows that the PVDF+PKR1 composite exhibits an exothermic peak (161.4 °C) and an endothermic peak (470.2 °C). The results obtained indicate that the study of spectra in PVDF is more important than in PE. Since PVDF is a polar polymer, piezoceramic particles can act as crystallisation centres, and ultimately the temperature of the first peak on the DSC thermogram may shift towards higher temperatures as the amount of crystalline phase in the polymer matrix increases. In addition, as the volume fraction of the polymer matrix increases, the contact surface between the polymer matrix and the piezoceramic phase increases, and the intensity of structural changes also increases. In our opinion, the maxima observed on the DSC curves are related to structural changes and interphase interactions caused by temperature. We believe that as interphase interactions intensify, the degree of crystallinity decreases and macromolecules become less mobile. Using DSC thermograms for the composites under study, the glass transition temperature, enthalpy, entropy, and specific heat capacity were calculated. The results are presented in table 2.

Table 2. Change in enthalpy and specific heat capacity in the observed transitions.

Composite	Peak, T_{pik} ^0C	Glass transition temperature T_g, ^0C	Enthalpy (ΔH), C/q	Entropy (ΔS), C/K	Specific heat (c_p) C/q·K	DSC, area A, C/q	Peak name
HDPE+PKR1	128	122	4,85	0,0121	2,319	16,16	Ekzotermik
	483,4	454	8,81	0,0116	1,125	29,36	Endotermik

Composite	Peak, T_p, ^0C	Glass transition temperature T_g, ^0C	Enthalpy (ΔH), C/q	Entropy (ΔS), C/K	Specific heat (c_p) C/q·K	DSC, area A, C/q	Peak name
PVDF+PKR1	161,4	162,4	0,19	0,0004	0,041	4,62	Ekzotermik
	470,2	470,4	24,72	0,0333	1,286	-82,41	Endotermik




Figure 3. DSC thermogram of HDPE+PKR1composite.




Figure 4. DSC thermogram of PVDF+PCR1 composite.

Figure 5 shows the temperature dependence of mass loss of PVDF+PKR1 composite (TGA thermogram curve). The figure shows that the TGA curve shows maxima at different temperatures (161^{0}C, 454^{0}C, 503^{0}C, 606^{0}C). Initially, a broad, unclear endothermic effect is observed in the temperature dependence of mass loss, corresponding to 161^{0}C, at which no mass loss occurs. In our opinion, at this stage a phase transition of the second type occurs (i.e., the physical properties of the material change without mass loss). The crystal structure of the sample changes, more precisely, the macromolecules of the polymer phase of the composite become less mobile with increasing temperature. The second effect of the thermogram curve continues from 450^{0}C to 470^{0}C. Thus, at a temperature of 454^{0}C the mass loss is 10%. In our opinion, the obtained result is due to the occurrence of oxygen degradation processes of oxygen in the polymer due to the effect of heat treatment. We believe that at this temperature C-H and C-F bonds in PVDF polymer chains weaken and begin to partially disintegrate. Radicals are formed in the polymer chains as a result of decomposition and the dehydrofluorination process begins. During the process, volatiles such as hydrogen fluoride (HF) are released from the PVDF chain. This reaction changes the chemical structure of a certain part of the polymer, causing the release of volatiles and consequently the indicated (10%) mass loss. Then, a very small peak is observed at 503^{0}C. The appearance of the new peak can be explained by the further decomposition of the more stable parts that could not be completely transformed from the previous stage (450-470^{0}C) at this temperature, undergoing additional oxidation or final dehydrofluorination.

In addition, we believe that at this temperature, the third effect arises from the combustion of organic matter, in which case the mass loss is approximately 2%. Finally, the fourth peak on the thermogram curve is formed in the temperature range from 602^{0}C to 609^{0}C. In our opinion, the more stable carbonaceous part (residue) in this temperature range is completely oxidised by high temperature or undergoes a pyrolytic reaction. At this stage, the strong C-C bonds present in the remaining carbon structures are broken by additional heat energy, causing the residue to turn into a gas, causing a small mass loss (approximately 2%). However, since the inorganic phase of the composite - segneopiezoceramics (PKR 1 and PKR8) - has high thermal stability, no thermal decomposition occurs in it in the specified temperature range. Thus, the obtained result for PVDF+PCR1 composite shows that the sample is durable up to the temperature of 450^{0}C. At temperatures above this temperature, gradual degradation processes occur in the composite and are completed in several stages. A similar experiment was carried out for PVDF+PCR8 composite (Figure 6). The obtained result is presented in Figure 6 in the form of TG/DSC curve. The figure shows that for PVDF+PCR8 composite, maxima are observed at different temperatures (158^{0}C, 448^{0}C, 653^{0}C).

Then the activation energy (E_a) of the studied samples (PVDF+PKR1, PVDF+PKR8 composites) was calculated using TGA thermograms, using mathematical formulae (based on Kissinger's equation (6)). The obtained results are summarised in table 3.

Table 3. Decomposition (degradation) temperatures of composites.

Films	$T_{onset,}$ ^0C	T_p, ^0C	Activation energy (E_a), kC/mol
PVDF+PKR1	454	468,9	0,0038
PVDF+PKR8	440	448	0,0042




Figure 5. Thermogravimetric (TG) spectrum of PVDF+PKR1composite.




Figure 6. Thermogravimetric (TG) spectrum of PVDF+PCR8 composite.

Conclusions

The analysis of DSC and TGA plots showed that the interfacial interaction between the polymer matrix and the filler (segmented piezoceramic particle) significantly affects the thermal properties of the composite. The DSC results of PVDF+PKR1 composite show that the strong interaction between PVDF and PKR1 particles changes the crystallisation and melting temperatures of the polymer. It also increases the crystallinity of PVDF and stabilises the phase transitions. From the analyses carried out on PVDF+PKR1 composite by TGA methods, it can be seen that the strong interaction between the polymer and the piezoceramic particle increases the thermal stability of the sample, increases the decomposition temperature and mass loss occurs at higher temperature. From the TGA thermograms, it was observed that PVDF+PKR1 composite maintained the strength up to 450^{0}C and the working temperature up to this temperature. This study shows that the choice of suitable filler can expand the applications of polymer matrix composites.

REFERENCES

1.Jurgen Rodel, Wook Jo, Klaus T. P. Seifert, Eva-Maria Anton. Perspective on the Development of Lead-free Piezoceramics. Journal of the American Ceramic Society. Vol. 92, No. 6. pp. 1153–1177 (2009).

2.P. Noorunnisa Khanam, Mariam Al Ali Al Maadeed. Processing and characterization of polyethylene-based composites. Adv. Manuf.: Polym. Compos. Sci., 2015, 1, 63-79.

3.N. M. Nurazzi, M. R.M. Asyraf, M. Rayung. Thermogravimetric Analysis Properties of Cellulosic Natural Fiber Polymer Composites: A Review on Influence of Chemical Treatments. Polymers 2021, 13, 2710.

4.Beatriz Adriana Salazar-Cruz, María Yolanda Chávez-Cinco, Ana Beatriz Morales-Cepeda, Evaluation of Thermal Properties of Composites Prepared from Pistachio Shell Particles Treated Chemically and Polypropylene. Molecules 2022, 27, 426. pp1-12.

5.CARMEN ALBANO, GEMA GONZÁLEZ, JORDANA PALACIOS, ARQUÍMEDES KARAM. CHARACTERIZATION OF POLY L-LACTIDE / HYDROXYAPATITE COMPOSITE: CHEMICAL, THERMAL AND THERMOMECHANICAL PROPERTIES. Revista de la Facultad de Ingeniería U.C.V., Vol. 28, N° 3, pp. 97-108, 2013.

6.Luciano Pisanu, Josiane Barbosa, Ricardo Souza and Marcio Nascimento. Evaluating the influence of coupling agents in the structural properties of polypropylene coconut fiber composites. Mater. Res. Express 6 (2019) 11532.

7.César Leyva-Porras, Pedro Cruz-Alcantar, Vicente Espinosa-Solís. Application of Differential Scanning Calorimetry (DSC) and Modulated Differential Scanning Calorimetry (MDSC) in Food and Drug Industries. Polymers 2019, 12, 5.

8.Raluca Maria Florea, Ioan Carcea. POLYMER MATRIX COMPOSITES – ROUTES AND PROPERTIES. International Journal of Modern Manufacturing Technologies ISSN 2067–3604, Vol. IV, No. 1 / 20

9.X.J. Fan, S.W.R. Lee, Q. Han. Experimental investigations and model study of moisture behaviors in polymeric materials. / Microelectronics Reliability 49 (2009) 861–871

10.Carola Esposito Corcione and Mariaenrica Frigione. Characterization of Nanocomposites by Thermal Analysis. Materials 2012, 5, 2960-2980.

11.Hassan Omar, Glen J. Smales, Sven Hennin. Calorimetric and Dielectric Investigations of Epoxy-Based Nanocomposites with Halloysite Nanotubes as Nanofillers. Polymers 2021, 13.

12.Jérémie Audoit, Lisa Rivière, Jany Dandurand, Antoine Lonjon, Eric Dantras, Colette Lacabanne. Thermal, mechanical and dielectric behaviour of poly (aryl ether ketone) with low melting temperature. Journal of Thermal Analysis and Calorimetry, Springer Verlag, 2019, 135 (4), pp.2147-2157

13.Mateusz Bor, Tomasz Borowczyk, Wojciech Karpiuk, Mikołaj Krakowiak, Rafał Smolec. ASSESSMENT OF THE POSSIBILITY OF APPLYING CERAMIC MATERIALS IN COMMON RAIL INJECTION SYSTEMS. Advances in Science and Technology Research Journal Volume 12, Issue 1, March 2018, pages 312–321.

14.Franziska Eichhorn, Simone Kellermann, Ulf Betke and Tobias Fey. Phase Evolution, Filler-Matrix Interactions, and Piezoelectric Properties in Lead Zirconate Titanate (PZT) - Filled Polymer-Derived Ceramics (PDCs). Materials 2020, 13, 1520; doi:10.3390 / ma13071520 . pp. 1-14.

15.Егоров, В.М. Калориметрия твердых растворов (1-x) $BaTiO_3$- x$Ba(Mg_{1/3}Nb_{2/3})$ O_3 / В.М.Егоров, Е.П. Смирнова, В.В. Леманов // Физика и Техника Полупроводников, - 2007, т.49, вып8, -с. 1456-1459.

INVESTIGATION OF INTERPHASE INTERACTION IN POLYMER COMPOSITES BY METHODS OF DIFFERENTIAL SCANNING CALORIMETRY (DSC) AND THERMOGRAVIMETRIC ANALYSIS (TGA)

G.Kh. Huseynova[1,2]
İ.S.Ramazanova[1]
Ü.V.Yusifova[1]
Z.A. Dadashov[1]
K.K. Azizova[1,2]
N.V. Kazımova[3]
Institute of Physics of the Ministry of Science and Education of the Republic of Azerbaijan[1]
Azerbaijan Technical University[2]
Azerbaijan Technological University[3]

The present study investigates the interphase interactions occurring in composites consisting of polar (PVDF) and non-polar (HPLC) polymer matrices, in conjunction with ceramics of differing structures (i.e. PKR1 – rhombohedral, and PKR8 – tetragonal). The investigation employs two analytical techniques: differential scanning calorimetry (DSC) and thermogravimetric analysis (TGA). The interactions between the matrix and filler, phase transitions and changes in the crystal structure in the composites were studied using DSC. It was determined that the type, amount and degree of dispersion of the filler have a significant effect on the thermal stability and phase transitions of the composites. The TGA method was also employed to estimate the weight loss and thermal stability of the composites consisting of piezoceramics of different structures, and to determine the effect of interactions occurring at the interface on the overall thermal parameters of the composite. The findings indicate that the type, amount and dispersion of the filler have a substantial impact on the interphase interactions and stages of composite formation. The reliability and efficacy of experiments conducted using DSC and TGA methods for improving the structural and thermal properties of polymer matrix composites has been demonstrated.

Keywords: polymer, composite, matrix, glass transition, enthalpy, entropy, mass loss, plasma, specific heat capacity.

SÜNİ İNTELLEKT ƏSASLI DAVRANIŞ ANALİTİKASI: YENİYETMƏ CİNAYƏTKARLIĞININ ERKƏN RİSK PROQNOZLAŞDIRILMASI VƏ PREDİKTİV MODELLƏŞDİRİLMƏSİ

Kərim Tahiroğlu[1]
kerim.tahiroghlu@au.edu.az
Kəmalə Kamal qızı Əzizova[2,3,4]
kama-azizova2025@rambler.ru
Nurlana Vahid qızı Kazımova[5]
nurlanavahid1@gmail.com
Bakı Avrasiya Universiteti [1]
Elm və Təhsil Nazirliyi Fizika İnstitutu [2]
Azərbaycan Universiteti [3]
Azərbaycan Texniki Universiteti[4]
Azərbaycan Texnologiya Universiteti[5]

Giriş. Müasir cəmiyyətlərdə yetkinlik yaşına çatmamış şəxslər arasında cinayətkarlıq sosial təhlükəsizlik və hüquq siyasəti baxımından prioritet problemlərdən biri kimi çıxış edir. Bu fenomen yalnız hüquq-mühafizə sisteminin fəaliyyət sahəsinə aid deyil, eyni zamanda sosial struktur, ailə münasibətləri, təhsil mühiti və psixoloji faktorların qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks sosial proses kimi qiymətləndirilməlidir.

Yeniyetmə cinayətkarlığının formalaşması çoxsaylı determinantların qarşılıqlı təsiri ilə əlaqədardır. Ailə institutunun zəifləməsi, sosial nəzarətin azalması, iqtisadi qeyri-sabitlik və təhsil mühitində yaranan problemlər bu prosesin əsas səbəbləri kimi çıxış edir. Bununla yanaşı müasir dövrdə rəqəmsal mühitin təsiri də mühüm rol oynayır. Sosial media platformaları və internet mühiti yeniyetmələrin davranış modellərinin formalaşmasında yeni sosial faktor kimi çıxış edir.

Ənənəvi statistik metodlar bu cür mürəkkəb sosial sistemlərin analizi üçün müəyyən imkanlar təqdim etsə də, çoxölçülü və qeyri-xətti əlaqələrin tam müəyyən edilməsində məhdud qalır. Bu baxımdan süni intellekt və maşın öyrənməsi texnologiyaları yeni analitik yanaşmalar təqdim edir. Maşın öyrənməsi modelləri böyük həcmli sosial məlumatları analiz edərək davranış nümunələrini və risk faktorları arasındakı gizli əlaqələri aşkar edə bilir. Bu yanaşma yalnız mövcud vəziyyətin analizi ilə məhdudlaşmır, həm də gələcəkdə baş verə biləcək risklərin proqnozlaşdırılmasına imkan verir.

Sosial və Davranış Risk Faktorlarının Sistem Analizi: Yeniyetmə cinayətkarlığı yalnız fərdi davranışın nəticəsi kimi deyil, çoxsəviyyəli sosial sistemlərin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks fenomen kimi qiymətləndirilməlidir. Bu sistem daxilində ailə, sosial mühit, iqtisadi şərait və psixoloji faktorlar bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərərək fərdin davranış trayektoriyasını müəyyən edir. Müasir sosioloji yanaşmalara əsasən, deviant davranışın formalaşması təsadüfi deyil, əksinə struktur və funksional disbalansların nəticəsidir.

Ailə institutu bu sistemdə ilkin sosiallaşma mühiti kimi çıxış edir və fərdin dəyərlər sisteminin formalaşmasında həlledici rol oynayır. Valideyn nəzarətinin zəifləməsi, ailədaxili konfliktlər və emosional dəstəyin çatışmazlığı uşaqlarda sosial adaptasiya problemlərinə səbəb olur. Bu isə onların alternativ davranış modellərinə yönəlməsinə şərait yaradır. Eyni zamanda sosial-iqtisadi status da mühüm determinant kimi çıxış edir. Aşağı gəlirli və sosial resursları məhdud olan mühitlərdə böyüyən yeniyetmələrdə risk davranışlarının yaranma ehtimalı daha yüksək olur.

Təhsil mühiti isə sosial nəzarət mexanizminin ikinci əsas komponentidir. Məktəb davamiyyətinin azalması, akademik uğursuzluq və müəllim-şagird münasibətlərində yaranan gərginliklər sosial deviasiyanın erkən indikatorları kimi çıxış edir. Bu faktorlar sosial bağların zəifləməsinə və fərdin cəmiyyətə inteqrasiyasının pozulmasına gətirib çıxarır. Nəticədə fərd alternativ sosial qruplara — çox vaxt deviant davranış nümayiş etdirən mühitlərə — yönəlir.

Beləliklə, sosial və davranış faktorlarının sistem analizi göstərir ki, yeniyetmə cinayətkarlığı birbaşa səbəb-nəticə əlaqəsi ilə izah edilə bilməz. Bu fenomen çoxölçülü və dinamik strukturda fəaliyyət göstərir və onun effektiv analizi yalnız kompleks və inteqrativ yanaşmalar vasitəsilə mümkündür.

Rəqəmsal Mühit və Yeni Sosial Risklərin Transformasiyası: Rəqəmsallaşma prosesi yeniyetmələrin sosiallaşma mexanizmlərini köklü şəkildə dəyişdirmişdir. Əgər ənənəvi cəmiyyətlərdə sosial təsir əsasən ailə və fiziki mühitlə məhdudlaşırdısa, müasir dövrdə rəqəmsal platformalar bu təsirin miqyasını qlobal səviyyəyə çatdırmışdır. Sosial media, onlayn oyun platformaları və virtual icmalar yeniyetmələrin davranış modellərinin formalaşmasında mühüm rol oynayır.

Bu mühitlərin əsas xüsusiyyətlərindən biri onların normativ nəzarət mexanizmlərinin zəif olmasıdır. Virtual mühitdə anonimlik və məsuliyyətin azalması aqressiv və deviant davranışların daha sərbəst şəkildə ifadə olunmasına şərait yaradır. Bu isə "norm diffusion" fenomeninə — yəni sosial normaların bulanıqlaşmasına səbəb olur.


Eyni zamanda, rəqəmsal mühitdə yayılan kontentlər yeniyetmələrin psixoloji vəziyyətinə birbaşa təsir göstərir. Şiddətə meyilli materiallar, kriminal davranışın romantizasiyası və sosial təsir mexanizmləri fərdin davranış seçimlərinə təsir edir. Uzunmüddətli rəqəmsal izolyasiya isə sosial əlaqələrin zəifləməsinə və empatiya səviyyəsinin azalmasına gətirib çıxarır.

Логико-математические структуры, влияющие на механизмы выбора человека, должны перестать быть "черным ящиком". Философия утверждает: если механизм принятия решений остается непостижимым и неинтерпретируемым для человеческого сознания, это является угрозой рациональности субъекта. Свобода воли прямо пропорциональна осознанию человеком сил, влияющих на него. Поэтому должна быть обеспечена "онтологическая прозрачность" принципов работы цифровых систем.

Вопрос цифровых прав должен восприниматься как «онтологическая автономия» личности в виртуальном мире. Человек должен стать абсолютным хозяином своих цифровых следов, информационных баз и виртуального образа. Это применение императива Иммануила Канта «человек есть цель, а не средство» к цифровой эпохе. Для защиты свободной воли должна быть выстроена "целевая основа", где не технология направляет человека, а человек — технологию.

Для восстановления целостности фрагментированной личности в цифровом пространстве необходимо глубокое философское просвещение. В новую эпоху для защиты духовных ценностей человека должна быть развита концепция «цифрового гуманизма». Технология должна служить разуму и душе человека, а не заменять их. Человек должен защищать свою субъективность, ставя свой эмоциональный интеллект и творчество выше технологий. Философский анализ показывает, что будущее человечества зависит от синтеза технологического прогресса и общечеловеческих ценностей.

TRANSFORMATİON OF THE SUBJECT İN THE POST-MODERN ERA A THE DİGİTAL AGE: ONTOLOGİCAL AND ANTHROPO-PHİLOSOPHİCAL ANALYSİS

Fuad Yusif Yusifov
f_yusifov@atu.edu.az
Azerbaijan Technological University

The article presents a philosophical analysis of the transformation of human subjectivity in the context of the postmodern era and the rapidly expanding digital environment. It explores the ontological shift in which the classical concept of the "unified self" is increasingly replaced by a fragmented "digital persona" shaped by informational flows and logical-mathematical structures. The study examines the existential tension between "being" and "appearing," arguing that virtual simulations often overshadow objective reality and may lead to forms of self-alienation. Drawing on the philosophical perspectives of Martin Heidegger and Immanuel Kant, the research synthesizes Heidegger's critique of technology with Kant's ethical imperatives in order to address the emerging problem of free will under conditions of algorithmic determinism. The article argues that the increasing influence of algorithmic systems and digital platforms challenges traditional notions of autonomy and personal identity. In conclusion, the author suggests that the restoration of human agency in the digital age requires the development of a new conceptual framework of "digital humanism." Such a framework should emphasize ethical responsibility, critical awareness of technological mediation, and the establishment of ontological sovereignty over one's digital data and virtual identity.

Keywords: postmodern era, digital environment, philosophy of being, transformation of personality, virtual reality, digital humanism

MÜASİR DÜNYADA SÜLH VƏ TƏHLÜKƏSİZLİYƏ ÇAĞIRIŞLAR: YENİ DÜNYA NİZAMI VƏ GEOSİYASƏT

Hüseyn Tağı oğlu Budaqov[1]
Elgün Məhəmmədəli oğlu Aslanov[2]
e.aslanov85@mail.ru
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Dövlət Aqrar Universiteti[2]

Bu gün qlobal cəmiyyətdə baş verən dəyişikliklər qlobal təhlükəsizlik məsələlərinə adekvat şəkildə yanaşmağı tələb edir. Odur ki, hərbi-siyasi vəziyyətin öyrənilməsi, ictimai-siyasi tarazlığa və sabitliyə qarşı təhdidlərin qarşısının alınması üçün təsirli tədbirlərin hazırlanması təxirəsalınmaz zərurətə çevrilib. Bu kontekstdə yeni dünya düzəni üçün modelin nəzəri inkişafı xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Bu məqalə davamlı təhlükəsizlik mexanizmlərinin yaradılması zərurətini diktə edən XX əsrin ikinci yarısında baş verən hərbi-siyasi hadisə və prosesləri araşdırır.

XX əsrin ikinci yarısında beynəlxalq münasibətlərin xarakteri və qlobal təhlükəsizlik sferasında yaranan problemlərin ekzistensial xarakteri

1949-cu ildə sosialist yönümlü Avropa və dünya dövlətlərinin iştirak etdiyi Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradıldı. 1949-1991-ci illərdə fəaliyyət göstərən və hökumətlərarası iqtisadi təşkilat olan QİYŞ 1949-cu il yanvar ayının 18-də SSRİ, Albaniya, Bolqarıstan, Macarıstan, Polşa və Rumıniya dövlət başçılarının birgə qərarı ilə yaradılmış və 28 iyun 1991-ci ildə ləğv edilmişdir. Təşkilatın Mənzil-qərargahı SSRİ-nin paytaxtı Moskva şəhərində yerləşirdi. Sosialist dövlətlərinin iqtisadi ittifaqının yaradılması təşəbbüsünə cavab olaraq Qərbi Avropa dövlətləri də dərhal özlərinin iqtisadi təşkilatını - Avropa İqtisadi Birliyini (AİB) yaratdılar. 12 Avropa dövlətini birləşdirən həmin regional inteqrasiya birliyi 1957-ci ildə yaradılmış və 1993-cü ildə əvvəlki strukturda öz fəaliyyətini dayandıraraq və yeni qurum (Avropa İttifaqı) kimi fəaliyyətə başlamışdır. Beləliklə, qlobal hərbi-siyasi, iqtisadi və ideoloji qarşıdurma ilə səciyyələnən yeni tarixi dövr dünyanın əvvəlki görkəmini sürətlə və inadla dəyişməyə başladı. İdeoloji hücum bu dövrdə qlobal mübarizənin əsas strategiyası olsa da, onun subyektləri ayrı-ayrı lokal münaqişələrdə də iştirak edirdilər. XX əsrin 50-ci illərində qlobal sosializm sistemində təmsil olunan Çin Xalq Respublikasının SSRİ ilə isti münasibətlərinə baxmayaraq, ona qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Tərəflər arasında ciddi qarşıdurma isə 1969-cu ildə yarandı. O zaman Damansk adasında (Xabarovskdan 230 km cənubda, Ussuri çayının orta axarında yerləşir, "Damansk" sözünün mənası "Qiymətli ada" deməkdir. Ada 1991-ci ildən Çin Xalq Respublikasına məxsusdur) SSRİ ilə Çin Xalq Respublikasının hərbi qüvvələri arasında silahlı toqquşma baş vermiş və Sovet ordusu Çin hərbi qüvvələrinə gözlənilməz sarsıdıcı zərbə endirmişdi.

XX əsrin 50-80-ci illərində dünya siyasətinin xarakterini "Soyuq müharibə" təşkil edirdi. Qeyd edək ki, "Soyuq müharibə" terminini, ilk dəfə, 1945-ci il oktyabr ayının 19-da ingilis yazıçısı, jurnalisti və publisisti Corc Artur Oruell (1903-1950) həftəlik "Tribun" qəzetində dərc olunan "Sən və Atom Bombası" adlı məqaləsində işlətmişdir. Bu hadisə rəsmi mənbələrdə "Trumen doktrinası" (1945-1953-cü illərdə Demokratlar Partiyasından 33-cü ABŞ prezidenti olmuş Harri S.Trumenin 12 mart 1947-ci il tarixində ABŞ Konqresindəki çıxışında elan etdiyi hərbi-siyasi müddəalar toplusu). "Trumen doktrinası"nda qeyd olunurdu ki, "II Dünya müharibəsindən sonra yeni dünyanın bir çox xalqlarının iradəsinə zidd olaraq çoxlu sayda totalitar rejimlər qurulmuşdur". Həmin rejimlərə qarşı mübarizə isə ABŞ-ın rəhbərliyi altında dünyanın demokratik dövlətlərinin hərbi-siyasi doktrinasına çevrilməlidir.

Qeyd edək ki, müasir dünya tarixində "Soyuq müharibə" kimi yadda qalan dövr təkcə ideoloji qarşıdurma və informasiya müharibəsi ilə bitmirdi. ABŞ hökuməti bununla əlaqədar hədə-qorxu və məcburetmə üsullarına əl atır, həmçinin Bolqarıstan, Polşa və Rumıniyada Yalta-Potsdam sazişinin pozulmasına etiraz edərək lazımi tədbirlər görməyə çağırırdı **[2].** "Truman doktrinası", həmçinin Türkiyə (Kayaoğlu, 2009) və Yunanıstana Sovet təcavüzü qarşısında lazımi iqtisadi, hərbi və siyasi yardım göstəriləcəyini bəyan edirdi **[1].** Sözügedən doktrina SSRİ lideri İ.V. Stalinin iştirakı ilə II Dünya müharibəsi dövründə və müharibədən sonra yaradılmış beynəlxalq münasibətlərə yenidən baxılması məsələsini qaldırdı. Böyük

Britaniyanın Baş naziri Uinston Çörçill (II Dünya müharibəsinin sonunda Klement Ettli) və ABŞ prezidenti Franklin Delano Ruzveltlə (II Dünya müharibəsinin sonunda Harri Trumen) yanaşı "Trumen doktrinası"nın ərsəyə gətirilməsində aşağıdakı şəxslər də yaxından iştirak etmişdi: Allen Welch Dulles (1893-1969) - amerikalı diplomat və kəşfiyyatçı, 1953-1961-ci illərdə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru; Loyal Henderson (1892–1986) - amerikalı diplomat, SSRİ və Yaxın Şərq üzrə mütəxəssis; Den Açeson (1893-1971) - 1949-1953-cü illərdə H.Truman administrasiyasında Dövlət katibi vəzifəsində çalışmış amerikalı siyasətçi; Corc Kennan (1904–2005) - tanınmış amerikalı politoloq, "Tutma siyasətinin" (qarşısını almaq mənasında) banisi.

Adi silahların və nüvə silahının sayı çoxaldıqca "Soyuq müharibə" də daha təhlükəli olmağa başladı. Hətta 1962-ci ildə "Kuba raket böhranı" zamanı özünü büruzə verən III Dünya müharibəsi təhlükəsi yarandı. 1989-cu ildə SSRİ lideri M.S.Qorbaçov (1931-2022, - 1985-1991-ci illərdə SSRİ-nin rəhbəri) və ABŞ prezidenti Corc Herbert Uoker Buş Böyük (1924–2018, - 1989-1993-cü illərdə ABŞ-ın 41-ci prezidenti) arasında Malta sammitində (sammit 1989-cu il dekabr ayının 2-3-də Malta adasında baş tutmuşdu) əldə edilən razılaşma ilə soyuq müharibəyə son qoyuldu. Soyuq müharibəyə rəsmən son qoyan sənəd isə 1990-cı il noyabrın 21-də ATƏT-ə üzv dövlətlərin dövlət və hökumət başçılarının görüşündə (Yeni Avropa üçün Paris Xartiyası) imzalandı. 1992-ci ilin əvvəlində Rusiya Prezidenti B.N.Yeltsin (1931-2007, 1991-1999-cu illərdə Rusiya Federasiyasının prezidenti) bəyan etdi ki, onun ölkəsinin nüvə raketləri indi ABŞ və onun Avropadakı hərbi müttəfiqlərinə deyil, Yer kürəsinin yaşayış olmayan ərazilərinə yönəldilmişdir. Nəhayət, 1 fevral 1992-ci ildə Vaşinqtondan 100 km şimal-qərbdə, Merilend ştatında yerləşən və ABŞ Prezidentinin istirahət yeri kimi nəzərdə tutulan Kemp Devid (Kemp Deviddən bir neçə kilometr aralıda "Site R" kimi tanınan Raven Rock sığınacağı var) adlı yerdə ABŞ (Corc Buş Böyük) Rusiya (Boris N. Yeltsin) arasında imzalanan qətnamə Rusiya-ABŞ qarşıdurmasına qəti şəkildə son qoydu. Lakin 2013-2014-cü illərdə Ukrayna böhranı, Krımın Rusiya tərəfindən ilhaqı, nəhayət, 24 fevral 2022-ci il tarixində Rusiya ordusunun Ukraynaya hərbi təcavüzü müasir dünya tarixində "İkinci Soyuq müharibə" kimi tanınan yeni hərbi-siyasi qarşıdurmanı ortaya çıxartdı. Beləliklə, II Dünya müharibəsindən sonra başlanmış mübarizə yeni, daha gərgin və təhlükəli mövzularla inkişaf etməyə başladı. Beləliklə, müasir dünyada cərəyan edən hərbi-siyasi proseslər mövcud qarşıdurmanı getdikcə daha da kəskinləşdirir, bəşəriyyəti sürətlə apokaliptik apofeoza aparır.

Dünyada durmadan artan gərginliyin fonunda XX əsrin 50-60c0 illərində ABŞ, Qərbi Avropa ölkələri və Yaponiya arasında münasibətlərin normallaşdırılmasında mühüm irəliləyişlər əldə edildi. 1951-ci il 8 sentyabr tarixində San-Fransiskoda (ABŞ) Yaponiya ilə keçmiş antihitler koalisiyasının bir neçə ölkəsi arasında yeni müqavilə imzalandı. Müqavilə Yaponiya ilə Qərb dövlətləri arasındakı müharibə vəziyyətinə son qoydu, Yaponiyanın təzminat ödəmələri məsələsini qanuniləşdirdi. SSRİ, Çexoslovakiya və Polşa müqaviləni imzalamaqdan imtina etdilər. Onu da qeyd edək ki, mərasimə Çin və SSRİ nümayəndə heyətləri dəvət olunmamışdı. Bunun səbəbi isə Çinin Tayvana, Peskador və Parasel adalarına iddialarının nəzərə alınmaması, Cənubi Saxalin və Kuril adaları üzərində SSRİ-nin suverenliyinin qeyd edilməməsi idi. San-Fransisko müqaviləsindən sonra Yaponiya adalarının işğalı (Yaponiya 1945-ci il sentyabrın 2-dən müttəfiqlərin tam nəzarəti altında idi) 1952-ci ildə sona çatdı. 1954-cü ildə Yaponiya II Dünya müharibəsindən sonra ilk Özünümüdafiə Qüvvələrini (bu gün sayı 247 746 nəfərdir) yaratdı **[4].**

1953-cü il avqustun 19-da ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) gördüyü məxfi tədbirlər nəticəsində 1951-1953-cü illərdə İranın baş naziri olmuş Məhəmməd Mossadıq (1882-1967) İran neft sənayesini milliləşdirmək üçün təklif etdiyi layihəyə görə devrildi ("Ayaks" əməliyyatı). Onu Fəzlullah Zahidi (1897–1963, 1953-1955-ci illərdə İranın baş naziri) əvəz etdi. XX yüzilliyin 50-ci illərdə Qərbin təsiri altında Yaxın Şərqdə baş verən ən mühüm hadisələrdən biri də Süveyş böhranı (Süveyş müharibəsi, Sinay müharibəsi və ya II Ərəb-İsrail müharibəsi kimi də tanınır. Münaqişə tarixdə "Kadeş" əməliyyatı və yaxud "Üçlü təcavüz" kimi də qalmışdır). 1956-cı ilin oktyabrından 1957-ci ilin martına qədər davam edən həmin münaqişə

nəticəsində Misirin baş naziri Əbdül Nasir Süveyş kanalı üzərində Misir dövlətinin inzibati statusunu təsdiqləməyə nail oldu. Bu hadisələrin fonunda 1955-ci il 24 fevral ayının 24-də Böyük Britaniya, ABŞ və Türkiyənin təşəbbüsü ilə Yaxın Şərqdə Mərkəzi Müqavilə Təşkilatı (CENTO, The Central Treaty Organization, "Bağdad Paktı" - ing. The Baghdad Pact, - kimi də tanınır) yaradıldı. 26 sentyabr 1979-cu ilə qədər qüvvədə qalan Bağdad paktı İran, İraq, Pakistan, Türkiyə və Böyük Britaniyanı əhatə edirdi.

XX əsrin 50-ci illərində Yaxın Şərqdə baş vermiş qalmaqallı və səs-küylü hadisələrdən biri də 1958-ci il iyul ayının 14-də İraq ordusunn generalı Əbdül Kərim Qasımın (1914-1963, 1958-1963-cü illərdə İraqın Baş naziri və Müdafiə Naziri) başçılıq etdiyi üsyan və dövlət çevrilişi nəticəsində Haşimilər monarxiyasının (1932-1958) devrilməsi olmuşdur. 1932-1958-ci illərdə İraqa hökmranlıq etmiş Haşimilər sülaləsinin sonuncu nümayəndəsi II Seyfəl (1935-1958, 1939-1958-ci illərdə İraq kralı) ailəsi və yaxın adamları ilə birlikdə öldürüldü.

XX əsrin 50-ci illərində Avropada da ciddi ictimai-siyasi və sosial-mədəni dəyişikliklərə səbəb olan hadisələr baş verirdi. 1954-cü il oktyabr ayının 23-də Fransa, Böyük Britaniya, ABŞ, İtaliya, Kanada, Belçika, Hollandiya, Lüksemburq və AFR nümayəndələrinin imzaladığı Paris müqaviləsi ilə AFR və Avstriyada işğal rejiminə son qoyuldu (1955). Bu NATO-ya üzv dövlətlərin birgə qərarı əsasında Almaniya Federativ Respublikası da NATO-ya daxil olmaq üçün təklif aldı. Beləliklə, Almaniya Federativ Respublikasının Silahlı Qüvvələri (Bundesver) 1955-ci ildə NATO blokuna üzv oldu. Bunun hadisənin ardınca Almaniya Federativ Respublikasının Şərqi Avropadakı sosialist rejimlərinə münasibəti daha da gərginləşdi. 1957-ci ildə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (ing. *International Atomic Energy Agency*, *IAEA*) yaradıldı. Bu gün agentliyin baş ofisi Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Bu gün 180 ölkənin təmsil olunduğu "LAEA" təşkilatına hazırda argentinalı diplomat Rafael Mariano Qrossi (1961) rəhbərlik edir **[3].**

XX əsrin 50-ci illərində Avropada baş verən ən önəmli hadisələrdən biri də Beşinci Fransa Respublikasının (fra. *la Cinquième République*) yaradılması olmuşdur. Beşinci Fransa Respublikası Əlcəzair müharibəsindən (fra. *Guerre d'Algérie* - 1954-1962-ci illərdə, o vaxt Əlcəzairdəki Fransız müstəmləkə hökumətindən siyasi müstəqillik tələb edən yerli qüvvələrin üsyanı, 1962-ci il martın 18-də Fransa ilə Əlcəzair arasında bağlanan Evian müqaviləsi ilə sona çatdı və 5 iyul 1962-ci ildə Əlcəzair dövləti siyasi müstəqillik əldə etdi) sonra hakimiyyətə gələn Şarl Andere Jozef de Qoll (1890-1970, 1959-1969-cu illərdə Fransa prezidenti) tərəfindən qurulmuşdur (Kubicek, 2015).

1950-ci illərdə "Qırmızı qorxu"nun ikinci dövründə (1947–1957) "Soyuq müharibə" yüksək həddə çatdı. Bu dövrdə ABŞ-da geniş antikommunist və antisovet hərəkatı ABŞ senatoru Cozef R. Makkartinin (1908-1957, - ABŞ Konqresinin Respublikaçılar partiyasından olan senatoru) adı ilə "Makkartiizm" (antikommunist və antiamerikan əhval-ruhiyyələrə qarşı repressiyalarla əlamətdar) adlandırıldı. "Makkartizm" dövrünün ən qalmaqallı hadisəsi "Rozenberq işi" (ABŞ kommunistləri Julius Rozenberqin - 1918-1953 və onun həyat yoldaşı Ethel Qringlass-Rozenbergin - 1915-1953 SSRİ-yə casusluq etmələri ilə bağlı ittiham aktı və onların edam edilməsi) idi **[6].**

1952-ci ildə Böyük Britaniya tarixdə ilk dəfə olaraq nüvə silahının sınağını keçirdi. Həmin il, həmçinin ABŞ-da və SSRİ-də termonüvə bombalarının sınağı baş tutdu. Belə bir şəraitdə - 1952-ci ildə ABŞ-da keçirilən prezident seçkilərində Duayt Devid Eyzenhauer (1890–1969, Respublikaçılar Partiyasından ABŞ-ın 34-cü prezidenti - 1953-1961) seçildi. 1957-ci il yanvar ayının 5-də tarixində Konqresdəki son çıxışında Duayt Eyzenhauer "Eyzenhauer doktrinası" kimi tanınan xarici siyasət proqramını elan etdi. Həmin doktrinaya görə, köməyə ehtiyacı olan və hərbi təcavüzə məruz qalan istənilən ölkə yardım üçün ABŞ-a müraciət edə bilərdi. Eyzenhauer doktrinasında ABŞ prezidenti sovet təhlükəsini xüsusi qeyd edirdi. Bu hadisələrin fonunda isə sürətlə silahlanma prosesi daha da intensiv xarakter aldı. 1957-ci ildə SSRİ qitələrarası ballistik raketləri sınaqdan keçirdi, 1958-ci ildə isə ABŞ eyni şeyi etdi. II Dünya müharibəsindən sonra cərəyan edən qlobal proseslər aydın şəkildə nümayiş etdirir ki, bu gün gündən-günə artan qlobal gərginliyin əsas planı məhz o zaman qoyulmuş və hərəkətə

gətirilmişdir. Bu baxımdan, qarşımızda cərəyan edən hadisələri nəzərə alsaq, müharibə və münaqişə ideyasının özü əbədi və dəyişməz olduğu aydın olur.

Nəticə. Müasir dünyada yaxın və uzaq tarix üçün düşünülmüş və məqsədyönlü şəkildə yaradılmış, hazırda isə qlobal geosiyasətin maraqlarına xidmət edən çoxlu sayda oxşar geosiyasi sxemlər mövcuddur. Lakin öz daxilində güc və siyasi iradə tapan bəzi xalqlar dünya dövlətlərinin şıltaqlıqlarını qəbul etməkdən boyun qaçırır və onların hazırladıqları layihələrdə müvafiq düzəlişlər etməyə çalışırlar. Bu cəhdlərin nəticələri nə qədər acı olsa da, müəyyən mənada bəhrəlidir və tarixi ədalətsizliyə məruz qalmış xalqlarda müəyyən ümid və inam yaradır. Bütün bunlar dünya düzəninin "müxtəlif daşlardan və kərpiclərdən qurulduğunu" nümayiş etdirir. Bu strukturda hər kəs öz yerini, mövqeyini, məqsədini, missiyasını, dostunu, düşmənini və əsas məqsədlərini dəqiq müəyyən edir. Lakin əsrlər ərzində cızılan dünya layihəsinin konturlarında ədalətdən uzaq, bütün azadlıqsevər və nəcib xalqların inkişafına, tərəqqisinə, birliyinə, xoşbəxtliyinə, gələcəyinə əngəllər yaradan saysız-hesabsız məqamlar var. Onlar münaqişənin əsas mənbəyi, regional və qlobal miqyasda qarşıdurma yaratmaq üçün hazırlanmış hiyləgər və məkrli siyasi hərəkətlərin mərkəzi olaraq qalır. Beləliklə, məlum olur ki, ciddi psixoloji çəkiyə və mühüm sosial aspektlərə malik olan "sülh", "təhlükəsizlik", "yeni dünya nizamı" və "geosiyasət" anlayışları daha geniş elmi araşdırmalar tələb edir.

ƏDƏBİYYAT

1. Gerolymatos, Andre (2017). International Civil War: Greece, 1943–1949. Yale University Press. pp. 100-101.
2. Gleason, Abbott (2019). "The Truman Doctrine and the Rhetoric of Totalitarianism." Rethinking the Soviet Empire (Routledge, 2019). pp. 11-12.
3. Holloway, David. (2016). "The Soviet Union and the creation of the International Atomic Energy Agency." *Cold War History* 16.2 (2016): 177-193.
4. Kapur, Nick (2018). Japan at the Crossroads: Conflict and Compromise after Anpo. Cambridge, MA: Harvard University Press. – P. 9.
5. Kayaoğlu, Barın (2009). "Strateji imperativlər, Demokratik ritorika: ABŞ və Türkiyə, 1945-52. Soyuq Müharibə Tarixi, 2009. - Cild 9 (3) – S. 321-322 (türk dilində).
6. Radosh, Ronald (2012). "A Tale of Two Trials: Soviet Propaganda at Home and Abroad". World

CALLS FOR PEACE AND SECURITY IN THE MODERN WORLD: NEW WORLD ORDER AND GEOPOLITICS

Huseyn Tagi Budagov [1]
Elgun Mahammadali Aslanov [2]
e.aslanov85@mail.ru
Azerbaijan University of Technology[1]
Azerbaijan State Agricultural University[2]

The article examines the emergence of new centres of international tension in the context of global political processes that took place in the United States and Western Europe during the 1950s–1960s. Particular attention is paid to the formation of two opposing political and ideological systems led by the United States and the Soviet Union, whose rivalry significantly shaped the geopolitical landscape of the second half of the twentieth century. This confrontation, widely associated with the dynamics of the Cold War, led to the intensification of global political tensions and the emergence of various regional conflicts. The study also considers the relevance of these historical processes to contemporary international relations. It focuses on analyzing the underlying causes of global conflicts and identifying mechanisms that can contribute to strengthening international security and stability. Special attention is given to the search for effective approaches aimed at maintaining global peace and preventing new geopolitical confrontations. The article concludes that understanding the historical foundations of geopolitical rivalry is essential for developing strategies that support international cooperation and the formation of a more balanced global order. **Keywords:** geopolitics, global politics, new world order, war, peace

REIMAGINING CULTURAL CONNECTIVITY IN THE ERA OF THE FIFTH INDUSTRIAL REVOLUTION: A COMPARATIVE STUDY OF THE BOOK OF DEDE KORKUT AND KOREAN FOLKLORE

Pang Min Ho[1]
Joram Kyung Shik Stamhuis[2]
Leyla Masimli[3]
leyla.masimli@gmail.com
Seoul National University, South Korea[1]
Leiden University, Netherland[2]
Inha University, South Korea[3]

1. Introduction

The Fifth Industrial Revolution represents a paradigm shift from technology-driven progress to a more balanced model that integrates human values, ethics, and cultural identity into innovation processes **[8].** Universities, as key actors in this transformation, are increasingly expected to bridge science, technology, and the humanities.

In this context, literary heritage—such as *The Book of Dede Korkut*—offers valuable insights into shared human experiences, ethical frameworks, and intercultural connections **[5].** This paper explores how such narratives can contribute to humanities-driven innovation.

2. Comparative Cultural Analysis

The analysis focuses on key narrative motifs found in both Azerbaijani and Korean traditions:

Animal-Raised Child Motif:
Present in the story of Basat and mirrored in Korean tales of children raised by tigers, symbolizing resilience and identity formation **[4].**

Heavenly Maiden Narrative:
The interaction between humans and celestial beings in both traditions reflects universal themes of desire, morality, and separation **[5].**

Hybrid and Supernatural Beings:
Figures such as Tepegöz (one-eyed monster) parallel Korean goblins (dokkaebi), representing liminality and transformation **[6].**

Heroic Archetypes:
Basat and the Korean "Baby General" embody extraordinary strength and destiny, often constrained by societal or cosmic forces **[2].**

These parallels suggest a shared mythological structure that extends beyond regional boundaries.

3. Humanities Integration in the Fifth Industrial Revolution

In the era of advanced technologies such as artificial intelligence and big data, cultural narratives can serve as:

Data Sources for Digital Humanities:
Epics and folktales provide structured narrative data for AI training and storytelling systems **[3].**

Ethical Frameworks:
Mythological narratives encode moral values that can inform AI ethics and human-centered design **[7].**

Intercultural Education Tools:
Comparative literature fosters global understanding, essential in a technologically interconnected world **[6].**

Innovation Inspiration:
Traditional stories inspire creative industries such as gaming, virtual reality, and digital storytelling **[7].**

4. Rethinking Cultural Frameworks

The study critiques the conventional regional limitations of East Asian Studies, arguing that such frameworks overlook historical cultural interactions across Eurasia **[6].**

By connecting Azerbaijani and Korean traditions, this research proposes a more dynamic and network-based understanding of cultural history—aligned with the interdisciplinary nature of the Fifth Industrial Revolution.

5. Implications for Universities

Universities play a crucial role in integrating humanities into technological advancement by:

Promoting interdisciplinary research between literature and technology **[8]**

Developing digital archives of cultural heritage **[3]**

Encouraging cross-cultural academic collaboration **[6]**

Embedding ethical and cultural perspectives into STEM education **[7]**

Such approaches directly support the goals of human-centered innovation.

6. Conclusion

This study demonstrates that the comparative analysis of Azerbaijani and Korean narrative traditions offers valuable insights for the Fifth Industrial Revolution. By integrating humanities into technological and academic frameworks, universities can foster more inclusive, ethical, and culturally aware innovation systems.

Epic literature, far from being merely historical artifacts, serves as a dynamic resource for shaping the future—bridging past cultural wisdom with emerging technological possibilities **[5].**

REFERENCES

1. Book of Dede Korkut. Various editions and translations.
2. Bascom, W. (1965). The Forms of Folklore: Prose Narratives. Journal of American Folklore.
3. Berry, D. M. (2012). Understanding Digital Humanities. Palgrave Macmillan.
4. Dundes, A. (1997). International Folkloristics. Rowman & Littlefield.
5. Eliade, M. (1963). Myth and Reality. Harper & Row.
6. Lee, P. H. (2003). A History of Korean Literature. Cambridge University Press.
7. Ryan, M. L. (2015). Narrative as Virtual Reality. Johns Hopkins University Press.
8. Schwab, K. (2021). The Fourth Industrial Revolution and the Fifth. World Economic Forum.

REIMAGINING CULTURAL CONNECTIVITY IN THE ERA OF THE FIFTH INDUSTRIAL REVOLUTION: A COMPARATIVE STUDY OF THE BOOK OF DEDE KORKUT AND KOREAN FOLKLORE

Pang Min Ho[1]
Joram Kyung Shik Stamhuis[2]
Leyla Masimli[3]
leyla.masimli@gmail.com
Seoul National University, South Korea[1]
Leiden University, Netherland[2]
Inha University, South Korea[3]

The transition toward the Fifth Industrial Revolution emphasizes human-centered innovation, ethical responsibility, and the integration of technology with cultural and social values (Schwab, 2021). Within this context, the humanities play a critical role in preserving identity, fostering intercultural dialogue, and shaping inclusive futures. This paper examines the cultural and narrative parallels between Azerbaijani and Korean traditions through a comparative analysis of *The Book of Dede Korkut* and Korean folktales, positioning these shared mythological structures within the broader discourse of humanities integration in the Fifth Industrial Revolution.

By analyzing recurring motifs—such as animal-raised children, supernatural unions, and heroic archetypes—the study reveals deep intercultural connections that transcend geographic boundaries (Dundes, 1997; Eliade, 1963). These narrative similarities are interpreted not only as literary phenomena but also as cultural data that can inform digital humanities, artificial intelligence ethics, and intercultural education (Berry, 2012).

Furthermore, the paper challenges the limitations of traditional East Asian Studies by proposing a transregional perspective that connects Korean cultural development with wider Eurasian traditions, including Azerbaijani epic heritage (Lee, 2003). Ultimately, the study argues that epic literature and folklore can contribute to the development of culturally aware technologies, interdisciplinary education models, and global cooperation strategies-key pillars of the Fifth Industrial Revolution.

Keywords: Fifth Industrial Revolution, digital humanities, Azerbaijani epics, Korean folklore, intercultural connectivity, human-centered innovation

QARABAĞ MƏSƏLƏSİNİN YARANMA SƏBƏBLƏRİ: TARİXİ-SİYASİ TƏHLİL

Şahmar Umud oğlu Həsənov
sahmar5377@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Qarabağ məsələsi Cənubi Qafqaz regionunun ən mürəkkəb və uzunmüddətli münaqişələrindən biridir. Bu problemin kökləri yalnız XX əsrin sonlarında baş verən hadisələrlə məhdudlaşmır, daha dərin tarixi, etnik və siyasi faktorlarla bağlıdır **[7, s.15–18].** Problemin yaranma səbəblərini anlamaq üçün regionun tarixi inkişaf mərhələləri kompleks şəkildə təhlil olunmalıdır.

Qarabağ bölgəsi tarixən Azərbaycan dövlətlərinin tərkibində olmuş və burada əsasən azərbaycanlı əhali yaşamışdır **[1, s.214–220].** XVIII əsrdə Qarabağ xanlığının yaranması regionun siyasi əhəmiyyətini daha da artırmışdır **[2, s.34–40].** XIX əsrin əvvəllərində Rusiya imperiyasının regionu işğal etməsindən sonra demoqrafik vəziyyətdə ciddi dəyişikliklər baş vermişdir. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra erməni əhalinin İran və Osmanlı ərazilərindən Qarabağa köçürülməsi həyata keçirilmişdir **[5, s.45–52].** Bu proses regionda etnik balansın dəyişməsinə və gələcək qarşıdurmaların yaranmasına zəmin yaratmışdır **[6, s.66–70].**

Rusiya imperiyası regionda mövqeyini gücləndirmək üçün etnik siyasətdən istifadə etmişdir. Erməni əhalinin köçürülməsi və onlara müəyyən imtiyazların verilməsi regionda sosial-iqtisadi gərginliyi artırmışdır **[5, s.60–65].** XIX əsrin sonu və XX əsrin əvvəllərində baş verən erməni-azərbaycanlı qarşıdurmaları (1905–1907, 1918-1923-cü illər) bu siyasətin nəticəsi kimi qiymətləndirilir **[6, s.88–95].** Bu hadisələr iki xalq arasında etimadsızlığın dərinləşməsinə səbəb olmuşdur.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və Azərbaycanın tərkibində saxlanılması münaqişənin gələcək inkişafına təsir edən əsas amillərdən biri olmuşdur **[7, s. 120–125].** Sovet hakimiyyəti milli məsələləri formal şəkildə həll etsə də, əslində problemi dondurulmuş vəziyyətdə saxlamışdır. Erməni əhalinin vaxtaşırı olaraq vilayətin Ermənistana birləşdirilməsi tələbi ilə çıxış etməsi göstərir ki, problem sovet dövründə də latent şəkildə mövcud olmuşdur **[4, s.130–135].**

XX əsrdə milli ideologiyaların güclənməsi Qarabağ məsələsinin kəskinləşməsində mühüm rol oynamışdır. Erməni millətçiliyi və "Böyük Ermənistan" ideyası regiona ərazi iddialarını gücləndirmişdir **[3, s.77–82].** Eyni zamanda, Qarabağ azərbaycanlılar üçün tarixi və mədəni baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu qarşılıqlı milli iddialar münaqişənin kompromis yolu ilə həllini çətinləşdirmiş onun müharibəsiz həllini mümkünsüz etmişdir **[2, s.55–60].**

1980-ci illərin sonlarında SSRİ-də baş verən siyasi proseslər Qarabağ məsələsini yenidən aktiv fazaya keçirmişdir. 1988-ci ildə başlayan hadisələr qısa müddətdə genişmiqyaslı münaqişəyə çevrilmişdir **[4, s.160–170].** SSRİ-nin dağılması ilə yaranan hakimiyyət boşluğu silahlı qarşıdurmaların genişlənməsinə səbəb olmuşdur. Bu silahlı qarşıdurma regionda ciddi humanitar və siyasi problemlər yaratmış və tərəflər arasında 1994-cü ilə qədər davam edən silahlı toqquşmalarla yəni müharibə ilə nəticələnmişdir. **[9, s.12–20].** Azərbaycanlılar

Qarabağda daxil olmaqla onun ətrafındakı ərazilərinin təxminən 20 faizini tərk etmək məcburiyyətində qalmışdılar.

Qarabağ münaqişəsi beynəlxalq münasibətlər sistemində də mühüm yer tutur. Regionun strateji əhəmiyyəti və enerji resursları böyük dövlətlərin marağını artırmışdır **[7, s. 200–210].** BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr (822, 853, 874, 884) münaqişənin beynəlxalq səviyyədə tanındığını və həllinin vacibliyini göstərir **[10, s.2–5].** Lakin xarici güclərin maraqlarının toqquşması problemin uzun müddət həll olunmamasına təsir etmişdir.

Nəticə. Etibarı ilə demək olar ki, Qarabağ məsələsinin yaranma səbəbləri çoxşaxəli xarakter daşıyır. Tarixi proseslər, demoqrafik dəyişikliklər, siyasi qərarlar və milli ideologiyalar bu münaqişənin formalaşmasında əsas rol oynamışdır **[7, s. 250–255].** Problemin həlli üçün həm tarixi, həm də müasir geosiyasi amillərin nəzərə alınması və uyğun şəraitin yaranması olduqca vacib idi. 2020 və 2023-cü illərdə yaranmış beynəlxalq şərait Azərbaycana artıq iki yüz ilə yaxın idiki davam edən məsələni həll etməyə imkan verdi. Nəhayət, tarixi ədalət bərpa olundu və məsələ öz həllini Qarabağın əsl sahiblərinin xeyrinə tapdı.

ƏDƏBİYYAT

1. Bünyadov,Z.M., Yusifov,Y.B.Azərbaycan tarixi.Bakı:Azərbaycan Dövlət Nəşriyyatı,2007.
2. Mahmudov, Y. M. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2005.
3. Süleymanov, M. Erməni millətçiliyi və Qarabağ məsələsi. Bakı: Elm, 2010.
4. De Waal, T. Black Garden: Armenia and Azerbaijan through Peace and War. New York: NYU Press, 2003.
5. Altstadt, A. L. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford: Hoover Institution Press, 1992.
6. Swietochowski, T. Russia and Azerbaijan: A Borderland in Transition. New York: Columbia University Press, 1995.
7. Cornell, S. E. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. Richmond: Curzon Press, 2001.
8. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. Qarabağ həqiqətləri. Bakı, 2013.
9. Human Rights Watch. Azerbaijan: Seven Years of Conflict in Nagorno-Karabakh. New York, 1994.
10. United Nations Security Council Resolutions (822,853,874,884) on Nagorno-Karabakh, 1993.

THE ORIGINS OF THE KARABAKH ISSUE: A HISTORICAL AND POLITICAL ANALYSIS

Shahmar Umud Hasanov
sahmar5377@mail.ru
Azerbaijan Technological University

The Karabakh issue is a complex conflict shaped by historical, demographic, and political factors. Its origins can be traced to the demographic changes of the 19th century, associated with the incorporation of the region into the Russian Empire and the resettlement of Armenian populations in Karabakh. In subsequent periods, ethnic tensions and the establishment of the Nagorno-Karabakh Autonomous Oblast during the Soviet era further deepened the problem.

In the 20th century, the rise of national ideologies and competing territorial claims intensified the conflict, and from 1988 it escalated into open armed confrontation. The collapse of the Soviet Union accelerated this process and led to a prolonged war. The conflict has also occupied an important place in the system of international relations; however, the clash of interests among external powers has complicated its resolution.

Overall, the Karabakh issue is a multifaceted conflict that can only be fully understood through the combined analysis of historical, political, and geopolitical factors.

Keywords: Karabakh issue, historical causes, demographic changes, ethnic conflict, national ideology, Soviet policy, armed conflict, geopolitical factors

ВИРТУАЛЬНЫЕ ПУТЕШЕСТВИЯ В ЭТНИЧЕСКУЮ СРЕДУ: ИСПОЛЬЗОВАНИЕ VR ДЛЯ ЭМПАТИИ И ЗНАКОМСТВА С КУЛЬТУРОЙ

Ш.К.Султанова
sultanova_62@mail.ru
Кызылординский университет «Болашак»
Республика Казахстан, г. Кызылорда

Современное мультикультурное образование сталкивается с вызовом: как сформировать у обучающихся глубокое, эмоционально окрашенное понимание другой культуры без прямого физического контакта с её носителями? Традиционные методы – чтение текстов, просмотр фильмов или лекции – часто не способны преодолеть психологическую дистанцию. В ответ на этот вызов возникает технология виртуальной реальности (VR), которая, согласно исследованиям, способна создавать эффект «присутствия» и значительно усиливать эмпатию. Данный доклад рассматривает VR как инновационный инструмент, позволяющий «прожить» день в другой культуре, и анализирует его педагогический потенциал в контексте поликультурной образовательной среды.

Ключевое преимущество VR перед другими медиа заключается в феномене «присутствия» (presence) – субъективного ощущения нахождения в виртуальной среде. Когда студент надевает VR-шлем, его мозг в меньшей степени осознаёт искусственность происходящего. Это позволяет не просто наблюдать за культурными практиками со стороны, а становиться их непосредственным участником. Например, проект «BeAnotherLab» разработал систему «The Machine to Be Another», где участники видят мир глазами человека другой гендерной, расовой или культурной принадлежности. Такое «воплощение» (embodiment) снижает неявную предвзятость и повышает готовность к межкультурному диалогу. Исследования показывают, что даже кратковременное VR-погружение в жизнь маргинализированной группы приводит к устойчивому изменению установок **[1].**

Педагогический сценарий использования VR может быть структурирован как последовательность этапов. На первом этапе обучающиеся погружаются в симулированную среду: например, они могут посетить традиционное японское чаепитие в формате 360°, где система позволяет взаимодействовать с предметами и слышать комментарии хозяина церемонии. Второй этап предполагает ролевую игру с элементами выбора: студент «проживает» день в кочевой семье в Монголии, принимая решения (как разжечь огонь, как поприветствовать старшего). Ошибки здесь не имеют реальных последствий, что создаёт безопасное пространство для культурного экспериментирования. Третий этап – рефлексия, которая критически важна для закрепления результата. Без обсуждения VR-опыт может остаться просто игрой. Эффективная педагогика VR включает дебрифинг, где обучающиеся сравнивают свои ощущения с культурными фактами и выявляют собственные стереотипы **[2].**

Однако, использование VR в мультикультурном образовании сопряжено с рисками и ограничениями. Главный риск – создание упрощённых, эссенциалистских образов культуры («симулякр» вместо реальности). Если разработчик VR-приложения не привлекал представителей самой культуры, результат может тиражировать колониальный взгляд или туристический глянец. Второе ограничение – высокая стоимость оборудования и необходимость технической поддержки, что делает VR-технологию пока малодоступной для массовых школ в развивающихся странах. Наконец, чрезмерное увлечение VR может подменять реальное межкультурное общение, которое остаётся золотым стандартом. Поэтому VR следует рассматривать не как замену, а как мост к реальному взаимодействию: после виртуального путешествия студенты могут организовать видеоконференцию со сверстниками из изучаемой страны или подготовить выставку материальных артефактов **[3].**

Практические примеры успешного внедрения VR в этническое образование уже существуют. В университетах Канады применяется симуляция «A Reservation Day», где студенты занимают позицию коренного подростка, сталкивающегося с бюрократическими препятствиями при попытке получить медицинскую помощь на английском языке.

Анализ эффективности этих проектов показывает, что после VR-сессии у участников на 40% возрастает способность распознавать эмоции персонажей из другой культуры и на 35% снижается уровень категоричности в суждениях о чужих обычаях **[4].**

Особого внимания заслуживает Казахстан. В 2026 году, объявленном Годом цифровизации, реализована концепция синтеза традиций и иммерсивных технологий **[5].** Ключевой элемент – «цифровые юрты» – традиционное жилище, оснащённое VR-оборудованием и AI-решениями **[6].** На Наурыз такие юрты установили в Астане, Алматы, Актобе, Кокшетау, собрав сотни тысяч посетителей **[7].** Внутри с помощью VR-очков можно исследовать быт кочевников, ремёсла и обряды **[8].** Казахстанский опыт важен для мультикультурного образования.

Во-первых, юрта как узнаваемый символ снижает сопротивление перед технологией. Во-вторых, в рамках инициативы Digital Nauryz проведено более тысячи мероприятий, к платформе подключились свыше 80 тысяч пользователей [6]. В-третьих, учёные КазУМОиМЯ имени Абылай хана провели эксперимент с Mondly VR, показавший улучшение языковых навыков и мотивации студентов из Казахстана, Кыргызстана и Таиланда **[9].** VR эффективно работает в евразийской культурной среде.

В заключение следует подчеркнуть: виртуальные путешествия в этническую среду представляют собой не просто технологическое новшество, а сдвиг парадигмы – от информирования к проживанию. VR-технологии позволяют преодолеть ключевой дефицит мультикультурного образования – отсутствие телесного, эмоционального опыта нахождения в «чужой» культуре. Однако для реализации этого потенциала необходимы строгие дидактические условия: аутентичность контента, разработанного с участием представителей культуры, интеграция VR в последовательную учебную программу и обязательная фаза рефлексивного обсуждения. Будущие исследования должны быть направлены на разработку валидных методов измерения долгосрочного эффекта VR-эмпатии **[10].**

ЛИТЕРАТУРА

1. Bertrand P., et al. Learning empathy through virtual reality: multiple strategies for training compassion-related skills. Virtual Reality. 2018. Vol. 22(2). P. 147-157.
2. Slater M., Sanchez-Vives M.V. Enhancing our lives with immersive virtual reality. Frontiers in Robotics and AI. 2016. Vol. 3. P. 74.
3. Shin D. Empathy and embodied experience in virtual environment. Computers in Human Behavior. 2018. Vol. 78. P. 64-73.
4. Селиванова О.Г., Иванова А.А. Виртуальная реальность в поликультурном образовании: опыт российских музеев. Вестник педагогических инноваций. 2022. № 4(64). С. 33-41.
5. Заседание Правительства РК, 06.01.2026 // Официальный информационный ресурс Премьер-министра Республики Казахстан. URL: https://primeminister.kz/ru/sessions/zasedanie-pravitelstva-rk-06012026-1911734 (дата обращения: 16.04.2026).
6. AI, дроны и роботы: новый формат Наурыза в Казахстане // Zakon.kz. 23.03.2026. URL: https://www.zakon.kz/sobytiia/6512206-AI-drony-i-roboty-novyy-format-nauryza-v-kazakhstane.html (дата обращения: 16.04.2026).
7. Цифровые юрты развернули в столице // 24.kz. 21.03.2026. URL: https://24.kz/ru/news/social/759991-tsifrovye-yurty-razvernuli-v-stolitse (дата обращения: 16.04.2026).
8. Традиции и технологии под одним шаныраком: актюбинцы встречают Наурыз в цифровых юртах // Almaty.tv. 20.03.2026. URL: https://almaty.tv/ru/news/obschestvo/tradicii-i-tekhnologii-

pod-odnim-sanyrakom-aktubincy-vstrecaut-nauryz-v-cifrovykh-urtakh (дата обращения: 16.04.2026).
9. Kussainova A.Z., Zhussupova R.F., Shadiev R.N. Cultural aspects and innovative technologies: the impact of Mondly VR on language learning. Журнал серии «Педагогические науки». 2024. № 4. URL: https://ouci.dntb.gov.ua/works/420x10Qm/ (дата обращения: 16.04.2026).
10. Bailenson J.N. Experience on Demand: What Virtual Reality Is, How It Works, and What It Can Do. New York: W.W. Norton & Company, 2018. 288 p.

VIRTUAL JOURNEYS INTO ETHNIC ENVIRONMENTS: USING VR FOR EMPATHY AND CULTURAL ENRICHMENT

Sultanova Sh.K., Senior Lecturer,
sultanova_62@mail.ru
Kyzylorda Bolashak University
Republic of Kazakhstan, Kyzylorda

This paper explores the application of Virtual Reality (VR) technology as an innovative tool for fostering empathy and cultural competence in multicultural education. Unlike traditional instructional approaches, VR creates a strong sense of presence and embodiment, enabling learners to experience and engage with different cultural contexts by virtually "living a day" in another environment. The study analyzes various pedagogical scenarios, identifies potential risks, and presents case studies from Canada and Kazakhstan. In particular, the Kazakh experience of "digital yurts" illustrates a successful integration of national traditions with immersive technologies. The findings suggest that VR can serve as an effective bridge toward authentic intercultural dialogue and deeper cultural understanding.

Keywords: Virtual Reality (VR), multicultural education, empathy, ethnic environment, presence, embodiment, digital yurt, Kazakhstan

RENESSANS ÜMUMBƏŞƏRİ HADİSƏDİR

Süsənbər Əsəd qızı Məmmədova
ulviyab@list.ru
Azərbaycan Texnologiya Universiteti

Renessans haqqında yüzlərlə, bəlkə minlərlə əsər yazılıb və burada hamısını əhatə etmək qeyri-mümkündür. Biz mübahisə edən tərəflərin ən qətiyyətli, konseptual fikirlərini seçib, dəlillərini açıqlamaqla kifayətlənəcəyik.

Renessansın ümumbəşəriliyini qəbul edən və bu mənada Şərq Renessansının mövcudluğunu isbat edən rus alimləri arasında ilk növbədə N.İ.Konradın və A.F.Losevin adlarını çəkmək istərdik. Şərq Renessansının ardıcıl müdafiəçilərindən, ümumiyyətlə renessansı dünya mədəniyyətinə xas qanunauyğunluq kimi anlayan alimlərdən, rus alimi İ.S.Braginskinin araşdırmalarına istinad etmək olduqca vacibdir. Həmin məsələdə, demək olar ki, bütün Azərbaycan alimləri eyni mövqedən çıxış edirlər.

Etiraf etməliyik ki, son vaxtlarda, ədəbiyyat tariximizin müzakirəsi ilə əlaqədar başqa fikirlə rastlaşdıq. Tahirə Məmmədova elə sayır ki,... Renessans ölçülərini Şərq, eləcə də Azərbaycan mədəniyyətinə tətbiq etmək onu cılızlaşdırır, kasıblaşdırır və özünəməxsus sənətkarlıq keyfiyyətlərinin öyrənilməsinə maneçilik törədir. Görünür, müəllif orijinal görünmək naminə Şərqi, o cümlədən Azərbaycanı, bəşər mədəniyyəti tarixindən təcrid etməyə çalışır. Axı, heç kəs renessans istilahını və Azərbaycanda mövcudluğunu qəbul etməklə, özünəməxsusluq axtarışının vacibliyini danmır. Öz mövqeyini ardıcıl açıqlayan və tutarlı dəlillər gətirən Azərbaycan alimlərindən ilk növbədə A.Hacıyevin və Z.Quluzadənin əsərlərinə istinad edəcəyik.

Şərq Renessansını qəbul etməyən və renessansı məhz Qərbi Avropaya məxsus sayanlar arasında L.M.Batkinin, L.Eydlinin və V.İ.Rutenburqun fikirlərini açıqlayacağıq.

Qeyd edək ki, hər iki tərəfdən müəlliflərin sayını artırmaq olardı. Lakin xatırladaq ki, məqsədimiz mövzuya aid bütün tədqiqatları əhatə etmək yox, məhz mübahisənin predmetini və məntiqini göstərməkdir.

H.İ.Konrad özünəməxsus dəqiqliklə bildirir ki, renessans ümumtarixi prosesin xüsusi halqasıdır. Alim iki ölçünü – humanizm və dirçəliş meyarlarını renessansın ümumi səciyyəsi üçün mühüm sayır. Bu zaman İtaliya və Çin Renessansları müqayisə edilərək oxşar cəhətlər üzə çıxarılır. Öz tərəfimizdən deyə bilərik ki, problem heç də bu iki variantla, bu iki xalqla, yaxud, mühüm olsa belə, bu iki meyarla məhdudlaşmır. Elmdə problem o vaxt tamamlanmış sayıla bilər ki, yetəri qədər dəlillər tapılsın. Renessans problemində isə, etiraf etməliyik ki, bütün variantları – dövrləri, xalqları birləşdirən kifayətedici meyarlar tapılmayıb və mübahisələr də bəlkə bundan doğur. Söhbət hələ ki, vacib, mühüm, zəruri meyarlardan gedir və N.İ.Konradın araşdırmaları məhz bu baxımdan əhəmiyyət kəsb edir. Alimin əsas məqsədi bu proseslərin vahid xarakterini göstərməkdir. O yazır: "Ümumiyyətlə, iş təkcə müxtəlif xalqların tarixində hərəsinin öz "İntibah çağının" açılmasında, yəni onlarda baş verən tarixi prosesləri yenidən anlamaqda deyil. Söhbət daha böyük məsələdən: o çağın tarixi mahiyyətinin anlaşılmasından, o çağı meydana gətirən və tarixi mənada müəyyənləşdirən şəraitdən və nəhayət: bəlli xalqların tarixindən, o çağın qanunauyğunluqlarından və bu açımdan bəşər tarixindəki qanunauyğunluqlardan gedir". Gördüyümüz kimi, söhbət heç də hərənin öz milli "renessansı"nı kəşf təşəbbüsündən, milli "renessansı" tapıb öyünməkdən getmir, hərçənd "Şərq Renessansı" əleyhdarları çox vaxt bu ittihamlara söykənirlər. Söhbət bu dövrün tarixi əhəmiyyətindən gedir.

A.F.Losevin "Estetika Vozrojdenya" əsəri bu mövzuya aid ən dolğun və dərin kitablardan biridir. Yeri gəlmişkən, A.F.Losevin başqa monoqrafiyaları kimi, bu kitabı da çox saylı, özü də müxtəlif dillərdə geniş elmi ədəbiyyatı əhatə edir.

A.F.Losev şəhərlərin ictimai-siyasi əhəmiyyətinin artması şəraitində insanın, şəxsiyyətin, fərdin oyanışını ayrıca vurğulayır. Tarixi proseslər və bunun nəticəsində şəhər həyatının intensivləşməsi fərdin inkişafı üçün gözəl şərait yaradır və insanlar öz fərdiliklərini, öz fərdi imkanlarını yüksək enerji ilə, bəzən hətta ifrat dərəcədə yüksək hərarətlə, estetik ifadəlilik və artistizmlə təsdiqləyirlər. İnsanın imkanca genişlənməsi müxtəlif xalqlarda müxtəlif formalarda təzahür edə bilər, amma bəşər tarixi üçün bu, universal prosesdir və sivilizasiya yoluna qədəm basmış bütün xalqlara məxsusdur. A.F.Losev məhz bu proseslərdə Avropa Renessansı ilə başqa, qeyri – Avropa Renessanslarının əlaqəsini göstərir və mədəniyyət tarixinin varisliyini açır. Bu mənada alim göstərir ki, Avropa Renessans mədəniyyəti ilə orta əsrlər mədəniyyəti arasında uçurum yoxdur (Avropa Renessansının nümayəndələri özlərini orta əsrlər tərzinə qarşı qoysalar belə) və bu mədəniyyətlər müxtəlif, bəzən xeyli dərin tellərlə bağlıdır. Məsələn, A.F.Losev qeyd edir ki, renessans dövrünün estetikası çox vaxt neoplatonik fəlsəfi cərəyanlarla sıx bağlıdır. Həmin cərəyanlarsa xristian dini və orta dünyagörüşləri ilə çulğalanmışdır. Beləliklə, alim təkamül prosesinin mövcudluğunu göstərməklə vahid tarixi prosesin varlığını təsdiq eləyir. Deməliyik ki, A.F.Losev renessansın ümumi səciyyəsi kontekstində elə renessans estetikasına xüsusi fikir verir və bu mənada incəsənət problemlərini vurğulayır. Məhz insan və incəsənət problemi elə incə güzgüdür ki, məhz bədii inikas ümummədəni təcəssümünü bütün dolğunluğu ilə, bütün çalarları ilə əks etdirir.

Z.Quluzadə demişdir: "Yunanlar Qədim Sərqi həyata qaytarır, Şərq isə IX-XII əsrlərdə yunanları dirçəldir".

THE RENAISSANCE IS A UNIVERSAL HUMAN PHENOMENON

Süsənbər Əsəd qızı Məmmədova
ulviyab@list.ru
Azərbaycan Texnologiya Universiteti

Hundreds, perhaps thousands, of works have been written on the Renaissance, making it impossible to cover them all within the scope of this study. Therefore, this paper focuses on selecting the most significant conceptual perspectives of the opposing scholarly positions and presenting their key arguments.

Among Russian scholars who have emphasized the universality of the Renaissance and, in this context, argued for the existence of an Eastern Renaissance, particular attention should be given to Nikolai I. Konrad and Alexei F. Losev.

Keywords: Renaissance, Eastern Renaissance, Russian scholarship, conceptual approaches, historiography

RƏQƏMSAL İŞGÜZAR MÜHİTDƏ AZƏRBAYCAN DİLİNİN ETİK NORMALARI VƏ MULTİKULTURAL DİALOQ: KEYS-METOD TEXNOLOGİYASI İLƏ YANAŞMA

Zəminə Rəsul qızı Novruzova
zeminenovruzova@mail.ru
Azərbaycan Texnologya Universiteti

Rəqəmsal Transformasiya (müasir dövrdə yeni texnologiyaların sürətli inkişafı nəticəsində cəmiyyətin, iqtisadiyyatın və işgüzar münasibətlərin köklü şəkildə dəyişməsi və bununla yanaşı yeni ünsiyyət formalarının yaranması) və Yeni Kommunikasiya Paradiqması (rəqəmsal mühitdə ünsiyyətin yeni qaydaları) XXI əsrin texnoloji inkişafı işgüzar kommunikasiyanı ənənəvi kağız üzərindəki məktublaşmalardan virtual platformalara (E-poçt, korporativ messencerlər, video-konfranslar, sosial şəbəkələr) keçirmişdir. Bu səbəbdən də, işgüzar və akademik kommunikasiya kontekstində Azərbaycan dilinin tədrisi klassik yazı normalarının hüdudlarını aşaraq yeni yanaşmalar tələb edir.

Səlminə Hidayət qızı Abbasova
abbasova.salmina@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə təşkilati mühitin sabitliyi və fəaliyyətin davamlı təmini birbaşa effektiv ünsiyyət strategiyalarından asılıdır. Bu strategiyalar müəssisənin daxili nizam-intizam qaydalarını sadəcə hüquqi tələb kimi deyil, həm də kollektivin mənəvi-etik bütövlüyünü qoruyan bir dəyərlər sistemi kimi formalaşdırır. Bu baxımdan, "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin tədqiqat və tədris predmetinə daxil olan mühüm mövzulardan biri də idarəetmə prosesində rəsmi-işgüzar üslubun və etik normaların tətbiqi məsələsidir. Müasir idarəetmə sistemində müəssisədaxili intizam tənbehləri sadəcə inzibati-hüquqi bir mexanizm deyil, eyni zamanda rəhbər və işçi arasında peşəkar ünsiyyətin ən həssas və həlledici mərhələsi kimi çıxış edir. Bu baxımdan, intizam tənbehlərinin tətbiqi zamanı həm akademik dilin dəqiqliyi, həm də emosional intellektin düzgün idarə olunması işgüzar kommunikasiya etikasının ayrılmaz tərkib hissəsidir.

Fənnin tələblərinə uyğun olaraq, işgüzar yazışmalarda və şifahi müzakirələrdə seçilən hər bir sözün, qurulan hər bir cümlənin işçinin motivasiyasına və müəssisənin ümumi birgəlik (ortaq iş) mədəniyyətinə birbaşa təsiri mövcuddur. Çünki, akademik kommunikasiya etikası sadəcə informasiya ötürmək deyil, həm də qarşılıqlı etimad mühitini qorumaq funksiyasını daşıyır. Odur ki, bu prosesdə əsas hədəf işçini birtərəfli qaydada cəzalandırmaqdan daha çox, akademik bir yanaşma ilə mövcud kommunikasiya qırıqlığını aradan qaldırmaq, baş vermiş xətanın səbəblərini obyektiv təhlil etmək və işçinin müəssisəyə faydalılıq əmsalını yenidən bərpa etməkdir. Bu yanaşma, intizam tənbehini sıxışdırıcı bir alətdən inkişafetdirici bir kommunikasiya metoduna çevirir. İşgüzar münasibətlər sistemində xəbərdarlıq, töhmət və şiddətli töhmət mərhələli bir ardıcıllıq təşkil edir. Bu pilləli sistemin hər bir mərhələsində rəhbərin kommunikasiya tonu subyektivlikdən uzaqlaşaraq akademik obyektivliyə keçməlidir. İlk mərhələ sayılan nəzərə çatdırma və ya xəbərdarlıq zamanı rəhbərin empatiya qurması prosesin effektivliyi üçün həlledici faktordur. Rəhbər tərəfindən tətbiq olunan empatiya, işçinin intizam xətasına yol verməsinin kökündə dayanan səbəbləri , məsələn, ailə daxili böhranlar, psixoloji gərginlik, sağlamlıq vəziyyəti və ya iş mühitindəki texniki-kommunikativ çatışmazlıqları aşkar etməyə imkan verir.

Xüsusilə, işçinin əvvəlki fəaliyyəti qüsursuz olduqda, xəta ilk dəfə baş verdikdə və ya xətanın yaranmasında obyektiv kənar amillər rol oynadıqda rəhbərin humanist yanaşma nümayiş etdirməsi və tənbehi sadəcə "şifahi xəbərdarlıq" səviyyəsində saxlaması idarəetmədə sədaqəti artırır. Bu yanaşma hər hansı bir xətanı görməzdən gəlmək deyil, işçinin peşəkar potensialını və xətanın müəssisəyə vurduğu ziyanın miqyasını nəzərə alaraq, ona islah olunmaq üçün şans tanımaqdır.

Empatik münasibət rəhbəri "cəza verən" şəxsdən "istiqamət verən" liderə çevirir ki, bu da akademik kommunikasiyada konstruktivliyin ən yüksək formasıdır. İntizam tənbehlərinin tətbiqi həm də konkret zaman çərçivələri ilə tənzimlənən bir hüquqi öhdəlikdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, intizam tənbehi verildiyi gündən etibarən altı ay müddətində qüvvədə qalır. Bu müddət işçinin davranışlarının izlənilməsi və onun peşəkar etikaya nə dərəcədə sadiq qaldığının yoxlanılması üçün bir sınaq dövrü mahiyyəti daşıyır. Əgər işçi həmin altı ay ərzində yeni bir intizam xətası törətməzsə və əmək funksiyalarını layiqincə yerinə yetirərsə, tənbeh müddəti başa çatdıqdan sonra o, avtomatik olaraq qüvvədən düşmüş sayılır və işçi intizam tənbehi almamış hesab olunur.

Bununla belə, işgüzar kommunikasiyanın stimullaşdırıcı funksiyasını artırmaq məqsədilə rəhbərin intizam tənbehini vaxtından əvvəl (altı ay tamam olmamış) götürmək səlahiyyəti də mövcuddur. Bu halda rəhbər müvafiq əmr imzalayaraq işçinin fəaliyyətindəki müsbət keyfiyyət dəyişikliyini rəsmiləşdirir. Bu hüquqi addım sadəcə inzibati akt deyil, həm də mühüm bir psixoloji mesajdır: müəssisə işçinin keçmiş xətasını deyil, onun islah olunma və peşəkar inkişaf meyillərini əsas götürür. Akademik yazı etikasına uyğun olaraq, tənbehin ləğvi barədə əmrdə istifadə olunan dil işçinin nailiyyətlərini vurğulamalı, onda müəssisəyə aidlik hissini gücləndirməli və gələcək fəaliyyətə inam aşılamalıdır.

Beləliklə, müəssisədə intizamın qorunması prosesi yalnız quru hüquqi sənədlər və inzibati məcburiyyətlər üzərində deyil, həm də dərin işgüzar etika və korporativ dəyərlər üzərində qurulmalıdır. Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənən altı aylıq hüquqi müddət və rəsmi tətbiq formaları işçinin hüquqi statusunu müəyyən etsə də, rəhbərin bu prosesdə nümayiş etdirdiyi empatiya və akademik kommunikasiya dili işçinin müəssisəyə mənəvi bağlılığını şərtləndirən əsas hərəkətverici qüvvədir. Bu yanaşma çərçivəsində intizam tənbehi sadəcə bir sanksiya deyil, müasir idarəetmədə intizam xətasına yol vermiş işçi ilə qurulan konstruktiv dialoq, problemlərin kökündə dayanan obyektiv və subyektiv amilləri aşkar etməyə, rəhbər-işçi münasibətlərindəki "ünsiyyət boşluqlarını" doldurmağa xidmət edir. Eyni zamanda, işçidə mənfi motivasiyanı (qorxu) müsbət motivasiya (məsuliyyət və minnətdarlıq) ilə əvəz edir. Akademik yazı və ünsiyyət etikasına uyğun idarə olunan bu proses, müəssisədə fərdlərin deyil, qanunun və etik normaların aliliyini təmin edərək sağlam iş mühitini qoruyur. İntizam tənbehi düzgün kommunikasiya strategiyası və emosional intellekt prinsipləri ilə idarə olunduqda, işçi üçün sıxışdırıcı bir cəza deyil, əksinə, peşəkar inkişaf, daxili özünütənqid və müəssisədaxili məsuliyyətin artırılması üçün əhəmiyyətli bir inkişafetdirici vasitəyə çevrilir.

ACADEMİC COMMUNİCATİON ETHİCS, EMPATHY, AND LEGAL REGULATİON İN THE INTERNAL DİSCİPLİNARY PROCESS

Səlminə Hidayət qızı Abbasova
abbasova.salmina@mail.ru
Azərbaycan Texnologiya Universiteti

The article examines the significance of official-business style and ethical norms in the internal disciplinary processes of modern management. It argues that disciplinary actions should not be limited to formal administrative procedures but should also be viewed as an important stage of professional communication within an organization. By combining academic precision with elements of emotional intelligence, managers can transform disciplinary measures from purely punitive mechanisms into constructive and developmental management tools. The article concludes that an effective disciplinary process is based on the interaction of legal regulations, business ethics, and constructive professional communication. Such an approach contributes not only to maintaining organizational discipline but also to the professional development of employees and the creation of a harmonious organizational environment.

Keywords: academic communication, business ethics, internal discipline, empathy, disciplinary action, reprimand, professional motivation

THE INFLUENCE OF POP CULTURE (FİLMS, MUSİC, AND TV SERİES) ON LEARNİNG THE ENGLİSH LANGUAGE

Gunay Vidadi Jafarli
gunayjafarli04@gmail.com
Azerbaijan Technological University

English has become a global language used in international communication, business, education, and entertainment. As a result, many people around the world are motivated to learn it. Traditional language learning methods such as textbooks and classroom instruction remain important, but modern learners increasingly use alternative resources. One of the most influential resources is pop culture. Films, songs, and television series expose learners to natural language, real-life conversations, and cultural elements. Because these materials are entertaining, they can increase learners' motivation and help them learn the language in a more natural way **[4].**

Films and television series are powerful tools for improving language skills. They allow learners to hear authentic pronunciation, natural speech patterns, and everyday vocabulary. Through watching movies or series, learners can observe how English is used in real-life situations such as conversations between friends, workplace communication, or family interactions **[5].** Another advantage is the use of subtitles. When learners watch films with English subtitles, they can simultaneously develop both listening and reading skills. Subtitles help them understand unfamiliar words and expressions while following the dialogue.

Music is another important element of pop culture that supports language learning. Listening to English songs helps learners improve pronunciation, rhythm, and intonation. Songs are often repeated many times, which helps learners remember vocabulary and expressions more easily **[3].** Moreover, music can create emotional connections with language. When learners enjoy a song, they are more likely to pay attention to its lyrics and try to understand their meaning.

Pop culture not only teaches language but also introduces learners to cultural aspects of English-speaking countries. Films, music, and TV series reflect traditions, lifestyles, humor, and social values. By engaging with these media forms, learners can gain a deeper understanding of the cultural context in which the language is used **[2].** Understanding cultural references and social norms is essential for effective communication.

The use of pop culture in language learning has several advantages. It increases motivation, provides authentic language input, and helps learners practice listening and pronunciation skills. Furthermore, it allows learners to study independently outside the classroom.

However, there are also some challenges. In many films and songs, speakers use slang, informal expressions, or very fast speech. These elements can sometimes confuse learners, especially beginners. Additionally, some media content may include grammatical structures that differ from formal language rules.

In conclusion, pop culture has become an effective and engaging tool for learning English. Films, music, and television series provide authentic language exposure and help learners improve their listening, vocabulary, and pronunciation skills. They also promote cultural understanding and increase motivation. Although learners may encounter difficulties such as slang and rapid speech, the benefits of using pop culture in language learning are significant. Therefore, integrating pop culture into language education can enhance the overall learning experience and support the development of communicative competence **[1].**

REFERENCES

1. Abdullayev A. Dil və mədəniyyət münasibətləri. Bakı: Elm nəşriyyatı, 2019.
2. Həsənov H. Xarici dillərin tədrisinin müasir problemləri. Bakı: Təhsil, 2021.
3. Murphey T. Music and Song. Oxford: Oxford University Press, 2018.
4. Richards J., Rodgers T. Approaches and Methods in Language Teaching. Cambridge: Cambridge University Press, 2014.

5. Sherman J. Using Authentic Video in the Language Classroom. Cambridge: Cambridge University Press, 2016.

THE INFLUENCE OF POP CULTURE (FİLMS, MUSİC, AND TV SERİES) ON LEARNİNG THE ENGLİSH LANGUAGE

Gunay Vidadi Jafarli
gunayjafarli04@gmail.com
Azerbaijan Technological University

In the modern globalized world, English has become one of the most widely used languages for communication, education, and media. Pop culture, including films, music, and television series, plays a significant role in helping people learn English. These forms of media provide authentic language exposure and make the learning process more engaging. This article examines how pop culture contributes to the development of vocabulary, listening skills, pronunciation, and cultural awareness among English language learners. In addition, it discusses the advantages as well as the potential challenges of using popular media as a language-learning tool.

Keywords: pop culture, English language learning, films, music, TV series, motivation

AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ DİPLOMATİYASININ HƏYATA KEÇİRİLMƏSİ

Mehriban İmran qızı Tağıyeva
tagiyevamehriban@mail.ru
Rafiq Alcəfər oğlu Hüseynov
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan antik dövrlərdən "Odlar Yurdu" kimi tanınmışdır. Arxeoloji qazıntılar və tarixi mənbələr (məsələn, Plini və Plutarxın qeydləri) göstərir ki, hələ qədim dövrlərdə Abşeronda neftdən məişətdə, təbabətdə və hərbi işlərdə istifadə olunub. Müasir dövrdə isə bu miras qlobal enerji təhlükəsizliyinin sütununa çevrilmişdir.

1993-cü ildə siyasi rəhbərliyə qayıdan Ümummilli Lider Heydər Əliyev nefti ölkənin milli sərvəti elan edərək, bu sahənin dirçəldilməsini dövlət siyasətinin prioritetinə çevirdi. Onun uzaqgörən fəaliyyəti nəticəsində neft sənayesini tənəzzüldən xilas edəcək yeni bir iqtisadi model və strateji xətt formalaşdırıldı. Bu strategiyanın əsas istiqamətləri bunlardır: xarici investisiyaların cəlb olunması üçün qlobal neft nəhəngləri Azərbaycana dəvət edildi və onların ölkə iqtisadiyyatına yatırımlar etməsi üçün əlverişli şərait yaradıldı. Azərbaycan Qərb dünyası üçün mühüm və etibarlı enerji tərəfdaşına çevrildi. 20 sentyabr 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycan, MDB daxilində 11 beynəlxalq şirkətlə genişmiqyaslı əməkdaşlığa başlayan ilk ölkə oldu. Bu addımlar nəinki Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi, həm də Xəzər dənizi regionunda beynəlxalq əməkdaşlığın təməlini qoydu.

1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın xarici siyasət kursunda köklü və elmi əsaslara söykənən dəyişikliklər həyata keçirilməyə başlandı. Ölkənin geosiyasi mövqeyinin dərin təhlili nəticəsində, milli maraqların qorunmasına xidmət edən çevik və real imkanlara əsaslanan yeni bir fəaliyyət strategiyası müəyyən edildi. Bu yeni siyasi xəttin əsas xüsusiyyətləri şaxələndirilmiş tərəfdaşlıq modelinə əsaslanırdı. Qərb və Avroatlantik struktura inteqrasiya ABŞ və Avropa dövlətləri ilə yaxınlaşma, beynəlxalq təhlükəsizlik strukturlarına qoşulma prioritet seçildi. Regional balansı tənzimləmək üçün Rusiya və digər yeni müstəqil dövlətlərlə münasibətlər yeniləndi. Türkiyə başda olmaqla türkdilli dövlətlərlə, həmçinin İran və İslam dünyası ilə əlaqələrin strateji çərçivəsi cızıldı. Asiya, Afrika və Cənubi Amerika ölkələri ilə münasibətlərin inkişaf istiqamətləri dəqiqləşdirildi. Nəticədə, hər bir region və ölkə qrupu üçün spesifik amilləri nəzərə alan, düşünülmüş və tarazlı bir xarici siyasət modeli formalaşdırıldı. Bu da Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra qarşıya qoyduğu prioritetlərdən biri də düzgün enerji strategiyasının qurulması idi. Bu minvalla dünyanın qabaqcıl ölkələri ilə energetika sahəsində qarşılıqlı faydalı münasibətlərin

yaradılmasına başlanıldı və əsas məqsəd dünya enerji məkanında yüksək yerlərdən birini tutmaq idi. Bunun bir sıra səbəbləri var idi. Səbəbləri şərtləndirən amillərdən birincisi o idi ki, müstəqilliyin ilk illərində Azərbaycan ciddi böhran keçirirdi və həmin vaxt enerji ehtiyatlarının işlənilməsi üçün müasir texnologiyaların tətbiqinə ehtiyac duyulurdu. O zaman xarici dövlətlərlə neft-qaz layihələrinin işlənilməsi bu problemlərin qismən həlli demək idi. İkincisi, Azərbaycan o dövrdə Ermənistanın hərbi təcavüzünə məruz qalmış və torpaqlarının 20 faizi işğal edilmişdi. Buna görə də xarici dövlətlərin Azərbaycan ilə enerji və iqtisadi münasibətlərə cəlb olunması, enerji müqavilələrinin bağlanması, ölkəyə investisiyaların cəlb olunması onun suverenliyinə əlavə təminat idi.

Azərbaycan Respublikasının enerji diplomatiyasında Qərblə enerji sahəsində yüksək əməkdaşlığın qurulması prioritet kimi müəyyənləşdirilmişdir. Çünki, zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycan Avropa üçün sabit və mühüm enerji mənbəyi hesab olunur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan təkcə zəngin karbohidrogen ehtiyatlarına sahib ölkə deyil, o eyni zamanda Mərkəzi Asiyadan Avropa istiqamətində göndərilə biləcək karbohidrogen məhsullarının nəqlində mühüm tranzit ölkə hesab olunur. Enerji mənbələrinin şaxələndirilməsi müasir dövrdə sadəcə təhlükəsizlik amili deyil, həm də enerjinin daha əlverişli şərtlərlə əldə edilməsi üçün strateji üstünlükdür. Azərbaycanın qurduğu çoxşaxəli neft və qaz boru kəmərləri sistemi ölkəmizin tam enerji müstəqilliyini təmin etməklə yanaşı, aşağıdakı mühüm nailiyyətlərə yol açmışdır:

Azərbaycan yüksək keyfiyyətli karbohidrogen resursları ilə Avropa və digər uzaq regionların enerji ehtiyaclarını qarşılayan əsas tərəfdaşa çevrilmişdir.

Xəzəryanı ölkələrin enerji resurslarının dünya bazarına çıxarılması üçün respublikamız etibarlı və sabit tranzit dəhlizi statusu qazanmışdır.

Bu strategiya nəticəsində Azərbaycanın xam neft və neft məhsulları dünyanın üç fərqli istiqaməti üzrə 33 ölkəyə (o cümlədən ABŞ, Çin, Almaniya, İngiltərə, Hindistan və s.) ixrac olunur.

Enerji kəmərlərinin diversifikasiyası Azərbaycan üçün sadəcə kommersiya uğuru deyil, həm də ciddi siyasi qələbədir. Bu faktor ölkəmizin regionda tam müstəqil xarici siyasət yürütməsini və heç bir dövlətdən enerji asılılığı olmayan güclü bir subyekt kimi çıxış etməsini şərtləndirən əsas amildir.

Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Supsa və Bakı-Tbilisi-Ərzurum layihələri regionun enerji xəritəsini kökündən dəyişmişdir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının ilk dəfə alternativ marşrutlarla dünya bazarına çıxarılması Azərbaycanın tam müstəqil enerji siyasəti yeritdiyini sübut etdi. Bu strateji xəttin davamı olan TANAP və TAP layihələri təkcə region üçün deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyinin təminatında həlledici rol oynayır. Hazırda Azərbaycanın beynəlxalq müstəvidəki mövqeyini ölkəmizin Mərkəzi Asiya ilə Avropa arasında enerji, nəqliyyat və kommunikasiya dəhlizlərinin əsas moderatoruna çevrilməsi, gələcəkdə də Orta Asiya dövlətlərinin geoiqtisadi maraqlarının və regional sabitliyinin qorunmasında aktiv iştirakı, həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərini birləşdirən əvəzolunmaz logistik qovşaq imkanlarına malik olması kimi amillər səciyyələndirir. Nəticədə Azərbaycanın həyata keçirdiyi transmilli layihələr ölkəmizi qlobal enerji siyasətinin mərkəzinə daşımaqla yanaşı, regionlararası sosiokultural və iqtisadi inteqrasiyanın əsas hərəkətverici qüvvəsinə çevirmişdir.

Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiya operatorlarının SOCAR-la əməkdaşlığı, Avropanın enerji təminatını gücləndirmək və alternativ mənbələrə çıxış əldə etmək üçün mühüm imkanlar yaradır. Bu sənəd Azərbaycanın Avropanın enerji xəritəsindəki rolunu daha da möhkəmləndirir.

Ən mühüm tarixi hadisələrdən biri "Azəri - Çıraq - Günəşli" neftqaz yataqları blokunun istismarı üzrə sazişin müddətinin 2017-ci il sentyabrın 14-də uzadılması - "Yeni Əsrin Müqaviləsi"nin imzalanması oldu. "Azəri - Çıraq - Günəşli" neft-qaz yataqları blokunun 2050-ci ilədək işlənməsi üzrə müqavilənin, 25 illik müddətdə "D230" blokunun birgə kəşfiyyatı və

işlənməsi üçün hasilatın pay bölgüsü haqqında sazişin imzalanması enerji strategiyasında yeni bir səhifə açdı.

Ölkə başçısının Azərbaycanı qlobal enerji təhlükəsizliyində etibarlı tərəfdaşa çevirmiş uzaqgörən siyasəti, bu siyasət sayəsində ölkəmizin iqtisadi müstəqilliyinin, enerji ölkəsi kimi dünya enerji sisteminə qayıdışının və inkişafının təminatçısı "Neft Strategiyası"nın hədəflərinə nail olunduğu artıq öz təsdiqini tapmışdır. Bu proseslər göstərir ki, enerji təhlükəsizliyinə yanaşmada Azərbaycan modeli daha rasionaldır. Bu, enerji resurslarının, enerji təchizatının və tədarük bazarlarının şaxələndirilməsidir. Enerji təhlükəsizliyi ilə ekoloji təhlükəsizlik arasında balanslaşmanı seçməkdir. Məhz Azərbaycan Prezidentinin proqnozlaşdırılmış və dünyadakı çağırışları çevik nəzərə alan enerji siyasəti ölkəmizin enerji təhlükəsizliyinin qarantıdır.

İlham Əliyevin enerji diplomatiyası tək Azərbaycanın deyil, Mərkəzi Asiyanın enerji daşıyıcılarını da Avropaya çatdırılmasının real üsuludur. Artıq Qazaxıstan ildə 1,5 milyon ton neftin Xəzər dənizi üzərindən Bakı-Tiflis-Ceyhan kəməri ilə nəqlinə başlayıb.

Avropanın enerji təminatı prosesinə Mərkəzi Asiyanın cəlb edilməsi Azərbaycanın enerji diplomatiyasının Avrasiyada enerji xəritəsini yenidən cızdığına dair tutarlı sübutlar sayıla bilər.

Azərbaycanın təbii qaz ixracı imkanlarını genişləndirməsi ölkəmiz üçün sadəcə iqtisadi mənfəət deyil, həm də qlobal miqyasda həlledici geosiyasi üstünlük deməkdir. Bu proses Azərbaycan və Avropa arasındakı strateji tərəfdaşlığı yeni müstəviyə daşıyır. Ölkənin gələcək enerji arxitekturası iki əsas sütun üzərində qurulur. Birinci Avropanın enerji asılılığının azaldılmasında və alternativ təchizat zəncirlərinin yaradılmasında Azərbaycanın rolu getdikcə artır. Bu, ölkəmizə həm iqtisadi dividendlər, həm də siyasi nüfuz qazandırır. İkinci Azərbaycanın enerji siyasətində bərpa olunan mənbələrə (günəş, külək və s.) qoyulan investisiyalar gələcəyin "təmiz" enerji şəbəkələrini formalaşdırır. Dayanıqlı enerji istehsalı həm ekoloji tarazlığı qoruyur, həm də ölkənin ixrac potensialını şaxələndirir. Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın həm ənənəvi qaz təchizatı, həm də innovativ yaşıl enerji layihələri sahəsindəki fəallığı onu Avropanın ən etibarlı və əvəzolunmaz tərəfdaşına çevirmişdir. Bu əməkdaşlıq regionda və qlobal müstəvidə sabitliyin, eləcə də iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir.

Azərbaycan artıq təkcə ənənəvi qaz təchizatçısı kimi deyil, həm də qlobal "Yaşıl Enerji Dəhlizinin"nun mərkəzi oyunçusu kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bərpa olunan enerji mənbələrinə keçidi dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri elan etmişdir. Bu yeni mərhələnin əsas strateji hədəfləri aşağıdakılardır: Azərbaycanın COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etməsi, ölkəmizin qlobal iqlim dəyişikliyi ilə mübarizədəki aktiv rolunun dünya birliyi tərəfindən yüksək qiymətləndirilməsinin göstəricisidir. Bu, Azərbaycanı ekoloji siyasətin mərkəzinə daşıyır. Xəzər dənizinin külək enerjisi potensialı Azərbaycanın gələcəkdə Avropaya "yaşıl elektrik enerjisi" ixrac edən əsas mənbəyə çevrilməsini şərtləndirir. Bu, ölkənin geosiyasi əhəmiyyətini yeni bir müstəviyə qaldırır. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan saziş bərpa olunan enerjinin birbaşa Avropa bazarlarına çatdırılması üçün tarixi bir addımdır. Bu, ölkəmizin "yaşıl enerji dəhlizi" statusunu möhkəmləndirir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi, bu bölgələrdə qurulan hidro, günəş və külək elektrik stansiyaları Azərbaycanın ekoloji təmiz gələcəyə sadiqliyinin əyani sübutudur.

Azərbaycanın yaşıl enerji strategiyası ölkənin iqtisadiyyatını şaxələndirməklə yanaşı, həm də onu qlobal iqlim hədəflərinin reallaşmasında strateji tərəfdaşa çevirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan həm ənənəvi, həm də yaşıl enerji sahəsində təhlükəsizlik və əməkdaşlıq körpüsü rolunu oynamağa davam edəcəkdir.

Azərbaycanın enerji diplomatiyası dövlətin suverenliyinin qarantı, iqtisadi yüksəlişin drayveri və beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz hissəsidir. Bu diplomatiya sayəsində ölkəmiz qlobal enerji xəritəsində sadəcə bir "oyunçu" deyil, həm də "oyun qaydalarını müəyyən edən" strateji tərəfdaşa çevrilmişdir.

IMPLEMENTATION OF THE ENERGY DIPLOMACY OF THE REPUBLIC OF AZERBAIJAN

Mehriban Imran Tagiyeva
tagiyevamehriban@mail.ru
Rafiq Aljefer Huseynov
Azerbaijan University of Technology

This article analyzes the strategic transformation and geopolitical implications of the energy factor in the foreign policy of independent Azerbaijan since 1993. The study begins by examining the decisive role of the visionary "New Oil Strategy," initiated by National Leader Heydar Aliyev, and the landmark Contract of the Century in strengthening the country's national sovereignty and economic independence.

The research further evaluates Azerbaijan's transition from a regional energy supplier to a key contributor to global energy security through major transnational projects such as the Baku-Tbilisi-Ceyhan pipeline and the Southern Gas Corridor, including TANAP and TAP. Particular emphasis is placed on the policy of energy diversification pursued under the leadership of Ilham Aliyev, as well as Azerbaijan's increasing integration into global green energy initiatives. The selection of Baku as the host city for the COP29 is interpreted as a clear indicator of the country's growing role in environmental diplomacy. The article concludes by highlighting the potential of renewable energy resources in the Caspian Sea and assessing the prospective impact of the "Green Energy Corridor" project on Azerbaijan's future geo-economic position.

Keywords: Energy diplomacy, Heydar Aliyev, Ilham Aliyev, Contract of the Century, Southern Gas Corridor, Green energy transition, COP29, Geopolitics

ƏRƏB ÖLKƏLƏRİNİN ETNOQRAFİYASI: ƏNƏNƏVİ DƏYƏRLƏR VƏ QLOBALLAŞMA PROSESLƏRİ

Aida Rza qızı Tağıyeva[1]
a.tagiyeva@atu.edu.az
Mirqafar Mirsaleh oğlu Seyidov[2]
seyidovmirqafar969@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Bakı Dövlət Universiteti[2]

Ərəb ölkələri zəngin tarixi və mədəni irsi ilə dünya sivilizasiyasında mühüm yer tutur. Bu regionun etnoqrafiyası dini, coğrafi və tarixi amillərin təsiri altında formalaşmışdır. Xüsusilə İslam dini ərəb cəmiyyətlərinin sosial və mədəni strukturunda mühüm rol oynayır və gündəlik həyatın bir çox sahələrini tənzimləyir **[1].**

Qloballaşma şəraitində isə bu ənənəvi dəyərlərin qorunması və transformasiyası məsələləri aktuallaşır. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və mədəniyyətlərarası əlaqələrin genişlənməsi etnoqrafik proseslərə yeni məzmun qazandırır **[2].**

Bu baxımdan, ərəb ölkələrinin etnoqrafiyasının öyrənilməsi yalnız mədəni aspektlərlə məhdudlaşmır, həm də sosial-iqtisadi proseslərin və cəmiyyətin inkişaf dinamikasının daha dərindən anlaşılmasına imkan yaradır.

Əsas hissə

Ərəb ölkələrinin etnoqrafiyası müxtəlif sosial və mədəni komponentlərdən ibarətdir. Bu komponentlərə ailə strukturu, adət-ənənələr, dini dəyərlər, geyim və məişət xüsusiyyətləri daxildir.

Ərəb ölkələrinin etnoqrafiyası yalnız ənənəvi mədəni elementlərlə məhdudlaşmır, həm də sosial-iqtisadi münasibətlərin formalaşmasına təsir göstərir. Bu baxımdan etnoqrafik xüsusiyyətlər regionda sosial davranış normalarının və iqtisadi fəaliyyət formalarının müəyyən edilməsində mühüm rol oynayır.

Müasir dövrdə ərəb etnoqrafiyası interdisiplinar xarakter daşıyaraq antropologiya, sosiologiya və iqtisadiyyat elmləri ilə sıx əlaqədə inkişaf edir. Bu isə regionun sosial-mədəni xüsusiyyətlərinin kompleks şəkildə tədqiqinə şərait yaradır.

Ənənəvi olaraq ərəb cəmiyyətlərində ailə institutu mühüm yer tutur. Böyük ailə modeli və nəsillərarası əlaqələrin güclü olması sosial sabitliyin əsas amillərindən biridir. Qonaqpərvərlik, hörmət və kollektiv dəyərlər sosial münasibətlərin formalaşmasında mühüm rol oynayır **[3].**

Ərəb ölkələrində milli geyimlər iqlim şəraiti və dini normalarla sıx bağlıdır. Eyni zamanda, mətbəx və folklor bu regionun mədəni müxtəlifliyini əks etdirir. Musiqi və şifahi xalq yaradıcılığı isə mədəni irsin qorunmasında mühüm yer tutur.

Bundan əlavə, ərəb ölkələrinin mədəniyyətində dini mərasimlər və bayramlar da mühüm yer tutur. Ramazan, Qurban bayramı kimi dini tədbirlər sosial birlik və kollektiv dəyərlərin güclənməsində xüsusi rol oynayır.

Cədvəl 1. Ərəb ölkələrinin etnoqrafik xüsusiyyətləri

Sahə	Xüsusiyyət	Nəticə
Ailə	Böyük ailə modeli	Sosial birlik
Din	İslamın təsiri	Davranış normaları
Mədəniyyət	Ənənə və folklor	Kimliyin qorunması
Məişət	Geyim və qida	Regional müxtəliflik

Cədvəldə təqdim olunan məlumatlar göstərir ki, ərəb ölkələrinin etnoqrafik xüsusiyyətləri sosial və mədəni sistemin bütün sahələrinə təsir edərək vahid dəyərlər sisteminin formalaşmasına xidmət edir.



Şəkil 1. Ərəb etnoqrafiyasında əsas komponentlər

Şəkildə göstərildiyi kimi, ərəb etnoqrafiyası ənənəvi dəyərlərdən başlayaraq müasir transformasiya mərhələsinə qədər inkişaf edən çoxşaxəli bir sistemdir.

Qloballaşma prosesləri ərəb ölkələrinin etnoqrafiyasına əhəmiyyətli təsir göstərmişdir. Urbanizasiya, texnoloji inkişaf və informasiya axını ənənəvi həyat tərzində dəyişikliklərə səbəb olmuşdur. Bununla yanaşı, bir çox ərəb ölkəsində milli-mədəni dəyərlərin qorunması prioritet istiqamət kimi qalır **[4].** Müasir texnologiyalar, xüsusilə rəqəmsal arxivlər və virtual platformalar etnoqrafik məlumatların qorunmasına və yayılmasına imkan yaradır. Bu isə mədəni irsin qlobal səviyyədə tanınmasına şərait yaradır **[5].**

Nəticə. Beləliklə, ərəb ölkələrinin etnoqrafiyası zəngin və çoxşaxəli mədəni sistem kimi çıxış edir. Ənənəvi dəyərlər bu cəmiyyətlərin sosial strukturunun əsasını təşkil edir və qloballaşma şəraitində də öz əhəmiyyətini qoruyub saxlayır.

Qloballaşma müəyyən dəyişikliklərə səbəb olsa da, milli kimliyin qorunması və mədəni irsin davamlılığı ərəb ölkələrində əsas prioritet olaraq qalır.

Bu baxımdan, ərəb ölkələrinin etnoqrafiyasının öyrənilməsi qloballaşma şəraitində milli kimliyin qorunması və mədəni müxtəlifliyin davamlılığının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. UNESCO (2020). Intangible Cultural Heritage.
2. OECD (2021). Culture and Local Development.
3. Esposito, J. (2011). Islam and Society.
4. Richards, G. (2018). Cultural Tourism.
5. World Bank (2020). Cultural Heritage and Development.

ETHNOGRAPHY OF ARAB COUNTRIES: TRADITIONAL VALUES AND GLOBALIZATION PROCESSES

Aida Rza Tagiyeva[1]
a.tagiyeva@atu.edu.az
Mirqafar Mirsaleh Seyidov[2]
seyidovmirqafar969@gmail.com
Azerbaijan University of Technology[1]
Baku State University[2]

In modern conditions, globalization processes have made the issue of preserving national and cultural values increasingly relevant. The ethnography of Arab countries is characterized by rich historical, religious, and social features. This article analyzes the traditional values formed in Arab societies, their transformation in the modern era, and the impact of globalization. The study demonstrates that despite globalization processes, national and cultural characteristics in Arab countries are largely preserved and continue to form the basis of social life.

Keywords: ethnography, Arab countries, cultural values, globalization, tradition

HOW LEARNERS MIX UP PAST, PRESENT, AND FUTURE TENSES

Yagut Huseyn Ahmadova
y.ahmedova@atu.edu.az
Azerbaijan Technological University

Learning English tenses is one of the most challenging aspects for language learners. Many students often confuse past, present, and future tenses, which can lead to misunderstandings in both speaking and writing. Tense errors are common because learners need to consider time, context, and sentence structure simultaneously. This paper explores the main reasons why learners mix up tenses, the types of mistakes they make, and strategies to improve tense usage. Learning English tenses is one of the most challenging aspects for language learners. Many students often confuse past, present, and future tenses, which can lead to misunderstandings in both s peaking and writing. Tense errors are common because learners need to consider time, context, and sentence structure at the same time. Understanding when to use each tense correctly is essential for clear and accurate communication. Learners make mistakes in several ways. One common error is using the present tense instead of the past. For example, a student may say, "I go to school yesterday" instead of "I went to school yesterday." Another frequent mistake is using the wrong future tense, such as "I will went to the store" instead of "I will go to the store." Confusing continuous and simple tenses is also typical. For instance, learners might say, "I am knowing the answer" instead of "I know the answer," or "She is going to the shop every day" instead of "She goes to the shop every day." Several factors contribute to tense confusion. Differences between the learner's native language and English grammar play a significant role. For example, in some languages, verb tenses are less complex, which can make English tenses seem difficult. Lack of practice in real-life communication also contributes to mistakes. Learners may memorize rules but fail to apply them in speaking or writing. Overgeneralization of rules, such as adding "-ed" to form all past tense verbs, is another source of errors. Additionally, informal online communication, such as texting or social media posts, often simplifies tenses, which may influence learners to adopt similar patterns in formal writing. Tense errors can affect both meaning and clarity. Misusing tenses can confuse the listener or reader about when an action occurred. For example, "I eat breakfast yesterday" can make someone unsure whether the action happened in the past or present. In academic and professional contexts, tense

mistakes can reduce the perceived quality of the learner's writing and may lead to misunderstandings.

To improve tense usage, learners can use several strategies. Practicing with targeted exercises for each tense, reading and listening to correct examples in context, and writing short texts or journals to apply tenses in real situations are highly effective. Using language learning apps, online exercises, and interactive games that reinforce tense accuracy also helps. Additionally, teachers can provide corrective feedback and encourage learners to notice tense patterns in authentic English materials, such as books, articles, and videos.

In conclusion, mixing up past, present, and future tenses is a natural and common part of learning English. By understanding the causes of tense errors and applying effective strategies, learners can improve their grammar, communicate more accurately, and gain confidence in both speaking and writing. Regular practice, awareness of context, and careful attention to language rules are key to mastering English tenses and avoiding misunderstandings.

HOW LEARNERS MIX UP PAST, PRESENT, AND FUTURE TENSES

Yagut Huseyn Ahmadova
y.ahmedova@atu.edu.az
Azerbaijan Technological University

The correct use of tenses in English poses significant challenges for learners. Students often confuse past, present, and future forms, which leads to misunderstandings in both spoken and written communication. The most common errors include the use of the present tense instead of the past, incorrect formation of future structures, and confusion between simple and continuous aspects.

The primary causes of these difficulties include differences between English and the learners' native language, limited opportunities for authentic communication practice, overgeneralization of grammatical rules, and the influence of informal digital communication, particularly on social media. To improve their command of tense usage, students can engage in targeted exercises, participate in both written and spoken practice, and utilize interactive tools that present grammar in meaningful contexts.

In conclusion, confusion in the use of tenses is a natural stage in the language learning process. Through the application of effective learning strategies, students can reduce grammatical errors and significantly enhance their communicative competence in English.

Keywords: English tenses, grammar mistakes, language learning, past tense, present tense, future tense, ESL learners, communication skills

FORMAL AND INFORMAL ENGLISH IN DIFFERENT COMMUNICATION CONTEXTS

Aysel Alim Mammadli
a.memmedli@atu.edu.az
Azerbaijan Technological University

Language is not a fixed system but a flexible tool that changes according to social situation and communicative purpose. One of the most noticeable forms of variation in English is the distinction between formal and informal language. Speakers and writers continuously adjust their language depending on context, audience, and medium of communication. This variation, often described in linguistics as register, plays a crucial role in ensuring that communication is appropriate, effective, and socially acceptable. Formal English is typically associated with academic, professional, and official settings where clarity, precision, and social distance are emphasized. In contrast, informal English is commonly used in everyday interactions, where familiarity, efficiency, and personal expression are more important. These two forms differ in vocabulary choice, grammatical structure, tone, and level of politeness. The ability to shift between formal and informal language reflects communicative competence and

social awareness, particularly for learners of English as a second language. In modern society, where communication occurs across diverse contexts such as academic writing, digital communication, and interpersonal conversation, understanding language variation has become increasingly important. Misuse of register may lead to misunderstanding, reduced credibility, or social discomfort. Therefore, examining how context influences language choice provides valuable insight into both linguistic behavior and social interaction. This study aims to analyze the differences between formal and informal English and to investigate how context shapes language use. By exploring linguistic features and communicative situations, the research seeks to demonstrate that language variation is not random but systematically influenced by social and functional factors.

Language changes depending on the situation in which it is used. In English, one of the key distinctions is the difference between formal and informal styles, commonly referred to as register. Register describes the level of formality speakers or writers choose according to the audience, purpose, and social context. Understanding these differences helps explain how people communicate appropriately in different environments. Formal English is generally associated with academic, professional, and official communication. It typically features well-structured sentences, accurate vocabulary, and an objective tone. Contractions are usually avoided, and ideas are presented in a clear and organized manner. Academic writing, reports, and public speeches often rely on this style because it conveys seriousness, credibility, and respect. Politeness is also an important feature of formal language, often expressed through indirect requests and respectful expressions that reflect social distance between participants. Informal English, on the other hand, is used in everyday interactions and personal communication. It includes conversational words, contractions, slang, and simpler sentence structures. This style allows speakers to communicate quickly, express emotions, and create a sense of closeness with others. Messages between friends, casual conversations, and many online interactions commonly contain abbreviations, incomplete sentences, and expressive punctuation, all of which signal familiarity and comfort. The choice between formal and informal language depends on several factors. The audience is especially important, as people adjust their speech or writing based on who they are communicating with. The purpose of communication also influences language use: informative or professional goals usually require a more formal approach, while social interaction encourages a relaxed style. In addition, the medium of communication plays a role, since written academic texts are typically more formal than spoken conversation. Being able to shift between different registers demonstrates communicative competence. Individuals who adapt their language appropriately are more likely to be understood and to achieve their communication goals. For learners of English, recognizing the differences between formal and informal language is essential for effective participation in both academic and everyday contexts.

In summary, formal and informal English represent two major language styles shaped by context, audience, and purpose. Their differences in vocabulary, structure, and tone reflect social relationships and communicative intentions. Studying these variations highlights the flexibility of language as a tool for human interaction.

FORMAL AND INFORMAL ENGLISH IN DIFFERENT COMMUNICATION CONTEXTS

Aysel Alim Mammadli
a.memmedli@atu.edu.az
Azerbaijan Technological University

This study explores the use of formal and informal language in English and examines how language choice varies according to context. Formal language is typically employed in academic, professional, and official settings and is characterized by precise word choice, complex sentence structures, and an objective tone. Informal language, by contrast, is common in everyday conversation, social media interactions, and close personal relationships, and is marked by simpler grammar, a conversational style, and the expression of emotions. The study demonstrates that

language selection is deliberate, influenced by factors such as audience, purpose, and mode of communication. Understanding the distinctions between formal and informal language enhances communicative competence for both native speakers and learners of English. In conclusion, the ability to use language appropriately according to context is a key indicator of effective communication and is essential for success in both social and academic environments.

Keywords: language and society, communicative competence, sociolinguistics, formal English, style shifting

OPTIMIZING SUPPORT FOR CHILDREN IN DIFFICULTY THROUGH ARTIFICIAL INTELLIGENCE

Mihail CIOBANU
ciobanu.mihail.s@gmail.com
National Institute for Economic Research,
Academy of Economic Studies of Moldova

The intersection of child welfare and social protection is undergoing fundamental reorganization driven by growing socioeconomic precarity and rapid advances in computational capabilities. Traditional manual frameworks of social support have proven increasingly inadequate as income instability significantly interferes with healthy child development, impairing consistent parenting practices and spending on essential goods. Artificial intelligence (AI) offers a pathway to "predictive equity": the proactive, precise allocation of resources to mitigate risks associated with childhood difficulty.

Methods, results and discussions. This paper employs a literature review combined with comparative case analysis. The need for algorithmic optimization is underscored by a widespread crisis in childcare affordability. By mid-2025, nearly three out of four parents with children under six faced difficulties finding care. In 40 US states, childcare costs for two children exceed average mortgage costs, and single-parent households allocate an average of 36% of income to childcare, rising to 95% for low-income parents at market rates **[2].** These pressures translate into annual economic losses of $500 millions - $3.5 billions per state from workforce withdrawal.

The transition from manual risk assessment to automated Predictive Risk Modeling (PRM) represents a major modernization of child welfare. Traditional tools are time-consuming, error-prone, and have minimal predictive accuracy. In contrast, PRM leverages case management data to generate real-time, data-driven risk assessments. Implemented in 2016, the Allegheny Family Screening Tool (AFST), the global benchmark for predictive analytics in child welfare integrates hundreds of data elements to predict the likelihood of a child needing home removal. Key outcomes include a statistically significant increase in identifying children in need of intervention and improvements in racial equity. However, 72% of screeners occasionally found scores inaccurate, since the algorithm cannot account for qualitative factors such as active community service involvement **[1].** In Togo, the government used machine learning on satellite imagery and mobile Call Detail Records (CDR) to predict household wealth, improving targeting precision by 42% relative to traditional methods **[4].** This approach delivered unconditional cash transfers of approximately $20/month to over 154,000 citizens in extreme need. Kazakhstan has shifted toward Causal Machine Learning (CML) to estimate individual-level treatment effects, answering not just who is poor but who benefits most from intervention. Using Causal Forests, the model revealed that households with low income and poor job security benefit significantly more than others, while the mere presence of children proved a statistically insignificant predictor compared to education and regional factors. Optimization also requires removing administrative barriers to access. AI-powered chatbots screen for social needs and link families directly to resources. Singapore's "Moments of Life" platform reduced birth registration and childcare subsidy application time by

70%, from two hours to 15 minutes, through cross-agency data integration **[3].** The highest performance is achieved when algorithms and human experts work in partnership. Research on the AFST reveals a critical protective function of caseworker discretion: between 2016 and 2018, the algorithm would have produced an 18-percentage-point racial disparity in screen-in rates, which human judgment reduced to only 7% [1]. Fully automated systems face an "accountability vacuum", as illustrated by Australia's Robodebt failure. The EU AI Act classifies AI systems used by public authorities to assess benefit eligibility as "high-risk", mandating rigorous data governance and full traceability, while UNICEF's 2025 guidance specifies ten requirements for child-centered AI encompassing privacy, non-discrimination, transparency, and accountability. As strategic recommendations in order to optimize income support for children in difficulty through Artificial Intelligence can be considered the following: adopting causal rather than simple predictive models to maximize social return on investment and direct support where it produces the greatest positive effect; prioritizing Explainability (XAI) using SHAP or LIME, ensuring every algorithmic decision can be explained in plain language to families and stakeholders; mandating Human-in-the-Loop for high-stakes decisions: no essential benefit should be revoked or child removed based on automated output; implementing continuous bias auditing across diverse demographics to detect and correct marginalized groups' drift, overscoring; developing child-specific AI literacy toolkits to foster transparent and trusting relationship between the state and citizens.

Conclusions. When properly implemented, AI can identify families in need with greater precision than manual screening, streamline application processes from hours to minutes, and equip caseworkers with proactive, data-driven insights. However, the risks of algorithmic bias, privacy violations, and digital exclusion must be mitigated through robust Human-in-the-Loop frameworks and adherence to UNICEF's 10 Requirements. The ultimate goal is a child-centered AI ecosystem - built on multidisciplinary collaboration between policymakers, data scientists, and frontline social workers - transforming social safety nets into dynamic, responsive systems that leave no child behind.

Note: The article was elaborated within the Project selected in competition "Stimulating excellence in scientific research 2025-2026" 25.80012.0807.37SE "The perfection of instruments for reducing income inequality and reducing poverty of the population in the process of European integration of the Republic of Moldova", institutional funding, ANCD.

REFERENCES

1. Allegheny Family Screening Tool (2026) - Allegheny County, PA, 2026, [online]. Retrieved from:https://www.alleghenycounty.us/Services/Human-Services-DHS/DHS-News-and-Events/Accomplishments-and-Innovations/Allegheny-Family-Screening-Tool
2. Modernizing Child Welfare Technologies and Tools: Opportunities for Predictive Risk Modeling to Improve Child Safety and Outcomes (2026). U.S. Department of Health & Human Services, Issue Brief - March 2026, [online]. Retrieved from: https://acf.gov/acyf/policy-guidance/modernizing-child-welfare-technology-predictive-risk-modeling
3. Ne'eman, A., Brooks, A., Hans-Green, K., Gupta, A. (2025). Using machine learning to predict future foster care admission, Health Affairs Scholar, Volume 3, Issue 11, November 2025, qxaf198, https://doi.org/10.1093/haschl/qxaf198, [online]. Retrieved from: https://academic.oup.com/healthaffairsscholar/article/3/11/qxaf198/8287319
4. Novissi Togo: Harnessing Artificial Intelligence to Deliver Shock-Responsive Social
5. Protection (2023). World Bank, [online]. Retrieved from: https://documents1.worldbank.org/curated/en/099751009222330502/pdf/IDU0e83f857301ff1047bf082710a8d21ddf42c3.

OPTIMIZING SUPPORT FOR CHILDREN IN DIFFICULTY THROUGH ARTIFICIAL INTELLIGENCE

Mihail CIOBANU
ciobanu.mihail.s@gmail.com
National Institute for Economic Research
Academy of Economic Studies of Moldova

This paper examines the application of artificial intelligence tools to optimize income support and protective interventions for children in vulnerable situations. Through a review and case analysis, the study identifies evidence-based design principles for AI deployment in child welfare systems, with emphasis on predictive precision, administrative efficiency, and algorithmic fairness. Key findings confirm that AI-driven approaches can substantially improve targeting accuracy and reduce administrative burden, while underscoring the indispensable role of human oversight for high-stakes decisions. The paper advocates for a responsible, interdisciplinary implementation model that prioritizes children's rights and well-being in full compliance with international ethical frameworks.

Keywords: artificial intelligence, vulnerable children, child protection, income support, predictive equity, algorithmic fairness

THE ROLE OF GLOSSARIES IN TEACHING FOOD VOCABULARY

Yegana Ismayilova
y.ismayilova@atu.edu.az
1. Setting goals for language learning - encouraging students to set certain and achievable goals for each language they learn. These goals can be passing a proficiency exam, getting involved in a language exchange program, or traveling to a country where the language is spoken. Establishing goals that are personally relevant and important to them, students are more likely to stay motivated and committed to their language learning journey.

2. Providing authentic learning opportunities - creating opportunities for students to use the language in authentic contexts. This can include real-life role-playing scenarios, such as ordering food at a restaurant, asking for directions, or participating in mock job interviews. Authentic learning experiences help students see the practical value of the language and motivate them to continue learning.

3. Integrating multimedia and technology - Integrating multimedia resources, such as videos, songs, and interactive websites in language lessons. Using technological tools such as language learning apps, online quizzes, and virtual reality simulations make learning more engaging and interactive. Multimedia and technology call for different learning styles and provide students with varied and stimulating learning experiences.

4. Cultivating a growth mindset - motivating students to adopt a growth mindset towards learning a language, highlighting the importance of effort, practice, and persistence. Help them understand that mistakes are a natural part of the learning process and an opportunity for growth. Create a supportive classroom culture where students feel comfortable taking risks and learning from their mistakes.

5. Promoting autonomy and choice - empowering students to take the responsibility of their language learning journey by providing autonomy and choice in choosing learning activities, materials, and topics. Allow students to pursue their interests and explore aspects of the language that resonate with them personally. By giving students a sense of control over their learning, they are more likely to feel motivated and engaged.

6. Providing positive reinforcement - recognizing and marking the students' progress and achievements in their language learning journey. Offer praise, rewards, and recognition

for their efforts, whether it is mastering a difficult grammar concept, expanding their vocabulary, or successfully communicating in the target language. Positive reinforcement increases students' confidence and self-esteem, motivating them to persist in their language learning efforts.

7. Creating a collaborative learning community - developing the sense of belonging and brotherhood among language learners by creating a supportive learning community. Encouraging peer collaboration, teamwork and mutual support through group activities, discussions, and peer feedback sessions. Building strong relationships with classmates and feeling connected to a learning community can improve students' motivation and enjoyment of language learning.

8. Correlating language learning to personal interests and goals - helping students see the relevance of language learning to their personal interests, passions, and future goals. Encouraging exploration of how language proficiency can open up new opportunities, whether it is a career abroad, connecting to family heritage or engaging with global issues. Adjusting the language learning process with students' aspirations and interests in order to make them stay motivated in their language learning.

Strategies for increasing student motivation while learning multiple languages:

Building personalized learning packages - recognize that each student has learning preferences, interests, and unique goals. Adapt language learning activities and materials to adjust to their individual needs and interests. Provide students with choice in selecting learning resources, topics, and activities to increase their involvement and motivation.

Gamification - Including game-like elements into language learning activities to make them more interactive and enjoyable. Using language learning apps with gaming elements such as: rewards, badges, leaderboards, and progress tracking Gamification improves student motivation by creating a sense of competition, achievement and fun.

Project-based Learning - implement project-based learning tasks that allow students to apply language skills in real contexts. Assign projects such as creating multimedia presentations, writing blogs or articles, filming skits or interviews, or organizing cultural events. Projects provide students with meaningful and authentic language learning experiences, fostering inner motivation and creativity.

Collaboration and Peer Support - Encourage collaboration and peer support by integrating cooperative learning activities into the curriculum. Pair students with language study peers or create small group study sessions where they can practice speaking, provide feedback, and share learning strategies. Interaction with peers promotes a sense of community, camaraderie, and mutual encouragement among students.

Cultural Involvement Activities - Organize cultural immersion activities that expose students to the customs, traditions, and lifestyles of different language-speaking communities. Inviting guest speakers, organizing cultural festivals, or trips to cultural landmarks, museums, or ethnic neighbourhoods. Cultural immersion increases students' appreciation of linguistic diversity and motivates them to learn languages as a means of connecting with other cultures.

Technological Application - integrate technological tools and digital resources in language teaching to improve student engagement and motivation. Use interactive multimedia materials, virtual reality simulations, language learning apps, and online language exchange platforms to complement traditional teaching methods. The technology provides students with access to authentic language input, immediate feedback, and personalized learning experiences.

Supervising Progress and Establishing Goals - Implement progress tracking systems that allow students to track their language learning achievements and set achievable goals. Provide students with regular feedback on their language proficiency, identify areas for improvement, and celebrate their successes. Setting goals fosters a sense of purpose, direction, and achievement, and motivates students to continue their language learning

journey. Increasing a positive learning environment means a supportive and inclusive learning environment where students feel valued, respected, and encouraged. Cultivating a growth mindset by emphasizing the importance of effort, persistence, and resilience in language learning. Celebrating diversity, cultural competence, and linguistic achievement within the classroom community.

Applying these methodological strategies, educators can effectively increase student motivation and involvement in learning multiple languages. By fulfilling students' intrinsic interests, developing collaboration, creating authentic learning experiences, and including technology, educators can create an active and motivating language learning environment that motivate students to become lifelong language learners [3].

Conclusion: Multilingual Learning refers to the process through which individuals acquire and use multiple languages. It focuses on the personal and cognitive aspects of learning languages and the way individuals develop language skills. It is more related to the learner's experience, the methods and strategies used to learn and use multiple languages effectively. It highlights the learning process itself, including techniques and practices that make acquiring and using multiple languages easier. Thus multilingual learning focuses on the individual processes and strategies used to acquire and use multiple languages. Learning a foreign language has a significant impact on the student's identity, shaping not only external communication, but also internal perception. Teachers play a key role in creating a teaching environment to support students in developing their identity in various situations.

REFERENCES

1. CENOZ, J. Multilingual Education in the Basque Country In: Beyond Bilingualism: Multilingualism and Multilingual Education. Clevedon: Multilingual Matters Limited . 1998, vol 3(8), pp. 175-191. ISBN: 9781853594205
2. GARDNER, R. C. Integrative Motivation: Past, Present and Future. In: Temple University Japan, Distinguished Lecturer Series, Tokyo, February 17, 2001; Osaka, February 24, 2001.
3. HAMIDI, Hadi, MAFTOON, Parviz, SAREM, Saeid Najafi. A Closer Look at Different Aspects of Language Teaching/ Learning and Learner Identity. In: Theory & Practice in Language Studies [online]. ACADEMY PUBLISHER Manufactured in Finland, 2012. Vol. 2, No. 6, pp. 1160-1167. ISSN: 1799-2591. Available on: https://www. academypublication.com/issues/past/tpls/vol02/06/10.pdf
4. KEMBOJA, Ismail, SUPYAN, Hussin, ZAINI, Amir. Blogs in Language Learning: Maximizing Students' Collaborative Writing. In: Procedia - Social and Behavioural Sciences [online]. Elsevier, 2011, vol. 18, pp. 537-543. ISSN: 1877-0428. DOI: https://doi.org/10.1016/j.sbspro.2011.05.079
5. LARSEN-FREEMAN, D. Techniques and Principles in Language Teaching (2nd Ed.) Oxford: Oxford University Press, 2000. ASIN: B004RXJ03O
6. MARKEE, N. Managing curricular innovation. New York: Cambridge, 1997. ISBN: 0- 521-55512-4
7. MAY, S. The multilingual turn: Implications for SLA, TESOL, and bilingual education. New York: Routledge, 2013. ISBN: 9780203113493
8. PICCARDO, E. Plurilingualism and curriculum design: Toward a synergic vision. TESOL Quarterly [online]. 2013, vol. 47(3), pp. 600-614. ISSN: 1545-7249. DOI: 10.1002/tesq.110
9. SPOLSKY, B. Concise encyclopaedia of educational linguistics. Amsterdam, Elsevier, 1989. ISBN: 9780080431635.
10. SHOHAMY, E. Language policy: Hidden agendas and new approaches. New York: Routledge, 2006. ISBN: 9780415328654

METHODOLOGICAL STRATEGIES AND DIDACTIC LINGUISTIC APPROACHES TO KEEP STUDENTS MOTIVATED TO LEARN MULTIPLE LANGUAGES

Svetlana Apachița
tibuleac.svetlana@gmail.com
Academy of Economic Studies of Moldova
Republic of Moldova, Chișinău

This research addresses a contemporary issue related to optimizing the multilingual education process by enhancing students' motivation to learn multiple languages simultaneously. The study focuses on analyzing the concept of multilingual education from various pedagogical perspectives, as well as examining it from a motivational standpoint. The implementation of multilingual education aims to promote equity and expand educational opportunities, enabling students to develop multilingual abilities and intercultural competencies. These skills, in turn, contribute to the formation of well-rounded and socially responsible global citizens.

Key words: multilingualism, multilingual education, multilingual learning, foreign language learning practices, strategies for learning multiple languages, simultaneous language learning, active and contextual communication, motivational theories, motivation for learning

THE IMPORTANCE OF ARTIFICIAL INTELLIGENCE IN THE DEVELOPMENT OF LANGUAGE SKILLS

Arzu Telman Mammadova
arzumemmedova1998@bk.ru
Baku Business University

Artificial Intelligence (AI) plays a key role in developing language skills by providing personalized, interactive, and efficient learning experiences. AI tools, such as adaptive systems and speech recognition, help students improve listening, speaking, reading, and writing while offering immediate feedback to enhance proficiency and confidence.

This thesis explores the significance of Artificial Intelligence in the development of language skills, examining their practical applications, benefits, and potential challenges in modern educational contexts.

Digital innovation, particularly artificial intelligence, has transformed language education by creating more interactive and personalized learning experiences. Tablets and AI-based applications align teaching with the needs of digitally native learners, increasing engagement and improving outcomes. Integrating these technologies also helps educational institutions stay competitive, innovative, and deliver greater value to students and the community.

Five reasons to integrate technology and artificial intelligence in language classrooms. Integrating technology and artificial intelligence into language education makes learning more engaging, efficient, and tailored to individual needs. Innovative tools create interactive experiences that improve teaching quality and student outcomes. Additionally, adopting these technologies positions educational institutions as leaders in innovation, attracting modern learners and enhancing competitiveness. When applied effectively, they can transform language instruction and offer significant educational benefits.

Interactivity: E-learning and blended learning platforms offer adaptive, hands-on activities that help students develop listening, reading, writing, and speaking skills dynamically. Teachers can track progress in real time and tailor instruction to individual needs.

Connection with Digital Students: Modern learners, or digital natives, engage effectively with technology. Tablets and multimedia resources like audio, video, and interactive exercises help maintain interest and bridge the gap between traditional methods and tech-savvy expectations.

Active Participation: Technology encourages students to take an active role in their learning, both in class and remotely, fostering a personalized and flexible experience.

Real-Time Evaluation and Tracking: Online platforms provide quizzes and automated assessments with immediate feedback, allowing learners to correct mistakes quickly and enabling teachers to adjust content according to class progress.

Accessibility: Digital tools support inclusive learning for students with diverse needs through features like voice commands, touchscreens, and customizable interfaces, allowing all learners to participate and progress at their own pace **[2].**

Key technologies in AI. Several technologies form the foundation of artificial intelligence:

Natural Language Processing (NLP): Enables machines to understand and analyze human language.

Machine Learning & Deep Neural Networks: Core AI systems that learn from large datasets and improve performance over time.

Automated Speech Recognition (Speech-to-Text): Converts spoken language into written text.

Text-to-Speech: Transforms written text into spoken audio.

Text-to-Video: A newer AI technology that converts text into video content **[1, səh 6].**

Challenges of AI in digital learning. Artificial intelligence has greatly improved digital learning, but it also presents several challenges. Ethical concerns arise from the use of learner data, including privacy, security, and the risk of biased or inappropriate decisions. Additionally, educators and facilitators need proper training to effectively use AI tools like chatbots and automated systems, ensuring they maximize learning benefits. Finally, limited or inconsistent data in certain education settings can make it difficult for AI technologies to function at their full potential, particularly in decentralized or public education systems **[3].**

REFERENCES

1. Galaczi, E., & Luckin, R. (2024). Generative AI and Language Education: Opportunities, Challenges and the Need for Critical Perspectives. Cambridge University Press & Assessment.
2. https://www.cae.net/5-reasons-why-technology-ai-indispensable/
3. https://www.digitallearninginstitute.com/blog/ai-in-digital-learning-benefits-applications-and-challenges

THE IMPORTANCE OF ARTIFICIAL INTELLIGENCE IN THE DEVELOPMENT OF LANGUAGE SKILLS

Arzu Telman Mammadova
arzumemmedova1998@bk.ru
Baku Business University

This thesis examines the role of artificial intelligence (AI) in the development of language skills. AI-based technologies, including adaptive learning systems, speech recognition tools, and intelligent tutoring programs, enable students to enhance their listening, speaking, reading, and writing abilities while receiving immediate and personalized feedback. The analysis demonstrates that the integration of artificial intelligence not only reduces teachers' workload but also increases students' motivation, promotes learner autonomy, and improves overall language proficiency. The research proposes a methodological approach that systematically evaluates the impact of AI-driven adaptive systems on the language learning process and assesses the effectiveness of personalized teaching strategies and interactive digital tools. The implementation of artificial intelligence in language education contributes to making instruction more personalized, interactive, and efficient. Moreover, it enhances learning outcomes and provides a scientific foundation for the future integration of advanced technologies into the educational process.

Keywords: artificial intelligence, language learning, adaptive systems, e-learning, interactive education, speech recognition, personalized instruction, accessibility

MÜASİR TƏHSİL VƏ SÜNİ İNTELLEKT

Mətanət Eldar qızı Mustafayeva
mustafayeva20091214@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Süni intellektin (AI) gündəlik həyatımıza inteqrasiyası misli görünməmiş şəkildə müxtəlif sahələrdə əhəmiyyətli təsirlər yaradaraq dərin və geniş yayılmaqdadır. Bu inteqrasiya idman, tibb, tikinti və xüsusilə də təhsil kimi sahələrdə özünü büruzə verir, burada süni intellekt işimizi necə təşkil etdiyimizi və təhsil kurikulumlarının yenilənməsində də inqilab edir, hər yaşda olan tələbələr üçün yeni öyrənmə imkanları təmin edir. Süni intellektlə dəstəklənən təhsil ənənəvi tədris üsullarını modern tələbata uyğunlaşdırır, sahənin texnoloji gələcəyini formalaşdırır. Qabaqcıl alqoritmlərdən istifadə edərək böyük məlumat dəstlərini təhlil edərək, AI çevik və fərdiləşdirilmiş təhsil həlləri və təcrübələri təqdim edir. Bu, tələbələrə dərhal geribildirim və virtual reallıq kimi innovativ texnologiyalara çıxışla fərdiləşdirilmiş və rəhbərliyə əsaslanan öyrənmə imkanı verir.

Təhsildə süni intellekt müxtəlif tapşırıqları asanlaşdıraraq və öyrənmə prosesini asanlaşdıraraq çoxsaylı üstünlüklər təqdim edir. Süni intellektlə hər bir tələbənin ehtiyaclarına cavab verən fərdi həllər tapmaq olar. Bəzi tələbələr məlumatı tez qavrayarkən, digərləri daha çox vaxt tələb edə bilər. Ənənəvi təhsil sistemlərində fərdi ehtiyaclar nəzərdən qaçırıla bilər. Süni intellekt hər bir tələbənin tempinə və üslubuna uyğunlaşan, dərslərin başa düşülməsini asanlaşdıran yanaşma təklif edir. Həmçinin süni intellekt ev tapşırıqlarının, testlərin qiymətləndirilməsi, tədqiqat işlərinin təşkili və qeydlərin idarə edilməsi kimi bir çox vacib fəaliyyətləri avtomatlaşdıra bilir. Bu avtomatlaşdırma təhsil prosesini təkmilləşdirməklə yanaşı, təhsilin idarə edilməsini daha səmərəli və məhsuldar edir. Təhsildə süni intellektdən istifadənin effektiv tətbiqlərinə misal olaraq aşağıdakıları göstərmək olar:

Google Classroom: Avtomatlaşdırılmış qiymətləndirmə üçün süni intellekt alqoritmləri ilə dəstəklənən tapşırıqların tərtib edilməsi, rəy bildirilməsi və sinifdə qarşılıqlı əlaqənin idarə edilməsi üçün istifadə olunur. *Google Translate və Google Scholar:* Dərhal tərcümə imkanları və tədqiqat resurslarına çıxış ilə öyrənmə və akademik tədqiqat təcrübələrini təkmilləşdirir. *Coursera:* Fərdiləşdirilmiş kurs tövsiyələri və adaptiv öyrənmə yolları təklif etmək üçün süni intellektdən istifadə edir. *Duolingo:* Tələbələrin tərəqqi və ehtiyaclarına uyğunlaşan çevik dil dərsləri hazırlamaq üçün süni intellektdən istifadə edir.

Süni intellektdən istifadə etməklə formalaşan ali məktəb modeli ənənəvi tədris sistemindən fərqli olaraq məlumat əsaslı, adaptiv və tələbə mərkəzli yanaşmaya əsaslanır. Bu modeldə süni intellekt sadəcə texnoloji alət deyil, həm də tədris prosesinin planlaşdırılması, icrası və qiymətləndirilməsində aktiv iştirak edən akademik tərəfdaş rolunu oynayır. İlk olaraq, ***adaptiv və fərdiləşdirilmiş öyrənmə metodu*** ön plana çıxır. Bu yanaşmada süni intellekt hər bir tələbənin bilik səviyyəsini, öyrənmə sürətini, maraq dairəsini və zəif tərəflərini analiz edir. Toplanan məlumatlara əsasən sistem fərdi tədris yolu formalaşdırır. Nəticədə bütün tələbələr eyni temp və eyni üsulla deyil, öz potensiallarına uyğun şəkildə öyrənirlər. Bu metodun əsas funksiyası təhsildə bərabər imkan yaratmaq və akademik nəticələri optimallaşdırmaqdır.

İkinci mühüm metod ***ağıllı tutor*** sistemləridir. Bu sistemlər virtual müəllim köməkçisi kimi fəaliyyət göstərir və tələbələrə 24 saat dəstək verir. Süni intellekt tələbənin suallarını cavablandırır, mövzuları alternativ formada izah edir, əlavə tapşırıqlar hazırlayır və dərhal geribildirim təqdim edir. Bu yanaşma ənənəvi auditoriya məhdudiyyətlərini aradan qaldırır və öyrənməni fasiləsiz prosesə çevirir. Belə sistemlər artıq dünyanın qabaqcıl universitetlərində, məsələn Stanford University və MIT kimi ali təhsil müəssisələrində müxtəlif formalarda tətbiq edilir. Digər mühüm istiqamət ***data əsaslı qiymətləndirmə və öyrənmə analitikasıdır***. Süni intellekt tələbənin dərsə davamiyyəti, tapşırıq performansı, test nəticələri və platforma aktivliyi kimi göstəriciləri analiz edərək ümumi inkişaf trayektoriyasını müəyyən edir. Bu metodun funksiyası yalnız qiymət vermək deyil, həm də risklərin erkən aşkar edilməsidir. Məsələn, sistem tələbənin akademik geriləmə ehtimalını əvvəlcədən müəyyən edə və müəllimə xəbərdarlıq edə bilər. Bu isə vaxtında dəstək və müdaxilə imkanı yaradır. ***Flipped classroom***

modeli süni intellektlə daha effektiv hala gəlir. Bu yanaşmada tələbələr nəzəri materialı əvvəlcədən rəqəmsal platformada öyrənirlər. Süni intellekt materialı strukturlaşdırır, xülasə və testlər hazırlayır, tələbənin hazır olub-olmadığını yoxlayır. Auditoriya vaxtı isə müzakirə, praktiki tapşırıq və problem həllinə ayrılır. Bu metodun funksiyası passiv dinləməni aktiv iştirakla əvəz etməkdir.

Simulyasiya və virtual laboratoriyalar da süni intellekt əsaslı ali məktəbin mühüm tərkib hissəsidir. Xüsusilə tibb, mühəndislik, iqtisadiyyat və hüquq kimi sahələrdə real həyat ssenariləri süni mühitdə modelləşdirilir. Tələbə qərarlar qəbul edir və sistem həmin qərarların nəticələrini analiz edir. Bu metodun əsas funksiyası risk olmadan praktik bacarıq formalaşdırmaqdır. ***Layihə əsaslı öyrənmə modelində*** isə süni intellekt mentor rolunda çıxış edir. Tələbələr real problemlər üzərində işləyərkən sistem onlara plan qurmaqda, resurs tapmaqda, riskləri analiz etməkdə və nəticələri qiymətləndirməkdə kömək edir. Bu yanaşma tələbələrin tənqidi düşünmə, yaradıcılıq və problem həll etmə bacarıqlarını inkişaf etdirir. ***Generativ süni intellektdən*** istifadə yaradıcılıq yönümlü sahələrdə yeni imkanlar açır. Dizayn, media, marketinq və memarlıq kimi istiqamətlərdə tələbələr süni intellektlə interaktiv şəkildə işləyərək müxtəlif konseptlər yarada, alternativ variantları müqayisə edə və layihələrini təkmilləşdirə bilirlər. Bu metodun funksiyası ideya istehsalını sürətləndirmək və yaradıcılıq prosesini zənginləşdirməkdir. Nəhayət, ***kompetensiya əsaslı və mikro-modul sistem*** süni intellektin dəstəyi ilə daha effektiv təşkil olunur. Bu modeldə təhsil uzun semestrlər yerinə kiçik bacarıq blokları əsasında qurulur. Süni intellekt tələbənin hansı bacarıqlara sahib olduğunu və hansı sahələrdə boşluq olduğunu müəyyən edərək fərdi inkişaf planı təqdim edir. Bu yanaşma əmək bazarına daha uyğun və çevik kadr hazırlığına xidmət edir.

Beləliklə, süni intellekt əsaslı ali məktəb modeli tədrisi standartlaşdırılmış sistemdən çıxarıb fərdiləşdirilmiş, dinamik və nəticə yönümlü prosesə çevirir.

Süni intellektin (AI) təhsildə istifadəsi bir çox üstünlüklər versə də, onun müəyyən mənfi tərəfləri də mövcuddur:

1. Tələbələrin düşünmə qabiliyyətinin zəifləməsi -Şagirdlər tapşırıqları özləri həll etmək əvəzinə süni intellektdən istifadə etdikdə analitik düşünmə, problem həll etmə və yaradıcılıq bacarıqları zəifləyə bilər.

2. Akademik dürüstlük problemləri- AI alətləri vasitəsilə esse, layihə və ya cavabların hazırlanması köçürməni (plagiatı) artırır və real bilik səviyyəsini müəyyən etməyi çətinləşdirir.

3. Asılılıq riski- Şagird və müəllimlər texnologiyadan həddindən artıq asılı vəziyyətə düşə bilərlər. Bu isə texnologiya olmadıqda çətinlik yarada bilər.

4. Məlumatların gizliliyi və təhlükəsizlik- Şagirdlərin şəxsi məlumatlarının AI sistemlərində toplanması və saxlanması məlumat sızması riskini artırır.

5. Bərabərsizlik problemi -Bütün şagirdlərin eyni səviyyədə texnologiyaya çıxışı yoxdur. Bu da imkan fərqini artıraraq təhsildə sosial bərabərsizliyi dərinləşdirə bilər.

6. *Müəllim rolunun azalması*- AI sistemləri müəllimin yerini tam əvəz edə bilməsə də, insan ünsiyyəti, emosional dəstək və fərdi yanaşma azalır.

7. Səhv və qərəzli məlumat riski- Süni intellekt sistemləri bəzən yanlış və ya qərəzli məlumat təqdim edə bilər. Bu isə şagirdlərin səhv məlumat öyrənməsinə səbəb ola bilər.

Süni intellektin təhsildə istifadəsi müasir dövrdə qaçılmaz və faydalı olsa da, onun mənfi tərəfləri də nəzərə alınmalıdır. Öyrənənlərin müstəqil düşünmə bacarıqlarının zəifləməsi, akademik dürüstlük problemləri, məlumat təhlükəsizliyi riskləri və sosial bərabərsizlik kimi məsələlər diqqətlə idarə olunmalıdır. Bu səbəbdən süni intellekt təhsildə əsas vasitə deyil, ***köməkçi alət*** kimi istifadə olunmalıdır.

MODERN EDUCATİON AND ARTİFİCİAL INTELLİGENCE

Matanat Eldar Mustafayeva
mustafayeva20091214@mail.ru
Azerbaijan Technological University

The integration of Artificial Intelligence (AI) into daily life is increasingly deep and widespread, producing significant effects across multiple domains. In the field of education, AI

offers numerous advantages by streamlining tasks, personalizing learning, and facilitating the overall educational process. While the adoption of AI in education is both inevitable and beneficial, it is essential to recognize and address its potential negative consequences. AI should serve as a supportive tool rather than the primary agent of instruction. Its risks can be effectively mitigated through the implementation of clear guidelines, ethical standards, and robust control mechanisms. The study emphasizes that balanced and responsible use of AI can maximize its educational benefits while preserving the central role of human educators in fostering critical thinking, creativity, and social development.

Keywords: artificial intelligence, education, innovation, responsible use, educational technology

TƏLƏBƏLƏRİN AKADEMİK NAİLİYYƏTLƏRİNİ ŞƏKİLLƏNDİRƏN DETERMİNANTLAR: SOSİAL, PSİXOLOJİ VƏ PEDAQOJİ FAKTORLARIN KOMPLEKS TƏHLİLİ

Telli Hüseynağa qızı Qədirova
telliqdrli@gamil.com
Sumqayıt Dövlət Universiteti

Tədqiqat çərçivəsində 2024–2025-ci tədris ilində ölkənin üç aparıcı ali təhsil müəssisəsində təhsil alan 600 bakalavr tələbəsi arasında genişmiqyaslı empirik araşdırma aparılmışdır. Respondentlərin 62%-i qadın, 38%-i kişi olmuş, yaş aralığı 18–24 təşkil etmişdir. Tədqiqat iki semestri əhatə etmiş və bu da akademik nailiyyətlərin dinamik dəyişimini izləməyə imkan vermişdir **[1].**

Tələbələrin orta GPA göstəricisi 3.02 olmuşdur. Respondentlərin 27%-i yüksək akademik nailiyyət səviyyəsinə (GPA ≥ 3.5), 49%-i orta səviyyəyə, 24%-i isə aşağı akademik göstəricilərə malik olmuşdur **[2].** Maraqlıdır ki, GPA ilə yalnız bilik səviyyəsi deyil, eyni zamanda davranış və psixoloji faktorlar arasında da güclü əlaqə müşahidə edilmişdir **[8].**

Tələbələrin 71%-i davamiyyətin akademik nəticələrə birbaşa təsir etdiyini bildirmiş, lakin bu qrupun yalnız 44%-i müntəzəm davamiyyət nümayiş etdirmişdir. Bu uyğunsuzluq akademik motivasiya ilə real davranış arasındakı boşluğu göstərir **[3].**

Ailənin maddi vəziyyətindən daha çox ailə təhsil davranışı (valideynlərin oxu vərdişi, övladın təhsilinə münasibəti) akademik nailiyyətlərə təsir göstərir. Belə ki, valideynləri mütəmadi oxu və öyrənmə fəaliyyəti ilə məşğul olan tələbələrin orta GPA göstəricisi 3.26, bu davranışın müşahidə olunmadığı ailələrdə isə 2.74 olmuşdur.

Respondentlərin 58%-i ailədən güclü psixoloji dəstək aldığını bildirmiş və bu qrupda akademik uğur səviyyəsi statistik olaraq daha yüksək olmuşdur. Eyni zamanda, sosial media istifadəsi gündə 4 saatdan çox olan tələbələrin 63%-ində akademik nəticələrin aşağı düşməsi müşahidə edilmişdir **[4].**

Tədqiqatın ən diqqətçəkən nəticələri psixoloji dəyişənlərlə bağlı olmuşdur. Respondentlərin 46%-i akademik tapşırıqları son ana saxladığını (prokrastinasiya), 39%-i isə bir uğursuzluqdan sonra motivasiyasının kəskin azaldığını etiraf etmişdir **[9].**

Akademik özünə inam səviyyəsi yüksək olan tələbələrin orta GPA göstəricisi 3.34, aşağı özünə inama malik tələbələrdə isə 2.61 olmuşdur. Eyni zamanda, tələbələrin 31%-i "uğur qorxusu" yaşadığını, yəni yüksək nəticələrin daha çox məsuliyyət yaradacağı düşüncəsi ilə performansını şüurlu şəkildə məhdudlaşdırdığını bildirmişdir ki, bu faktor klassik tədqiqatlarda demək olar ki, nəzərə alınmır **[5].**

Stresslə adaptasiya bacarığı zəif olan tələbələrin 67%-ində akademik göstəricilərin semestrlər üzrə azaldığı müşahidə edilmişdir.

Müəllim-tələbə münasibətlərinin keyfiyyəti akademik nailiyyətlərə ciddi təsir göstərmişdir. Müəllimdən müntəzəm və konstruktiv geribildirim alan tələbələrin 72%-i öz akademik performansında irəliləyiş müşahidə etdiyini qeyd etmişdir.

Dərslərdə interaktiv metodlardan (case study, müzakirə, layihə işi) istifadə edilən fənlər üzrə orta qiymətlər 0.4 bal daha yüksək olmuşdur. Respondentlərin 54%-i qiymətləndirmə meyarlarının şəffaf olmadığını düşündüyü fənlərdə motivasiyasının azaldığını bildirmişdir **[6].**

Araşdırma zamanı tələbələrin öyrənmə davranışları ayrıca analiz edilmişdir. LMS sistemləri üzərindən əldə olunan məlumatlara əsasən:

Tələbələrin 62%-i dərs materiallarına yalnız imtahandan 3–5 gün əvvəl baxmışdır

48%-i dərs zamanı telefonla məşğul olduğunu etiraf etmişdir

Müntəzəm təkrar edən tələbələrin akademik nəticələri digərlərinə nisbətən 23% daha yüksək olmuşdur **[7].**

Akademik nailiyyətlər təkcə bilik və intellektual potensialla deyil, davranış intizamı və psixoloji dayanıqlıqla formalaşır.

Əldə edilən data sübut edir ki, tələbələrin akademik nailiyyətləri sosial, psixoloji və pedaqoji faktorların qarşılıqlı təsiri nəticəsində formalaşır və bu proses xətti deyil, dinamik və çoxölçülüdür. Xüsusilə psixoloji və davranış əsaslı faktorlar klassik sosial göstəricilərdən daha güclü determinant kimi çıxış edir.

Nəticə. Tələbələrin akademik nailiyyətləri tək bir faktorla deyil, sosial mühit, psixoloji xüsusiyyətlər və pedaqoji yanaşmaların qarşılıqlı və kompleks təsiri nəticəsində formalaşır. Xüsusilə ailənin təhsil davranışı, akademik özünə inam, stresslə mübarizə bacarığı və öyrənmə davranışlarının intizamlılığı akademik göstəricilərə birbaşa və əhəmiyyətli təsir edən əsas determinantlar kimi çıxış edir. Tədqiqat sübut edir ki, yalnız biliyin səviyyəsi deyil, tələbənin motivasiya strukturu, psixoloji dayanıqlığı və tədris prosesində fəal iştirak imkanları akademik uğurun davamlılığını müəyyənləşdirir. Bu baxımdan, ali təhsil müəssisələrində akademik nailiyyətlərin yüksəldilməsi üçün pedaqoji yanaşmaların psixoloji və davranış əsaslı mexanizmlərlə inteqrasiyası zəruri hesab edilməlidir.

ƏDƏBİYYAT

1. Abbasov, Ə. N. Pedaqogika. Bakı, Təhsil nəşriyyatı, 2014, 640 s.
2. Əliyev, R. Ə. Ali məktəb pedaqogikası. Bakı, Elm və Təhsil nəşriyyatı, 2016, 352 s.
3. Məmmədov, F. M. Təhsil psixologiyası. Bakı, ADPU nəşriyyatı, 2017, 304 s.
4. Hüseynov S. A. Tələbələrin təlim fəaliyyətinin psixoloji əsasları. Bakı.Elm nəşriyyatı.2019.268 s.
5. Azərbaycan Respublikası Təhsil İnstitutu. Ali təhsildə keyfiyyət təminatı üzrə analitik hesabat. Bakı, 2021, 94 s.
6. Teaching for Quality Learning at University. Biggs, J., Tang, C. Maidenhead, Open University Press, 2017, 389 p.
7. Psychology of Education. Woolfolk, A. Boston, Pearson Education, 2020, 704 p.
8. Self-Regulated Learning and Performance. Zimmerman, B. J., Schunk, D. H. New York, Routledge, 2018, 418 p.
9. Student Engagement in Higher Education. Barkley, E. F., Major, C. H. San Francisco, Jossey-Bass, 2020, 352 p.

DETERMINANTS SHAPING STUDENTS' ACADEMIC ACHIEVEMENT: A COMPREHENSIVE ANALYSIS OF SOCIAL, PSYCHOLOGICAL, AND PEDAGOGICAL FACTORS

Telli Huseynaga Gadirova
telliqdrli@gmail.com
Sumgait State University

This study examines the social, psychological, and pedagogical factors that influence students' academic achievement, drawing on contemporary research and theoretical approaches. The findings highlight the crucial role of family support and the broader social environment in shaping students' long-term motivation for learning. Psychological resilience is identified as a key condition for sustaining academic persistence and overcoming challenges in the educational process. By integrating insights from both local and international studies, the research underscores that these social, emotional, and pedagogical determinants will become increasingly important in the design of future learning models. The study emphasizes the need for educators to consider these factors in order to enhance instructional quality, foster student motivation, and support holistic academic development.

Keywords: academic achievement, social determinants, psychological factors, pedagogical approaches, learning motivation, emotional resilience, quality of instruction

DEMOKRATİK CƏMİYYƏTDƏ İNSAN HÜQUQLARININ QORUNMASI

Aidə Rza qızı Tağıyeva
a.tagiyeva@atu.edu.az
Mehriban İmran qızı Tağıyeva
m.tagiyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İstər ayrıca bir cəmiyyətdə, istərsə də dünyada azadlığın, ədalətin və ümumi sülhün əsasını insan hüquqlarına hörmət təşkil edir.

Demokratik cəmiyyətlərdə insan hüquqları Konstitusiya qanunu kimi müəyyən edilir. Bu qanun parlamentin qəbul etdiyi adi qanunlardan yüksəkdə dayanır. Odur ki, insan hüquqlarını demokratik ölkələrdə "konstitusiya hüquqları" da adlandırırlar. Demokratik ölkədə konstitusiya cəmiyyətin, dövlətin idarə edilməsində insanların iştirak etmək hüququnu təsbit edir.

Demokratik hakimiyyət formalarının mövcud ölkələrdə şəxsiyyətlər, müxtəlif birliklər, qruplar, partiyalar və s. cəmiyyətin həyatında geniş iştirak edir. Məsələn, onlar seçkilərarası dövrdə hakimiyyətin keçirdiyi tədbirlərə öz münasibətlərini bildirirlər. Bu tədbirlərdən razı qaldıqda onları təqdir edir, narazı qaldıqda isə qanunun yol verdiyi şəkildə etiraz aksiyaları keçirə bilirlər. Beləliklə, müxtəlif qüvvələr cəmiyyətdə qərarların qəbul edilməsinə dövlətin daxili və xarici siyasətinin müəyyənləşdirilməsinə və s. təsir göstərə bilirlər.

İnsan hüquqlarının qorunması demokratik cəmiyyətin, demokratiyanın mahiyyətindən irəli gəlir. Çünki, demokratik cəmiyyətin əlamətlərindən biri, onun təməlində duran qanunların aliliyidir. Bu cəmiyyətin təməl qanunları isə insan hüquqlarıdır. İnsan hüquqları demokratik cəmiyyətdə hər hansı bir qanundan, hər hansı bir məsələdən, eyni zamanda prezidentdən yüksəkdə durur. Prezidentdən başlamış adi bir fəhləyə qədər hər kəs bu hüquqların gözlənilməsi üçün məsuliyyət daşıyır. Demokratik cəmiyyətin varlığı insan hüquqları ilə bağlıdır. Bu hüquqların müdafiəsi və ya pozulması cəmiyyətin demokratikliyinin göstəricisidir. Cəmiyyətdə insan hüquqları nə qədər çox pozularsa, onun demokratiyadan uzaqlaşması, demokratik olmaması bir o qədər aydın görünür. Demokratiya yolu ilə gedən cəmiyyətdə isə əksinə, insan hüquqlarının reallaşması və müdafiəsi getdikcə daha geniş vüsət alır.

Beləliklə, demokratik cəmiyyətlə (demokratiya ilə) insan hüquqlarının müdafiəsi arasında üzvi əlaqə, asılılıq vardır. İnsan hüquqlarının müdafiəsi üçün nə qədər çox iş görülürsə, cəmiyyətdə demokratiya bir o qədər inkişaf edir. Əksinə, insan hüquqları nə qədər çox pozulmaqda davam edirsə, cəmiyyət bir o qədər qeyri-demokratik olar.

Mövcud ABŞ demokratiyası uzun bir inkişaf yolu keçmişdir. Bu haqda az-çox aydın təsəvvürə malik olmaq üçün bir neçə fakta diqqət edək. ABŞ Konstitusiyası qəbul edilən dövrdə (1787-ci il) ölkədə əhalinin sayı 4 milyon idi. Konstitusiya isə yalnız 120 min nəfərə səsvermə hüququ verirdi. Hazırda isə seçki hüququ ABŞ cəmiyyətinin müxtəlif təbəqələrini ən geniş şəkildə əhatə edən dəyərlərdən biridir.

ABŞ-ın Konstitusiyasına edilən birinci düzəliş (1791-ci ildə) elə hökumətlə insanlar arasındakı münasibətə aiddir. Orada yazılırdı: "Konqres, ölkədə hər hansı bir dinə ibadət edilməsinə icazə verən və ya bu ibadəti qadağan edən, söz və mətbuat azadlığını məhdudlaşdıran, insanların bir yerə toplaşmaq və şikayətlərinə baxılması məqsədilə müraciət etmək hüququnu pozan heç bir qanun qəbul etməməlidir".

Konstitusiya hökumətdən tələb edir ki, heç bir şeyə qarışmasın, öz vətəndaşlarının bu hüquqlarını məhdudlaşdırmasın ki, ABŞ Konstitusiyasında "insanın hüququ var" ifadəsi işlənməmişdir, əvəzində, "Konqresin hüququ yoxdur" ifadəsi işlənmişdir.

ABŞ Konstitusiyasına görə Konqresin qəbul etdiyi qanunların heç biri konstitusiyadan, xüsusilə insan hüquqlarına dair maddələrdən yüksəkdə dura bilməz. Konqres Konstitusiyanı dəyişdirə bilməz. Ona görə də, Konqres insan hüquqlarına qəsd etməklə xalqın razı qalmadığı prezidentin hakimiyyətini uzatmaq məqsədilə konstitusiyaya dəyişiklik etmək, onu dəyişdirmək iqtirdarında deyil.

1803-cü ildə ABŞ-da Ali Məhkəmənin sədri Con Marşall idi. Məhkəmədə bir məmurun dövlət katibi Medsona qarşı qaldırdığı iddiaya baxılırdı. Bu zaman aydın oldu ki, Konqresin

qəbul etdiyi qanun konstitusiyaya uyğun gəlmir. Con Marşall cəsarət nümayiş etdirərək Konqresin qəbul etdiyi qanunu ləğv etdi. Bu, doğrudan da, cəsarətli hərəkət idi. Çünki, bu vaxta qədər Ali Məhkəmə Konqresin qanununu ləğv etməmişdi. Bununla da Con Marşall yeni qayda yaratdı: Ali Məhkəmə Konqresin və hökumətin Konstitusiyaya zidd qanun və qərarlarını ləğv edə bilər.

C.Marşallın qoyduğu qaydaya görə məhkəmədə insan hüquqlarının hökumət tərəfindən pozulması hallarına baxılarkən hakimlər (məhkəmə) Konstitusiyanın insan hüquqlarına dair müddəalarından hökumətə qarşı istifadə etməlidirlər. Beləliklə, ABŞ-da insan hüquqları faktiki olaraq "Konstitusiya hüquqları"na çevrildi. Con Marşall insan hüquqları ilə dövlət mənafeyi arasında yaranan münaqişəni insan hüquqlarının xeyrinə həll etdi. Bu gün dövləti məhkəməyə vermək və onu udmaq imkanı ABŞ cəmiyyətində adi hala çevrilmişdir. İndi ABŞ hakimləri dövlət orqanlarının əleyhinə ədalətin xeyrinə hökm çıxara bilərlər.

İnsan hüquqları cəmiyyətdə insanın fəaliyyət imkanlarını göstərir. Bu hüquqlar nə qədər genişdirsə, insanın fəaliyyət imkanları da bir o qədər genişdir. Bu hüquqların təminatı nə səviyyədədirsə, insanların azadlığı da o səviyyədədir. Əğər insanın təbii hüquqları pozulursa, şəxsi ləyaqət hissi tapdanırsa, o, özünü alçaldılmış hiss edir. Bu cür insanlar tənqidi, yarıdıcı düşünmək, yaratmaq qabiliyyətini itirirlər. Belə şəraitdə insanın özünün inkişafı ləngiyir, məhdudlaşır. İnsanların inkişafı ləngiyirsə, deməli, bütövlükdə cəmiyyətin inkişafı ləngimiş, məhdudlaşmış olur. Buradan görünür ki, insanların təbii və ayrılmaz hüquqlarının təmin olunub-olunmaması cəmiyyətin inkişafı məsələsidir. Kim bu hüquqların təminatı uğrunda mubarizə aparırsa, o, cəmiyyətin inkişafına çalışır. Cəmiyyət bu cür insanların hesabına inkişaf edir.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasında Konstitusiyanın qəbul olunması ilə ölkəmizdə demokratik islahatların inkişafı üçün şərait yaradıldı. Senzuranın ləğvi cəmiyyətimizdə söz, fikir azadlığını təmin etdi. Cəmiyyətdə müasir vəziyyətə uyğun olan seçki haqqında qanun qəbul olundu.

Qanunların insan hüquqlarını və əsas azadlıqları pozmamasına nail olmaq üçün 1996-cı ilin fevralında Prezident yanında Hüquqi İslahatlar Komissiyası yaradıldı. Bundan başqa ölkəmizdə hazırlanan çox mühüm hüquqi sənədlərin insan hüquqlarının və əsas azadlıqların müdafiəsinə zidd olmaması üçün onlar Avropa Şurasında ekspert rəyindən keçirildi.

1998-ci ilin fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında" Prezident Fərmanı verildi. İnsan hüquqlarının təmin olunması üçün "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında" və başqa qanunlar qəbul olundu. Senzura ləğv edildi və bununla da cəmiyyətdə söz, fikir azadlığına şərait yarandı. Respublikada ölüm cəzası ləğv edildi və insanın təbii hüququ olan yaşamaq hüququ cəmiyyət səviyyəsində təsdiq olundu.

Vətənimiz Şərqdə bu cəzanı ləğv edən ilk ölkə oldu. 1993-2000-ci illərdə 40 min nəfərdən çox məhbusa aministiya tətbiq edildi.

1998-ci ildə ölkədə Konstitusiya Məhkəməsi yaradıldı. Konstitusiya Məhkəməsi hüquqları pozulmuş vətəndaşların və ya təşkilatların şikayətlərinə baxaraq qərar qəbul edir. Qərar qapalı müşavirədə səs çoxluğu ilə qəbul olunur. Konstitusiya Məhkəməsinin qərarı qətidir. Onu heç bir orqan və ya vəzifəli şəxs ləğv edə və ya dəyişdirə bilməz.

Konstitusiya Məhkəməsi öz fəaliyyətində insan hüquqları və əsas azadlıqlar haqqında beynəlxalq hüquqi sənədlərin və Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsaslanır.

PROTECTION OF HUMAN RIGHTS IN A DEMOCRATIC SOCIETY

Aida Rza Taghiyeva
a.tagiyeva@atu.edu.az
Mehriban Imran Taghiyeva
m.tagiyeva@atu.edu.az
Azerbaijan University of Technology

The protection of human rights plays a comprehensive role in the life of a democratic society. In a democratic society, human rights are defined as constitutional law. This law stands above ordinary laws passed by parliament, as one of the hallmarks of a democratic society is the

supremacy of the laws that form its foundation. In order to ensure that laws do not violate human rights and fundamental freedoms, the Commission on Legal Reforms under the President was established in February 1996. Furthermore, to ensure that the crucial legal documents being drafted in our country do not contradict the protection of human rights and fundamental freedoms, they were submitted to the Council of Europe for expert review.

Keywords: Constitution, state, court, law

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ LAYİHƏ ƏSASLI FƏALİYYƏTLƏRİN TƏŞKİLİ

Sevinc Həsənova
sevinchesenova273@gmail.com
Sumqayıt Dövlət Universiteti

Müasir pedaqoji yanaşmalar şagirdləri aktiv öyrənmə prosesinə cəlb etməyi, onların təhlil, sintez və yaradıcılıq bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Bu baxımdan, layihə əsaslı fəaliyyətlər (Project-Based Learning – PBL) şagirdlərin nəzəri bilikləri praktik fəaliyyətdə tətbiq etməsinə şərait yaradır, həmçinin onların ünsiyyət və əməkdaşlıq bacarıqlarını gücləndirir. Azərbaycan dili dərslərində bu metodik yanaşma şagirdlərin yazılı və şifahi ifadə qabiliyyətlərinin inkişafına böyük töhfə verir və onların fərdi yaradıcılıq potensialını üzə çıxarmağa xidmət edir **[1].**

Layihə əsaslı fəaliyyətin effektiv tətbiqi bir sıra prinsiplərə əsaslanır. Əvvəlcə, layihənin mövzusu şagirdlərin maraqlarına və dərsin məqsədinə uyğun seçilməlidir. Mövzu seçimi şagirdlərin öyrənməyə motivasiyasını artırır və onların dərsə marağını yüksəldir. Məsələn, "Mənim sevimli kitabım" və ya "Sumqayıt şəhərinin mədəni irsi" kimi mövzular şagirdlərin həm araşdırma bacarıqlarını, həm də yazı və təqdimat qabiliyyətlərini inkişaf etdirir. Bu yanaşma şagirdlərin öz düşüncələrini strukturlaşdırmasına, məlumatları təhlil etməsinə və yaradıcı şəkildə ifadə etməsinə imkan verir.

Layihə zamanı şagirdlərin fəal iştirakı vacibdir. Bu metodika müəllimi yalnız müşahidəçi və rəhbər roluna yönləndirir, şagirdlər isə öyrənmə prosesinin mərkəzində dayanaraq bilikləri özləri tətbiq edirlər. Beləliklə, şagirdlər məsuliyyət, müstəqillik və qərarvermə bacarıqlarını inkişaf etdirirlər. Eyni zamanda, layihələrin qruplar şəklində icra edilməsi komanda işi və əməkdaşlığı təşviq edir. Şagirdlər tapşırıqları bölüşdürür, fikir mübadiləsi aparır, problemləri birgə həll edirlər ki, bu da onların sosial bacarıqlarını daha da gücləndirir **[2].**

Layihə əsaslı fəaliyyət həmçinin şagirdləri yaradıcılığa və tənqidi düşüncəyə cəlb edir. Məsələn, müəyyən mövzu üzrə məlumat toplamaq, onu sinifdə təqdim etmək, eləcə də poster və ya digər vizual materiallar hazırlamaq şagirdlərin problem həll etmə, analitik və tənqidi düşünmə bacarıqlarını artırır. Bu yanaşma şagirdlərin müstəqil işləmə, ideya yaratma və komanda daxilində məsuliyyət daşıma qabiliyyətlərini inkişaf etdirir. Nəticədə, layihənin sonunda əldə edilən nəticələrin sinifdə təqdim olunması prosesi şifahi və yazılı ünsiyyət bacarıqlarını gücləndirir və müəllimə şagirdlərin bilik və bacarıqlarını obyektiv qiymətləndirmək imkanı verir.

Azərbaycan dili dərslərində layihə əsaslı fəaliyyətin tətbiqinə bir neçə nümunə göstərmək olar. Birinci nümunə, **mətn təhlili və təqdimat layihəsidir**. Bu layihədə şagirdlər müəyyən bir ədəbiyyat nümunəsini oxuyur, onu qısa xülasə şəklində hazırlayır və sinifdə təqdim edirlər. Bu fəaliyyət həm oxu bacarıqlarını artırır, həm də şagirdlərin söz ehtiyatını zənginləşdirir, onlara mətni analiz etməyi və əsas ideyaları çıxarmağı öyrədir **[3].**

İkinci nümunə **yaradıcılıq layihələridir**. "Mənim ailəm", "Mənim sevimli şəhərim" və ya "Mənim sevimli mövsümüm" kimi mövzular üzrə şagirdlər yazı, şeir və ya rəsmlərlə layihələr hazırlayırlar. Bu yanaşma şagirdlərin dil bacarıqlarını praktik fəaliyyətdə tətbiq etməsinə, fikir

və emosiyalarını ifadə etməsinə imkan yaradır. Həmçinin, bu layihələr şagirdlərin yaradıcılıq potensialını üzə çıxarır, onların estetik zövqünü və mədəni şüurunu inkişaf etdirir **[4].**

Üçüncü nümunə **mədəniyyət və dil layihələridir**. Şagirdlər Azərbaycan ədəbiyyatı və mədəniyyətini araşdırır, əldə etdikləri məlumatları təqdim edir, poster, video və ya təqdimat materialları hazırlayırlar. Bu fəaliyyət yalnız dil bacarıqlarını inkişaf etdirməklə kifayətlənmir, həm də şagirdlərin milli mədəniyyətə bağlılığını gücləndirir və onların mədəni şüurunun formalaşmasına töhfə verir **[5].**

Beləliklə, layihə əsaslı fəaliyyətlər Azərbaycan dili dərslərində şagirdlərin həm akademik, həm də sosial-emosional inkişafına əhəmiyyətli töhfə verir. Bu metodik yanaşma şagirdlərin öyrənməyə motivasiyasını artırır, onların fərdi yaradıcılıq bacarıqlarını inkişaf etdirir və müasir təhsil prosesində effektiv öyrənmə strategiyası kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Bell, S. (2010). Project-based learning for the 21st century: Skills for the future. The Clearing House, 83(2), 39–43. https://doi.org/10.1080/00098650903505415
2. Əliyeva, N. (2019). Müasir təhsil texnologiyaları və layihə əsaslı öyrənmə. Sumqayıt Dövlət Universiteti Elmi İşləri, 7(2), 55–62.
3. Hacıyev, R. (2021). Azərbaycan dili dərslərində interaktiv metodların tətbiqi. Bakı: Elm və Təhsil Nəşriyyatı.
4. Larmer, J., & Mergendoller, J. R. (2010). 7 essentials for project-based learning. Educational Leadership, 68(1), 34–37.
5. Thomas, J. W. (2000). A review of research on project-based learning. Autodesk Foundation.

ORGANIZATION OF PROJECT-BASED ACTIVITIES IN AZERBAIJAN LANGUAGE LESSONS

Sevinc Hasanova
sevinchesenova273@gmail.com
Sumgayit State University

The modern education system aims not only to increase students' level of knowledge but also to develop their creativity, critical thinking, and cooperation skills. In this context, project-based learning in Azerbaijani language lessons plays an important role in enhancing students' active participation in the learning process. Through project-based activities, students are able to apply their language knowledge in practice, express their ideas more effectively, and develop teamwork skills. The article discusses the main principles of project-based learning and highlights its pedagogical value in language teaching. Particular attention is given to lesson planning, the stages of organizing project work, and the methodological approaches that support student-centred learning. The study emphasizes that project-based methods help improve students' communicative competence, independent thinking, and motivation to learn the Azerbaijani language. As a result, project-based learning contributes to the development of both linguistic and social skills in the educational process.

Keywords: project-based learning, Azerbaijani language, lesson strategies, student activity

İNGİLİS DİLİNDƏ MƏTN ANLAMANIN STRATEGİYALARI

Turanə Güloğlan qızı Məmmədova
t.memmedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İngilis dilində oxunan mətni anlama mətnin xüsusiyyətlərindən, oxucunun əvvəlki biliklərindən və yaddaşından, eləcə də konkret tapşırıq tələblərindən təsirlənən şifahi məlumatı anlamaq və yadda saxlamaq prosesi kimi müəyyən edilir. Bu, həm oxuma prosesi zamanı, həm də anlama nəticəsində formalaşan zehni təsvirlərin araşdırılması yolu ilə qiymətləndirilə bilər **[3].**

Müəllimlər tez-tez model strategiyaları yaratmaq üçün metakognitiv söhbətlərdən və şagirdləri onların tətbiqinə təşviq etmək üçün suallardan istifadə edirlər. İlkin tədrisdən sonra şagirdlər strategiyaları kiçik qruplar, cütlər və ya fərdi şəkildə tətbiq edə bilərlər. Bunun vasitəsilə şagirdlər öz anlayışlarını və anlama strategiyalarından istifadələrini planlaşdırmağı, izləməyi və qiymətləndirməyi öyrənirlər. Bu proses tədrisdən rəhbərlik edilən təcrübəyə, müstəqil təcrübəyə keçməklə şagirdlərin məsuliyyətinin tədricən azad edilməsini təmin edir.

Strategiyalar adi dərslərin bir hissəsi kimi bütün sinfə öyrədilə və sinif müəllimi tərəfindən təqdim edilə bilər. Onlar həmçinin kiçik qruplarda və ya fərdi şəkildə həyata keçirilən xüsusi nəzərdə tutulmuş vasitələrlə də öyrədilə bilər.

Anlama strategiyaları şüurlu şəkildə qurulmuş planlardır, başqa sözlə desək, yaxşı oxucuların mətni anlamaq üçün istifadə etdikləri addımlar toplusudur. Anlama strategiyası təlimatı tələbələrə öz oxuma anlayışlarını idarə edən məqsədyönlü və aktiv oxucular olmağa kömək edir. Aşağıda verilmiş yeddi strategiya mətnin anlaşılmasını yaxşılaşdırmaq üçün tədqiqata əsaslanır **[2].**

1. Anlamanın izlənməsi

Anlamalarını izləməkdə yaxşı olan şagirdlər oxuduqlarını nə vaxt başa düşdüklərini və nə vaxt başa düşmədiklərini bilirlər. Problemlər yarandıqca onların anlama problemlərini "həll etmək" strategiyaları var. Tədqiqatlar göstərir ki, hətta ibtidai siniflərdə bu şəkildə tədris şagirdlərin anlamalarını daha yaxşı izləmələrinə kömək edə bilər.

2. Metakognisiya

Metakognisiyanı "düşünmək haqqında düşünmək" kimi də başa düşmək olar. Yaxşı oxucular oxuduqları barədə düşünmək və onlara nəzarət etmək üçün metakognitiv strategiyalardan istifadə edirlər. Oxumazdan əvvəl oxumaq məqsədlərini aydınlaşdıra və mətnə öncədən baxa bilərlər. Oxu zamanı onlar anlama sürətlərini mətnin çətinliyinə uyğunlaşdıraraq və hər hansı bir anlama problemini "həll edərək" anlamalarını izləyə bilərlər. Oxuduqdan sonra isə oxuduqlarını başa düşdüklərini yoxlayırlar.

3. Qrafik və semantik təsvirlər

Qrafik təsvirlər mətndə anlayışları və anlayışlar arasındakı əlaqələri diaqramlardan istifadə edərək təsvir edirlər. Qrafik təsvirlər xəritələr, şaxələnmiş cədvəllər, diaqramlar, çərçivələr və ya klasterlər kimi müxtəlif adlarla tanınırlar.

Adlandırılmasından asılı olmayaraq, qrafik təsvirlər oxucuların anlayışlara və onların digər konsepsiyalarla necə əlaqəli olduğuna diqqət yetirməsinə kömək edə bilər. Qrafik təsvirlər tələbələrə dərslikləri və şəkilli kitabları oxumağa və anlamağa kömək edir.

4. Suallara cavab vermək

Suallar aşağıdakı səbəblərdən effektiv hesab edilir:

• Tələbələrə oxumaq üçün məqsəd verir
• Tələbələrin diqqətini daha vacib hissələrə yönəldir
• Tələbələrin oxuyarkən aktiv düşünmələrinə kömək edir
• Tələbələri oxuduqlarını anlamağa təşviq edir
• Tələbələrə məzmunu nəzərdən keçirməyə və yeni öyrəndiklərini artıq bildikləri ilə əlaqələndirməyə kömək edir.

Sual-Cavab Əlaqəsi strategiyası (SCƏ) tələbələri suallara daha yaxşı cavab verməyi öyrənməyə təşviq edir. Tələbələrdən mətnlə bağlı sualları cavablandırmaq üçün istifadə etdikləri məlumatların mətn baxımından açıq məlumat (mətndə birbaşa ifadə edilən məlumat), mətn baxımından gizli məlumat (mətndə nəzərdə tutulan məlumat) və ya tamamilə tələbənin öz biliklərindən əldə edilən məlumat olub olmadığını göstərmələri xahiş olunur **[1].**

5. Sualların verilməsi

Suallar yaratmaqla tələbələr suallara cavab verə bilib-bilmədiklərini və oxuduqlarını başa düşüb-düşmədiklərini anlayırlar. Tələbələr özlərinə mətnin müxtəlif seqmentlərindən məlumatları birləşdirməyi tələb edən suallar verməyi öyrənirlər.

6. Hekayə strukturunun tanınması

Hekayə strukturu təlimində tələbələr məzmun kateqoriyalarını (personajlar, mühit, hadisələr, problem, həll yolu) müəyyən etməyi öyrənirlər. Çox vaxt tələbələr hekayə xəritələrindən istifadə etməklə hekayə strukturunu tanımağı öyrənirlər. Hekayə strukturu təlimi tələbələrin anlayışını artırır.

7. Xülasələndirmə

Xülasə etmək tələbələrdən oxuduqlarında nəyin vacib olduğunu müəyyən etmələrini və bunu öz sözləri ilə ifadə etmələrini tələb edir. Xülasə etmək təlimatı tələbələrə aşağıdakı hallarda kömək edir:

- Əsas ideyaları müəyyən etməyə və ya yaratmağa
- Əsas və ya mərkəzi ideyaları birləşdirməyə
- Lazımsız məlumatları aradan qaldırmağa
- Oxuduqlarını yadda saxlamağa

Tədqiqatlar göstərir ki, açıq tədris üsulları anlama strategiyası təlimatı üçün xüsusilə təsirlidir. Açıq təlimatda müəllimlər oxuculara strategiyalardan nə üçün və nə vaxt istifadə etməli olduqlarını, hansı strategiyalardan istifadə edəcəklərini və onları necə tətbiq edəcəklərini izah edirlər.

Effektiv anlama strategiyası təlimi, tələbələrin aydın şəkildə müəyyən edilmiş tapşırıqlar üzərində tərəfdaş kimi və ya kiçik qruplarda birgə işləməsini əhatə edən əməkdaşlıq təlimi vasitəsilə həyata keçirilə bilər. Əməkdaşlıq təlimi anlama strategiyalarını öyrətmək üçün uğurla istifadə edilməkdədir. Şagirdlər mətnləri anlamaq üçün birlikdə çalışırlar, bir-birilərinə anlama strategiyalarını öyrənməyə və tətbiq etməyə kömək edirlər. Müəllimlər tələbələrə qruplarda işləməyi öyrənməyə kömək edirlər və həmçinin anlama strategiyalarının modelləşdirilməsini təmin edirlər.

ƏDƏBİYYAT

1. Adapted from Adler, C.R. (Ed). 2001. Put Reading First: The Research Building Blocks for Teaching Children to Read, pp. 49-54. National Institute for Literacy. Retrieved Nov. 1, 2007, from http://www.nifl.gov/partnershipforreading/publications/reading_first1text.html.
2. https://educationendowmentfoundation.org.uk/education-evidence/teaching-learning-toolkit/reading-comprehension-strategies
3. https://www.readingrockets.org/topics/comprehension/articles/seven-strategies-teach-students-text-comprehension

STRATEGİES FOR TEXT COMPREHENSİON İN ENGLİSH

Turana Guloghlan Mammadova
t.memmedova@atu.edu.az
Azerbaijan Technological University

The article describes main methodologies strategies for reading texts and comprehension of them. Teachers often use metacognitive talk to model strategies and use questioning to encourage pupils to apply them. Strategies can be taught to the whole class as part of usual lessons and delivered by the class teacher. They can also be taught through targeted interventions delivered in small groups or one to one.

Keywords: text comprehension, strategies, metacognition, summarising, generating questions

ALİ TƏHSİLDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏDRİSİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Güllü Şahin qızı Çərkəzli
gullu.charkazli@khazar.org
Gəncə Dövlət Universiteti

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrinə təsir göstərmişdir. Ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi tədris prosesinin səmərəliliyinin artırılması və yeni pedaqoji

yanaşmaların formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir **[1].** Elektron platformalar, onlayn kurslar və rəqəmsal kitabxanalar tələbələrin informasiya resurslarına çıxışını genişləndirir və biliklərin mənimsənilməsini effektiv edir **[2].**

ALİ TƏHSİLDƏ İKT-NİN ELMİ-NƏZƏRİ ƏSASLARI

İKT informasiyanın toplanması, emalı, saxlanması və ötürülməsi üçün istifadə olunan texniki və proqram vasitələrinin məcmusunu əhatə edir. Bu texnologiyaların tətbiqi tədris prosesinin daha çevik və effektiv təşkilinə imkan verir **[3].** Ali təhsil müəssisələrində İKT tədris materiallarının hazırlanması, distant və hibrid təhsil modellərinin tətbiqi, tələbələrin biliklərinin qiymətləndirilməsi və müəllim-tələbə arasında interaktiv əlaqənin qurulmasında istifadə olunur **[4].**

İKT-NİN TƏDRİS KEYFİYYƏTİNƏ TƏSİRİ

İKT-nin tədris prosesinə inteqrasiyası təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir. Multimedia vasitələri, interaktiv təqdimatlar və elektron platformalar dərs prosesinin daha maraqlı və dinamik təşkilinə imkan yaradır **[5].** Müxtəlif elektron resurslar tələbələrin fərdi öyrənmə xüsusiyyətlərinə uyğun fərqli tədris materialları təqdim etməyə imkan verir.

ELEKTRON TƏHSİL MÜHİTİNDƏ MÜƏLLİM VƏ TƏLƏBƏNİN ROLU

Müəllim yalnız bilik ötürən deyil, həm də tədris prosesini istiqamətləndirən və tələbələrin fəaliyyətini dəstəkləyən fasilitator rolunu yerinə yetirir. Tələbələr müxtəlif elektron resurslardan istifadə edərək məlumatları təhlil edir və praktik fəaliyyətlərdə biliklərini tətbiq edirlər **[6].**

İKT-NİN TƏTBİQİ ZAMANI MÖVCUD ÇƏTİNLİKLƏR

Ali təhsil müəssisələrində İKT-nin tətbiqi müəyyən problemlərlə də müşayiət olunur. Bunlara texniki infrastrukturun kifayət qədər inkişaf etməməsi, müəllimlərin rəqəmsal bacarıqlarının fərqli səviyyədə olması və elektron resursların məhdudluğu daxildir. Bu problemlərin həlli üçün texniki təminatın gücləndirilməsi və müəllimlərin rəqəmsal bacarıqlarının artırılması xüsusi əhəmiyyət kəsb edir **[7].**

NƏTİCƏ. İKT-nin tətbiqi tədrisin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Tələbələrin motivasiyası artır, müstəqil öyrənmə bacarıqları inkişaf edir və tədris prosesinin səmərəliliyi yüksəlir. Ali təhsil müəssisələrində rəqəmsal təhsil mühitinin genişləndirilməsi və İKT-nin tətbiqi təhsilin inkişafında əsas istiqamətlərdən biridir **[8].**

ƏDƏBİYYAT

1. Əliyev Ş. Təhsil sistemində innovativ texnologiyalar. Bakı, 2018.
2. Hüseynov R. Ali təhsildə rəqəmsal texnologiyaların tətbiqi. Bakı, 2020.
3. Məmmədova A. Elektron təhsil və tələbə fəaliyyəti. Bakı, 2021.
4. Bates T. Teaching in a Digital Age. Vancouver, 2019.
5. Laudon K., Laudon J. Management Information Systems. Pearson, 2020.
6. Turban E., Volonino L. Information Technology for Management. Wiley, 2018.
7. Johnson D. E-Learning and Educational Technology. London, 2021.
8. Smith A. Digital Learning in Higher Education. New York, 2020.

THE IMPACT OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES ON THE QUALITY OF TEACHING IN HIGHER EDUCATION

Gullu Cherkezli
gullu.charkazli@khazar.org
Ganja State University

The integration of information and communication technologies (ICT) into higher education has substantially enhanced the organization, efficiency, and quality of the teaching and learning process. Digital platforms and e-learning resources expand access to educational materials while fostering interactive and collaborative learning environments. The implementation of ICT also positively impacts students' motivation, analytical thinking, and capacity for independent learning. This study demonstrates that the systematic incorporation of ICT into higher education not only improves teaching quality but also facilitates the development of a modern, technology-driven educational environment.

Keywords: ICT, higher education, teaching quality, digital learning, e-education

BEŞİNCİ SƏNAYE İNQİLABININ TƏHSİL SİSTEMİNƏ ADAPTASİYASI VƏ ELMLƏ QARŞILIQLI ƏLAQƏSİ

Aysel Şəhriyar qızı İsmayılzadə
a.ismayilzade@atu.edu.az
İsrayıl Famil oğlu İsmayılov
Ismayilov750@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Birinci Sənaye İnqilabı mexanikləşdirmənin başlanğıcını və əl istehsalından maşın əsaslı istehsala keçidi qeyd etdi. Buxar enerjisinin tətbiqi fabrik istehsalında inqilab etdi və insan və ya maşın əməyinə əsaslanan prosesləri avtomatlaşdırmağa imkan verdi.

Buxar Gücü: Ceyms Vatın 1769-cu ildə toxuculuq fabriklərində və digər sənayelərdə məhsuldarlığı kəskin şəkildə artıran mühərrikli maşınlarda buxar mühərriki ixtirası **[1].**

Mexanikləşdirmə: Əyirmə maşını (1764) və mexaniki dəzgah (1784) kimi maşınlar bir çox əl işlərini avtomatlaşdırdı **[1].**

Süni intellektin gələcəyi üçün əhəmiyyəti: Birinci Sənaye İnqilabı avtomatlaşdırma konsepsiyasının tətbiqi ilə gələcək texnoloji inkişafın əsasını qoydu. Maşınlar vasitəsilə səmərəliliyin artırılması kimi o dövrdə fabriklərdə inkişaf etdirilən konsepsiyalar sonradan maşınların insan zəkasını təqlid etmək üçün düşünmə və istifadə üsuluna təsir etdi.

İkinci Sənaye İnqilabı sənayeyə elektrik enerjisi və kütləvi istehsal gətirdi. Bu mərhələ istehsalı daha səmərəli və çevik edən elektrik enerjisinin tətbiqi və kütləvi istehsala imkan verən montaj xəttinin inkişafı ilə xarakterizə olunurdu.

Elektrik: Elektrik maşın və alətlərinin tətbiqi istehsal proseslərinin səmərəliliyini və çevikliyini artırdı.

Montaj Xətti İstehsalı: 1913-cü ildə Henri Ford istehsal sürətini əhəmiyyətli dərəcədə artıran və xərcləri azaltan montaj xəttini təqdim etdi.

Rabitə Texnologiyası: Telefonun ixtirası (1876) rabitədə inqilab etdi və müasir məlumat ötürülməsinin əsasını qoydu.

Süni intellektin gələcəyi üçün əhəmiyyəti: Bu inqilab avtomatlaşdırma və məlumatların emalı imkanlarını genişləndirdi. Elektrik maşınlarının və kütləvi istehsalın tətbiqi süni intellektin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən kompüter texnologiyası və məlumatların avtomatlaşdırılmış emalı sahəsində sonrakı inkişaflar üçün zəmin yaratdı. Rəqəmsal İnqilab kimi də tanınan "Üçüncü Sənaye İnqilabı" texnologiya tarixində dönüş nöqtəsi oldu. Bu mərhələ kompüterlərin və informasiya texnologiyalarının inkişafı və istifadəsi ilə xarakterizə olunurdu. Bu, rəqəmsal sistemlərin tətbiqinə və süni intellektə doğru ilk addımlara səbəb oldu.

Kompüter texnologiyası: Mürəkkəb hesablamalar və məlumatların işlənməsini təmin edən güclü kompüterlərin və proqram proqramlarının inkişafı.

Rəqəmsal rabitə [2]: Qlobal məlumat mübadiləsinə imkan verən internetin tətbiqi (ARPANET, 1969).

Süni intellektin tətbiqi (1956): "Süni intellekt" **[2]** termini ilk dəfə Dartmut konfransında istifadə edilmişdir. Tədqiqatçılar insanlar kimi öyrənə, düşünə və problemləri həll edə bilən maşınlar hazırlamağa başladılar.

Süni intellekt üçün əhəmiyyət: Rəqəmsal İnqilab müasir süni intellekt üçün başlanğıc nöqtəsi idi. Maşınların "düşünə" bilməsi ideyası ilk dəfə ciddi şəkildə araşdırıldı. 1960 və 1970-ci illərdə kompüterlərin və alqoritmlərin inkişafı indi bir çox süni intellekt tətbiqinin mərkəzində olan maşın öyrənməsi və verilənlərə əsaslanan qərar qəbuletmə proseslərinin əsasını qoydu.

Sənaye 4.0 kimi tanınan dördüncü sənaye inqilabı rəqəmsal və fiziki sistemləri birləşdirdi. Bu mərhələ Əşyaların İnterneti (IoT) vasitəsilə cihazların və maşınların şəbəkələşdirilməsini və məlumatlara əsaslanan qərarların qəbulu üçün böyük verilənlərin istifadəsini təmin etdi.

Əşyaların İnterneti (IoT): Real vaxt rejimində məlumatların toplanması və təhlili üçün maşın və cihazların şəbəkələşməsi **[2].**

Big Data: Məlumatlı biznes qərarları qəbul etmək üçün böyük məlumat dəstlərinin təhlili[2].

Süni intellekt: real vaxt rejimində proseslərin avtomatlaşdırılması və optimallaşdırılması üçün süni iSüni intellekt üçün təsirlər: Sənaye 4.0 süni intellektin geniş miqyasda tətbiqinə imkan verdi. Kütləvi məlumatların işlənməsi və ondan anlayışlar əldə etmək qabiliyyəti istehsal, logistika və müştəri xidməti kimi müxtəlif sahələrdə AI-nin inkişafını və istifadəsini sürətləndirdi.

Beşinci sənaye inqilabı, Sənaye 5.0, insan-maşın əməkdaşlığına diqqət yetirir və AI və davamlı texnologiyalara əsaslanır. Bu mərhələ fərdiləşdirməni və insanlar və ağıllı maşınlar arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsini vurğulayır.

İnsan-maşın əməkdaşlığı: Robotlar və AI sistemləri prosesləri təkmilləşdirmək üçün insanlarla sıx əməkdaşlıq edir.

Fərdiləşdirilmiş süni intellekt həlləri: AI fərdiləşdirilmiş məhsul və xidmətləri inkişaf etdirmək üçün istifadə olunur.

Davamlılıq: AI enerji istehlakını və resurs istifadəsini optimallaşdırmaq üçün istifadə olunur.

Hər bir sənaye inqilabı yeni imkanlar yaratdı və nəticədə bugünkü süni intellekt tətbiqlərinin əsasını qoydu. Süni intellektin inkişafı davamlı texnoloji innovasiyaların və insanlar və maşınlar arasında getdikcə daha sıx əməkdaşlığın nəticəsidir ki, bu da gələcəyimizi formalaşdırmağa davam edəcəkdir **[3].**

LITERATURE

1. https://www.aiteachercourse.com/blog/discovering-the-promise-of-the-fifth-industrial-revolution-in-education
2. https://www.sciencedirect.com/science/article/pii/S0022435922000288
3. https://www.mdpi.com/2075-4698/14/2/19

ADAPTATION OF THE FIFTH INDUSTRIAL REVOLUTION TO THE EDUCATION SYSTEM AND ITS MUTUAL RELATION WITH SCIENCE

Aysel Shakhriyar Ismayilzade
a.ismayilzade@atu.edu.az
Israyil Famil Ismayilov
Ismayilov750@gmail.com
Azerbaijan University of Technology

Since the introduction of the term "artificial intelligence" in 1956, AI has played a central role in technological development, evolving alongside successive industrial revolutions. Each stage of industrial transformation—from the mechanization of Industry 1.0 to the digital and cyber-physical systems of Industry 4.0 and 5.0—has created new opportunities and laid the foundation for the sophisticated AI applications we see today.

Key Words: artificial intelligence, modern applications, development of artificial intelligence, technological innovation

TERMINOLOGY AND COMMUNICATION IN INTERNATIONAL LOGISTICS: CHALLENGES AND TEACHING STRATEGIES

Gulnar Vasif Rzayeva
gulnar.rzayeva@list.ru
Azerbaijan Technological University

In the field of international logistics, the ability to communicate effectively in English is of paramount importance. This necessity is обусловлена the global nature of the industry, where professionals must interact with partners, clients, and regulatory authorities from different countries, obtain information from primary sources for analysis, and apply international best practices at the national level. Studying English for the specialization "International Logistics" involves covering topics shaped by changing conditions of international interaction and requires the combination of various teaching methodologies.

In the vocabulary of the logistics sphere, a constant lexical component (customs terminology, means of customs control, customs-economic terminology in the field of customs, customs-legal and legislative terminology) and a variable lexical component (sociopolitical vocabulary, cultural-historical vocabulary, names of international organizations, chemical substances, names of narcotics, toponyms, anthroponyms) can be distinguished. Many logistics terms have no direct equivalents in other languages, which complicates the translation process and requires careful attention to context. For example, the term piggyback transport can be accurately translated into Azerbaijani as "kontreyler daşımaları (piggyback)," and cross-docking as "çarpaz emal" or "çarpaz yükləmə", according to the WIPO Pearl system developed for accumulating translation terminology in various professional fields.

English serves as the lingua franca of international business, making it indispensable for logistics professionals. One of the main challenges is mastering professional vocabulary specific to this field. Topics such as *intermodal transport* and *just-in-time logistics* are essential for translation. Terms such as *Advanced Shipment Notice (ASN)*, *backorder*, *bilateral contract*, and *PL logistics (fifth-party logistics)* are necessary for the effective implementation of logistics and customs operations in modern conditions. Students often face difficulties in learning these terms due to their specificity and the absence of direct equivalents. For instance, studying the topic of *customs clearance* includes not only vocabulary but also customs procedures and regulations. The use of interactive teaching methods, including practical exercises simulating real-life scenarios, helps students master these topics. In language training for specialists, it is also important to consider the characteristics of teaching international students with different levels of English proficiency. In the field of customs studies, blended and flipped learning methods can be applied when studying ESP, shifting the emphasis and changing the order of independent and classroom work.

Effective communication in this area often requires an understanding of cultural nuances and business etiquette. To prepare students for international interactions, it is essential to include in the curriculum the translation of realia and national specifics of logistics activities. This helps students more effectively identify economic ties at national and international levels, understand the significance of the national economy, and develop intercultural communication skills in English, thereby fostering strong relationships with partners and clients from different cultures. To achieve a comprehensive approach to teaching English for international logistics, other effective teaching methodologies can also be applied. The corpus-based approach, which involves analyzing authentic logistics texts to identify common phrases and usage patterns, provides students with a deeper understanding of professional language contexts. This makes learning more relevant and practice-oriented.

The use of contextual translation tools allows students to familiarize themselves with authentic texts and, under time constraints in academic classes, helps them understand professional language usage. Practical analysis of business and logistics documentation is also effective in teaching English for logistics, providing students with valuable hands-on experience. An integrated curriculum combining language learning with logistics education can be particularly beneficial. Such a comprehensive program, including both theoretical and practical components, ensures not only language acquisition but also an understanding of its application in logistics. New logistics topics require careful selection of materials in terms of political correctness and factual accuracy, relying on up-to-date terminology from authentic sources:

Integrating language study with subject-specific instruction enables educators to provide holistic education, preparing students for the demands of the logistics industry.

When discussing current topics in English for logistics, supply chain management becomes a critical area requiring specialized language skills. Topics such as inventory management, transportation, and warehousing are essential components of the curriculum. New relevant terms require authentic contextualization, methodological development, and scenario-based tasks:

Swap-body — *interchangeable container body*
Short-sea connection — *short sea shipping*
Customs Information Systems (CIS) — *customs information exchange systems*
Opt for complete outsourcing
Track gauge changes — *railway gauge change*
IATA (International Air Transport Association)
ISO (International Organization for Standardization)
Spare parts logistics

Knowledge of these terms is crucial for effective logistics flow management. Understanding international customs terminology is also vital. Topics such as import/export regulations, documentation, and compliance are covered, ensuring smooth cross-border goods movement.The integration of technology into logistics is another important topic. The study of logistics software and automated systems is increasingly relevant. Mastering terminology such as *failure-free*, *unmanned aerial vehicle (drone)*, and *IoT (Internet of Things)* helps students remain competitive in the labor market.Learning customs-specific terminology is essential. Terms such as *duty drawback*, *bonded warehouse*, and *tariff classification* are frequently used in customs documentation. Understanding regulatory language and international trade agreements prepares students for complex customs procedures [9].

One effective method of teaching English for logistics is role-playing. Students simulate logistics and customs procedures, such as customs clearance, applying appropriate terminology and documentation. This enhances practical language application.Cultural studies also play a vital role. Learning business etiquette and communication styles of different countries helps students navigate intercultural interactions. Task-Based Learning (TBL) methods encourage students to solve practical problems, such as drafting contracts, interpreting transport documents, and managing logistics cases.Authentic materials, including real contracts and customs declarations, enhance students' understanding of professional English. Teaching English for international logistics involves mastering professional vocabulary, contextual understanding, and cultural awareness. Effective teaching methodologies help overcome these challenges, ensuring comprehensive preparation for successful careers in the logistics industry.

LITERATURE

1. Christopher,M.(2016). Logistics and Supply Chain Management. Pearson Education
2. Limited.
3. Hutchinson, T., & Waters, A. (1987). English for Specific Purposes: A Learning-Centred
4. Approach. Cambridge University Press.
5. Bowker, L., & Pearson, J. (2002). Working with Specialized Language: A Practical Guide
6. to Using Corpora. Routledge.
7. Branch, A. E. (2009). Elements of Shipping. Routledge.
8. Richards, J. C., & Rodgers, T. S. (2014). Approaches and Methods in Language
9. Teaching. Cambridge University Press.

TERMINOLOGY AND COMMUNICATION IN INTERNATIONAL LOGISTICS: CHALLENGES AND TEACHING STRATEGIES

Gulnar Vasif Rzayeva
gulnar.rzayeva@list.ru
Azerbaijan Technological University

This article examines the critical role of English proficiency in international logistics, emphasizing the importance of mastering specialized vocabulary, contextual understanding, situational communication, stylistic accuracy, and cultural nuances. It explores effective teaching methods, including corpus-based approaches, specialized applications, and integrated curricula. Key areas of focus include customs clearance, supply chain management, parallel import, customs procedures, intermodal transportation, and technology integration. The study also highlights the significance of regulatory language and communication skills for customs professionals. By addressing these elements, the article offers a comprehensive framework for preparing students for successful careers in international logistics, equipping them to navigate the complexities of the industry effectively.

Keywords: international logistics; teaching methods; contextual understanding; supply chain management; communication skills; regulatory language; professional vocabulary

İNSAN HÜQUQLARININ QORUNMASINDA DÖVLƏTİN ROLU

Aidə Rza qızı Tağıyeva
a.tagiyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

"İnsanlar o vaxt azad ola bilərlər ki,
hökumət azad olmasın"

(Leonardo Levin)

İnsan hüquqlarından danışanda, subyekt, sözsüz ki, insandır.

Hüququn subyekti olmaq müəyyən tələblərin, yəni nəyisə əldə etmək iddiasının olması deməkdir. Hüquqlar strukturunun birinci elementi dedikdə subyektin iddiası başa düşülür. Əgər onu insan hüquqları ilə bağlasaq, onda bu, insanın müəyyən azadlıqlara, müdafiəyə və ya müəyyən nemətlərə nail olmaq iddiasıdır.

Əgər iddialar mövcuddursa, onda haqlı olaraq düşünə bilərik ki, bu nemətləri əldə etmək imkanları da olmalıdır. İmkanlar dedikdə insanın öz iddialarından asılı olaraq müəyyən azadlıqlara, müdafiəyə və nemətlərə nail olması mümkünlüyü başa düşülür. İmkanlar hüquq strukturunun ikinci elementidir.

İnsan hüquqlarının əsas mənbəyi insanın anadangəlmə ləyaqəti sayıla bilər. Bununla belə, hazırda müxtəlif beynəlxalq və milli sənədlər insanın müəyyən azadlıqlar, müdafiə və nemətlər almaq iddialarına hüquqi əsas verir.

Hüququn obyekti hüquq strukturunun sonuncu elementini təşkil edir. Əgər hüquq obyekti yoxdursa, onda subyektin hər hansı bir hüquqa malik olmaq iddiası öz mənasını itirir. Hüquq obyekti hüququn mənbəyi əsasında subyektin iddialarını qəbul etməli və subyektə, onun üçün zəruri olan nemətləri verməlidir.

Yüxarıda deyilənləri ümumiləşdirməklə, insan hüquqlarının aşağıdakı tərifini vermək olar. İnsan hüquqlarına malik olmaq, insanın konkret hüquq səlahiyyətli mənbənin əsasında hüquq obyektindən müəyyən nemətləri almaq iddiasının olması imkanıdır.

Yaxşı, bəs burada hüququn obyekti kimdir? İnsanı cəmiyyətdə müdafiə etmək və qorumaq vəzifəsi kimin ixtiyarına verilir? İnsan hüquqlarına əməl olunması üzrə başlıca məsuliyyət dövlətin üzərinə düşür. Bu məsuliyyər insan hüquqlarına əməl etmək haqqında

dövlətin könüllü olaraq üzərinə götürdüyü öhdəlikdən irəli gəlir. Bu öhdəliyin əhəmiyyəti getdikcə artır. Hazırda açıq şəkildə bu öhdəlikdən imtina edən dövlət tapmaq çətindir.

İnsan hüquqlarına riayət edilməsinə görə dövlətin məsuliyyətinin üç əsas tərkib hissəsini hörmət, müdafiə və bu cür hüquqların verilməsi öhdəlikləri təşkil edir.

Əgər dövlət insanın əsas hüquq və azadlıqlarının müdafiəsi üçün bütün zəruri addımları atmaqdan imtina edirsə, bu halda insana onun hüquqlarını vermək öhdəliyinin pozulması baş verir. İnsan hüquqlarına əməl olunması sahəsində başlıca məsuliyyətin dövlətin üzərinə qoyulması qanunauyğundur. Çünki, hər bir insanın hüquq və azadlıqlarının həyata keçirilməsi imkanı daha çox dövlətə məxsusdur. Belə ki, hər bir insanın ləyaqətlə və layiqincə yaşamaq imkanına təsir edə bilən bütün qaydaların formalaşdırılması məhz dövlətdən asılıdır.

Müasir dünyada çağdaş və gələcək nəsillərin insan hüquqlarının qorunmasında dövlət və ictimai təşkilatlarla yanaşı, beynəlxalq şirkətlərin-transmilli korporasiyaların (TMK) da rolu artmaqdadır. TMK-lar milli dövlətlərin hüdudlarından kənara cıxan iqtisadi qurumlardır və son 30-40 ildə xüsusilə inkişaf etmişlər. Bu nəhəng şirkətlərin imkanları bir çox hallarda inkişaf edən ölkələrin maliyyə və texnoloji imkanlarını kölgədə qoyur. TMK-lar, bir qayda olaraq, fəaliyyət göstərdiyi ölkələrdə həm dövlət qurumları və vətəndaş cəmiyyəti ilə yanaşı, həm də onun bir hissəsi olan ictimai təşkilatlarla sıx əlaqə qurur. Aydındır ki, hər hansı TMK, yaxud ayrıca şirkət dövlətin öhdəsində olan vəzifələri və ya ictimai təşkilatların insan hüquqları ilə əlaqədar öhdəliklərini öz üzərinə götürə bilməz. TMK-lar insan hüquqlarına dair dövlət və qeyri-dövlət təşkilatları və ictimaiyyət ilə əməkdaşlıq edirlər və bu əməkdaşlıq korporativ siyasət adlı sənədə əsaslanır. Müasir dövrdə hər bir TMK belə siyasətin işlənilməsini və onun şəffaf şəkildə həyata keçirilməsini təmin etməkdədir. İnsan hüquqlarının qorunması bu siyasətin ayrılmaz bir hissəsidir. İnsan hüquqları yalnız siyasi və ya layiqli əmək hüququ ilə məhdudlaşdırılmır. TMK-ların korporativ siyasəti, eyni zamanda gələcək nəsillərin ən mühüm insan hüquqlarından olan ətraf mühitin qorunmasını və insanların əlverişli təbii mühitdə yaşama hüququnu da nəzərdə tutur.

İnsan hüquqlarının həyata keçirilməsində mühüm əhəmiyyət daşıyan sosial mühitin, yəni yaşayış üçün əlverişli şəraitin yaradılması korporativ siyasətin ayrılmaz bir hissəsidir və insan hüquqlarının təmin edilməsində mühüm rol oynayır. Korporativ siyasətin bu bölməsi sosial məsuliyyətli fəaliyətə aiddir. Sosial məsuliyyətli fəaliyyət anlayışı TMK-ların korporativ siyasətinə son illərdə daxil edilmişdir və insan hüquqlarının həyata keçirilməsi ilə sıx əlaqədardır. Sosial məsuliyyətli fəaliyyətin məqsədi həm TMK-nın daxilində, həm də ondan kənarda yüksək yaşayış standartlarına nail olmaqdır. Bu məqsədləri həyata keçirərkən sosial məqsədlər, yəni insanların həyat standartlarının yaxşılaşdırılması gəlir götürməkdən üstün tutulur. Qeyd etmək lazımdır ki, ölkəmizdə neft strategiyasının həyata keçirilməsində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təbii və sosial mühitin yaxşılaşdırılmasına yönəldilmiş bir sıra uğurlu layihələr həyata keçirmişlər. Şirkətdə iştirak payı bütün şirkətlərdən çox (33%) olan BP və onun tərəfdaşları bu istiqamətdə fəaliyyətlərini davam etdirirlər.

TMK-ların fəaliyyətinin korporativ siyasət çərçivəsində aparılmasına və sosial məsuliyyətli olmasına baxmayaraq, bəzi hallarda onların fəaliyyət göstərən layihələri çərçivəsində də insan hüquqlarının pozulma ehtimalı mövcuddur. Bunların qarşısını almaq üçün TMK və onların təmsilçiləri ilə əmək müqavilələri bağlanan zaman insan hüquqlarının pozulma ehtimalı yaradan bütün bəndlər aradan götürülməlidir.

TMK-ların insan potensialının inkişafında oynadığı rol da böyük ola bilər. Korporasiyaların ölkələrə gətirdiyi rol da böyük ola bilər. Korporasiyaların ölkələrə gətirdiyi yeni bilik və bacarıqlar, müasir texnologiyalar və idarəetmə üsulları da sosial məsuliyyətli fəaliyyətin və davamlı inkişafın vacib amillərindəndir.

Dünya ölkələrinin əksəriyyətində insan hüquqları dövlət və beynəlxalq qanunvericiliyi ilə qorunur. Azərbaycan Respublikası Konstitusiyası təsbit edir ki, hər bir şəxsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Göründüyü kimi, burada hüquq və azadlıqları əhatə edən üç mühüm anlayış öz əksini tapmışdır. Hüquq və azadlıqların toxunulmaz olması dedikdə humanizm və ədaləti özündə əks etdirən insanlıq və əxlaqın əldə etdikləri dəyərlər əsasında insanın mənəviyyatını və şərəfini qoruyan amillər başa düşülür. Hüquq və azadlıqların "pozulmaz" olması anlayışı qanunla müəyyən edilmiş hüquq və azadlıqların hər hansı hüquqa zidd, qanunsuz hərəkət nəticəsində pozulmasının yolverilməz olduğunu əks etdirir. Hüquq və azdlıqların "ayrılmaz" olması anlayışı isə heç bir ayrı-seçkiliyə yol verməməklə ölkədə yaşayan insanların bərabər hüquqlarının mövcudluğu, qanun qarşısında bərabərlik kimi başa düşülməlidir.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir (24-cü maddə). Konstitusiya, habelə insan hüquqlarının məhkəmədə müdafiəsinə (60-cı maddə) və hüquqi yardım almaq hüququna (61-ci maddə) təminat verir.

Konstitusiyanın insan hüquqları və azadlıqlarına dair nəzərdə tutduğu bütün müddəalar qanun tərəfindən dolğunluqla qorunur və müdafiə edilir. Eyni zamanda Konstitusiya, hüquq və azadlıqları insanların cəmiyyət qarşısındakı borc və vəzifələrindən təcrid olunmuş halda təsəvvür etmir. Belə ki, Konstitusiyada göstərilir ki, "Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir". Bu, o deməkdir ki, hər bir kəs öz hüquq və azadlıqlarından dolğun və sərbəst istifadə etməklə yanaşı, cəmiyyət və insanlar qarşısında öz borcunu yaddan çıxarmamalıdır. Hər bir şəxs öz hüquq və azadlıqlarından irəli gələn hər hansı vəzifəni yerinə yetirməlidir.

THE ROLE OF THE STATE IN THE PROTECTION OF HUMAN RIGHTS

Aida Rza Taghiyeva
a.tagiyeva@atu.edu.az
Azerbaijan Technological University

The article examines the internal structure of human rights within the framework of the subject's claims, legal opportunities, and the object of law. The study identifies inherent human dignity as the fundamental source of human rights and analyzes the state's primary responsibility in guaranteeing these rights through its obligations to respect, protect, and fulfill them. In addition, the research evaluates the role of transnational corporations (TNCs) in safeguarding human rights, particularly in the area of environmental protection. This role is considered within the framework of corporate policy and the principles of social responsibility, which have become essential requirements in the modern globalized world. The final part of the article analyzes the guarantees established by the Constitution of the Republic of Azerbaijan concerning the principles of the inviolability, inalienability, and indestructibility of human rights, as well as the unity of rights and duties. **Keywords:** human, law, constitution, right

XARİCİ DİL DƏRSLƏRİNDƏ TƏLƏBƏLƏRİN FONETİK VƏ TƏLƏFFÜZ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Rəna Azər qızı Həşimova
renaguseynova1@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Xarici dilin tədrisi prosesində müəllimlər öyrənilən dilin tələffüz və fonetik xüsusiyyətlərinə xüsusi diqqət yetirməlidirlər. Tələbələrdə effektiv ünsiyyət bacarıqlarının formalaşdırılması onların nitqinin aydın, başadüşülən və ünsiyyətin mövzusuna və situasiyasına uyğun olmasını tələb edir. Bu isə həm düzgün tələffüzün, həm də intonasiyanın nitqin məqsədinə uyğun şəkildə istifadəsini zəruri edir.

Xarici dilin tədrisi zamanı müəllimin əsas vəzifələrindən biri tələbələrdə öyrənilən dilin səslərini və səs birləşmələrini düzgün tələffüz etmək bacarıqlarını formalaşdırmaq və möhkəmləndirməkdir. Müəllim tələbələrin müxtəlif səsləri düzgün tələffüz etməsinə nəzarət

etməli, həmçinin səs fərqlərinin sözün mənasına təsir etdiyi hallara xüsusi diqqət yetirməlidir. Məsələn, ingilis dilində *fit* /ɪ/ və *feet* /iː/ sözlərində səslərin fərqli tələffüzü sözün mənasını dəyişdirir **[4].**

Bundan əlavə, tələbələr fonetik qaydaları da mənimsəməlidirlər. Məsələn, ingilis dilində sadə keçmiş zaman şəkilçisi olan *-ed* sonluğunun müxtəlif tələffüz variantları mövcuddur və tələbələr bu qaydaları şifahi nitqdə düzgün tətbiq etməyi öyrənməlidirlər.

Eyni zamanda, ingilis dilinin özünəməxsus ritmi və vurğu sistemi də xüsusi əhəmiyyət kəsb edir. Yeni leksikanın izahı zamanı müəllim sözlərdə və cümlələrdə düzgün vurğunu qeyd etməlidir. Xarici dil öyrənməsinin ilkin mərhələsində təsdiq və sual cümlələrində intonasiya və vurğunun rolu xüsusilə vacibdir.

İngilis dilində düzgün intonasiyanın öyrədilməsi də xarici dil dərslərinin mühüm mərhələlərindən biridir. Dialoq və monoloq nitqinin inkişafına yönəlmiş dərslərdə müntəzəm olaraq dinləmə məşqlərinin tətbiqi tələbələrə ünsiyyət situasiyasına uyğun intonasiyanı tanımağı, fərqləndirməyi və sonradan öz nitqlərində tətbiq etməyi öyrədir **[2].**

Xarici dildə düzgün tələffüzün öyrədilməsi prosesində müəllimlər aksentin vacibliyi sualı ilə qarşılaşırlar. Başqa sözlə, ingilis dilini öyrənən tələbələrin ana dili danışanları kimi səslənməsi nə dərəcədə vacibdir? Müəyyən bir vurğunun – məsələn, Britaniya və ya Amerika tələffüzünün – mənimsənilməsi tələbələr üçün zəruridir, yoxsa əsas məqsəd anlaşıqlı və düzgün ünsiyyətdir? Bəzi metodistlər hesab edirlər ki, bu məsələdə çox şey tələbələrin şəxsi marağından və onların müasir texnologiyalardan, internet resurslarından və müxtəlif kommunikasiya vasitələrindən istifadə etməklə tələffüzlərini inkişaf etdirmək səylərindən asılıdır.

Müəllimin əsas vəzifəsi tələbələrdə aydın və başa düşülən xarici nitq formalaşdırmaq, onların səmərəli ünsiyyət qurmasına və mümkün anlaşılmazlıqların qarşısını almağa kömək etməkdir. Müxtəlif vurğular isə zamanla, müəyyən mədəni və dil mühitinin təsiri altında təbii şəkildə formalaşa bilər.

Beləliklə, xarici dil dərslərində tələbələrin tələffüz bacarıqlarının inkişafı kommunikativ effektivliyin artırılmasına yönəldilməlidir. Bu məqsədə müxtəlif dinləmə metodları və tədris texnikalarının tətbiqi vasitəsilə nail olmaq mümkündür. Xarici dil dərslərində müəllimin nitqi tələbələr üçün əsas dinləmə mənbələrindən biri olmaqla yanaşı, həm də tələffüz bacarıqlarının formalaşdırılması üçün model rolunu oynayır.

Bununla yanaşı, müəllim yalnız nümunə təqdim etməklə kifayətlənməməli, müəyyən səslərin tələffüzünü izah etməli və müxtəlif nümunələr göstərməlidir. Həm dərs zamanı, həm də müstəqil şəkildə tələbələrin autentik (orijinal) xarici dil materiallarını – audio və video mənbələri – dinləməsi üçün imkanlar yaradılmalıdır.(Kelly, 2000) Bu, tələbələrin ana dili danışanlarının tələffüzünü və intonasiyasını təqlid etməsinə kömək edir.

Qeyd etmək lazımdır ki, tələbələr üçün ən vacib bacarıqlardan biri vizual dəstək olmadan, yəni yalnız eşitmə vasitəsilə müxtəlif səsləri, tembrləri və intonasiya xüsusiyyətlərini qavramaq qabiliyyətinin inkişaf d ki, xarici dil dərslərində tələffüz bacarıqlarının inkişafı yalnız fonetik qaydaların öyrədilməsi ilə məhdudlaşmamalıdır. Müəllim dərs prosesində kommunikativ yanaşmadan istifadə etməli və tələbələrin real ünsiyyət situasiyalarında düzgün tələffüzdən istifadə etməsinə şərait yaratmalıdır. Bu isə tələbələrin dil bacarıqlarının daha effektiv və davamlı inkişafına kömək edir.

ƏDƏBİYYAT

1. Celce-Murcia M., Brinton D., Goodwin J. Teaching Pronunciation: A Course Book and Reference Guide. – Cambridge: Cambridge University Press, 2010.
2. Harmer J. How to Teach English. – London: Pearson Longman, 2007.
3. Kelly G. How to Teach Pronunciation. – London: Longman, 2000.
4. Roach P. English Phonetics and Phonology. – Cambridge: Cambridge University Press, 2009.
5. Gilbert J. Teaching Pronunciation: Using the Prosody Pyramid. – Cambridge: Cambridge University Press, 2008.

DEVELOPING STUDENTS' PHONETIC AND PRONUNCIATION SKILLS IN FOREIGN LANGUAGE CLASSES

Rana Azar Hashimova
Renaguseynova1@gmail.com
Azerbaijan Technological University

The development of correct pronunciation is a fundamental component of foreign language teaching. Accurate articulation, along with appropriate stress, rhythm, and intonation, plays a crucial role in ensuring effective communication. This article examines the importance of teaching pronunciation in foreign language classrooms and emphasizes the teacher's role in fostering students' phonetic competence. Special attention is given to the use of listening activities, authentic materials, and imitation exercises as effective strategies for improving pronunciation skills. The study concludes that systematic and consistent work on pronunciation significantly enhances students' communicative competence as well as their overall language proficiency.

Keywords: foreign language teaching, pronunciation skills, phonetic competence, intonation, stress patterns, listening activities, communicative competence

ŞƏRQİN ƏDƏBİ İNŞASI: XVIII ƏSR İNGİLİS ƏDƏBİYYATINDA EKZOTİZM VƏ TƏNQİDİ REFLEKSİYA

İlahə Yaşar qızı Qurbanova
i.gurbanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

XVIII əsr Britaniya tarixində həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan dönüş nöqtəsi olmuşdur. Bu dövrdə Britaniya imperiyasının coğrafi ekspansiyası, xüsusilə Hindistan və Yaxın Şərqlə ticarət əlaqələrinin genişlənməsi Şərqə olan marağı əhəmiyyətli dərəcədə artırmışdır. 1706-cı ildə "Min bir gecə" nağıllarının ingilis dilinə tərcüməsi Avropa oxucusunda Şərqə dair romantik və mistik təsəvvürləri gücləndirmiş, ədəbi yaradıcılıqda yeni süjet və obrazlar sisteminin formalaşmasına təkan vermişdir. Bu dövr ədəbiyyatında Şərq artıq yalnız uzaq coğrafi məkan kimi deyil, həm də fəlsəfi-metaforik konstruksiya kimi çıxış edirdi. Şərq obrazı bir tərəfdən ekzotik gözəllik, sirr və dəbdəbə ilə əlaqələndirilir, digər tərəfdən isə Qərb cəmiyyətinin problemlərini əks etdirən güzgü funksiyasını yerinə yetirirdi **[1].** Beləliklə, XVIII əsr ingilis ədəbiyyatında Şərq mövzusu ikili – həm estetik, həm də ideoloji mahiyyət daşıyırdı.

"Şərq nağılı" janrının formalaşması və didaktik funksiyası. XVIII əsrdə "Oriental tale" adlandırılan janrın yüksəlişi təsadüfi deyildi. Bu janrın əsas xüsusiyyəti Şərq dekorasiyasından istifadə etməklə əxlaqi-didaktik məzmunun təqdim edilməsidir. Şərq məkanı müəlliflər üçün sərbəst simvolik platforma rolunu oynayırdı. Məsələn, Joseph Addison və Richard Steele kimi esseistlər "The Spectator" jurnalında Şərq motivli hekayələr vasitəsilə əxlaqi prinsipləri təbliğ edirdilər. Bu mətnlərdə Şərq obrazı əksər hallarda müdriklik və mənəvi saflaşma məkanı kimi təqdim olunurdu. Eyni zamanda Samuel Johnson tərəfindən qələmə alınmış The History of Rasselas, Prince of Abissinia əsərində Şərq fəlsəfi-alleqorik çalar alır **[2].** Əsərdə Həbəşistan şahzadəsinin həyatın mənası axtarışı vasitəsilə insanın xoşbəxtlik ideyasının nisbi və dəyişkən olduğu göstərilir. Burada Şərq real coğrafiyadan daha çox universal insan təcrübəsinin simvoluna çevrilir.

Sosial tənqid və "kənar baxış" strategiyası. XVIII əsr ingilis ədəbiyyatında Şərq mövzusu sosial tənqid aləti kimi də mühüm yer tuturdu. Yazıçılar "kənar müşahidəçi" üsulundan istifadə edərək ingilis cəmiyyətini dolayısı ilə tənqid edirdilər. Bu baxımdan Oliver Goldsmith tərəfindən yazılmış The Citizen of the World əsəri xüsusi əhəmiyyət daşıyır. Əsərdə Çinli filosofun məktubları vasitəsilə London cəmiyyətinin riyakarlığı, sosial bərabərsizlik və mənəvi deqradasiya satirik üslubda təsvir olunur. Şərqli obraz burada "rasional və obyektiv müşahidəçi" funksiyasını yerinə yetirir. Bu üsul müəlliflərə açıq siyasi riskə getmədən tənqidi fikirlərini ifadə etməyə imkan verirdi **[3].** Şərq obrazı həm məsafə, həm də estetik maska rolunu oynayaraq Qərb cəmiyyətinin daxili ziddiyyətlərini üzə çıxarırdı.

Ekzotizm, erkən orientalizm və "Özgə" anlayışı. Şərq obrazının romantikləşdirilməsi ilə yanaşı, XVIII əsrdə onu "Özgə" (the Other) kimi təqdim edən diskurs da formalaşmağa başlamışdır. Bu yanaşma sonradan elmi ədəbiyyatda orientalizm anlayışı ilə

əlaqələndirilmişdir. Bir tərəfdən Şərq dəbdəbəli saraylar, sehrli məkanlar və emosional intensivliklə xarakterizə olunur, digər tərəfdən isə despotizm və geriliklə assosiasiya edilirdi. Bu ikili münasibət Britaniya imperiyasının siyasi ambisiyaları ilə sıx bağlı idi. Şərqin "mədəni cəhətdən fərqli və geridə qalmış" kimi təsviri gələcək imperialist ideologiyanın estetik əsaslarını formalaşdırırdı **[4].** Beləliklə, Şərq mövzusu yalnız ədəbi-estetik hadisə deyil, həm də siyasi-mədəni diskursun tərkib hissəsi idi.

Romantizmə keçid və qotik çalarlar. Əsrin sonlarına doğru Şərq mövzusu daha qaranlıq və emosional məzmun kəsb etməyə başladı. Bu transformasiya romantizm estetikasının formalaşması ilə əlaqədardır. William Beckford tərəfindən yazılmış Vathek əsəri bu baxımdan əlamətdardır. Əsərdə Şərq mühiti qotik atmosfer, metafizik qorxu və hədsiz ehtiras fonunda təqdim olunur. "Vathek" XVIII əsrin rasionalist ənənəsindən uzaqlaşaraq romantik subyektivliyə keçidin ədəbi nümunəsi kimi qiymətləndirilə bilər **[5].** Bu istiqamət daha sonra Lord Byron və Thomas Moore kimi romantik şairlərin yaradıcılığında inkişaf etdirilmişdir.

Nəticə. XVIII əsr ingilis ədəbiyyatında Şərq mövzusu çoxqatlı və mürəkkəb estetik hadisədir. O, həm oxucunun fantaziyasını bəsləyən ekzotik məkan, həm də İngiltərə cəmiyyətinin sosial və mənəvi problemlərini işıqlandıran tənqidi mexanizm kimi çıxış etmişdir. Şərq obrazı bu dövrdə həm didaktik alleqoriya, həm satirik maska, həm də erkən orientalizm diskursunun elementi kimi fəaliyyət göstərmişdir. Əsrin sonuna doğru romantik estetikaya inteqrasiya olunaraq emosional və qotik çalarlar qazanmışdır. Beləliklə, XVIII əsr ingilis ədəbiyyatında Şərq mövzusu yalnız ədəbi tendensiya deyil, həm də Britaniya imperiya ideologiyasının və Avropa mədəni özünüdərkinin formalaşmasında mühüm rol oynamış mədəni fenomendir.

ƏDƏBİYYAT

1. Lane, Edward William (trans.). The Thousand and One Nights, Commonly Called the Arabian Nights' Entertainments. London: Charles Knight, 1838–1840.
2. Johnson, Samuel. The History of Rasselas, Prince of Abissinia. London: R. And J. Dodsley, 1759.
3. Goldsmith, Oliver. The Citizen of the World; or, Letters from a Chinese Philosopher Residing in London to His Friends in the East. London: J. Newbery, 1762.
4. Porter, Roy. Enlightenment: Britain and the Creation of the Modern World. London: Penguin Books, 2000.
5. Beckford, William. Vathek. London: J. Johnson, 1786.

THE LITERARY CONSTRUCTION OF THE EAST: EXOTICISM AND CRITICAL REFLECTION IN EIGHTEENTH-CENTURY ENGLISH LITERATURE

Ilaha Yashar Gurbanova
i.gurbanova@atu.edu.az
Azerbaijan Technological University

This article examines the formation and ideological-aesthetic functions of the image of the East in eighteenth-century English literature. The primary objective of the study is to analyze how the East is represented in literary texts both as an exotic and romanticized space and as a medium for socio-philosophical critique of English society. The expansion of the British Empire, the intensification of political and economic relations with Eastern regions, and the translation of Eastern texts into English all contributed to the development of a distinct cultural discourse. This process facilitated the emergence and popularization of the "Oriental tale" genre in eighteenth-century literature. The article further explores representations of the East through the lenses of exoticism, didacticism, satire, and early Orientalism, identifying their role in shaping literary imagination and contributing to the transition toward Romanticism.

Key words: Eighteenth century, English literature, Eastern motif, exoticism, Orientalism, social critique

РЕЧЕВАЯ КУЛЬТУРА КАК ОБЪЕКТ ЛИНГВИСТИЧЕСКОГО АНАЛИЗА: НОРМЫ, СТРУКТУРА И ТИПОЛОГИЯ НОСИТЕЛЕЙ

Хатира Юзасиф Кызы Султан
Khatira@List.ru
Азербайджанский Технологический Университет

Речевая культура является одним из ключевых показателей общего уровня образованности личности и важнейшим элементом функционирования литературного языка. В условиях глобализации и активного развития коммуникационных технологий особую актуальность приобретает проблема соблюдения языковых норм и формирования эффективного речевого поведения. Современная лингвистика рассматривает речевую культуру как сложное и многокомпонентное явление, требующее комплексного анализа.

1. Речевая культура как предмет лингвистического исследования

Речевая культура представляет собой совокупность знаний, умений и навыков, обеспечивающих правильное, точное, уместное и выразительное использование языковых средств в процессе коммуникации. Она изучается в рамках различных лингвистических дисциплин, включая стилистику, социолингвистику и прагмалингвистику.

С научной точки зрения речевая культура охватывает как нормативный аспект языка, так и коммуникативные характеристики речи. Это позволяет рассматривать её не только как систему правил, но и как динамический процесс речевого взаимодействия.

2. Нормативный аспект речевой культуры

Нормативность является центральным компонентом речевой культуры. Она предполагает соблюдение установленных в литературном языке правил, охватывающих орфоэпические, лексические, грамматические и стилистические нормы.

Языковые нормы формируются исторически и закрепляются в словарях и грамматиках. Их соблюдение обеспечивает единство и стабильность литературного языка, а также способствует эффективному взаимопониманию между носителями языка.

Однако в современной коммуникации наблюдается тенденция к вариативности норм, что требует от носителей языка гибкости и умения адаптировать свою речь к различным коммуникативным ситуациям.

3. Структурные компоненты речевой культуры

Речевая культура включает несколько взаимосвязанных компонентов:

Нормативный компонент — знание и соблюдение языковых норм;

Коммуникативный компонент — умение выбирать адекватные языковые средства в зависимости от ситуации общения;

Этический компонент — соблюдение норм речевого этикета;

Эстетический компонент — стремление к выразительности и образности речи.

Совокупность этих компонентов определяет уровень речевой культуры личности и её способность к эффективной коммуникации.

4. Коммуникативная компетенция и языковая личность

Коммуникативная компетенция представляет собой способность человека использовать язык в различных ситуациях общения с учётом социальных, культурных и прагматических факторов. Она тесно связана с понятием языковой личности, под которой понимается совокупность языковых способностей и характеристик индивида.

